AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

(Antologiya)

İKİ KİTABDA

BİRİNCİ KİTAB

AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI

(Antologiya)

İki kitabda
Birinci kitab

XXI YNE

Bakı – 2001

Tərtib edəni: Bəhlul Abdulla
Redaktoru: Cəlal Bəydili
Rəyçi: İsrafil Abbaslı

Azərbaycan şifahi xalq ədəbiyyatı (Antologiya). İki kitabda. Birinci kitab. – B.: XXI – Yeni Nəşrlər Evi, 2001. – 376 s.

Azərbaycan Respublikasının orta və ali məktəb proqramlarında şifahi xalq ədəbiyyatımızın tədrisinə də yer verilmişdir. Ancaq mövcud dərsliklər, əsasən, folklorun nəzəri məsələlərini özündə əks etdirir. Bu səbəb şifahi ədəbiyyatımızın seçmə nümunələrini "Antologiya" şəklində iki kitabda çap olunmasını zəruriləşdirdi.

Birinci kitaba, əsasən, şifahi xalq ədəbiyyatının lirik növləri və uşaq folkloru nümunələri daxil edilmişdir. İkinci kitab isə folklorumuzun seçmə epik nümunələrindən ibarət olacaq.

"Azərbaycan şifahi xalq ədəbiyyatı" (Antologiya) bir vəsait olaraq orta və ali məktəblər üçün nəzərdə tutulmuşdur.

A $\frac{4604000000-35}{080-01}$

© XXI – YNE, 2001.

SÖZ TARİXDİR

Xalqın tarixi varlığı sosial-siyasi amillərlə yanaşı, həm də mənəvi mədəniyyətinin qədimliyi ilə bəlli olur. Mənəvi mədəniyyət deyəndə isə sözsüz, birinci yada düşən, göz qabağına gələn ilkin söz sənəti folklor olur. O folklor ki, yaranıb yayılmasında yurdda, eldə-oboda yaşayan hər fərd, soy, nəsil, ümumilikdə el iştirak edir. Bu da doğrudur ki, folklor bir sıra xalqlarda, bir çox yerlərdə mif qatına bürünərək durub dayanmır, çox-çox xalqlarda, çox-çox məkanlarda isə üstündə möhür-damğasını daşıdığı xalqın tarixi taleyinə qovuşaraq zaman-zaman qabağa getmişdir. Məhz bu qabağagetmədə şifahi xalq ədəbiyyatı cilalanmış, yeni-yeni anlamlar, çalarlar, şəkillər, növ və janrlar qəlibində ərsəyə gəlməyə, bitkinləşməyə bişlamışdır. Amma etiraf edək ki, şifahi xalq ədəbiyyatının bu axardakı səciyyəsi indiyəcən bizdə nəinki gərəyincə araşdırılmamış, olsun ki, deyilən baxımdan vərəvürd, götür-qoy etməyin təfavütünə də varılmamışdır. Yaddan çıxarılıb ki, xalq mənəviyyatının tükənməz sərvətlər xəzinəsi tək dəyərləndirilən folklorun hər sözü tarixdir və yalnız bu tarixi bütövlükdə, qədərincə arayıb-araşdırmaqla xalqın kimliyini tanımaq, dilinin məxsusluğunu, qədimliyini bilmək, həyata baxışını, fəlsəfi düşüncəsini, adət-ənənəsini, ayin-mərasimlərini, istək, amalı yolunda vuruş məqamlarını öyrənmək olar. Əgər biz sözün böyük anlamında yurdsevərlik duyğuları yiyəsi olsaydıq və bu sadalanan yönlərin öyrənilməsi ilə bağlı özümüzü zəhmətə qatlaşdırsaydıq, onda "Azərbaycan tarixi" quraşdırmaq çevrəsində baş girləməz, qeyrət yükünün altına çiyin verib "Azərbaycan xalqının tarixi"ni yazmaq təşəbbüsündə bulunardıq. Və hələ ortaq türk abidələri bir yana, birbaşa özümüzə aid "Kitabi-Dədə Qorqud"a arxalanmaqla soyumuzun islam dinindən çox-çox qabaqkı işgücü ilə tanış ola bilərdik.

Geniş mənada eposdan, lirikadan, xalq dramından, epik ənənədən və bu əsas növlərin çeşidli birləşmələrindən, uzlaşmalarından ibarət olan poetik xalq yaradıcılığının yaranma tarixi çox qədimdir və bəzi hallarda bu qədimliyi müəyyənləşdirmək heç asan da deyil. Belə bir çətinliyin ortaya çıxmasının başlıca səbəbi folklor örnəklərinin yarandığı vaxtlarda yazının olmaması ilə şərtlənir. Amma bu, heç də o demək deyil ki, sözü gedən məsələnin üstündən həmişə sükutla keçilməlidir. Bu məqamda yenə də elə folklorun özü yardımçı olur. Çünki əldə olan bir çox şifahi xalq ədəbiyyatı örnəkləri yarandığı zamanın ovqatını, sosial-siyasi, tarixi hadisələrin iz və əlamətlərini qoruyub özündə yaşadır. Bu incə mətləblərin məhz elə poetik xalq yaradıcılığı örnəkləri əsasında öyrənilməsi, deməli, elə xalqın özünün, dilinin, bütövlükdə tarixinin öyrənilməsi deməkdir.

Misal üçün, qəliblənmiş qafiyə sistemli olması ilə seçilən ovsun nəğmələrindən bir örnəyi gözdən keçirək:

Ağırlığım, uğurluğum
Dağlara, daşlara,
Göydə uçan quşlara,
Qurumuş ağaclara,
Bal verməz arılara,
Deyingən qarılara,
Boz qurddan hay alasan,
Xızırdan pay alasan.
Kamal suyu, camal suyu,
Can sağlığı suyu.

Əvvəla, deyək ki, "Qırxdan çıxarma" mərasimində uşağın başından su axıdıla-axıdıla söylənilən bu ovsun nəğməsində folklor poetikasına uyğun güclü paralellik vardır. Belə ki, sıradan çıxmış və çıxmaqda olan komponentlər (qurumuş ağac, bal verməz arı, deyingən qarı) uğur, əbədi həyat, aydınlıq simvolu sayılanlarla (Boz qurd, Xızır, su) qarşılaşdırılır. İkincisi, burada bizi daha çox özünə çəkən, sözsüz:

Boz qurddan hay alasan,
Xızırdan pay alasan. –

misralarıdır. Əgər bu misralara şübhə ilə baxmasaq, söyləyicinin artırması saymasaq, onda örnəyi Azərbaycan folklorunun ən əski qatları ilə bağlı bilməliyik. Buradakı Boz qurd istəsək də, istəməsək də öz açıq-aydınlığı ilə məşhur Oğuz əsatir-əfsanəsini yada salır...

Atalar sözü və məsəllər şifahi xalq ədəbiyyat xəzinəmizin ən dəyərli inci və gövhərlərindəndir. Yığcamlığı, konkret fikir ifadə etməsi ilə müstəsnalıq təşkil edən bu örnəklərdə xalq dühasının, təfəkkür və düşüncəsinin, həyati təcrübəsinin nəticələri ilə yanaşı, tarixdə üzləşdiyi hadisələr də öz poetik əksini tapır. İki örnəyə diqqət edək:

Ərəb nədi, corab nədi?
Ərəb öldü, qan düşdü.

Vaxtı ilə professor M.H.Təhmasibin də dediyi tək, isti Ərəbistan çöllərindən yurdumuza istilaçı olaraq gələn bədəvi ərəbin burada öz çılpaq ayağına corab geyməsini görməyən, yaxud bir ərəbin öldürülməsi ilə yüzlərlə insanın qətlinə şahid olmayan belə-belə örnəkləri yarada bilməzdi. Deməli, elə bu iki xalq yaradıcılığı örnəyi də Azərbaycan dilinin 7-8-ci yüzilliklərdəki tarixi durumu haqqında olduqca dəyərli təsəvvür yaradır.

Tarixi hadisələri özündə yaşatmaq baxımından dastanlara sığmayan bir həsrət, bir yanğı hissi ifadə edən bayatılar xüsusi səciyyə daşıyır. Bu-

rada istismarçılara nifrət, qürbət diyara düşənlərin vətən həsrəti, dostluq, sədaqət, sevgi motivləri, azad, xoşbəxt həyat uğrunda mübarizə, döyüş hissləri və sairlə birlikdə tarixdə doğrudan-doğruya baş vermiş hadisələr də bədii biçimdə əks olunur. Bayatılar qorunub qalmaları ilə ərəblərin, monqolların Azərbaycanda törətdiklərinə sənəd tək şahidlik edir.

Ərəb gəldi hay verin,
Nə istəsə pay verin,
Aza duran deyillər,
Gətirin tay-tay verin.

Apardı tatar məni,
Qul kimi satar məni,
Yarım vəfalı olsa,
Axtarıb tapar məni.

Apardı Batı məni,
Qul edib satı məni,
Yollar uzun, mən yorğun,
Doğrayır çatı məni.

Bayatılarla şəkilcə, formaca eyni olub, yalnız məzmununa görə seçilən "Vəsfi-hal" örnəklərində də tarixi hadisələrə, tarixi şəxsiyyətlərə tuş gəlmək olur. Belə bir örnək:

Nənəm a qızıl qoyun,
Yollara düzül qoyun,
Şuqayıbdan qalmısan,
Qalasan yüz il qoyun.

Burada "Şuqayıb"dakı Şu qaynaqların verdiyi xəbərə görə, miladdan qabaq dördüncü yüzillikdə yaşamış türk tayfalarından "Qayın" hökmdarı imiş. "Qay" isə o tayfadır ki, "Kitabi-Dədə Qorqud"un lap ilk səhifəsində bu haqda belə deyilir: "Axır zamanda xanlıq geri Qayıya dəgə, kimsə əllərindən almaya, axır zaman olub qiyamət olunca". Yəni nə tövr olursa-olsun son olaraq hakimiyyət Qay tayfasının əlində qalacaq. Və bunu da bilməliyik ki, İsgəndər Zülqərneyin Türküstana qoşun yeritdiyi vaxt türk ordularına həmin bu Şu başçılıq etmişdir. Elə "Şu" dastanı da, əsasən, bu hadisəyə həsr olunmuşdur. Dəyərlidir ki, "Quran"ın "Əl-əraf" surəsində də Şunun adı "Şüeyb" şəklində çəkilir. Tanrı tərəfindən təyin olunmuş peyğəmbər tək təqdim olunan Şüeyb (Şu) burada da çoxlu qoyun sahibidir və Musa peyğəmbər də onun qoyunlarını otarır.

İbtidai təfəkkür çağından başlayaraq həyatın özü bizim əcdadlarımız üçün də ilk sınaq laboratoriyası olmuşdur. Çay, göl kənarındakı ağacların qurumuş budaqlarının sınıb suya düşməsi və batmaması əgər adamlarda qayıq düzəltmək təsəvvürü yaradıbsa, külək, tufan, dondurucu şaxtadan,

vəhşi heyvanların basqınlarından qorunmaq üçün mağaraları daldanacaq bilmələri isə onlarda ağac və daşlardan koma, ev tikmək ehtirası oyatmışdır. Dolanacağı təmin etmək ehtiyacı isə insanları ovçuluq, əkin-biçin ləvazimatları düzəltməyə sövq etmişdir. Bu zaman insanların işin ahənginə uyğun zümzümələri, avazla dedikləri sözlər tədricən əmək nəğmələrinin yaranmasına səbəb olmuşdur. Deməli, biz bu gün çoxsaylı əmək nəğmələrimizi gərəyincə araşdırmaqla əcdadlarımızın ilkin məşğuliyyət, əmək fəaliyyəti tarixini öyrənmiş oluruq.

Xalqımızın əski çağ tarixini daha çox özündə qoruyub yaşadan folklor janrı sınamalardır. Xüsusi səciyyəvi yönləri ilə seçilən sınamalar, hər şeydən qabaq, xalqın düşüncəsini, həyata baxışını, etnoqrafik görüşlərini, adət-ənənə, mərasimlərini izləmək baxımından çox yararlıdır. Bəllidir ki, ilkin təfəkkür çağında çevrəsindəki bir çox məsələlərin mahiyyətində gizlənən suallara cavab tapmaqda, nəticə çıxarmaqda insanlar çətinlik çəkmişlər. Onlar həyatda üzləşdikləri çətinliklirin, əngəllərin səbəbini, əsasən, təbiətdə axtarmış, ayrı-ayrı hadisələr və nəsnələr arasında azacıq bənzəyişə daxili bağlılıq tək baxmışlar. Bu səbəbdən də qarmaqarışıq təbiət intəhasızlığına təsir etmək cəhdi, bununla da arzu-istəyə qovuşmaq ehtirası gözqoyma, müşahidə nəticəsində yaranan sınamaların formalaşmasına yol açmışdır. Elə folklorumuzun arxaik janrlarından olan alqış, dua, qarğışlarda da insanların arzu və istəklərinin həyata keçəcəyinə inam ifadə olunub. Və bunların hər birinin müfəssəl təhlili, hansı görüşlərlə bağlılığının açımı konkret tarixi faktın, tarixi həqiqətin üzə çıxmasına səbəb olur.

Millət və məzhəbindən asılı olmayaraq hər kimsə ömründə üç məqamla üzləşməli olur. O, doğulub böyüyür, ailə qurub nəsil artımının iştirakçısı olur (istisna halları hesaba gətirmirik), nəhayət, cismən yaşayışdan üzülüb dünyasını dəyişir. Və bu üç təkzibolunmazlığın bir sıra yönləri həmişə, hər yerdə, xüsusən ilkin yaşayış çağlarında, insanlara möcüzə tək görünmüşdür. Onlar səbəblə nəticənin qanunauyğunluğunu tam qavramadıqlarından bütün bu sayaq heyrətamizliklərə təəccüblə baxmalı olmuşlar. Amma zamanın irəliləyişi, həyati təcrübənin get-gedə artması insanların şüur və düşüncəsində yeni-yeni cizgilərin də çoxalmasına yol açmışdır. Onlar tuşlaşdıqları nəsnə və olayların arasında artıq müəyyən bir bağlılığın olduğunu yəqin etdiklərindən elə bu bağlılığı da, qeyd etdiyimiz tək, yalnız burada arayıb axtarmağa başlamışlar. Bu axtarışlar, ayrı sözlə, insanların üzləşdikləri təbiət, qismən də cəmiyyət hadisələrinə üstün gəlmək sarıdan gördükləri tədbirlər get-gedə çeşid-çeşid törən – mərasimlərin və onların ayinlərinin, ən vacibi isə nəğmələrinin ortaya çıxması ilə nəticələnmişdir.

Ta əskidən üzü bizə sarı daşıdıqları məna, məzmun xüsusiyyətlərinə görə mərasimlər iki bölgüdə təsnif olunmuşdur: təqvim, yəni mövsüm mərasimləri və ailə-məişət mərasimləri.

Hər bir xalqın həyatı anlaması təcrübəsinin barı tək formalaşan istər mövsüm, istərsə də ailə-məişət mərasimlərinin bir-birinə uyğun, oxşar cizgiləri ilə yanaşı, milli çalarlara bürünən yönləri də çoxdur. Sözsüz, bu

da səbəbsiz deyil. Bəlli olduğu üzrə, hər bir mərasim və bu mərasimin ayini, sözü, nəğməsi aid olduğu xalqın həyatını, yaşayışını, dolanacağını, sosial-siyasi görüşlərini, təbiət və cəmiyyətdə qarşılaşdıqlarına baxışının, münasibətinin ayrı-ayrı məqamlarını dürüst biçimdə ehtiva edir. Bundan savayı, mərasimlərdə, mərasimlərin ayin, nəğmələrində, xalqın keçdiyi tarixi yolun, onun poetik təfəkküru ilə bağlı çox-çox mətləblərin də izləri, əlamətləri qorunub yaşayır.

Mövsüm mərasimləri, sözsüz ki, ilin fəsillərinin konkret çağları ilə ilgili keçirilir. Və mərasimlərdə icra olunan ayinlər, oxunulan nəğmələr zamanın, vaxtın təyinedici faktı fövqünə qalxır. Həm də bu mərasimlər yenə də daha çox əməklə, təsərrüfatla bağlı şəkildə icra olunur. Bunun belə olunmasına aydınlıq gətirmək üçün misallar verməyi gərəkli bilirik. Belə ki, ev tikmək, yurd salmaq və nəslin artması ilə köçəri vərdiş öz yerini tədricən oturaq həyata güzəştə getməli olur. Məskən isə, əsasən, təsərrüfat üçün daha faydalı sayılan münbit torpaqlarda, suya yaxın ərazilərdə salınır. Amma zaman keçdikcə nəslin dolanacağı üçün yararlı əkin sahələri azlıq təşkil edir. Odur ki, ehtiyacın ödənişi üçün bol su qaynaqlarından hələ gərəyincə istifadə etmək səriştəsi az olan əcdadlarımız çay, göl sahillərindən uzaqlarda-dəmyə torpaqlarda əkin-biçinlə məşğul olmaq məcburiyyətində qaldıqda artıq ümidini yağışla bağlamalı olur. İl quraqlıq keçib məhsulun tələf olmaq qorxusu yarandıqda isə adamlar yağış çağırmağa və bu münasibətlə mərasim keçirməyə, ayinlər icra etməyə, nəğmələr oxumağa başlayırlar.

Həmin nəğmələrdən birində deyilir:

Yandı torpaq qupquru,
Suya saldım dupduru,
Yağ yağışım, çoxlu yağ
Çöllər oldu qupquru.

Yaxud, əkin-biçin üçün çox yağması ilə artıq fəlakətə çevrilmiş yağışa qarşı mübarizə bəlgəsi tək adamlar günəşi köməyə çağırmış, "Günəşi dəvət" mərasimi keçirmişlər ki, bu mərasimin də nəğmələri çoxçeşidlidir.

Azərbaycanda qışın bitməsi, yazın başlanması ilə ilgili olan mərasimlərin sayı çoxdur. Ümumilikdə götürsək əski çağlarda ilin bütün fəsillərinə münasibət belə ifadə olunmuşdur:

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı,
Üçü yığıb gətiri,
Üçü vurub dağıdı.

Göründüyü tək, ilin dörd fəslini səciyyələndirən bu örnəkdə qış "yağı", başqa sözlə, düşmən, yaz "cənnət bağı", yay bolluq, firavanlıq, bərəkət gətirən, payız olan-olmazı tükədən adlandırılır. Burada daha dəyərli

olan odur ki, örnəkdə adamlarımızın animist təsəvvürlərə inanmalarının tarixi əks olunmuşdur. Bu yön qışın Böyük çilləsinin başlanğıcında səməni halvası bişirilən zaman söylənilən nəğmədə də özünü qorumuşdur:

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldını badam,
Qoymurlar bir barmağ dadam.
Səməni, bezana gəlmişəm,
Uzana-uzana gəlmişəm.

Qış fəslinin Kiçik çilləsi soyuqluğu, boran, tufanı ilə seçilir. Bu çillənin "Xıdır nəbi" adlanan ilk ongünlüyü, ümumiyyətlə, nəinki fəslin, ilin ən sərt, dondurucu çağı sayılır. Əbəs yerə deyilmir ki, "Xıdır girdi qış girdi, Xıdır çıxdı qış çıxdı".

"Xıdır nəbi" mərasiminə, adətən, çillənin ilk günündən hazırlıq başlanır. Buğda qovrulub əldaşında (kirkirə) qovut çəkilir. Qaynadılmış yumurtalar günəşin, yazın simvolu sayılan qırmızı, sarı, yaşıl rənglərlə boyanılır. İstilik gətirən yeməklər bişirilmək üçün tədarük görülür. "Xıdır nəbi"nin sonuncu gəcəsi, çəkilmiş qovut evin "əl dəyməmiş" küncü, bucağı sayılan yerə, yük dolabının altına qoyulur. Etiqada görə, Xıdır gəlib qovutun üstünə əl basır və öz payını götürür. Yenə də elə inama görə belə olduqda evə bolluq, bərəkət gəlir. Yalnız bundan sonra, əski görüşlərə görə, müqəddəs bilinən bu qovutdan evdəkilər yeyə bilərmiş. Elə qapı-qapı gəzən, bacalardan torba sallayan uşaqlar da:

Xanım, ayağa dursana,
Yük dibinə varsana,
Boşqabı doldursana,
Xıdırı yola salsana, –

oxumaqla məhz həmin qovutdan pay istəyirlər. Əks halda:

Çatma, çatma, çatmaya,
Çatma yerə batmaya,
Xıdır payın kəsənin
Ayağı yerə çatmaya,
Gecə evində yatmaya –

şəklində qarğış söyləyirlər.

Sözsüz, bütün bu ayin və mərasimlər əslində qışın qurtarması, yazın başlanması şərəfinə geniş şəkildə qeyd olunan NOVRUZ-BAHAR bayramına bir hazırlıqdır. Xalqımızın hər il böyük sevinc, fərəh hissi ilə qarşıladığı bayram – yazın başlanmasını bildirən Novruz-bahar bayramı həm də daha çox bu vaxt oxunulan nəğmələrin zənginliyi ilə baxışı çəkir.

Azərbaycan mərasim poeziyasının mühüm bir qismi vacib məişət məsələləri ilə bağlı keçirilən mərasimlərlə əlaqədardir. Buraya, əsasən, insanın dünyaya gəlməsi – doğulması, evlənib ailə qurması, dünyasını dəyişməsi daxildir. Bu mərasimlərlə bağlı nəğmələr də məişət tariximizin ən mühüm öyrənilmə səhifələrindəndir.

Bilavasitə uşağın pərvəriş tapmasında müstəsnalıq təşkil edən yüyrük-beşik nəğmələri də bir çox yöndən baxışı çəkir. Bu nəğmələr yalnız körpəni yatırmaq, əyləndirmək, nazlamaq vasitəsi deyil. Burada valideyn məhəbbəti, körpəyə ümid, inam hissləri ilə yanaşı, real münasibətlərdən doğan bir çox ciddi mətləblər də poetik şəkildə ifadə olunur. Misal üçün:

Oxşasın dilim səni,
Böyütsün elim səni;
Meydanda at oynadan
Bir igid görüm səni –

Yüyrük-beşik nəğməsində uşağın vətəninin, xalqının igid, qəhrəman övladı tək boya-başa çatması istəyindən danışılırsa,

Ay lay-lay, balam lay-lay,
Gözəl-göyçəyim lay-lay,
Qürbət ölkə, yad ölkə
Arxa-köməyim lay-lay

nəğməsində qürbət diyarda, yadlar arasında doğmalar üçün həsrət çəkən bir ananın övladına ümidi, istəyi məhz onun köməyi ilə arzuya qovuşmaq inamı ifadə olunub.

Kitaba daxil edilmiş örnəklərin hamısından bu kiçik həcmli yazıda danışmaq, sözsüz ki, mümkün deyil. Amma gəlin razılaşaq ki, burdakı çoxsaylı nümunələr bütövlükdə bir yandan xalq yaradıcılığımızın mühüm sahəsi ilə tanış olmaq imkanını genişləndirirsə, o biri yandan və daha əsaslı isə sonrakı dövr mənəvi mədəniyyətimizin, eləcə də bu mədəniyyətin ayrılmaz hissələrindən olan yazılı ədəbiyyatımızın hansı qaynaqlara söykənərək inkişaf edib formalaşması barədə müfəssəl təsəvvür yaradır. Bundan savayı, örnəklərdəki görüş və anlayışların doğurduğu qənaət biz Azərbaycan türklərinin də dünyanın ən qədim xalqlarından olmasını söyləməyə haqq qazandırır.

Bəhlul Abdulla
Filologiya elmləri doktoru,
Əməkdar elm xadimi

ƏMƏK NƏĞMƏLƏRİ

HOLAVARLAR

Qara öküz aranda,
Çıxar gün qızaranda.
Xodaq murada çatar,
Torpaqdan bar alanda.

Qaşqa kəlim boz, ala,
Tarlaya saldım yola,
Tay öküzlə iş aşmaz,
Öküz gərək cüt ola.

Dağ döşündə yatana,
Gün gedər ay batana.
Qara öküz qarğıyar
Cütün maçın tutana.

Gün düşdü qar üstünə,
Bağçada bar üstünə,
Tənbəl yatan öküzün
Quşlar qonar üstünə.

Qara kəl gedər işə,
Qorxum var bağrı bişə,
Nola bir bulud kələ
Yağış yağa, nəm düşə.

İrandakı boz öküz,
Qoparıbdı toz öküz,
Alıb yerin canını,
Çıxsın yalan köz, öküz.

Öküz, öküz, xan öküz,
Boynu qızıl qan öküz,
Çək çayırı çəməndən,
Sənə can qurban öküz.

Öküzlər qoşa getdi,
Güc vurdu daşa getdi,
Cütün macı qırıldı,
Zəhmətim boşa getdi.

Qızıl öküzüm yeri,
Qoyma şum qala geri.
İti tərpən, maralım,
Düşmənlər baxır bəri.

Gözlə xoruz banını,
Kəllər işdə sanını.
Cütə getməyən öküz
Yerişindən tanını.

Öküz qıyar canını,
Bilməz qamçı sayını,
Qayış çəkən qaşqa kəl
İş üstündə tanını.

Qara kəl, ilim barı,
De dərdin bilim barı,
Məni mağmın eyləmə
Açılsın dilim barı.

Kotanın xodaqları,
Partlayıb dodaqları.
Qarğayın kotan sınsın
Dincəlsin xodaqları.

Boynunu mən yağlaram,
Yaman közü dağlaram,
Tez çək, maral öküzüm,
Geri qalsan ağlaram.

Öküzüm birdi mənim,
Taleyim kürdü mənim.
İki oldu öküzüm
Qaraçuxam durdu mənim.

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Ölmə, ölmə yazığam
Kölgəndə mən dolanım.

Öküz qayıtdı qaşdan,
Ay allah, saxla daşdan,
Bədnəzər qabaqdadı
Yolunu sal bu başdan.

Dağların enişi var,
Diki var, enişi var.
Cütə gedən öküzün
Özünün yerişi var.

Axşamlar, ay axşamlar,
Axşamlar yanar şamlar,
Hərə evinə gedər
Xodaq harda axşamlar.

Qara kəl asta gedər,
Dolanar, dosta gedər,
Ay qaranlıq gecədə
Hastabahasta gedər.

Öküzlərim naz eylər,
Quyruq bular, toz eylər.
Hər axşam gün batanda
Kövşəndə pərvaz eylər.

İşlək malı öyəllər,
Tənbəlini söyəllər.
Öküz cütə getməsə,
Qaşqasına döyəllər.

Qara kəlim san kedir,
Öküzlərdən yan gedir.
Kecə-kündüz işləyir
Dırnağından qan kedir.

Qara kotan ağırdır,
Öküzlərim yağırdır.
Qarmax tellim çəkməyir
Xınalım da sağırdır.

Qurd sürüdən pay salır,
Çoban dağa hay salır,
Öküz ax-vay deməkdən,
Boyunduruq vay salır.

Çəkən öküz mərd olur,
Çəkməyənə dərd olur.
Tənbəl öküz yiyəsi
Xəcil olur, pərt olur.

Hola dedim düşdü qac,
Köydə oynadı qırmanc.
Öküzlər ota getdi
Qara kəlim qaldı ac.

Heyvanların bəhsi

Qoyun deyir:

Mən heç otdan doymaram,
Payız oldu çörün-çöpün qoymaram,
Hər evi mən yunum ilə bəzərəm,
Allı-güllü xalçalarım var mənim!

Keçi deyir:

Adım Əbdülkərimdi,
Qavala çəkilən mənim dərimdi.
Üç ay qışı ölməm allah kərimdi,
Şeytan-şeytan balalarım var mənim,
Qəlbi-qəlbi qayalarım var mənim!

Camış deyir:

Payız olcaq samanlığı doldurun,
Yaz olanda boyunduruğu yondurun,
Cütə getməsəm, vurun məni öldürün,
Dolu-dolu mərəklərim var mənim,
Buz qatığım, ağ-ağ kərəm var mənim!

Öküz deyir:

Mən yiyəmə nökərəm,
Üç ay qışı tövləsində bekaram,
Yaz olanda çayır-çəmən sökərəm,
Ağlı-qırmızılı buğda əkərəm.
Dolu-dolu xırmanlarım var mənim,
Uca-uca tayalarım var mənim!

İnək deyir:

Mən doğanda mələrəm,
Ahım ilə dağı-daşı dələrəm,
Qurudumu kündə-kündə sərərəm.
Dadlı-dadlı kərələrim var mənim,
Gözəl-közəl balalarım var mənim!

At deyir:

Yel kimi göydə uçaram,
Yollar keçib dağdan-dağa aşaram.
İgidlərlə bir məqamda yaşaram,
Pəhləvanlar kimi yiyəm var mənim,
Saraylara oxşar dəyəm var mənim!

Eşşək deyir:

Mən hamıdan fağıram,
Palçığa düşəndə dağdan ağıram,
Çöldə qalsam mən yiyəmi çağırram.
Kərənaydan yoğun səsim var mənim,
Atlarınan böyük bəhsim var mənim!

Dəvə deyir:

Heç heyvan kötürməz mənim yükümü,
İkid oğlan kərək çəkə ipimi.
Ərəbistan içər mənim südümü,
Uzaq-uzaq mənzillərim var mənim,
Dizləri bərk nəsillərim var mənim!

Qoyun deyər:

Qarnımı doydur, qara quyla məni,

Keçi deyər:

Qarnımı doydur, qora quyla məni.

Əkinçi ilə öküz

Əkinçi:

Sarı öküz, səndən budu diləyim,
Bir günlüyü tamam kərək əkəsən,
İstəmirəm axşamadək çəkəsən,
El töhmətin üstümüzə tökəsən.

Öküz:

Sən havaxtda mənim gördün işimi,
Qoymayırsan dinc saxlayım başımı.
Qoyundan, keçidən ver yoldaşımı,
Gör mən onlar ilə necə çəkərəm.

Əkinçi:

Yaxşı olsan yiyən səni satmazdı,
Yarımçıq zəmidə işi yatmazdı.
Həftədə üç günü mala qatmazdı,
Hər il yarım kəviz toxum əkəsən.

Öküz:

Öküzün yiyəsi olmasın naşı,
Payızda işlədib saxlasın qışı,
Belimə minməsə arvadla kişi,
Boyunduruq altda quş tək səkərəm.

Əkinçi:

Gücə düşüb axır durarsan üzə,
Ay balalı, hardan tuş oldun bizə?
Nə deyim biqeyrət, tənbəl öküzə
Ölüb qurtarasan bizdən bəlkə sən.

Öküz:

Tənbələm, hər nəyəm, günahımdan keç,
Yenə də yaxşını yamanından seç,
Payız əkdiyimi gedib yayda biç,
İndən belə şuma qan-tər tökərəm.

Cütçü nəğməsi

Unluq boşalıb
Neçə zamandı.
Arpa qurtarıb
Süfrə yavandı.
Haylamışam hayıma,
Yetişib harayıma.
Atını çapıb gəlib
Kündəsin yapıb gəlib,
Caddı cavandı,
Kasıba hayandı.
Sarı buğda kəhrəba,
Doldu furqon, araba.
Caddı cavandı,
Qonaq qovandı,
Gəlin boğandı,
Caddı cavandı,
Kasıba hayandı.

Nehrə nəğməsi

Kərəsi at başıca!
Ayranı göz yaşıca!
Artsın bin-bərəkəti
Qırx külfətin aşıca!

Nehrəm gəl ey, nehrəm gəl,
Tərpən gəl ey, tərpən gəl!

Bağda barın eşqinə,
Dağda qarın eşqinə.
Mən sənə əl vurmuşam
İmamların eşqinə.
Nehrəm gəl ey, nehrəm gəl,
Tərpən gəl ey, tərpən gəl!

Çətən-çətən balam var,
Nərgizim var, lalam var.
Əlim amanda qoyma,
Gözü yolda qalan var.
Nehrəm gəl ey, nehrəm gəl,
Tərpən gəl ey, tərpən gəl!

Sarı sünbülüm

Tarlada tər tökərəm,
Hər yaz səni əkərəm.
Hər nazını çəkərəm,
Sarı sünbülüm, sarı,
Sarı sünbülüm, sarı.

Eli, günü bəzərsən,
Gözlər üstə gəzərsən.
Hər gözəldən gözəlsən.
Sarı sünbülüm, sarı,
Sarı sünbülüm, sarı.

Darı, buğda və cütçü

Darı:

Mənə darıcan deyərlər,
Yağ, bal ilə yeyərlər.
Ehtiyatnan götürüb
Gücnən saca sərərlər.

Buğda:

Yastı-yastı yatarsan,
Kol dibində bitərsən,
Məndən sənə qarışmasa,
Palıddan da betərsən.

Cütçü:

Eyvan üstü darıdı,
Sarı buğda sarıdı,
Deyişməyin vaxtı döy
Sacı qoyan qarıdı.

Qurban olum qarısına
Buğdasına, darısına
Xəmir gəlsin ərsinə
Yuxanı yayaq tərsinə.

Əkin, çəltiyi əkin

Ağ çəltiyin iki başı,
Darı onun yoldaşı.
Şitili bir-bir düzün
Arada yoxdu naşı,
Əkin çəltiyi, əkin,
Çəltiyə çəpər çəkin!

Biçini biçər gələr,
Dağ suyu içər gələr.
Hər il biçin vədəsi
Biçini uçar gələr
Əkin çəltiyi əkin,
Çəltiyə çəpər çəkin!

Cütçü gəldi biçinə,
Sarı sünbül içinə.
Bir gün onu tutaydım
Təzə geyim-kecimə.
Əkin çəltiyi, əkin,
Çəltiyə çəpər çəkin!

Dərin nanəni, dərin

Dərin nanəni, dərin,
Sərin nanəni, sərin,
Quruyub gəlsin haya,
Dönüb getməsin zaya.

Nanəni düzdüm yerə,
Tayalar güldü üzə,

Yara namə göndərdim
Doldurdum cama göndərdim.
Xırmanda vurdum taya,
Kölgəsi düşdü çaya.
Neçə aylıq zəhmətim,
Qoymaram getsin zaya.

Dərin, nanəni dərin,
Sərin nanəni, sərin,
Quruyub gəlsin haya,
Dönüb getməsin zaya.

SAYAÇI SÖZLƏRİ

Salaməleyk say bəylər,
Bir-birindən yey bəylər!
Saya gəldi gördünüz,
Salam verdi aldınız.
Alnı təpəl qoç, quzu,
Sayaçıya verdiniz.
Siz sayadan qorxmursuz,
Səfa yurda qonmursuz,
Səfa olsun yurdunuz!
Ulamasın qurdunuz!
Aç getsin avanınız,
Tox gəlsin çobanınız.
Bu saya yaxşı saya,
Həm çeşməyə, həm çaya.
Həm ülkərə, həm aya,
Həm yoxsula, həm baya.
Bu saya kimdən qaldı?
Adəm atadan qaldı.
Adəm ata gələndə,
Qızıl öküz duranda,
Qızıl buğda bitəndə,
Dünya binnət olanda.
Musa çoban olanda
Şişliyimiz erkəçdi.
Onun dördü uludu,
Aşıqlığı qurudu.
Uçası qiymətlidi,
Qabırğası dadlıdı.
Qabırğa içi pərdə,
Salmaz adamı dərdə.
Pərdəsi iki rəngdi,
Böyrək ona dirəkdi,
Altımış arşın bağırsaq,
Bir-birinə ulğaşıq.
Qoyun baxar dağlara,
Sel tək axar dağlara.
Arandan dönən sürü
Yayda çıxar dağlara.

Gözəl keçsin halınız,
Artsın qara malınız.
Avanınız yox olsun
Tox gəllsin çobanınız.

Qoyunun üzü gəldi,
Dolandı düzü gəldi.
Çobanın qucaqında
Bircə cüt quzu gəldi.

Qoyunun üçü gəldi,
Dolandı köçü gəldi.
Sürünün qabağında
Bir ala keçi gəldi.

Nənəm qoyunun kəlini,
Avşara gəlməz yelini.
Onu sağan gəlinin
Xınalayım əlini.

Tut qoyunun belini,
Ələ gəlmir yelini.
Bir doyunca görəydim
Onu sağan gəlini.

Dağları, dərələri,
Daşları, bərələri.
Oturun, qoyun sağın
Bol olsun, kərələri.

Nənəm o xallı keçi.
Məməsi ballı keçi.
Uca qaya başında
Tutubdu yallı keçi.

Nənəm o qatar keçi,
Qayada yatar keçi.
Qışı soyuq gələndə
Balanı atar keçi.

Nənəm qoyunun ağı,
Dolandı gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.

Canım qoyunun ağı,
Gedib dolanar dağı,

Otlar qara qiyağı,
İçər sərin bulağı.
Acı olar dırnağı,
Şirin olar qaymağı.
Qarılar tutar yağı
Gəlin yeyər qaymağı.
Qızlara cehiz olar
Çobana çarıq bağı,
Uşağa bələk bağı.

Saya yaxşı sayadı,
Yeri-yurdu qayadı.
Onun gözəl sözləri
Yatanları oyadı.

Bayrama day nə qaldı,
Nə qaldı, nə qalmadı?
Bir əllicə gün qaldı.
Əlli günü say ötür,
Qarmala quzu götür.
Əlli günü, gecəsi,
Sağmal subay seçəsi.
Sayan yağış yağası
Sarmaşıq ot bitəsi.
Quzu təlkə tutası
Çəpiş irtmək atası.

Ellərin xan çobanı,
Sürünün yan çobanı,
Qoyun arxacda qalsa
Oyadar ban çobanı.
Gəlinin dodağı bal,
Durub qabağında lal.
Gəlin tez ol, pay gətir,
Sayaçını yola sal!

Altı bulaq içərəm,
Üstü zəmi biçərəm.
Bir şişəyin yolunda
Candan-başdan keçərəm.

Açdım yazılar gördüm,
Nə tamarzılar gördüm.
Çoban dağdan enəndə
Çoxlu quzular gördüm.

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər.
Qoyunsuz evlər gördüm.
Qurumuş çaya bənzər.

Yerin dağ olsun, çoban,
Kefin çağ olsun, çoban,
Sürünü yaxşı saxla
Üzün ağ olsun, çoban.

Saya-saya sayadan,
Qoyun gəlir qayadan,
Sayaçıya pay verin
Damazlığı mayadan.

Saya, saya sayadan,
Damazlığı mayadan.
Sürülər dağdan gəlir,
Keçi gəlir qayadan.

Kərəsindən, ağından,
Öldürmüsüz sağından.
Qöyun nədən hasildi?
Kimya yarpağından.
Bir bizə də gətirin
Şişliyindən, yağından,
Bir bala qab sağından.

Qoyunu qoyun getsnn,
Dərisin soyun getsin,
Balası çox mələyir,
Anasın qoyun getsin.

Sürüdə var az qoyun,
Kef-damağı saz qoyun.
Çoban qurddan çəkinsə
Çölə çıxammaz qoyun.

Nənəm boz-ala qoyun,
Yolda ovzala qoyun.
Yiyən sənin sayanda
Gedib qız ala qoyun.
Çoban ağna düzlərə,
Qoyma az ola qoyun.

Nənəm o qaşqa qoyun,
Minibsən eşqə qoyun.
Yiyən sənin sayanda,
Çıxıbdı köşgə qoyun.

Canım o saçaq qoyun,
Bərədən qaçaq qoyun.
Sənə əyri baxanın
Gözünə bıçaq qoyun.

Nənəm qarala qoyun,
Bənzər marala qoyun.
Çoban yununu qırxıb,
Basar xarala, qoyun.

Nənəm o nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun.

Nənəm o xallı qoyun,
Məməsi ballı qoyun.
Sürü dağdan enəndə,
Tutarıq yallı, qoyun.

Nənəm o şişək qoyun,
Yunu bir döşək qoyun.
Bulamanı tez yetir,
Ağlaşır uşaq qoyun.

Canım o səkil qoyun,
Belində kəkil qoyun.
Qaranlıq gecələrdə,
Arxaca çəkil, qoyun.

Nənəm o dəli qoyun,
Dolanıb gəli qoyun.
Gəlinlər güzəmindən
Toxuyar xəli, qoyun.

Nənəm o kəlin qoyun,
Gətirər yelin qoyun.
Arxaçda səni sağar,
Bir gözəl gəlin, qoyun.

Nənəm qaraqaş qoyun,
Qarlı dağlar aş qoyun.
Ay qaranlıq geçədə,
Çöbana qardaş qoyun.

Nənəm a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdü,
Südü ver barış qoyun.

Nənəm yad alı qoyun,
Qanlı-qadalı qoyun,
Yiyən sənin ucundan,
Böyük ad alı qoyun.

Nənəm a sarı qoyun,
Ayaqla qarı qoyun.
Qapımda bol eləsin,
Nəslini tarı, qoyun.

Canım o kəlin qoyun,
Qovzana telin qoyun.
Yiyən sənin ucundan,
Gətirib gəlin, qoyun.

Sürünün gözü qoyun,
Dolan gəl düzü qoyun.
İldə bir əkiz gətir
Sevindir bizi qoyun.

Təkəm, təkəm üç qoyun,
Bizim bağı keç qoyun,
Sürünü sal otlağa
Birin elə beş qoyun.

Kərəsini qoyunun,
Kürəsini qoyunun,
Aclıqdan biz gəzərik
Dövrəsini qoyunun.

Sizin canız sağ olsun,
Payız buğda, yağ olsun.
Hamınız elliginçə,
Damağınız çağ olsun.

Qoyun həyətə dolsun,
Altına qab qoyulsun.
Yağından pay verənin,
İkinci oğlu olsun.
Qoyun gəlir yol olsun,
Yolun sağı sol olsun.
Yaxşı otar sürünü
Südü, yağı bol olsun.

Toğlu kəssən ət olar,
Çobana fürsət olar.
Sürüdən ayrı düşən
Boz qurda qismət olar.

Qoyun var kərə gəzər,
Qoyun var kürə gəzər,
Gedər dağları otlar,
Gələr evləri bəzər.

Ağ qoyun aya bənzər,
Dağ aşar çaya bənzər.
Qoyunlu evlər gördüm,
Qurulmuş yaya bənzər.

Qoyun gələr, naz gələr,
Sürü nədən az gələr?
Ağartısı bol olsa,
Elin günü saz gələr.

Yeyər-yeyər gərnəşər,
Ayağıyla yer eşər.
Kəzər dağlar döşünü,
Buynuz vurar döyüşər.

Nənəm qoyunun uzunu,
Döşündə bəslər quzunu.
Soluna yatar bozdar,
Sağına baxıb gözlər.
Əli çanaqlı qızlar
Qoynunun yolun gözlər.
Çoban qoyun götürəsi,
Onu bərəyə yetirəsi.
Ağ biləkli gəlinlər,
Sağım-sağım deyəsi.

Ağ birçəkli qarılar,
Bılığım-bılığım deyəsi
Bu oğlumun deyəsi,
Bu qızımın deyəsi.
Sarı suyu qalanda
Boz köpəyə tökəsi.
Uçu yanıq kösöv ilə
Boz köpəyi döyəsi,
Yeri qoyuna deyəsi.
Can qüzu, canım quzu,
Tükü çalır qırmızı.
Əbrişim telli quzu,
Qonurdu onun gözü.
Artıb çoxalsın sayı
Biri gəlinin olsun,
Biri çobanın payı.
Eşit sayaçı sözünü:
Ərsəyə çatdır quzunu.
Qoyunu yaxşı saxla,
Ağ elə öz üzünü.

Təkə

Təkəm, təkəm, axta təkəm,
Boynunda var noxta təkəm.
Tükləri biz-biz olub
Qışda yeyib şaxta təkəm.
Təkəm bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar Gilanın düyüsün,
Çəpiş bəyin toyun eylər.
Təkəm ketdi xanlığa,
Üz qoydu yamanlığa.
Təkəmi öldürdülər
Atdılar samanlığa.
Təkəm getdi Mərəndə
Tamaşadı gələndə,
Yaxşı insan çox yaşar,
Vay pisədi öləndə.
Bu təkə axta təkə,
Boynunda var noxta,təkə.
Yayda qul olar satılar.
Qışda çıxar taxta təkə.

Bu təkə yarış təkə,
Gərdəni bir qarış təkə.
Keçi ilə küsüşmüş,
Çəpiş ilə barış təkə.
Saya, saya sayadan,
Təkəm gəlir qayadan.
Təkəmə arxalıq ver,
Xanım evin abadan.
Təkəmə bir pay kətir,
Tüklərini say gətir.
Təkəmi tez yola sal,
Özünə bir tay gətir.
Bu təkə arıq təkə,
Ay dabanı yarıq təkə.
Yığar qoyun-quzunu
Bayramı pişvaz eylər.

Yoxlama və cütləmə

Ala kərə, tayın gördüm,
Sarı kürə, tayın görmək gərək!
Qara kərə, tayın gördüm,
Qumral şişək, tayın görmək gərək!
Qara kürə, tayın gördüm,
Özünü görmək gərək!
Sarı kərə, tayın gördüm,
Qumral kərə, tayın körmək gərək!
Ala kərə, tayın gördüm,
Özünü görmək gərək.
Qumral qoç, özünü gördüm,
Tayını görmək gərək.
Qara gəlin tayın gördüm,
Özünu görmək gərək.
Qaraxallı tayın gördüm,
Səni görmək gərək.
Ağ heriyin tayı gəldi,
Balvazın tayı gəlmədi.
Tayın gəlsin, qumral kürə,
Sarı kərə tayın tapaq gərək.
Cüt əkə,
Cütmək əkə,
Qumral qoça
Saqqar təkə.

Sağın

Dutum, dutum,
Nənəm dutum,
Səni sağan,
Dutum, dutum,
Mənəm dutum!
Dutum, dutum,
Bağım dutum.

Eydirmələr

Maral, maral inəyim,
Qarnı xaral inəyim.
Qatığın bıçaq kəsməz,
Südü yarar inəyim...
Anam ay inəyim,
Sonam ay inəyim.

Dağlar qoynu meşədi,
Nərgizdi, bənövşədi.
Yelinin ay parçası,
Əmcəklərin şüşədi,
Bajım ay inəyim,
Cijim ay inəyim.

Naxırın gözü Maral,
Dilimin sözü Maral.
Çöldə gəlin yerişli,
Qapıda quzu Maral.
Canım ay inəyim,
Gülüm ay inəyim.

Balası göyçəyim Maral,
Mayası çiçəyim Maral.
Əllərim sığal çəkər
Ağrımaz əmcəyin Maral.
Balım ay inəyim,
Gülüm ay inəyim.
Nənəm ay tutey,
Tutey, başına dönnəm.
Körpə balalı nənəm.
Teli xınalı nənəm.
Dönnəm, başına dönnəm.

Dolu məmə, başına dönnəm,
Körpə bala, başına dönnəm.
Dolu məməli, ay tutey,
Bajım ay tutey,
Körpə balalı nənəm, ay tutey,
Bajım ay tutey.
Maralım irahatdı,
Nənəm, ay tutey.
Balası farağatdı,
Gülüm, ay tutey.
Nənəm, başına dönnəm,
Dönnəm, başına dönnəm.
Tutey, ay tutey...

Çoban və bənək

Haramı gəldi,
Qoyunu basdı.
Bənək ha, a bənək ha,
Bənək ha, a bənək ha.

Səhər ertə yel əsdi,
O yel səbrimi kəsdi.
Bənək ha, a bənək ha,
Banək ha, a bənək ha.

Suyun bulaqda qaldı,
Yalın yaylaqda qaldı.
Bənək ha, a bənək ha,
Bənək ha, a bənək ha.

Ellər arana köçdü,
Harayladı gəlmədin.
Çoban yaylaqda qaldı,
Bənək ha, a bənək ha,

Bənək ha, a bənək ha.
Bənək ha, a bənək ha,
Bənək yoldan azıbdı,
Bənək qurdu basıbdı.

Çoban

Göydəki göy buludlar,
Yorğanıdı çobanın.
Yastı-yastı təpələr
Yastığıdı çobanın.
Yumru-yumru qayalar
Yumruğudu çobanın.
Əlindəki dəyənək.
Qalxanıdı çobanın.
Yanındakı boz köpək
Yoldaşıdı çobanın.
Ağzı qara canavar
Düşmənidi çobanın.

MÖVSÜM MƏRASİM NƏĞMƏLƏRİ

Yel baba

Heyva narın iyi gəlir,
Əs, ey gilavar, gilavar.
Güldən xarın iyi gəlir,
Əs, ey gilavar, gilavar.
Səndən yarın iyi gəlir,
Əs, ey gilavar, gilavar
Ay xoş gilavar, gilavar.

A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.
A Yel baba, gəl baba,
Saman sənin, dən mənim.

Yel baba əsdi neynim,
Dolunu kəsdi neynim.
Çəkirəm yar qüssəsin,
Falım da nəsdi neynim.

Mən aşiq qolu güclü,
Kəsibdi yolu güclü.
Yel əssin, bulud getsin
Yağmasın dolu güclü.

Yatdı dəyirman daşım

Yelli babam
Yel babam,
Telli babam
Tel babam.

Təknədə qaldı aşım,
Yatdı dəyirman daşım,
Elim-günüm batdı gəl,
Çərpələngim yatdı gəl.

Yelli babam
Yel babam,
Telli babam
Tel babam.

Gülpərinin arpası,
Xanmuradın yarması,
Novatda dalda qaldı...
Uşaqlar darda qaldı,
Çiynimə düşdü başım,
Yatdı dəyirman daşım.

Yelli babam, yel babam,
Güllü babam, gül babam,
Dərdimi gəl bil, babam,
Gəl babam, ay gəl babam.
Güllü tutdu savaşım,
Təknədə qaldı aşım.
Yatdı dəyirman daşım
Yelli babam,
Yel babam,
Gəl babam, ay,
Gəl babam.

Əs küləyim

Yan süpürgə
Yel gəti, gəl!
Süpürgə yandı,
Yandı, oddandı.
Yanmağa tələs,
Əs, küləyim, əs!

Heydər, Heydər, əs, gəl

Heydər, Heydər, əsə gəl!
Yeddi xırman basa gəl!
Qırıldı oğul-uşax,
Dəsmal götür, yasa gəl!

Çətir-çətir bulut, gəl!
Uşaxları ovut, gəl!
Xırman sovurur baba,
Arpa, buğda, noxut, gəl!

Heydər, əsdi su gəti!
Uşağa yuxu gəti.

Keçib çəmən-çiçəkdən,
Ətirri qoxu gəti.

Heydər gəl, ha, Heydər gəl!
Çiçəkləri hey, dər gəl!
Qardaşımın toyuna,
Ellər səni heylər, gəl!

Heydər gəl, sən haya gəl,
İsti, qızmar, yaya gəl.
Sərin çinar altında,
Kəndimizə toya gəl.

Heydər, Heydər, əs gəti,
Yarpaqlara səs gəti!
Qız bacımın toyuna
Yeddi toğlu kəs gəti!

Heydər, Heydər, çörək ver!
Kişilərə ürək ver.
Xırmanları yığmağa
Sərin-sərin külək ver!

Yağış çağırmaq

Göydən, göydən nə gələr?
Damla-damla yağmur gələr.
Anbarlar dolu-dolu,
Sənəklər sulu-sulu.

Bizdən hərəkət,
Yerdən bərəkət.
Göydən yağmur
Ver tanrım, ver.

Yağmur, yağmur nə istər?
Yağmur bollu yağ istər,
Qaşıq-qaşıq bal istər,
Qonur göz qurban istər,
Göbəkli xırman istər.

Bizdən hərəkət,
Yerdən bərəkət,
Göydən yağmur,
Ver tanrım ver.

Göy, göy, göy olsun,
Arpa-buğda bol olsun,
Alagöz qurban olsun.
Boynumuzda boyunduruq

Dura-dura yorulduq
Acımızdan qırıldıq.

Bizdən hərəkət,
Yerdən bərəkət.
Göydən yağmur,
Ver tanrım, ver.

Yağma yağış

Yağma yağış,
Bitmə qamış,
Babam çöldədi,
Yapıncısı öydədi,
Çomağı çiynindədi,
Köynəyi əynindədi,
Dəsmalı cibindədi,
Ağacın dibindədi,
Yağma yağış,
Bitmə qamış.

Yağ yağışım

Yağış yağmıyanda palçıq yoğurub təndirə yapıllar. Palçıq qupquru quruyannan sonra onu suya salıb oxuyullar:

Ay can, ay can, torpağım,
Odda az yan, torpağım.
İndi yağış yağacaq,
Sən düş islan, torpağım.

Yandı torpax qupquru,
Suya saldım dupduru,
Yağ, yağışım, çoxlu yağ,
Çöllər oldu qupquru.

Torpax, qurutdum səni,
Birdən unutdum səni, .
Gördüm yağış yağmıyır,
Tez suya atdım səni.

İslandın, arzu gətir,
Çaylara bol su gətir,
Qarılara çoxlu yun,
Çobana quzu gətir.

Deyilənə görə, bundan sonra bollu yağış yağır.

Çömçəxatun

Uşaqlar bir yerə toplanır. Bir-birindən yapışırlar, guya ki, quzudurlar. Quraqlıq keçəndə taxta çömçə götürürlər, üstünə qara salırlar, bir-bir qapıları döyürlər. Kim qapıdan çıxırsa, ondan pay istəyib, həmin qapıda bu nəğməni oxuyurlar:

Çömçəxatun nə istər?
Tanrıdan yağış istər.
Qoyunlara ot istər.
Quzulara süd istər, mə-ə-ə.

Çömçəxatun nə istər?
Tanrıdan bol su istər,
Ağaclara bar-bəhər,
Çobana quzu istər, mə-ə-ə.

Əlincənin buludu,
Yetimlərin umudu,
Tanrı bir yağış yetir,
Demilərim qurudu, mə-ə-ə.

Çömçəxatun nə istər,
Göylərə bulud istər,
Mal-qaraya çoxlu süd,
Dağlarda bol istər, mə-ə-ə.

Uşaqlar mələyir. Bu zaman pay gətirirlər. Çömçəxatuna pay gətirib deyillər:

Çömçəxatun nə istər?
Quzulara pay istər.
Çobanlara bolca ot,
Cavanlara toy istər, mə-ə-ə.

Çömçəxatun pay istər,
Dolu-dolu çay istər.
Quzusu bol çobanlar
Pəniri lay-lay istər, mə-ə-ə.

Çömçəxatun duz istər,
Çiçək dolu düz istər.
Havaları buluddu,
Bol yağışlı yaz istər, mə-ə-ə.

Duman

Duman, qaç, qaç, qaç,
Pərdəni aç, aç, aç.
Səni qayadan asarlar,
Buduna damğa basarlar.

Yağış çağırmaq

(Cənubi Azərbaycan variantı)

Çömçəxatun nə istər?
Şırhaşır yağış istər.
Əli-qolu xamırda,
Birçə qaşıq su istər.
Çax daşı, çaxmaq daşı,
Yandı ürəyimin başı.
Allah bir yağış göndər,
Göyərtsin dağı, daşı.
Ala dağın buludu,
Yetimlərin umudu.
Allah, bir yağış göndər
Arpa-buğda qurudu.

Günəşi çağırmaq

Gün çıx, çıx, çıx,
Kəhər atı min çıx.
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü.
Keçəl qızı qoy evdə
Saçlı qızı götür çıx.

Gün getdi su içməyə,
Qırmızı don biçməyə,
Gün özünü yetirəcək
Qarı tez götürəcək
Keçəl qızı aparaçaq
Saçlı qızı gətirəcək.

Gün getdi dağ başına,
Örtüb duvağ başına.
Könlü şamama istəyən
Dolansın tağ başına.

Gün çıx!

Birən birən,
İkən ikən,
Qəmzə başı,
Qara tikən.
Əvvəl altı,
Saymadığım,
Doğrucuğum,
Baharcığım,
Gün çıx!

Güdü-güdü

Güdü-güdü ha, güdü-güdü!
Güdü-güdünü gördünüzmü?
Güdüyə salam verdinizmi?
Güdü burdan ötəndə
Qırmızı günü gördünüzmü?

Güdü palçığa batmışdı
Qarmaladım götürdüm.
Qızıl qaya dibindən
Qırmızı gün götürdüm.

Qara toyuq qanadı –
Kim vurdu, kim sanadı?
Göycəliyə getmişdim
İt baldırım daladı.

Yağ verin yağlamağa,
İp verin bağlamaqa.
Verənin oğlu olsun,
Verməyənin qızı olsun.
Bir gözü də kor olsun.
Təndirə düşsün,
Qırmızı bişsin!

Qodu-qodu

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə
Qırmızı gün gördünmü?

Yağ verin yağlamağa,
Bal verin ballamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

Qoduya qaymaq gərək,
Qablara yaymaq gərək,
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.
Yağ verin yağlamağa,
Bal verin ballamaqa,
Qodu gülmək istəyir.
Qoymayın ağlamağa.

Getmişdim Göyçəliyə,
Yoldaşım endi çəliyə,
Baldırın it daladı,
Hönkür-hönkür ağladı.

Yağ verin yağlamağa,
Bal verin ballamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

Aranla dağın bəhsi

Aran deyər:

Yaylaq, çox da saxlama,
Göndər gəlsin, ağır ellər mənimdi.
Yerin göbəyiyəm, dizin dirəyi,
Mali-mülki süleymanlar mənimdi.

Yaylaq deyər:

Çıxma dindən-imandan,
Süsəndən, sünbüldən, həm gülşəndən,
Həkimlik, loğmanlıq qalıbdı məndən,
Həzaran dərdlərə dərman mənimdi.

Dağ deyər:

Yazın əvvəlindən suların qızar,
Qızdırma uşağın ürəyin üzər,
Gözəllər, məhbublar sinəmdə gəzər,
Xırda-xırda aşan yollar məndədi.

Aran deyər:

Süsənli, sünbüllü, güllü bağlarım,
Şan içində şölə çəkir yağlarım,
Bostandakı ala-bəzək tağlarım,
Qarpız, xiyar, dürlü nubar məndədi.

Dağ deyər:

Səfalı yaylağam başdan-binadan,
Sinəmdə bitibdi çox güli-xəndan
Məndən dərs alıbdı neçə min loğman,
Dürlü-dürlü gözəl hallar məndədi.

Aran deyər:

Mənə həsrət çəkər buzlu qayalar,
Səndən dad eləyən məndən hay alar,
Baş-başa çatılı sarı qayalar,
Xırmanda çevrilən vəllər məndədi.

Dağ deyər:

İstərəm kütah edim bəhsimi,
Sənə baxıb ötürmərəm köksümü,
Dostum, həmdəmimdi yazın möhsümü,
Şux sənəmlər, incə bellər məndədi.

Aranla yaylağın bəhsi

Aran deyər:

Yaylaq, çox da saxlama,
Göndər gəlsin, ağır ellər mənimdi.
Yerin göbəyiyəm, dizin dirəyi,
Mali-mülki Süleymanlar mənimdi.

Yaylaq deyər:

Çıxma dindən, imandan,
Süsəndən, sünbüldən, hər gülşəndən,
Həkimlik, loğmanlıq, qalıbdı məndən,
Həzaran dərdlərə dərman mənimdi.

Aran deyər:

Bağça mənim, bar mənim,
Gecə-gündüz qulluq edər bağbanım,
Geymək üçün yaşıl mənim, al mənim,
Süsən-sünbül gülşanlar mənimdi.

Yaylaq deyər:

Mənəm çeşmələr başı,
Axar, heç qurumaz didəmin yaşı,
Pələnglər yatağı, ovçu sirdaşı,
Köksü ala qarlı dağlar mənimdi.

Aran deyər:

Qaldım dağ arasında,
Piltə tək qurudum yağ arasında,
Qıvrım, qıvrım olmuş tağ arasında,
Tutma, ala qarpız, tağlar mənimdi.

Yaylaq deyər:

Mənəm xalqın göyçəyi,
Məndə yatar aranların qaçağı,
Lalə, çəmən, dürlü-dürlü çiçəyi,
Pətəkdə kəsilən, ballar mənimdi.

Aran deyər:

Məndə bulunar maya,
İnsini, cinsini yetirrəm vaya,
Payızın fəslində qurular taya
Xırmanda çevrilən vəllər mənimdi.

Kosa-kosa

Ay kosa-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu,
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar bayram xonçasın,
Hər yerdə düyün eylər.

Novruz-novruz bahara,
Güllər-güllər nubara,
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun,
Bal olmasın, yar olsun,
Evdəkilər sağ olsun,
Xanım dursun ayağa,
Kosaya pay versin ağa.

Mərmər hovuzun dörd qırağında,
Bülbüllər oxur şax budağında,
Hər nə istəsəm xudadan allam,
Dəllək dükanın yadıma sallam,
Dəllək dükanı tamam çıraqban,
Nağara çalıb kəsirik qurban.

– Kosa, hardan gəlirsən?
– Dərbənddən.
– Nə gətirmisən?
– Alma.
– Almanı neylədin?
– Satdım.
– Pulunu neylədin?
– Öküz aldım.
– Öküzü neylədin?
– Vurdum öldü.
Başın sağ olsun kosa,
Ərşin uzun, bez qısa,
Kəfənsiz ölməz kosa.

Ay kosa-kosa gəlsənə,
Gəlmisən meydana sən,
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Olmaya almayasan.
Mənim kosam oynayır,
Gör necə dingildəyir,
Ona qulaq asanın.
Qulağı çingildəyir.
Mənim kosam canlıdı,
Qolları mərcanlıdı,
Kosama əl vurmayın,
Kosam ikicanlıdı.
Əmiri börk başında,
Qələm oynar qaşında,
Yuz əlli beş yaşında,
Lap, lap çavandı kosam!

Kosa-kosa

(Çənubi Azərbayçan variantı)

Kosa-kosa handan gələr,
Yolu qoyar damdan gələr.
Biçarə qaldı kosa,
Kəfənsiz öldü kosa.
Aftafa dəlik, su durmaz,
Qazan dəlik, yağ durmaz.
Biçarə qaldı kosa,
Kəfənsiz öldü kosa.

Kosam ölməkdədi,
Gözləri çölməkdədi,
Bir qarıynan, bir qoça
Malını bölməkdədi.

Kosa-kosa

(Lənkəran variantı)

Qorxmayın kosa gəldi,
Əlində hasa gəldi.
Kosa gedər Mərəndə,
Tamaşadı gələndə.
Kosam min oyun eylər,
Quzunu qoyun eylər.
Yığar talış düyüsün,
Mahmudun toyun eylər.

Mərmər hovuzun dörd qırağında,
Bülbüllər oxur şax budağında,
Hər nə istəsəm xudadan allam,
Dəllək dükanın yadıma sallam,
Dəllək dükanı tamam çıraqban,
Məscidə kedər əlində Quran.
Qurbanın olum, yaşıl çuxalı,
Dərbəndlisən sən, yoxsa buralı?
Şiş papaq başında,
Qələm oynar qaşında.
Kosam on beş yaşında,
Vay kosamın halına,
Palan qoyun dalına.
Kosam gedib meşkinə,
Vədə verib beş günə,
Kəlməyib on beş günə,
Kosamı öldürdülər,
Atdılar zibil yeşiyinə.

Xıdır nəbi

Xıdır, Xıdır, xıd kətir,
Var dərədən od gətir.
Mən Xıdırın nəyiyəm,
Bircə belə dayıyam,
Ayağının nalıyam,

Başının torbasıyam.
Xıdıra Xıdır deyərlər,
Xıdıra çıraq qoyarlar,
Xıdır nəbi, Xıdır İlyas,
Bitdi çiçək, bitdi yaz.
Mən Xıdırın quluyam,
Boz atının çuluyam.
Xıdır getdi hayınan,
Bir qulança dayınan.
Dayı palçığa batdı,
Xıdır yanında yatdı.
Xıdır nəbi, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz.
Xanım, ayağa dursana,
Yük dibinə varsana,
Boşqabı doldursana,
Xıdırı yola salsana.
Qısa-qısa gələnin,
Qısnacağı dar olsun.
Basa-basa gələnin,
Basmacağı var olsun.

Çatma, çatma, çatmaya.
Çatma yerə batmaya.
Xıdır payın kəsənin.
Ayağı yerə çatmaya.
Gecə evində yatmaya.

Səməni

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Sən kələndə yaz olur
Yaz olur, avaz olur.
Xoşdur dədənin sazı,
Yazda ötkəm avazı.
Səməni, can səməni,
Göyərdərəm mən səni.
Səndən mən çan istərəm
Damara qan istərəm.
Qanım təmiz gərək,
Dosta sanım gərək.
Sənsiz qanım olmaz,

Cansız sanım olmaz.
İllətimin loğmanı,
Yamanlığın amanı,
Səməni, ay səməni,
Göyərdərəm mən səni.

Yazda könül şad olur,
Damağımda dad olur,
Qada, illət yad olur,
Səməni, ay səməni
Göyərdərəm mən səni.

Başım, dişim ağrımasın
Ağrılarım yarımasın,
Düşmənlərim qarımasın,
Cancığazım üzülməsin,
Gözlərimə süzülməsin.
Səməni, ay səməni
Göyərdərəm mən səni.
Səməni, can səməni,
Közlərimə işıq ver,
İşıq ver, yaraşıq ver.
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin.

Səməni, ay səməni,
Sən gələndə yaz olur,
Saz olur, avaz olur.
Səməni, saxla məni
Səməni, can səməni,
Göyərdərəm mən səni.

Səməni

Səməni
Al məni,
Hər yazda
Sən yada
Sal məni.

Səməni

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldım badam,

Qoymurlar bir barmaq dadam.
Səməni, bezana gəlmişəm,
Uzana-uzana gəlmişəm.

Ağırlığım uğurluğum

Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara.
Ağırlığım od olsun,
Odda yanan yad olsun.
Yaddan yad olar,
Qohumdan dad olar.
Qohum-qohumdur
Yamanı da canımdır
Aydan arı camalam,
Sudan duru camalam.
Alovdan atlanmaq kərək,
Cəfaya qatlanmaq gərək,
Oddan aman olmaz
Yaddan qanan olmaz.
Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara.
Dədəm gəlsin, saz gəlsin,
Oymağımıza yaz gəlsin.
Qoşqu deyib heyləsin,
Bahar sözü söyləsin.
Bahara avaz gərək,
Avaza yaz gərək.
Taxılsın saza novruzgülü,
Kəsilsin yamanın dili.
Anlamazı dədəm andırsın,
Doğru yolu qandırsın,
Ağ saqqalım işıqdır,
Bahara yaraşıqdır.
Ağırlığım-uğurluğum odlara
Yazda mənlə hoppanmayan yadlara.

Novruz

Xonçaya qoydum balığı,
Al boyadım ortalığı,
Gərdişə sal çalmalığı,
Çünki gəlibdi Firuz.
Xoş keçəcəkdi Novruz.

Taxçaya qoydum çırağı,
Rovşən eyləsin bucağı,
İşıqlandırsın otağı,
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

Üskudü bu, çərşənbədi,
Atəş yanır şövnəmdədi
Zərdüşt deyir kölgəmdədi.
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

Taxçaya qoydum noxudu,
Sanadım biri yox idi,
"Zondanı", "Həfti" oxudu,
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

Süfrəyə qoy simuzəri,
Əlavə eylə "Təbəri",
Zondovuş oxur "Ögər"i,
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

Atəşə səp üzərliyi,
Qarnıyarıq bəzərliyi,
Süxt eləsin əyərliyi,
Çünki gəlibdi Firuz,
Xoş keçəcəkdi Novruz.

Gəldi

Açdı çiçək
Gəldi yaz,
Eylədi
Dağlar avaz

Səm-səmim

Qar üzəri
Səm oldu,
Hər tərəf
Səm-səm oldu.
Dağda çiçək

Səm-səmim
Bağda çiçək
Səm-səmim
Bəyaz gülüm,
Naz gülüm,
Dərdə dərman
Yaz gülüm.

Dağlarda çiçək
A səm-səmim.
Özəyi köyrək,
A səm-səmim.
Ləçəyi göyçək,
A səm-səmim.
Dərdlər dərmanı,
Ellər loğmanı,
Bəyaz çiçəyim,
İlk yaz çiçəyim.

Bayram gəlir

Babayi-bayram gəlir,
Elimizə, günümüzə.
Babaları yad edərlər,
Dostlara qonaq gedərlər,
Yumurtanı yeddi irəng
Boyarlar,
Gəlinlərin süfrəsinə
Qoyarlar.

Sarvanım ay sarvanım,
Dəvə dolu karvanım,
İlk karvanım yol gedər,
Son karvanım pay verər.

Səməni göyərtmişəm,
Səməni saralıbdır.
Üzərriyi atmışam,
Çatır-çatır yanıbdı.
Bir xəbər gətirəydiz,
Balam yolda qalıbdı.

Üzərriyim, ünnüyüm,
Ümidim düyünnüyüm,
Nənəm sənə tapşırdı
Qızdığım, gəlinniyim.

Paxlava, şəkərbura,
Ləbləbi, innab, xurma,
Papaqları doldurun
Qoy aparsın, saxlama.

Xonçalı Novruz gəlir

Xonçalı Novruz gəlir,
Qonçalı Novruz gəlir.
Sürmə çəkin qaşına,
Noğul səpin başına.
Tonqalları oddayın,
Tüfəngləri addayın,
Xonçalı Novruz gəlir.
Qonçalı Novruz gəlir.

Qarı ilə martın deyişməsi

Qarı:

Ay oğlağım, oğlağım,
Çıxdı yaza oğlağım.
Payız üstü beş oldu,
Yaz gəldi on beş oldu,
Buynuzu beş-beş oldu,
Qılları şeş-şeş oldu,
Mart gözüvə barmağım.
Yaza çıxdı oğlağım.
Gəldi keçdi zamanın,
Ötdü ömrü samanın,
Mart gözüvə barmağım,
Yaza çıxdı oğlağım.

Mart:

Buynuzu beşdi-beşdi,
Qıllırı şeşdi-şeşdi,
Dünən onbeşdi,
Bu gün beşdi-beşdi.
Apreldən borc almışam,
Nənəmə qonaq qalmışam,
Bığlarımdı buz-buz.
Çəkdim yer üstə buzu,
Qırdım ondan çox quzu,
Buynuzu beşdi-beşdi.
Nənəmə çormu keçdi...

Qarı:

Əldən aldın yorğanım,
Düşdü dərdə oğlağım.
Borca getdim samana,
Pislik qaldı yamana.
Mart gözüvə barmağım.
Yaza çıxdı oğlağım,
Payız üstü beş oldu,
Yaz gəldi on beş oldu.
Quyruğu beş-beş oldu.
Qılları şeş-şeş oldu.
Mart gözüvə barmağım.
Yaza çıxdı oğlağım...

Küsülüləri barışdırın

İşıqları alışdırın,
Küsülüləri barışdırın!
Küsülülərim nə düz gəlir,
Şənlik gəlir, şuxluq gəlir.
Bahar gəlir, nəfəs gəlir,
Oxumağa həvəs gəlir.

Dövrə vuraq hal eyləyək.
Küsülülərə yol eyləyək,
Öyüdləri bol eyləyək.
Küsülülərim nə düz gəlir,
Şənlik gəlir, şuxluq gəlir,
Bahar gəlir, nəfəs gəlir,
Oxumağa həvəs gəlir.
Küsülülər gəldi peymana,
Dədə də gəlsin meydana.
Meydanda tavar saz olsun,
Avazlarımızı bir görək,
Küsülülər öpüşsün gərək,
Küsülülərim nədüz gəlir,
Şənlik gəlir, şuxluq gəlir,
Bahar gəlir, nəfəs gəlir.
Oxumağa həvəs gəlir.

MƏİŞƏT MƏRASİM NƏĞMƏLƏRİ

VƏSFİ-HALLAR

Gülü tökdüm tabağa,
Qoydum qala sabaha,
Yar məni mehman eylər,
Qönçə düzər qabağa.

Dağ başını qar alanda,
Gül dibini xar alanda,
Günüm ah-vayla keçər,
Yar yada yar olanda.

Dağda payız olanda,
Sarı sünbül solanda,
Yara nişan göndərin,
On beş yaşa dolanda.

Əzizim arı şanda,
Beçələr arı şanda,
Mələklər şadlıq eylər,
İki yar barışanda.

Durma qapı dalında,
Gözüm qaldı xalında,
Gedim deyim anama,
Gəlim qalım yanında.

Sərraf sözdən söz ala,
Sözün gərək düz ala,
Bir nazlı yar görmüşəm,
Buxaq billur, göz ala.

Əzizim dağda lala,
Oxşur gül üzdə xala,
Dərdi qəmi azalar,
Kim yetişsə vüsala.

Mən aşiq gül əndama,
Çıxıbdır gülən dama,
Olam bir atlas köynək,
Yaraşam gül əndama.

Könül vermə alana,
Qoyma könül talana,
Yarla görüşüm qaldı,
Sur tütəyin çalana.

Mən aşiq günbatana,
Ay gedir günbatana,
Gözləyirəm yolunu,
Dolan gəl günbatana.

Ay gələr gün batana,
Gedər ellər yatana,
Əgər məni sevirsən,
Elçi göndər atama.

Gün qalxar öz vaxtına,
Gedər çıxar taxtına,
Niyyətin hər nə olsa,
Qismət olar baxtına,

Gün getdi dağ başına,
Yar örtüb ağ başına,
Oğlan şamama istər,
Dolanar tağ başına.

İynə sancdım divara,
Elçi göndərdim yara,
Elçiyə zaval olmaz,
Özüm elçiyəm yara.

Əziziyəm yar-yara,
Qara bağrım yar yara,
O gün bayramın eylər,
Qismət olsa yar yara.

Su gəlir qalxa qalxa,
Tökülür bizim arxa,
Arzu-kam yetişibdir,
Bildirin toyu xalxa.

Su gəlir, dolur çarxa,
Tökülür bizim arxa,
Burada bir yar sevmişəm,
Qardaşdan qorxa-qorxa.

Narınca bax narınca,
Saxlaram saralınca,
Şama döndü ürəyim
Səndən cavab alınca.

Mixək əkdim ləyəndə,
Mixək boyun əyəndə,
Bir cüt qurban demişəm,
Əlim əlinə dəyəndə.

Bir qız gördüm biçində,
Sarı sünbül içində,
Burada bir toy olacaq,
Gələn ayın içində.

Gülü atdım dənizə,
Batdı, çıxmadı üzə,
Nola bizim bağçada,
Yar gələ bir gün gəzə.

Qızıl üzük firuzə,
Gedin deyin xoruza,
Bu gecə banlamasın,
Yar gələcəkdir bizə.

Bitibdir dağda lalə,
Oxşur gül üzdə xalə,
Sidqinən sevən ürək,
Axır çatar vüsalə.

Dağların başı lalə,
Əlində var piyalə,
Mən sənənəm, ay oğlan,
Düşmə özgə xəyalə.

Tanrı məni quş eylə,
Qanadı gümüş eylə,
Dar yolda, dar küçədə,
Yarı mənə tuş eylə.

Girdim bağa üzümə,
Tikan batdı dizimə,

Əyildim çıxartmağa,
Yar göründü gözümə.

Əl yaylığı açılmaz,
Saçaqları saçılmaz,
Bu mənim sönmüş könlüm,
Yar görməsə açılmaz.

Zülfün qarara yetməz,
Dərdin sinəmdən getməz,
Səni görən gözlərim,
Özgəyə nəzər etməz.

Dağdan gəldik ikimiz,
Zərli yorğan yükümüz,
Tanrı mətləbin versin,
Bir görüşək ikimiz.

Göydə ulduz bəllidi,
Gah yüzdü, gah əllidi,
Mən yarımı görmüşəm,
Şəvə qara tellidi.

Alma atdım nar gəldi,
Kətan köynək dar gəldi,
Qapıya kölgə düşdü,
Elə bildim yar gəldi.

Qaş gözünü süzəni,
Belə inci düzəni,
Yarəb sən tez qovuşdur,
İki həsrət gəzəni.

Göy at yallaram səni,
Gümüş nallaram səni,
Məni yara yetirsən,
Məxmər çullaram səni.

Bu yerdə yol yarıdı,
Yolçu yolda qarıdı,
Mən sevdiyim çalpapaq,
Başımın sərdarıdı.

Dolayı gəl dolayı,
Süpürmüşəm sarayı,
Toyumuza az qalıb,
Gözlərəm təzə ayı.

Qızıl üzük miyanı,
Durmaz barmağın qanı,
Bu gün sabah gələcək,
Məhləmizin sultanı.

Mis qazanın paxırı,
Oğlan, qaytar naxırı,
Qəm çəkmə, gözəl igid,
Qız sənindir axırı.

Əlində nağarası,
Dolaşır bağ arası,
Könül sevən gözəlin,
Nə ağı, nə qarası.

Kərə yağın tortası,
Qızıl kəmər ortası,
Allah muradın versin,
Gələn bazar ertəsi.

Bağçalarda sarı gül,
Yarı qönçə, yarı gül,
Nişanlın sabah gəlir,
Barı sevin, barı gül.

Ay deyiləm, ulduzam,
Gəlin deyiləm, qızam,
Qapıda duran oğlan,
Gəl yanıma yalqızam.

Qara atın nalıyam,
Göyçək qızın xalıyam,
Məni bir oğlan sevir,
Çoxdandır ki, halıyam.

Kişmirin, şanın ollam,
Üzündə xalın ollam,
İlqarın düzgün olsa,
Vəfalı yarın ollam.

Bənövşəyəm, mən tərəm,
Kol dibində bitərəm,
Gözləyərəm, gəlməsən
Boynu əyri bitərəm.

Al yaşıl geyinmişəm,
Dağdan düzə enmişəm,

Qohum-qardaş, var olsun,
Yarı mən bəyənmişəm,

Arxalığı biçmişəm,
Üstündə and içmişəm,
Yüz gözəlin içində,
Təkcə səni seçmişəm,

Aşıq şirin camalım,
Versin, şirin cam alım,
Qonşuda bir qız sevdim,
Odur şirincə malım.

Əllərim aldım oğlan,
Qoynuma saldım oğlan,
Vədə verdin gəlmədin,
İntizar qaldım oğlan,

Ay qız kimin qızısan?
Almadan qırmızısan,
Atan-anan bəsləmiş,
Bəxtimin ulduzusan.

Ağ at gəlir enişdən,
Sinəbəndi gümüşdən,
Bizə də qismət olsun,
Heybədəki yemişdən.

Əlində bayda gəlin,
Durubdu çayda gəlin,
Tanrı mətləbin versin,
Bu gələn ayda gəlin.

Aşıq gəlir sazı var,
Qəmzəsi var, nazı var,
Hər baharın bir qışı,
Hər qışın bir yazı var.

Sözü gözdən alan var,
Zülfün üzə salan var,
Gözəl oğlan tez böyü,
Gözü yolda qalan var.

Üzər göldə sonalar,
Sonam, gələr can alar,
Əhd-peyman bağlayaq,
Qoy sevinsin analar.

Arı güldən bal ovlar,
Ovçular maral ovlar,
Gözün gözümə dəydi,
Cana saldı yalovlar.

Araz axar, burular,
Suyu daşda durular,
Ürəkdə arzun olsa,
Sənə də toy qurular.

Dəryada çıraq yanar,
Baxdıqca iraq yanar,
Yar yarına qovuşsa,
Dost gülər, qıraq yanar.

Aşıq əldə saz apar,
İşvə gətir, naz apar,
Qışda adaxlanmısan,
Toyun elə, yaz apar.

Ələklər, ay ələklər,
Çırmansın ağ biləklər,
Xəbər getsin dostlara,
Hasil oldu diləklər.

Bizdə olan gözəllər,
Bağ-bağçanı bəzərlər,
Nişan günü süfrəyə,
Şirin şərbət düzərlər.

Dağ üstə boran gəlir,
Ay dolanır, gün gəlir,
Atın dördnala çapır,
Arxamda duran gəlir.

Mən aşiqəm gün gəlir,
Ay dolanır, gün gəlir,
Gözlərin aydın olsun,
Nişanlın bu gün gəlir.

TOY NƏĞMƏLƏRİ

Mübarək, ay mübarək!

Bu gecə ay doğacaq,
Mübarək, ay mübarək!
Cavanlar oynayacaq,
Mübarək, ay mübarək!
Bir yaman qaynanam var,
Mübarək, ay mübarək!
O məni qoymayacaq,
Mübarək, ay mübarək!

Dolanar il, yaz olar,
Mübarək, ay mübarək!
Gecələr ayaz olar,
Mübarək, ay mübarək!
Uzaqda qız sevənlər,
Mübarək, ay mübarək!
Həmişə nasaz olar
Mübarək, ay mübarək!

Ay qız, tələs yoluna,
Mübarək, ay mübarək!
Sığal ver öz telinə,
Mübarək, ay mübarək!
Dəstə səni gözləyir,
Mübarək, ay mübarək!
Tez ol min at belinə,
Mübarək, ay mübarək!

Ay qız dam üstə çıxma,
Mübarək, ay mübarək!
Özünü dama sıxma,
Mübarək, ay mübarək!
Mənə baxan gözünlə,
Mübarək, ay mübarək!
Öllərm, özgəyə baxma!
Mübarək, ay mübarək!

Ay qız nənəni səslə,
Mübarək, ay mübarək!

Danışma özgə kəslə,
Mübarək, ay mübarək!
Sən mənim olacaqsan,
Mübarək, ay mübarək!
Böyüginən həvəslə,
Mübarək, ay mübarək!

Ay qız mən baxa-baxa,
Mübarək, ay mübarək!
Su üçün getmə arxa,
Mübarək, ay mübarək!
Bizim görüşümüzdən,
Mübarək, ay mübarək!
Nə var bilmirəm, xalxa,
Mübarək, ay mübarək!

Lo-lo

Evdən evə işıqdı,
Lo-lo, lo-lo, ha lo-lo.
Məcməyi dolu qaşıqdı,
Lo-lo, lo-lo, ha lo-lo.

Bizim oğlan neyləsin,
Lo-lo, lo-lo, ha lo-lo.
Sizin qızlar aşıqdı,
Lo-lo, lo-lo, ha lo-lo.

Evlərə gün düşənə,
Lo-lo, lo-lo, ha lo-lo.
Alma qoydum nişana,
Lo-lo, lo-lo, ha lo-lo.

Qara yaylıq yaraşır,
Lo-lo, lo-lo, ha lo-lo.
Yardan ayrı düşənə,
Lo-lo, lo-lo, ha lo-lo.

Ay ləli

Pəncərənin milləri, ay ləli qurbanın olum,
Açılıb qızıl gülləri, ay ləli, yar ləli.
Yar ləli, yar ləli...

Oğlanı yoldan eylər, ay ləli, qurbanın olum,
Qızın şirin dilləri, ay ləli, yar ləli.
Yar ləli, yar ləli...

Pəncərəni bağlama, ay ləli, qurbanın olum,
Mən gedirəm ağlama, yar ləli, yar ləli.
Yar ləli, yar ləli...
Gedib yenə gələrəm, ay ləli, qurbanın olum,
Özgəyə bel bağlama, ay ləli, yar ləli,
Yar ləli, yar ləli...

Sonalar, sonalar...

Bu gün ayın üçüdü,
Girmə bostan içidi,
Dodaqların xam şəkər,
Dilin badam içidi.

Hamı:
Sonalar, Sonalar,
Göl üstünə qonarlar.

Mənim yarım sarı laçın,
Fələk qoymur qəddim açım,
Qoy səni götürüm qaçım.

Hamı:
Sonalar, Sonalar,
Göl üstünə qonarlar.

Gələndə bizdən gələsən,
Şirin heyvanı dərəsən,
Sən mənə qurban olasan.

Hamı:
Sonalar, sonalar,
Göl üstünə qonarlar.

Gələndə sizdən gəlmərəm,
Şirin heyvanı dərmərəm,
Mən sənə qurban olmaram.

Hamı:
Sonalar, sonalar,
Göl üstünə qonarlar.

Evlərə qatar məni,
Qul eylər satar məni,
Vəfalı yarım olsa,
Axtarar tapar məni.

Hamı:
Sonalar, sonalar,
Göl üstünə qonarlar.

Sən mənim gözəl yarım,
Bayramdı bəzən, yarım,
Qızıldan, ya gümüşdən
Nişanı düzən yarım.

Hamı:
Sonalar, sonalar,
Göl üstünə qonarlar.

Ay oğlan

Su atdım yara dəydi,
Qolum divara dəydi,
Ağzımda dilim yansın,
Nə dedim yara dəydi.
Toy elə gəlim toyuna, ay oğlan,
Adaxlın qurban boyuna, ay oğlan.

Gedib gəlmək ilə yolu ağartdım,
Sarı başmaq ilə həsri saraltdım,
Məni aldın, düşmən gözün çıxartdın.
Toy elə gəlim toyuna, ay oğlan,
Adaxlın qurban boyuna, ay oğlan.

Oturmuşdum səkidə,
Qulağım səksəkidə,
Bir qızıl alma gəldi,
Bir qızıl nəlbəkidə.
Toy elə gəlim toyuna, ay oğlan,
Adaxlın qurban boyuna, ay oğlan.

Qalmışam

Evləri burda yoxdu,
Köçübdü, burda yoxdu,

Canım necə can versin,
Can alan burda yoxdu.
Pəri-pəri pərvərdigar,
Pərvaz olmuşam
Əlini ver əlimə,
Dalda qalmışam.

Qardaş gəlir meşədən,
Qəlyanı var şüşədən,
Yarım bir köynək tikib,
Yaxası bənövşədən.
Pəri-pəri pərvərdigar,
Pərvaz olmuşam
Əlini ver əlimə,
Dalda qalmışam.

Qardaş, başına dönüm,
Qələm qaşına dönüm,
Yalnız səni demirəm,
Gəlin, başına dönüm.
Pəri-pəri pərvərdigar,
Pərvaz olmuşam
Əlini ver əlimə,
Dalda qalmışam.

Yarpaqları

Başına qoyubdu qızıldan teşti,
Fırlana-fırlana çayları keçdi,
Yarı göyçək olan neylər behişti.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Samavar almışam o tay malıdı,
Üstünə saldığım tirmə şalıdı,
Qızıma göz tikmə, özgə malıdı.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Qarabağda talan var,
Zülfün üzə salan var,
Gedirsən, tez qayıt gəl,
Gözü yolda qalan var.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Qarabağın üzümü,
Yola tikdim gözümü,
Nə gedən var, nə gələn,
Kimə deyim sözümü.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Pəncərə neçə bənddi,
Sana gör neçə bənddi,
Düşəsən mən tək dərdə,
Görəsən necə dərddi.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Bu gələn yar olaydı,
Əlində nar olaydı,
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Bu gələn yar özüdü,
Gözü ceyran gözüdü.
Bir baxdım tanımadım,
Bir baxdım yar özüdü.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Durma qapı dalında,
Gözüm qaldı xalında,
Gedib anama deyim,
Gəlib qalım yanında.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Süpür evin yanını,
Oğlan görsün yarını,
Oğlan yarın görəndə
Versin şirin canını.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Dəryada fanaram mən,
Od tutub yanaram mən,
Qaş altdan göz eləmə,
Arifəm qanaram mən.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Dərya dolu lililən,
Yarım oynar gülilən,
Qurban olum yarıma,
Məni saxlar dililən.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Xırmanda şana qaldı,
Sancıldı şana qaldı,
Oğlanın əl dəsmalı
Qızda nişana qaldı.
Basma, basma bağları,
Saraldı yarpaqları.

Adaxlın hanı?

Evlərə gün düşənə,
Alma qoydum nişana,
Qara yaylıq yaraşır
Yardan ayrı düşənə.
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs yarın hanı?

Simavarım söküldü,
Çayı yerə töküldü,
Sizin bağın bülbülü
Bizim bağa töküldü.
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs yarın hanı?

Mir Həsənin bağları,
Şaqqıldar yarpaqları,
Şeh düşmüş gülə bənzər
Yarımın dodaqları.
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs yarın hanı?

Atdandı, xan əzizim,
Ardınca qaldı gözüm,

Yolda yoldaşın qurban,
Evə gələndə özüm.
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs yarın hanı?

Sərnici düz qoysana,
Bu yana üz qoysana,
Məni sənə verməzlər,
Dilini düz qoysana.
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs yarın hanı?

İstkanım bir dəstdi,
Dəsti də mənə bəsdi,
Sağ gözüm yara qurban,
Sol gözüm mənə bəsdi.
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs yarın hanı?

Maşallah

Mənim yarım yar dyil,
Tərkin qılsam ar deyil,
Get başına çarə qıl,
Dünya gendi, dar deyil.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Pəncərənin milin çək,
Yandır, onun külün çək,
Qohuma qız verənin
Əngin ayır, dilin çək.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Çıxdım təndir üstünə,
Baxdım yarın şəstinə,

Əlində bir dəstə gül,
Atdı sinəm üstünə,
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Aya bax necə gedir,
Günə bax necə gedir,
Şərfi salıb boynuna,
Yara bax necə gedir.
Ey gülü maşallah,
Qardaşım əsgər gedib,
Gələcək inşallah.

Gəlin nəğmələri

Qızı görməyə gedən oğlan bacısı oxuyur:

Çaylar daşır lil gəlir,
Dəstə-dəstə gül gəlir.
Güllərin birin üzəydim,
Saçlarıma düzəydim,
Qardaşımın toyunda
Oturub-durub süzəydim.

Ay, aya bax, necə gedir,
Su gəldi bürüdü yolların, a gəlin!
Ay yorulub gecə gedir
Su gəldi bürüdü yolların, a gəlin!
Kağızdan ağdı qolların, a gəlin!

Ay qardaşın gül toyuna,
Su gəldi bürüdü yolların, a gəlin!
Ay başlarda xonça gedər,
Su gəldi bürüdü yolların, a gəlin!
Kağızdan ağdı qolların, a gəlin!

Ay toy elə gəlim toya,
Su gəldi bürüdü yolların, a gəlin!
Qurbanam bu şümşad boya,
Su gəldi bürüdü yolların, a gəlin!
Kağızdan ağdı qolların, a gəlin!

Elçilikdən sonra qızlar bir yerə toplaşıb aşağıdakı mahnıları oxuyarlar:

Su içində milçəyəm, tello,
Əl vurma köynəkçəyəm, tello,
Hamıya çirkin olsam, tello,
Öz yarıma göyçəyəm, tello!
Aman tello, tello can, tello,
Yarım tello, tello can, tello!

Araz üstə, buz üstə, tello,
Kabab yanar köz üstə, tello,
Qoy məni öldürsünlər, tello,
Bir alagöz qız üstə, tello!
Aman tello, tello can, tello,
Yarım tello, tello can, tello!

Oğlan evindən nişana gələn arvadlar oxuyurlar:

Çayda balıq tordan keçər, gəlmişik,
Hər bulaqdan biz su içər, gəlmişik,
Oğlan sevib, biz görməyə gəlmişik,
Söz almağa, söz verməyə gəlmişik.

Gəlmişik qız obasına, gəlmişik,
Salam verək babasına, gəlmişik,
Kiçik qızın həvəsinə gəlmişik,
Yarın camalın görməyə gəlmişik.

Oğlanın bacıları oxuyurlar:

Al almağa gəlmişik,
Şal almağa gəlmişik,
Biz oğlanın bacısıyıq,
Aparmağa gəlmişik.

Qızın bacılarının cavabı:

Al almağa qoymarıq,
Şal almağa qoymarıq,
Biz qızın bacısıyıq,
Aparmağa qoymarıq.

Gəlinin beli bağlananda yengə deyir:

Qızım, qızım, qız gəlin,
Əl-ayağı düz gəlin,
On iki oğul istərəm,
Bircə dənə qız gəlin.

Gəlini bəzəndirən arvad (məşşata) oxuyur:

Ay xeyir-dua qıza verin,
Ay sürməni gözə verin,
Ay xınanı yaxın əlinə,
Xəbər getsin obasına, elinə.

Ay yollayın oğlan evinə,
Ay onu saxlasın yaradan, yaradan,
Yaxşı çıxıbdı baxtına, rastına,
Xəbər getsin qohumuna, dostuna.

Qızın anası oğlan evindən gələn qız-gəlinə deyir:

Bu gecə xanım bacı bizə qonaqdı,
Sabahdan gəlin gedir yolu iraqdı,
Bu evdən o evə mənzil uzaqdı,
Xeyir-dua verin, açılsın baxtı.

Yeri-yeri, bəstə boyuna qurban,
O yaraşığına, suyuna qurban,
Yeri-yeri, baxım, qəlbim açılsın,
Adaxlına qurban, toyuna qurban.

Oğlan evindən qızı aparmağa gələn arvadlar deyirlər:

Qızıl güllər koldadı,
Əl çatmayan qoldadı,
Qız ürəyi döyünür,
Oğlan gözü yoldadı.

Qızın bəxti ağ olsun,
Qohumları sağ olsun,
Qızın getdiyi yollar,
Yansın çil-çıraq olsun.

Xanəndə gəlini tərif etməyə başlayır:

Uzaq yerdən gəldik sənin toyuna,
Anan-bacın qurban olsun boyuna,
Biz də soldış, gələk sənin toyuna.
Görüm, ay göyçək qız, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun.

Ağ barmağa qızıl üzük,
Taxdın bərəkallah, gəlin,
Əllərinə əlvan xına,
Yaxdın bərəkallah, gəlin!

O gün olsun yar bağına girəsən,
Əl atıban qönçə gülün dərəsən
Getdiyin oğlanın xeyrin görəsən,
Görüm, ay göyçək qız, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun.

Tərifi söyləyənə xələt verirlər. Arvadlar qız toyunda iki dəstəyə bölünüb oxuyurlar.

Oğlanın bacısı:

Al almağa gəlmişəm,
Şal almağa gəlmişəm,
Oğlanın bacısıyam,
Aparmağa gəlmişəm.

Hamı – Almışıq, aldatmışıq, aldatmışıq,
Anasın ağlatmışıq, ağlatmışıq.

İkinci dəstədən qızın bacısı cavabında deyir:

Al almağa gəlmisən,
Şal almağa gəlmisən,
Aparmağa gəlmisən,
Baldızlığa gəlmisən.

Hamı – Vermişik, ağlatmışıq, ağlatmışıq,
Biz sizi aldatmışıq, aldatmışıq, –

deyərək oğlan adamlarına cavab verirlər. Bundan başqa daha bir çox mahnılar oxuyurlar. Gəlin gələndən sonra yenə də oğlan evində cavan qız və gəlinlərdən ibarət dəstə gəlinin yanında oturur. Həmin dəstə qızın yanına gələn yengəni oynatmaq üçün belə oxuyur:

Sizdə də ələk, bizdə də ələk,
Yengəyə kələk, dursun oynasın.

Sizdə də kürək, bizdə də kürək,
Yenəgəyə deyək, dursun oynasın.

Sizdə də duvaq, bizdə də duvaq,
Yengəni döyək, dursun oynasın.

Oğlanın bacısını da oynatmaq üçün həmin dəstə oxuyur:

Qayçını atım taxçaya cingildəsin, yar hey...
Çağırın oğlan bacısın dingildəsin, yar hey...

Gəlini oynatmaq istəyəndə yenə həmin dəstə oxuyur:

Əl vurun, gəlin oynasın,
Topuğun güllər bürüsün,
Bu gəlinin xoş qədəmi,
Bizim elləri bürüsün.

Qızı oğlan evinə yola salanda anası xeyir-dua verib oxuyur:

Xəbər gəldi mən xöşbəxtə,
Qızım, səni yola sallam,
Atannan mən rəxtxab allam,
Get, səni saxlasın tanrım.
Qızım, xoş getdin, xoş getdin,
Əcəb ellərə tuş getdin!

Cer-cehizin vurmuş yükə,
Cilovların çəkə-çəkə,
Kərvanın çıxacaq dikə,
Get, səni saxlasın tanrım.
Qızım, xoş getdin, xoş getdin,
Əcəb ellərə tuş getdin!

Gəlin oğlanın qapısına çatanda qaynana onun ayağı altında üzərlik yandırıb deyir:

Üzərliklər çırtlasın,
Yaman gözlər pırtlasın!

Sonra oğlanın bacısı mahnı oxuyu-oxuya oynayır:

Ay yollara gül döşəyin,
Yol açın, gəlin gəlir,
Gün olsun, güldən geyin,
Yol açın, gəlin gəlir!

Qardaşın gül toyudu,
Yol açın gəlin gəlir,
Mübarək olsun deyin,
Yol açın, gəlin gəlir!

Dağları yaylım-yaylım,
Toyun mübarək olsun!
Düzündə necə qalım,
Toyun mübarək olsun!

Görün gözümə bir də,
Toyun mübarək olsun!
Qardaş, qadanı alım,
Toyun mübarək olsun!

Sirəm, sirəm söyüdlər,
Toyun mübarək olsun!
Sümək duran atdılar,
Toyun mübarək olsun!
Yüz igidin içində,
Toyun mübarək olsun!
Qardaşımın adı var,
Toyun mübarək olsun!

Bunun dalınca bir dəstə qız-gəlin aşağıdakı mahnın oxuyur:

Çəltiklər dirçəlibdi, ay mübarək,
Sünbüllər incəlibdi, ay mübarək,
Bu gün qəribə toydu, ay mübarək,
Bizə gəlin gəlibdi, ay mübarək!

Suyu arxa yönəltdik, ay mübarək,
Çaya, bostana gətdik, ay mübarək,
Evin var olsun fələk, ay mübarək,
Axır xoş günə yetdik, ay mübarək,

Bu çayların sonası, ay mübarək,
Sular üstə qonası, ay mübarək,
Biz də toya gəlmişik, ay mübarək,
Hanı cavan anası, ay mübarək!

Oğlanın anası deyir:

Ay gül, xaşxaşdı gəlin,
Ay huşdu-başdı gəlin,
Bizim bu ev, bu ocaq,
Sənə peşkaşdı, gəlin!

Gəlinə xoşgəldin deyin,
Yollara xoşgəldin deyin,
Gəlinin ağ üzündəki,
Xallara xoşgəldin deyin.

Gəlin deyər, "hanı bacım?"
Su üzündə qalıb saçım,

Baldızındı sənin bacın,
Gəlin, xoş gəldin, xoş gəldin!

Gəlin deyər, "hanı atam?"
Qoyunu quzuya qatam.
Qaynatandı sənin atan,
Gəlin, xoş gəldin, xoş gəldin!

Oğlanın bacısı əlavə edir:

Gəlin deyər, "hanı anam?"
Yaxılmamış qalıb xınam,
Qaynanandı sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin!

Gərdəyin dalında oğlan evi tərəfindən olan yengə aşağıdakı mahnını oxuyur:

Ay gəlin, evlər ayrıdır,
Əylən gəlin, əylən gəlin!
Bizim elin adətini
Öyrən gəlin, öyrən gəlin!

Ay bu gecə tez doğacaq,
Əylən gəlin, əylən gəlin!
Ay, bacılar oynayacaq,
Öyrən gəlin, öyrən gəlin!

Ay, ata evi dar olar,
Əylən gəlin, əylən gəlin!
Ay, qaynana kar olar,
Öyrən gəlin, öyrən gəlin!

Ay, qayğına qalmasalar,
Əylən gəlin, əylən gəlin!
Ay, sana baxan yar olar,
Öyrən gəlin, öyrən gəlin!

Ay, gəlin var işsiz durar,
Əylən gəlin, əylən gəlin!
Ay, gəlin var evlər qurar,
Öyrən gəlin, öyrən gəlin!

Qız-gəlinlər qaynana üstünə düşərlər:
– Xala, birini də sən de!

Qaynana bu zaman aşağıdakı mahnını oxuyar:

Almanı alma, gəlin,
Al, yerə salma, gəlin,
Evlərdə çox söz olar,
Ürəyinə salma, gəlin.
Almanı al, almanı al,
Almanı alma, gəlin!

Su gələr bəndə dəyər,
Kəkilin kəməndə dəyər,
Səndəki o zabitə
Lap bizim bu kəndə dəyər.
Almanı al, almanı al,
Almanı alma, gəlin!

Ay gəlin, gözüm gəlin,
İşlərəm özüm, gəlin,
Neyləsin qaynanası,
Təzədi bizim gəlin.
Almanı al, almanı al,
Almanı alma, gəlin!

Bəyin tərifi

Qismətinmiş sənin güllər butası,
Sən olasan doqquz oğul atası,
Dursun xələt versin bəyin atası.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Obaşdan gəlmişəm sənin toyuna,
Anan qurban olsun uca boyuna,
Bir də gələk yoldaşının toyuna.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Bir əl çalın, xublar düşsün oyuna,
Mən qurbanam bəyin uzun boyuna,
Bir də gələk soldışının toyuna.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Əyninə geymisən sürməli bəsti,
Qulaq as, əzizim, gör bu nə səsdi,

Gəlib xələt versin qoy bəyin dostu.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Əlvandır əlində bəyin xınası,
Bu toyun ellərə düşüb səsası,
Bizə xələt versin bəyin anası.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Səninlə olaydım mən yol yoldaşı,
Ayağına dəyməsin yolların daşı,
Dursun xələt versin bəyin qardaşı.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Haca gedər hacıların hacısı,
Yaman olur şirin dilin acısı,
Dursun xələt versin bəyin bacısı.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Əlimdə çalıram sədəfli sazı,
Mən kimə eyləyim bu ərkinazı,
Bizə xələt versin göyçək bəy özü.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Dəryada oynayar Nuhun gəmisi,
Asta çal balabançı, eşit bu səsi,
Bizə xələt versin bəyin əmisi.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Xonçaya düzərəm qəndi, noğulu,
Allah özün saxla belə oğulu,
Bizə xələt versin əmisi oğlu.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Göldə üzür ördəklərin dəstəsi,
Səfalıdı bu yerlərin zəmisi.
Dursun xələt versin bəyin bibisi.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Qoyunlarda qoyunların alası,
Gözəl olar "bənəvişin" balası,
Dursun xələt versin bəyin xalası.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Qızılgülü dəstə-dəstə tutası,
Həvəslənib yar yarına atası,
Dursun xələt versin bəyin dayısı.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Əlinə alıbdı bir gül dəstəsi,
Baxdıqca hamının gəlir həvəsi,
Bizə xələt versin bəyin yeznəsi.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Əlində tutubdur o qızılquşu,
Kəklik sövdasıyla anar dağ-daşı,
Dursun xələt versin qohum-qardaşı.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Camalı mat qoyub ayı, ulduzu,
Görüm halal olsun çörəyi, duzu,
Xələt versin bizə bəyin baldızı.
Görüm, a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Duvaqqapma mərasimi

Toyun ertəsi günü bəy evinin adamları gəlinin başına toplaşıb duvaqqapma mərasimi keçirərlər.

Aparıcı:

Gəlin deyər: – Hanı atam,
Qoyunu quzuya qatam?

Qızlar xoru:

Qaynatan sənin atan,
Ay gəlin, xoş gəldin, xoş gəldin,
Bzim evə tuş gəldin, tuş gəldin.

Aparıcı:

Gəlin deyər: – Hanı anam?
Kəsilməmiş qalıb hanam.

Qızlar xoru:

Qaynanan sənin anan,
Ay gəlin, xoş gəldin, xoş gəldin,
Bzim evə tuş gəldin, tuş gəldin.

Aparıcı:

Gəlin deyər: – Yox qardaşım,
Dağılıbdı yar-yoldaşım.

Qızlar xoru:

Qaynındı sənin qardaşın,
Ay gəlin, xoş gəldin, xoş gəldin,
Bzim evə tuş gəldin, tuş gəldin.

Aparıcı:

Gəlin deyər: – Hanı mirzə,
Sözlərimi yazıb düzə.

Qızlar xoru:

Dağlarda əkilib mərzə,
Göyərib qalxıbdı dizə,
Böyük qaynın sənə mirzə
Ay gəlin, xoş gəldin, xoş gəldin,
Bzim evə tuş gəldin, tuş gəldin.

Aparıcı:

Gəlin deyər: – Yoxdu bacım,
Başımnan alıblar tacım.

Qızlar xoru:

Baldızındı sənin bacın,
Ay gəlin, xoş gəldin, xoş gəldin,
Bzim evə tuş gəldin, tuş gəldin.

Qızlar xoru:

Gəlin gəldi, nə gətdi?

Aparıcı:

Yorğanla-döşək gətdi.

Qızlar xoru:

Yerində yurdunda qayım-qədim olsun.

Qızlar xoru:

Gəlin gəldi, nə gətdi?

Aparıcı:

Yaxşı qab-qacaq gətdi.

Qızlar xoru:

Dəstərxanı açıq, nehrəsi yağlı olsun.

Qızlar xoru:

Gəlin gəldi, nə gətdi?

Aparıcı:

İçi dolu sandıq gətdi.

Qızlar xoru:

Geyim-kecimi bol olsun.

Qızlar xoru:

Gəlin gəldi, nə gətdi?

Aparıcı:

Bəyimizə buxça gətdi.
Səhhəti-vücud olsun.

Qızlar xoru:

Gəlin gəldi, nə gətdi?

Aparıcı:

Özüylə ruzu gətdi.
Ayağı sayalı olsun.

Qızlar xoru:

Gəlin gəldi, nə gətdi?

Aparıcı:

Təmiz ad, ismət gətdi.

Qızlar xoru:

Başımız uca olsun.

HALAYLAR

Ay lo-lo-lo-lo

Halay başçılarından biri:

Çəkin, halay düzülsün,
Xumar gözlər süzülsün,
Kim halaya girməsə,
Əli yardan üzülsün.

I dəstə:

Ay lo-lo-lo-lo.

II dəstə:

Ya ləy-le.

I dəstə:

Məktub yazıb yolladım.

II dəstə:

Ay lo-lo-lo-lo-lo,
ya ləy-le,
Suya saldım yolladım
ya ləy-le
Ay özüm gələ bilmədim,
Ay, salam-dua yolladım.

I dəstə:

Ay dəstə çubuq dərərlər
Ay yarpaq üstə sərərlər.
Ay xoş o qızın halına
Ay istəyinə verərlər.

II dəstə:

Ay məktub yazdım qarasız
Ay dərdə düşdüm çarəsiz.
Ay quşdar, mənim dilimdən
Ay yarıma yalvarasız.

Hamı:

Ay gül baxçadan yolum var,
Anan qoymur gəlim yar.
Demə ki, bivəfasan,
Sənə qurban olum yar.

Ya lə-li, yar düymələri mərcan

I dəstə:
Ya lə-li, balaca pustə mənəm,

II dəstə:
Ya lə-li, yar düymələri mərcan.

I dəstə:
Ya lə-li, püstəni istəmərəm.

II dəstə:
Ya lə-li, yar düymələri mərcan.

I dəstə:
Ya lə-li, hər igid oğlana,

II dəstə:
Ya lə-li, yar düymələri mərcan.

I dəstə:
Ya lə-li, özümü bəsləmərəm,

II dəstə:
Ya lə-li, yar düymələri mərcan.

İncidən üzülmüşəm,
Mərcana düzülmüşəm,
Ala papaq, boz oğlan
Mən sənə yazılmışam.

I dəstə:
Narınca bax narınca,
Saraldı saralınca.
Məndə ürək qalmadı,
Səndən bir söz alınca.

II dəstə:
Ağac başında qora,
Yar gəlir salxım qıra.
Dedim gülüb oynaram,
Bilmədim, düşdum tora.

Ha ləli, halayı döndər bəri

I dəstə:

Ha ləli, yeri-yeri gəlirəm.

II dəstə:

Ha ləli, halayı döndər bəri.
Ha ləli, qolları düymələrəm.
Ha ləli, aç qolları mən girim,
Ha ləli, uzaq yerdən gəlirəm.

Yeri-yeri düşən yar,
Yeni işə düşən yar.
Elçiləri küsübdür,
Özü elçi düşən yar.

İynə sancdım divara,
Elçi gondərdim yara.
Elçi macal vermədi
Mən elçiyəm o yara.

Yaşıl yarpaq, qızılgül

I dəstə başçısı:

Oymaqdan, ay oymaqdan,
Öldüm xına qoymaqdan
Barmaqlarım yanıbdı,
Çubuğa od qoymaqdan.

Hamı (əl çala-çala):

Yaşıl yarpaq, qızılgül.

II dəstə:

Sandıq üstə gəzərəm,
Xırda şahı düzərəm.
Mən bu elin qızıyam,
Qəriblikdə gəzərəm.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Yük altdan zəli çıxdı,
Zəlinin dili çıxdı.
Qardaş, boyuna qurban
Aldığın dəli çıxdı.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Yeri-yeri eşiginə,
Mən baxım yerişinə.
İpək olum dolanım,
Xəncəlinin gümüşünə.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Yeri-yeri at gətir,
Yügən apar, tut gətir,
O yerin sovqatından
Bir qutuya tut gətir.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Məcməyidə üzüm var,
Üzüm, səndə gözüm var.
Evdəki üç bacının
Kiçiyində gözüm var.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Qarabağda bağ olmaz,
Qara salxım ağ olmaz,
Qonşuda qız sevənin
Ürəyində yağ olmaz.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Köynəyi yaşıl oğlan
Gey gəl, yaraşır oğlan.
Anam sənə qız verməz
Götür məni qaçır oğlan.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

İynə-sap mizim üstə,
Ağ köynək dizim üstə,

Satın alsın göndərsin,
Tikməyi gözüm üstə.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

O taydan əl eyləmə,
Könlümü al eyləmə,
Sən mənimsən, mən sənin,
Özgə xəyal eyləmə.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Qızıl gülsən, butasan,
Dostu əziz tutasan,
Mən o güldən deyiləm,
İyləyəsən, atasan.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Qızıl quşum göydədi,
Qanadları yerdədi,
Qurban olum yarıma,
Yarım qərib yerdədi.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Gəlinə bax, gəlinə,
Əlin vurub belinə,
Gəlinə söz deməyin,
Qaçıb gedər elinə.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Mənim yarım naşıdı,
Naşıların başıdı,
Atlananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Ağac atdım ağaca,
Ağac düşdü yamaca.
Qardaşım bir qız sevib,
Qaşı, gözü balaca.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Süd üstü qaymaq gərək,
Qaymağı yaymaq gərək,
Bəzi-bəzi qızların
Cilovun yığmaq gərək.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Dəyirman üstü çiçək,
Oraq gətir gəl biçək,
Qardaş, adaxlıvı gördüm
Uzunboy, qarabirçək.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Miçətkəni qurmuşam,
Daldasında durmuşam,
Burdan keçən ceyranın
Ürəyinə ox vurmuşam.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

O tayda binə gəlləm,
Gedərəm yenə gəlləm,
Bir də yarımı görsəm,
İmana, dinə gəlləm.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Tut ağacı boyunca,
Tut yemədim doyunca

Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Sərçələr cəh-cəh edər,
Həyəti palçıq edər,
Nədənsə kiçik bacım
Hər dəfə acıq edər.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

Balaca cib bıçağı,
Oldum yarın naçağı,
Bir səhər gəl, bir axşam,
Bir də günorta çağı.

Hamı:

Yaşıl yarpaq, qızılgül.

HAXIŞTALAR

Araz qırağı çiçək, haxışta,
Orağ götür gəl biçək, haxışta.
Qardaş, nişanlın gördüm, haxışta,
Üzündə yumru birçək, haxışta.

Ağ sənək ağzı burma, haxışta,
Doldurub dalda durma, haxışta.
Qardaş nişanlın gördüm, haxışta,
Ağzında dili xurma, haxışta.

Ağ dəvənin gözləri, haxışta
Yerə dəyir dizləri, haxışta.
Qaraların qızları, haxışta
Kəbin kəsir özləri, haxışta.

Aşığam ələmim var, haxışta,
Qızıldan qələmim var, haxışta
Yaxın gələ bilmirəm, haxışta
Uzaqdan salamım var, haxışta.

Alma atdım nar gəldi, haxışta
Kətan köynək dar gəldi, haxışta,
Qapıya kölgə düşdü, haxışta,
Elə bildim yar gəldi, haxışta.

Armud ağacı haça, haxışta,
Əlim dolaşdı saça, haxışta.
Qardaşa qurban olum, haxışta,
O gəlir qaça-qaça, haxışta.

Ağ dəvə düzdə qaldı, haxışta,
Yükü Təbrizdə qaldı, haxışta.
Oğlanı dərd apardı, haxışta.
Dərmanı qızda qaldı, haxışta.

Araqçının haşımı, haxışta,
Hara qoyum başımı, haxışta,
Səni mənə verməzlər, haxışta
Tökmə gözün yaşını, haxışta.

Ağ alma, qızıl alma, haxışta.
Yol boyu düzül alma, haxışta
Ya mənim muradım ver, haxışta,
Ya məndən üzül, alma, haxışta.

Bu dərə, uzun dərə, haxışta,
Getdikcə uzun dərə, haxışta.
Burda bir bağ salmışam, haxışta,
Dost gələ üzüm dərə, haxışta.

Bağımızda göy xiyar, haxışta,
Boyun boyuna uyar, haxışta.
İkimiz bir cut sona, haxışta,
Ayırmağa kim qıyar, haxışta.

Qardaş atın beş olsun, haxışta,
Əlin tərlan quş olsun, haxışta.
Hər hayana gedəndə, haxışta.
İman yoldaşin olsun, haxışta.

Qardaş atın nalıyam, haxışta,
Üstün ipək xalıyam, haxışta.
Bir də mənə can demə, haxışta,
Mən özgələr malıyam, haxışta.

Qapımızda qələmə, haxışta,
Quzu təki mələmə, haxışta.
Məni sənə verməzlər, haxışta
Özün həlak eləmə, haxışta.

Qapımızda cüt qalaq, haxışta,
Qızın birin biz alaq haxışta.
Qardaşına demişik haxışta,
Anasına yalvaraq, haxışta.

Qızılgül oyum-oyum, haxışta,
Dərim qoynuma qoyum, haxışta.
Yağış yağar yer doymaz, haxışta
Mən səndən necə doyum, haxışta.

Qab-qacağım rəfdədi, haxışta,
Hərə bir tərəfdədi, haxışta
Hər gün gördüyüm yarı, haxışta,
Görmürəm bir həftədi, haxışta.

Qardaşın ağ atı var, haxışta
Cibində manatı var, haxışta.
Qardaşa qurban olum, haxışta,
Hər yerdə hörməti var, haxışta.

Qızıl iynənin sapı, haxışta,
Görünür bizim qapı, haxışta.
Yarı yardan eyləyən, haxışta,
Dolansın qapı-qapı, haxışta.

Qızıl üzük laxladı, haxışta,
Verdim anam saxladı, haxışta.
Əziz gün, əziz gecə, haxışta,
Yar məni qabaqladı, haxışta.

Qoyun gəlir meşədən, haxışta,
Südü verir şişədən, haxışta.
Bacı, bir yar sevmişəm, haxışta,
Bığları bənövşədən, haxışta.

Dağları gəzdim gəldim, haxışta,
Daşını düzdüm gəldim, haxışta,
Yarı bivəfa gördüm, haxışta,
Əlimi üzdüm gəldim, haxışta.

Evləri dağa gedir, haxışta,
Qar yağa-yağa gedir, haxışta.
Əlində güllü dəsmal, haxışta,
Gül yığa-yığa gedir, haxışta.

Evimiz yol üstüdü, haxışta,
Ordan çıxan tüstüdü, haxışta.
Bir səhər gəl, bir axşam, haxışta,
Görən desin dostudu, haxışta.

Əmim oğlu elinə, haxışta,
Şal yaraşır belinə, haxışta.
Əmisi qızı qurban, haxışta,
Qələm tutan əlinə, haxışta.

İstəkanı noxudu, haxışta,
Evdə qonaq çoxudu, haxışta.
Qonaqların içində, haxışta,
Bircə qardaş yoxudu, haxışta.

Köynəyi tikən ölsün, haxışta,
Qəddini bükən ölsün, haxışta.
Mən sənə göz dikmişdim, haxışta.
Sənə göz dikən ölsün, haxışta.

Məktubu saldım yola, haxışta,
Gözlərim dola-dola, haxışta.
Dolma gözlərim, dolma, haxışta,
O gələn qardaş ola, haxışta.

O tayda yatan oğlan, haxışta,
Köynəyi kətan oğlan, haxışta.
Nişanlın apardılar, haxışta,
Bixəbər yatan oğlan, haxışta.

AĞILAR

Əziziyəm bu dağa,
Ellər köçər bu dağa,
Elə ki mən dözürəm,
Kimsə dözməz bu dağa.

Əzizim yanar oda,
Pərvanə yanar oda,
Dərdimi dağa desəm,
Od tutar yanar o da.

Bahasız daşdı dünya,
Çürük ağaşdı dunya,
Kimə deyim dərdimi,
Bütün qan-yaşdı dünya.

Mən aşiqəm yad ola,
Ya tökülə, ya dola,
Qorxuram düşəm öləm,
Ağlayanım yad, ola.

Dedim sonam ağlama,
Qara çarğat bağlama,
Öz dərdim mənə bəsdi,
Sən ürəyimi dağlama.

Gedərəm Ərzuruma,
Dözərəm hər zülümə,
Yazaram göz yaşımla,
Gedərəm, ərzə Ruma.

Əzizim hana-hana,
Əlləri şana-şana,
Tərk etdi bu dünyanı,
Qoymadı bir nişana.

Çıxdım daqlar başına,
Yazı yazdım daşına,
Gələn-gedən oxusun,
Nələr gəldi başıma.

Aşıq itkin diyara,
Xalın itkindi yara.
Səni məndən edəni,
Düşsün itkin diyara.

Əzizim qala yerdə,
Bürc yerdə, qala yerda,
Qorxuram düşüb öləm
Çənazəm qala yerdə.

Ovçular duran yerdə,
Yay-oxun quran yerdə,
Görüm əlin qurusun,
Mənə ox vuran yerdə.

Xoruz ban verən yerdə,
Yaram qan verən yerdə,
Ana gəlsin yetişsin,
Oğul can verən yerdə.

Əzizim tikə-tikə,
Doğrandım tikə-tikə,
Anan saçını yolur,
Kəfənin tikə-tikə.

Əzizim qaranı yaz,
Ağ üstən qaranı yaz,
Hər dəftərin başında,
Mən baxtı qaranı yaz.

Dərd əlindən can durmaz,
Yaram çoxdur, qan durmaz,
Məni elə yandırdın,
Od da elə yandırmaz.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız,
Aləmə dərman etdim,
Özüm qaldım dərmansız.

Bənövşə çiçəkləndi,
Yarpağı ləçəkləndi
Yatmağın yalan oldu,
Ölümün gerçəkləndi.

Mən aşiq qəm çiləndi,
Səməndin qəmçiləndi,
Mənim viran könlümə,
Dərd yağdı, qəm çiləndi.

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi,
Gedin anama deyin,
Yaxşı tutsun yasımı.

Bülbül gül bərabəri,
Maral göl bərabəri,
Burda bir igid ölmüş
Vətən, el bərabəri.

Mən aşıq lala dağı,
Bürüyüb lala dağı,
Hər yara sağalsa da,
Sağalmaz bala dağı.

Aman amana qaldı,
Halım yamana qaldı,
Balamın üzün görmək,
Axır zamana qaldı.

Dəryada gəmim qaldı,
Əkmədim zəmim qaldı,
Arzun gözündə qalsın,
Necə ki, mənim qaldı.

Şalım qara boyandı,
Uçu yerə dayandı,
Mənim ahu-zarımdan,
Yatmış fələk oyandı.

Bulud gəldi qalandı,
Köylüm evi talandı,
Nə dərdimə dərman var,
Nə yaram sağalandı.

Qızılgül axçalandı.
Dərmədim axçalandı,
Səni kimlər qarğadı,
Paltarın boxçalandı?

Maralın gözü qanlı,
Gözü qan, üzü qanlı,
Balam əlimdən getsə,
Tutaram sizi qanlı.

Aman fələk, dad fələk,
Heç olmadım şad fələk,
İçirtdikin şərbətdən,
Özün də bir dad fələk.

Canımı aldı fələk,
Dərdlərə saldı fələk,
Bağda bir nar yetirdim,
Onu da saldı fələk.

Araz qırağındayam,
Çeşmi çırağındayam,
İtirmişəm balamı,
Onun sorağındayam.

Dağların qarı mənəm,
Gün düşsə ərimənəm,
Qəbrimi quzeydə qaz,
Cavanam çürümənəm.

Fələyi dindirəydim,
Bilməzin bildirəydim,
Mənə yazı yazanda,
Qələmin sındıraydım.

Keçməyir sözüm neylim,
Bu dərdə dözüm neylim,
Ah çəksəm aləm yanar,
Çəkməsəm özüm neylim?

Qaynar qazanım mənim,
Çalar ozanım mənim,
Düşsün əldən qələmin,
Yazı yazanım mənim.

Ox getdi qaldı yayım,
Göyə qalxdı harayım,
Nəsibim ayrılıqdı,
Qismətdə yoxdu payım.

Kölgədən günə düşdüm,
Bağlı divana düşdüm,
Fələk, evin yıxılsın,
Sən deyən günə düşdüm.

Lələ mənəm, lələ məni,
Yük altdayam hələ mən,
Dərddən, qəmdən, hicrandan,
Bağlamışam şələ mən

Daş gəlir sellərinən,
Dərd gəlir ellərinən,
Bu dərd məni öldürməz,
Yandırar illərinən.

Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun,
Yıxdın atam evini,
Qapısın bağlar qoydun.

Əziziyəm yara var,
Yaram üstə yara var,
Aç bax bağrımın başın
Gör yanmamış hara var?

Əzizim nə çaram var,
Bir saralmaz yaram var,
Tikildi dirəksiz damı
Yatmasam nə çaram var?

Araz aşanda ağlar,
Kür qovuşanda ağlar,
Analar-balasından,
Ayrı düşəndə ağlar.

Bu dağlar, yalın dağlar,
Möhnəti qalın dağlar,
Sizdə igid basdırdım,
Keşikdə qalın, dağlar.

Bostanım, bağım ağlar,
Qəmdən yarpağım ağlar,
Sağam özüm ağlaram,
Ölsəm torpağım ağlar.

Ağlayan başdan ağlar,
Kirpikdən, qaşdan ağlar,
Qardaşı ölən bacı,
Durar obaşdan ağlar.

Dağlara dolu düşər,
Qar düşər, dolu düşər,
Qəbrimi yol üstə qaz,
Anamın yolu düşər.

Əzizim nədən gəlmir,
Qürbətə gedən gəlmir,
Hamı gedənlər gəldi,
Mənimki nədən gəlmir.

Dağlardan enənə bax,
Evinə dönənə bax,
Muradına çatmayıb,
Çırağı sönənə bax.

Mən aşiq üzümüm yox,
Bağım var, üzümüm yox,
Sən ki belə tez getdin,
Fərağa dözümüm yox.

Əziziyəm ay qardaş,
Qaşın ucu yay qardaş,
Ölsə bacılar ölsün
Heç deməsin, vay qardaş.

Dağlar başın sar almış,
Duman almış, qar almış,
Göydən düşən bir daşla,
Od-ocağım qaralmış.

OVSUN NƏĞMƏLƏRİ

1

Mən nənəmin ilkisiyəm,
Ağzı qara tülküsüyəm,
Mən səni yandırdım,
Sən də məni yandır.

2

Təzə ay, səni xoş gördük,
Ziyilin yerin boş gördük.

3

Çax daşı,
Çaxmaq daşı,
Aldah versin
Yağışı.

4

Kölgə dağlara,
Gün buralara.

5

Yağladım,
Zağladım,
Qurdun ağzın
Bağladım.

6

Xeyrə atırsan, at!
Şərə atırsan, yat,

7

Ağ daş, qara daş,
Buna bir qardaş.

8

Tapıl-tapıl pul verrəm,
Tapılmasan kül verrəm.

9

Fatma nənə, Fatma nənə,
Sarısı sizin zəmiyə,
Yaşılı bizim zəmiyə!

10

Tabaq gəldi,
Dabaq qaç.

11

Xəzri səni alaram,
Ələyimə salaram
Üç deyincə kəsməsən,
Od-ocağa qalaram.

12

Mən anamın ilkisiyəm,
Ağzı qara tülküsüyəm,
Xəzri səndən bezmişəm,
Gilavar gözləmişəm.

13

Bir, İki,
Üç,
Puç!

14

Biz gəlini gətirdik,
Mənzilinə ötürdük,
Gəlin uğurayaqdı,
O, ərinə dayaqdı.

15

Üzərriksən, havasan,
Min bir dərdə davasan,
Balama göz vuranın
Gözlərini ovasan.

16

Üzərlik dana-dana
Ocaqdan götür sana,
Nəzəri bəd olanın
Gözləri odda yana.

17

Üzərliyim çatdasın,
Yaman gözlər partdasın,
Ağrın, bəlan tökülsün,
Dərd üstündən atdansın.

18

Dörd tərəfi gül eylədim,
Bədnəzər gözün kül eylədim.
Kandara sancdım iskənəni,
Qayıtsın evin gedəni.

19

Əqrəb-əqrəb axınca
Çaxmağını çaxınca,
Əqrəb oldu bir kişi,
Bağladı qurdu-quşu.
Süleyman peyğəmbərin bıçağı,
Fatma nənənin qurşağı.
Üf... üf... üf...

20

Həzrət Suleyman eşqinə,
Cin qızı Mərcan hökmünə,
Bəni-adəmdən, bəni-heyvandan,
Cindən, şeytandan, axar sudan,
Köklü ağacdan, dibli qayadan,
Yeddi yolun ayrıcından
Hər kəsin çilləsinə düşmüsənsə,
Çilləni kəsdim.

21

Bir ovuc duz,
Ocaqda qız.
Yanıb kül olsun,
Balama dəyən göz!

22

Ey şeytanlar, şeytanlar,
Bu ciyəri alınız,
Buna qənaət ediniz,
Bu qadını öldürməyiniz,
Zərərinizi toxundurmayınız,
Qoyun ciyəri sizə kafi deyilmi?
Bu qoyun çiyərini ciyər ədd etmirsinizmi?
Əgər belə isə, əlimə qılınc alaram
Hesabsız ruhlarımla,
Sizə hüçum edərəm.

23

Ey albastn zalım,
Qoy ciyəri yerinə,
Zavallını azad et,
Sözümü tutmazsan,
Mənə hörmət etməzsən
Gözlərini çıxararam.

24

Mənim sacım sac deyil,
Doyub toxdu, ac deyil.

25

Şeş,
Meş,
İliş.

26

Ağırlığım, uğurluğum,
Dağlara, daşlara,
Göydən uçan quşlara,
Qurumuş ağaclara
Bal verməz arılara
Deyingən qarılara.
Boz qurddan hay alasan,
Xızırdan pay alasan.
Kamal suyu, camal suyu,
Can sağlığı suyu.

27

Üzərliksən, havasan,
Min bir dərdə davasan.
Çıxdım uca bir dağa
Çox yalvardım allaha.
– Dedi, nədir biçarə?
– Dedim biçarəyə çarə.
– Dedi, məzəli üzərlik,
– Dibi kölgəli üzərlik,
Dər sal, oda çatlasın,
Yaman gözlər pırtlasın.
Bir, iki, üç, dörd, beş, altı, yeddi,
Qada-bəla bizdən getdi.
Üzərliyim çırtladı,
Yaman gözlər pırtladı.
Başı börklü üzərlik,
Köməcli, köklü üzərlik.
Səni salıram oda,
Görsət hökmün, üzərlik.

SINAMALAR

Tale, gün, güzəran

Ayaq-əl dırnaqları bir vaxtda kəsilsə toyla yas qovuşar.

Ayağın altı qaşınsa yol gedərsən.

Asılqanda arvad-kişi paltardarı bir-biri üstə asılsa sahibləri şərə düşər.

Axşam-şər vaxtı evi süpürməzlər. Süpürəndə də "toy evi süpürəm" deməli, zibili küncə yığıb saxlamalı, sabah atmalısan, yoxsa evin bərəkəti qaçar.

Bağ-bostanda payaya quru it, ya da at kəlləsi keçirsən məhsula göz dəyməz.

Bir kimsəyə yaylıq bağışlasan araya ayrılıq düşər.

Bir yerdə toplaşmış ilan görsən, deyərlər altlarında xəzinə var.

Bir iş görəndə yanındakı asqırsa, işi saxlayıb onun kürəyi arxasına astaca vurmalı, "sağlam olasan", "şükür olsun" söyləməlisən. Elə ölüdən danışılanda da asqırılsa belə etməlisən, yoxsa uğursuzluq baş verər.

Boynu çökək adam deyirlər xain olar.

Burnunun ucu gicişən kimsə uğursuz xəbər eşidər.

Vaxtsız banlayan xoruzun başın kəsməsən bədbəxtlik baş verər.

Qapı iti ulasa bədbəxtlik üz verər. İti azdırsan bəla sovuşar.

Qapıda sağsağan qırıldasa evdəkilər şad xəbər eşidər.

Qarşına dovşan çıxsa işin gətirməz.

Qaşın üstü qaşınsa kimsə səni sevindirər.

Qəbrə barmaq uzatsan, deyərlər ölü səni də yanına çəkər. Əgər bilmədən belə edibsənsə, qəbrə sarı uzatdığın barmağını dişlərin arasına alıb sonra sağ ayağının altına qoymalısan ki, bəla sovuşsun.

Qışda ilan görən arzusuna qovuşar.

Qulağın cingildəsə kimsə sənin haqqında danışır. Həm də sağ qulağın cingildəsə xeyrinə, sol olsa zərərinə danışırlar.

Qurbanlığın sümüklərini itə atsan, qurban qəbul olunmaz.

Dənizdə tufan qopsa, deyərlər kimsə batıb, ya da ki, cadu atıblar. Su murdarlıq götürmədiyindən belə tufandır.

Dilini dişləsən ət yeyərsən.

Dilinə pay çıxsa kiminsə payını yemisən.

Dırnaqda olan ləkələr belə yozulur: baş barmaqda – xoşbəxtlik, şəhadət barmaqda – bədbəxtlik, orta barmaqda – yol getmək, nişan barmağında – təzə paltar kcymək, çeçələ barmaqda – məhəbbət.

Evdə çox siçan görünsə, deyərlər il qıtlıq olar.

Evin sahibi həyətdə söyüd əksə ya özünə, ya da arvadına uğursuzluq üz verər.

Evdəkilərin ayaqqabılarını saysan bədbəxtlik olar.

Evin tavanının küncləri tor bağlasa, o ev tez-tez borca düşər.

Əgər mıx, nal tapan onları evdə saxlasa uğuru xeyirli olar.

Əlləri qoynunda durmaq kədər, qəm gətirər.

Əl-üzünü yumadan mal-heyvana yem versən, onlar arıqlar, südləri azalar.

İki arvad arasından keçən kişinin öz arvadı yanında sözü ötməz.

İlin axır çərşənbəsində eşidilən söz düz çıxar.

İt ot yesə, deyərlər məhsul bol olar.

Yolda qarşına ilan çıxsa yolunu dəyişməlisən, yoxsa uğursuzluğa düşərsən.

Yolda tiyəsi sənə tərəf düşmüş ağzı açıq bıçaq tapsan dava-dalaşa düşərsən. Bıçağı götürüb tiyəsini qatlalamalı, bir-iki addım gəldiyin tərəfə getməli, sonra qayıdıb yoluna davam etməlisən. Onda şər iş səndən uzaq düşər.

Kandarda əyləşsən böhtana düşərsən.

Kişi köynəyini tərs geysə dava-dalaşa düşər.

Kişi bilmədən düymələrini taydəyişik düymələsə qazancı artar.

Kiprikdən üzə tük düşəndə yanındakı adam bunu ona xəbər verir. O, ürəyində niyyət tutub sağ əlini üzünə tərəf aparır. Əgər əlini düz kirpik üstə aparsa, deməli niyyəti gerçək olar. O, götürdüyü tükü yaxasından içəri salır.

Gecə süfrəni çırpsan evin bərəkəti qaçar.

Gözü yol çəkən kimsə şad xəbər eşidər.

Günəş batandan sonra evdən nəsə versən evin bərəkəti gedər.

Ovçu ilk ovundan nə qədər çox pay versə, sonralar ovu bir o qədər uğurlu olar.

Ovçunun qarşısına dovşan çıxarsa, ovu uğursuz keçər.

Ovçunun ovu omba dursa o, ovçuluqdan əl çəkməlidir, yoxsa bədbəxtliyə düçar olar.

Ovçu meyit aparanlara rast gəlsə geri qayıtmalıdır, yoxsa ovu uğurlu olmaz.

Ocaqda odun çatıltı ilə ətrafa qığılcım saçsa, deməli buradakılardan biri haqqında kimsə pis danışır.

Özgənin evində dırnaq kəssən o evdə bədbəxtlik olar.

Paltarın söküyü, ya da düyməsi əyində tikilərsə, bu işi görən ağzına bir qırıq sap almalıdır, yoxsa şərə, böhtana düşər.

Səfərə gedənin arxasınca daş atsan o, geri qayıtmaz.

Səfərə gedənin arxasınca ev süpürsən işi bəd olar.

Səfərə gedənin arxasınca su səpsən işi uğurlu olar, sağ-salamat qayıdıb gələr.

Sınıq qabda xörək yesən şərə düşərsən.

Söyləmək istədiyin sözü səndən qabaq kimsə desə, deməli o, səndən çox yaşayacaq.

Südəmər uşağı olan qadını ilan sancmaz.

Süfrəyə duz dağılsa dava-dalaş olar. Odur ki, dağılmış duzun üstünə şirin nəsə qoyulur ki, şər-şür sovuşsun.

Süfrə yığışdırılmamış qalxsan onda evin bərəkəti qaçar. Tikən əlindən düşsə, deyərlər ki, sevinərsən. Onu götürüb sağ tərəfində oturana verməlisən, özün yesən sevincin əldən gedər.

Toyuğu yumurta üstə oturdanda əlin üstə kişi gəlsə cücələr beçə, arvad gəlsə fərə olar.

Toxumluğa haram qatsan bitməz.

Tutun altında kabab bişirsən ağac quruyar.

Tüfəngin üstündən kimsə keçsə, o, çilləyə düşər, düz vurmaz.

Uşaq ələyi diyirlətsə ev bərəkətsiz olar.

Ürəyi düz adam sözü üstə gəlib çıxar.

Səhhət

Aya çox baxanın yuxusu qaçar.

Baş ağrıyanda qaynadılmış kəklikotu suyunda yusan ağrı sovuşar.

Bir kimsənin başına dolanan xəstələnər.

Boğazında zobu olan kimsə boynunda kəhrəba boyunbağı gəzdirsə zob əriyib yox olar.

Böyüməyən, boyu balaca qalan uşağı kəsilmiş ağacın üstündən üç kərə o tərəf-bu tərəfə atdandırsan böyüyər.

Qaranquş yuvasını uçuranın üzü çillənər.

Qarnı işləyənə quru nar qabığını qaynadıb suyunu içirsən sağalar.

Qarnı işləyənə doşablı quymaq yedirtsən sağalar.

Qız başına oğlan papağı qoysa saçı tökülər.

Qızarmış gözə təzədəm çay töksən qızartı çəkilər.

Qurd dərisinə salınanın qabırğa ağrısı kəsilər.

Dəmirov təzə-təzə oianda üstünə tüpürsən keçər.

Dovşanın sümüyünü yandırıb külünü ağrıyan diş üstə qoysan ağrı kəsilər.

Dovşanın ödünü əzib qanıyla qarışdıraraq sulanan gözə çəksən göz sağalar.

İlk kərə qurbağa qurıltusunu eşidən kimsə həmin anda bir sapı düyünləyib xəstəyə versə və xəstə o düyünü açsa sağalar.

Yanında dəvə yunu gəzdirənə göz dəyməz.

Yatmış uşağı öpsən xəstələnər.

Yüyrüyü boş yırğalasan uşağın qulaqları ağrıyar.

Kəndə çiçək düşəndə evlərin qapısına qırmızı parça bağlasan çiçək sovuşub gedər.

Kəsilmiş dırnaqları bir yerə toplamayıb dağıdan kimsə huşsuz olar.

Kəsilmiş saçı tapdayanın başı ağrıyar.
Körpəyə tez-tez balıq yedirtsən gec dil açar.
Körpənin boynundan öpsən hirsli, küsəyən olar.
Körpəni şər qovuşan vaxt evdən çıxaranda yanına pambıq, qənd, kömür qoysan xəstələnməz.
Gec danışan uşağa alaqarğa əti yedirtsən danışar.
Geç dil açan uşağa göyərçin yumurtası yedirtsən tezliklə danışar.
Leyləyin yuvasını dağıdan xəstəlik tapar.
Oda, suya tüpürən, onları murdarlayan tez-tez xəstələnər.
Özü ilə ilan qabığı gəzdirəni ilan sancmaz.
Öskürənə heyva tumu yedirtsən öskürək kəsilər.
Paltarına heyva çubuğunun kəsilib deşilmiş bir parçası bənd edilmiş uşağa göz dəyməz.
Pambığı ananın döş südündə isladıb ağrıyan göz üstə qoysan ağrı kəsilər.
Sarılığı olana bu xəstəliyi keçirmiş kimsə qəfildən bir şillə vursa xəstəlik sovuşar.
Sarılıq tutanı ilk dəfə görən kimsə çeçələ barmağını çərtib qanından onun yanaqlarına sürtsə xəstəlik sovuşar.
Uzanmış uşağın üstündən keçsən boyu balaca qalar.
Uzanmış kimsənin üstündən keçsən səndəki xəstəlik ona adlayar.
Uşaq ağlağan olsa onu yeddi yol ayrıcında çimizdirsən sakitləşər.
Uşaq güzgüyə baxsa gecə narahat yatar.
Uşaq xəstələnəndə kömür parçası götürub bulaqdan gətirilmiş suya salınır, kömür suda batsa, deməli uşaq gözə gəlib. Həmin suda uşağı çimizdirsən tezliklə sağalar.
Uşağı gecə başından yuxarı qaldırsan narahat yatar.
Uşağı süpürgə ilə vursan tez-tez xəstələnər.
Uşağın sağ çiyninə gözmuncuğu tiksən ona göz dəyməz.
Uşağın ilk baş tükü saxlanmazsa, tez-tez başı ağrıyar.
Uşağın papağını əlində fırlatsan başı ağrıyar.
Xəstə olan evdə qonşuya soğan, sarımsaq aparsan xəstəlik sovuşar.
Xoruldayan üçün muşqursan xorultusu kəsilər.

Yuxu

Yuxuda ayaqqabı görsən bəd xəbər eşidərsən.
Yuxuda balıq görsən il bolluq olar.
Yuxuda saç uzatmaq uğursuzluq əlamətidir.
Yuxuda görsən çimirsən, deməli işlərin düz gedəcək.
Yuxuda od yandırmaq xoş işlərin olacağına işarədir.
Yuxuda ev süpürmək sevinc gətirməz.
Yuxuda toy görmək yas, yas görmək toy deməkdir.
Yuxuda işıq söndürsən bədbəxtlik olar.
Yuxuda dişin düşsə özünə, yaxın adamlarına bədbəxtlik üz verər.

Yuxuda güllə atsan dava-dalaşa düşərsən.
Yuxuda duz alsan bolluğa qovuşarsan.
Yuxuda tənbəki görmək bəd xəbərə işarədir.
Yuxuda ət alsan nahaq şərə düşərsən.
Yuxuda səni öpən kimsə xəstələnər.
Yuxuda gülən kimsə bəd xəbər eşidər.
Yuxuda arabaya minsən uğursuzluğa düşərsən.
Yuxuda sənə it hürsə pis hadisə ilə uzləşərsən.
Yuxuda su görsən xoşbəxtliyə qovuşarsan.
Yuxuda boylu bıçaq görsə oğlan, alma görsə qız doğar.
Yuxunu suya danışsan təsirdən düşər.
Yuxuda qızıl-gümüş görən qız tezliklə nişanlanar.
Yuxuda örkən, sicim görənin işləri uzanar.
Yuxuda çay, bulaq görənin işləri uğurlu olar.
Yuxuda qarğa görən bəd xəbər eşidər.
Yuxuda uzunboğaz çəkmə görən bəd xəbər arxasınca uzaq yol getməli olar.
Yuxuda göyərçin görən qıza tezliklə elçi gələr.
Yuxuda yaraşıqlı, bərli-bəzəkli ev görən qonaq gedər.
Yuxuda durna görmək ayrılıq nişanəsidir.
Yuxuda güzgü görənin işi uğurlu olar.
Yuxuda at görən arzusuna qovuşar.
Yuxusunu pis görən ayılıb yastığını o biri üzü üstə çevirsə, yuxu sınar.

Qonaq

Başdan bir tük ayrılıb alına düşsə deyərlər qonaq gələr.
Qənd parçası böyrü üstə düşsə arzuolunan qonaq gələr.
Qonağın ayaqqabılarını bayıra sarı çevirsən qonaq tezliklə çıxıb gedər.
Qonağın ayaqqabılarına duz səpilsə o, tezliklə çıxıb gedər.
Yemək zamanı əldən bıçaq düşsə kişi, qaşıq, çənkəl düşsə qadın qonaq gələr.
Yoğrularkən xamır atdanarsa qonaq gələr.
Kirpik yük götürsə əlidolu qonaq gələr.
Pişik üzü qapıya sarı durub üz-gözünü tumarlasa qonaq gələr.
Süfrə üstə tikən əlindən düşsə evə qonaq gələr.
Stəkan-nəlbəki, qab-qacaq süfrədə sıra ilə düzülsə qonaq gələr.
Stəkana süzülmüş çayın içində çay puçalının ləçəyi olsa qadın, özəyi olsa kişi qonağı gələr.
Uşaq əyilib iki ayağının arasından baxsa qonaq gələr.
Xoruz evin kandarında banlasa qonaq gələr.
Çörək tikəsi üzü-üstə düşərsə qonaq gələr, arxası üstə düşərsə evdəki qonaq çıxıb gedər.

Boylu bayram günləri paltar-parça kəssə doğacağı uşaq naqis olar.

Boylu yatarkən üstündən keçsən doğacağı uşaq axsaq olar.

Boylu yuxuda qızıl üzük görsə qızı olar.

Boylu yerikləyəndə balıq yesə uşağı gec dil açar.

Boylu tez-tez güzgüyə baxsa göyçək qızı olar.

Boylunu çağırsan durub gələndə əvvəl sağ ayağını qabağa atsa oğlan, sol ayağını atsa qız doğar.

Boylunun uşağı kimin üzünə tərpənsə, o kimsəyə oxşayar, onun xasiyyətində olar.

Boylu olan evə dovşan gətirsən doğulacaq uşaq mırıq olar.

Boylu qara-qışqırıq salsa, deyingən olsa qız, sakit, həlim xasiyyətli olsa oğlan doğar.

Boylu çox, rahat yatarsa oğlan, az, narahat yatarsa qız doğar.

Boylunun qarnı aşağı sallanıb yastı olarsa qızı, yuxarı dartınıb sivri olarsa oğlu olar.

Boylu gün-gündən gözəlləşərsə, oğlan, kifirləşərsə qız doğar.

Boyluluq çağında qadının dodaqları qalınlaşarsa qızı, qaydasında qalarsa oğlu olar.

Boyluluq bilinincə qadının başına xəlvət bir çimdik duz atılar və göz qoyular, o, əlini başına sarı apararsa oğlan, ayağına sarı apararsa qız doğar.

Boyluluğun səkkizinci ayında qadının döşünə süd gələr: Bu süd əvvəlcə sağ döşə gəlsə oğlan, sol döşə gəlsə qız olar.

Boyluluğunu duyan qadın ilk kərə Günəşə baxsa qız, Aya baxsa oğlan doğar.

Balığın başında bir fal sümüyü var. Boylu üçün niyyət tutub onu oturduğun yerdə sağ çiynindən arxaya atırsan. Sümük arxası üstə düşsə boylu qız, üzü üstə düşsə oğlan doğar.

Qadın doğan zaman iki daş götürüb başı üstə bir-birinə vursan o, rahat doğar.

Qadın yerikləyəndə istədiyini tapıb yesə uşağı göyçək olar. Yeməsə kifir, hətta naqis olar.

Qoyun kəlləsi bişirildikdə cəhənglərini dartıb ayırırlar. Cəhəng sümüyü ətli çıxarsa niyyəti tutulan boylu qız, ətsiz çıxarsa oğlan doğar.

Doğmayan qadına başqa qadının südünü içirsən uşağı olar.

Təzə doğmuş qadının yanına əliboş getsən umsunub süddən kəsilər.

Uşaq diş çıxaranda hədik bişirilir və süfrəyə bıçaqla daraq qoyulur. Uşaq bıçağa əl uzatsa növbəti uşaq oğlan, darağa əl uzatsa qız olar.

Uşağın kəsilmiş göbəyini bir çöpə keçirib qapının üstündən assan o böyüyəndə evdar, qazanc gətirən olar.

Uşağın qırxı çıxana qədər evə kənar kimsə gəlsə, uşağı bayıra çıxarıb onu içəri buraxarlar, yoxsa uşaq çilləyə düşər.

Hava

Ağacların yarpaqları saralandan sonra gec tökülməyə başlasa, deməli, qış mülayim keçəcək.

Ağ buludlar küləyin əksinə olan istiqamətdə axsa, deməli yağış yağacaq.

Ay halələnsə, deməli sabah hava çiskinli, dumanlı olacaq.

Anası, özü və qızı dul qalmış evin ocaq daşını suya salsan, deməli yağış yağar.

Arılar pətəyin dövrəsində uçuşub şirə toplamağa getmirlərsə, deməli yağış yağacaq.

Axşamüstü topa-topa bulud keçsə, deməli sabah hava aydın və mülayim olacaq.

Bacalardan tüstü düz qalxmayıb ətrafa yayılarsa, deməli yağış yağacaq.

Buludlar sürətlə axsa yağış yağar.

Qaranquşlar alçaqdan uçsalar yağış yağar.

Qaranquşlar çayın üstü ilə uçsalar, deməli hava aydın olacaq.

Qarışqalar yuvaları ağzında torpaq topası düzəltsələr, deməli qışda qar çox yağar.

Qışda qarğalar yol üstə qonsalar, deməli havalar istiləşəcək.

Quraqlıqda eşşəyi çaya salıb islatsan yağış yağar.

Qurbağalar qara rəngə çalsalar yağış yağar,

Quşlar yuvalarını ağacların Günəşə sarı tərəflərində qursalar, deməli yay sərin keçər.

Deyirlər, dəvə oynasa qar yağar.

Evin ilk uşağı yeddi dolu dənəsin dişləsə dolu kəsər.

İt ağnayanda yağış yağar.

Yağış çox yağanda bir qaba tutub buxarlanıb qurtaranadək qaynatsan yağış kəsilər.

Yayda ağaclarda sarı yarpaqlar körünsə, deməli qış sərt keçər.

Gecə sağ qulağın qaşınsa səhər hava aydın, günəşli olar.

Künəş çıxanda üfüq qırmızı olarsa, xoş hava közləmə.

Günəşli gündə yağış yağmağa başlasa, deyərlər canavar balalayır.

Mal-qara az su içsə, deməli yağış yağacaq.

Mal-qara bir yerə yığışıb otlamasa, deməli tezliklə yağış yağacaq.

Ördəklər başlarını qanadları altına salıb səssiz-səmirsiz dursalar, deməli hava nəmişkən, soyuq olacaq.

Paltar yuyulanda külək əssə, deyərlər ər arvadını sevmir.

Pişik belini alova sarı çevirsə, deməli qış bərk soyuq keçər.

Sakit havalarda ağaclardan quru budaqlar qopub düşsə, deməli yağış yağar.

Sübh çağı buludlar Günəş çıxan tərəfə axsa, deməli yağış yağacaq.

Torağayın tez görünməsi yazın mülayim keçəcəyinə işarədir.

Xoruzlar ağız-ağıza verib banlasalar, deməli yağış yağacaq.

BAYATILAR

Vətən. Qürbət

Bu qala daşdı qala,
Çınqıllı daşdı qala.
Qorxuram qərib öləm,
Yar gözü yaşdı qala.

Gəl məni fağır ağla,
Kimsəm yox sağır ağla.
Çıx dağların başına,
Adımı çağır ağla!

Elədimi dad ola,
Fəryad ola, dad ola,
Qorxuram qərib öləm
Ağlayanım yad ola.

Yağı gəldi yanıma,
Susamışdı qanıma.
Döndüm qürbət ellərdən
Qüvvət gəldi canıma.

Dağ başında minara,
Şoxu düşüb çinara.
Qismətim qürbət oldu,
Sən başına qıl çara.

Kəm baxtı sönən qərib,
Qürbətdə ölən qərib.
Bəxtəvər günə düşdü,
Vətənə dönən qərib.

Mən aşiqəm qarabağ,
Şəki, Şirvan, Qarabağ
Tehran cənnətə dönsə
Yaddan çıxmaz Qarabağ.

Qəribəm bu vətəndə,
Gözüm yoldan ötəndə,
Qəriblik yaman olur,
Baş yastığa yetəndə.

Qərib ömrü bitəndə,
Qalar gözü vətəndə,
Sən yadıma düşürsən,
Bağda bülbül ötəndə.

Söz qaldı el gələnə,
Çırmandı sel gələnə.
Gözəl bir bağ salmışam,
El gələ kölgəlinə.

Baxdım şirin dillərə,
Düşdüm quru çöllərə,
Axtardım qohum qardaş,
Həsrət qaldım ellərə.

Əziziyəm dilən gəz,
Bağda gülə dilən gəz,
Qürbətdə xan olunca,
Vətənində dilən gəz.

Yol vermə yada Təbriz,
El gedə bada Təbriz,
Sənin həsrətindəyəm,
Can sənə fəda Təbriz.

Kəkliyim, fərəm sənsiz,
Düşübdür pərən sənsiz,
Yad eldə, yad ölkədə,
İnan, gülmərəm sənsiz.

Bu elin adı nədi?
Dostu nə, yadı nədi?
Qürbət eldə bilmədim
Ağzımın dadı nədi?

Payız qışdan əzəldi,
Yarpaq tökən xəzəldi,
Vətən viran da olsa,
O, cənnətdən gözəldi.

Araza gəmi gəldi,
Mən dedim hamı gəldi,
Sən ağla, ay gözlərim,
Ayrılıq dəmi gəldi.

Gəmi gəldi, yan gəldi,
İçində bir can gəldi,
Vətən həsrəti çəkdim,
Gözlərimə qan gəldi.

Bu yoldan ötən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Su gələr arxa haray,
Tökülməz çarxa haray,
İgid qürbətə düşsə,
Çağırar arxa, haray.

Belədimi qürbət el,
İgid oğul, qürbət el,
Adamı tez qocaldır,
Qərib ölkə, qürbət el.

Qardaş gəl, ay qardaş gəl,
Qarlı dağları aş gəl,
Qürbət eldir kimsəm yox,
Tökür gözüm qan-yaş gəl.

Tutmadı dağlar məni,
Bülbüllü bağlar məni,
Qəribəm bir kəsim yox,
Təkcə yar ağlar məni.

Bu yerlər tala yeri,
Bürc yeri, qala yeri,
Qiyamət o gün qopar,
El köçə, qala yeri.

Aşiq qara yaxşıdı,
Geysən qara yaxşıdı,
Qürbətdə dolanmaqdan,
Getsən gora yaxşıdı.

Dağlarda talam qaldı,
Biçmədim, lalam qaldı,
Dağılsın qürbət ölkə,
Orda bir balam qaldı.

Arazda axar qaldı,
Tərlan uçdu sar qaldı,
Elimdən ayrı düşdüm,
Gözlərim baxar qaldı,

Araz gəldi yan axdı,
Dibindən min can axdı,
Vətən sarı baxanda,
Ürəyimdən qan axdı.

Gəzdim dağı, aranı,
Seçdim ağdan qaranı,
Vətən viran olsa da,
Cənnət gördüm oranı.

Bu dağlar bizə sarı
Dolan gəl bizə sarı,
Qürbətdə qalan canım,
Çəkərsən yüz azarı.

Bu yol yola tən deyil,
Yar burdan ötən deyil,
Qürbətdə xoş gün görsəm,
Yenə də vətən deyil.

Eşq oduna qalannam,
Yar başına dolannam,
Vətəndən ayrı düşsəm,
Viran ollam, talannam,

Yazı yaza bilmərəm,
Qara poza bilmərəm,
Vətən orda, mən burda,
Ayrı dözə bilmərəm.

Su gəlsə sel bilərdim,
Meh əssə yel bilərdim,
Dağda bir oba salsan,
Mən səni el bilərdim.

Qürbətdə cana yetdim,
Təng olub, sana yetdim,
Vətənə dönən günü,
Dinə, imana yetdim.

Arağçını yan qoydum,
İçinə biyan qoydum,
Vətənə kəc baxanın,
Ürəyinə qan qoydum.

Hicrana düşdü yolum,
Yağıdır sağım, solum,
Vətəndən ayrı düşdüm,
Buxovlanıbdı qolum.

Qəribəm, qəlbim duman,
Dilimdən düşməz aman,
Mən düşmüşəm görmüşəm,
Sən düşmə, qürbət yaman.

Don tiksən, ağı bizdən,
Belinin bağı bizdən,
Qoymayın yad ellini,
Almağa bağı bizdən.

Çuxanın ağı bizdən,
Belinin bağı bizdən,
Düşmən gəlib yurd salsa,
Alar xoş çağı bizdən.

Burda yolum oldu tən,
Varmı bu yoldan ötən?
Bu dünyada şirin şey,
Bir anadır, bir vətən.

Qolunda var qüvvətin,
Arzum var olsun mətin,
El yolunda baş qoyan,
Qazanar el hörmətin.

Əziziyəm bac alar,
Mərd rəqibdən bac alar,
Hər kəsi el istəsə,
Büləndolar, ucalar.

Yar başa qara bağlar,
Ürəyi yara bağlar,
Vətəndən ayrı düşsə,
Ümidin hara bağlar.

Dağlar başı buz bağlar,
Dörd yanı yarpız bağlar,
Qürbət eldə ürəyim,
Dərddən, qəmdən buz bağlar.

Ağardıb yalı dağlar,
Gül açıb salı bağlar,
Qərib öz balasını,
Çöllərə salıb ağlar.

Arazı ayırdılar,
Min oyun qayırdılar,
Qürbət elə düşəndə,
Məni qul sayırdılar.

Ağlayarlar, gülərlər,
Göz yaşını silərlər,
Köçən yurdun qədrini,
Düşən yurdda bilərlər.

Çən, duman düzə neylər?
Zülfün tök üzə, neylər?
Ov bizim, ovlaq bizim,
Yad ovçu bizə neylər?

Gün çıxar, dağ gün görər
Boylanar, bağ gün görər,
Qürbətdə can çürüdən,
Vətəndə ağ gün görər.

Durna sanınnan keçər,
Ötər, sanınnan keçər,
İgid vətən yolunda,
Ölər, canınnan keçər.

Keçmə, Araz dərindi,
İçmə suyu sərindi,
Həsrət baxan bu ellər,
Sənində ellərindi.

Sinəmdə yaram vardır,
Başımda bəlam vardır,
Qürbət adı çəkməyin,
Qürbətdə anam vardır.

Dağ başında qara bax,
Üstün alan sara bax,
Aləm cənnətə dönsə,
Mənə xoşdur Qarabağ.

Qəribəm vətənim yox,
Bu yoldan ötənim yox,
Düşdüm dərin dəryaya,
Əlimdən tutanım yox.

Mərdlik. Namərdlik. Dostluq. İgidlik. Məğrurluq. Namus – qeyrət – ar

El batır qəm dəryada,
Kimə gedim mən dada?
İgid döyüşdə ölsə,
Adı qalar dünyada.

İgid gərək atlana,
Atın minə, atlana,
Mərd odur ki, döyüşdə
Hər yaraya qatlana.

Mən aşiq daldasına,
Qonça gül dalda sına,
Namərd elə namərddi,
Üzü nə, daldası nə?

Dağlar batıbdır qara,
Ovçu düşübdür dara,
Üzünə gülən dostun,
Qayıt bir qəlbin ara.

Əzizim qəlbi nara,
Tutuşdu qəlbi nara,
Üzdə dost deyənlərin,
Get öyrən, qəlbin ara.

Qızılgülü xar alsa,
Dörd yanını sar alsa,
Qoç igid heç durarmı,
Yarı yadlara qalsa?

Əzzinəm kasad olmaz,
Mərd əli kasad olmaz,
Yüz namərdin çörəyin
Doğrasan, kasa dolmaz.

Bu sazı alan gəlməz,
Oxuyub-çalan gəlməz,
İgidi öldürsələr,
Dilinə yalan gəlməz.

Bir ev tikdim dəyirmi,
Dirəkləri iyirmi,
Namərd, hara gedirsən?
Bu yurd sənin deyilmi?

Salma bu dərdə məni,
Vermə namərdə məni,
Qurtar namərd əlinnən,
Yetir bir mərdə məni.

Dağlar dağladı məni,
Zülfüm bağladı məni,
Mərd yolunda can qoydum,
Ellər ağladı məni.

Yandırıb-yaxdı məni,
Dağ-daşa çaxdı məni,
Mərd bilib arxalandım,
Namərd tək yıxdı məni.

Donu tik, üz ilməni,
Şanə tək düz ilməni,
Vəfalı dost yad olmaz,
Görməsə yüz il məni.

Göydə ulduz naşıdı,
Kim ulduzun yaşıdı?
İgidə ellər qurban,
İgid ürək başıdı.

Əziziyəm aslandı,
Qılınc qından aslandı,
Tülküdən aslan olmaz,
Aslan elə aslandı.

Dağ başın çən alarmı?
Alsa, kölgə salarmı?
Bir məzlumun qisası,
Bir namərddə qalarmı?

Əzizinəm din barı,
Danış barı, din barı,
İgidə tab gətirməz,
Yağı tikən min barı.

Mə aşiq nə vəfası,
Nə əhdi, nə vəfası,
Vəfalıya can qurban,
Namərdin nə vəfası,

Əzizinəm dost aşı,
Dost xörəyi, dost aşı,
Düşmənin gülləsindən
Yaman olar dost daşı.

Dünyanın gərdişindən,
Təng oldum hər işindən,
Mərdin başı qal çəkir,
Namərdin şər işindən.

Sən məni qul eylədin,
Dərdimi bol eylədin,
Dağıtdın el-obanı,
Düşmənə yol eylədin.

Bağımda var alçalar,
Yaşıl çalar, al çalar,
Ağlama, dəli könlüm,
Düşmən görər əl çalar.

Əzizim dalda gəzər,
Bülbüllər dalda gəzər,
Mərdlər qabağı gözlər,
Namərdlər dalda gəzər.

Əziziyəm baş əyər,
Barlı budaq baş əyər,
Dünya namərd dünyadır,
Mərd namərdə baş əyər.

Yağıbdır qar, a tellər,
Ağardı qara tellər,
Namərd gəlib ellərin,
Ömrünü qarət eylər.

İgidin bir atıdır,
Bir də təmiz zatıdır,
Koroğluda qoçaqlıq,
Onun ehtiyatıdır.

Arxa. Kömək. Dayaq. İftixar

Əzizim ötmək olmaz,
Köhləni ötmək olmaz,
Elin atdığı daşı,
Yerdən tərpətmək olmaz.

Göydə ulduz naşıdı,
Kim balamın yaşıdı?
Oğlana ellər qurban,
Oğlan ellər başıdı.

Bulağın başı dayı,
Dibinin daşı dayı,
Durum başına dönüm,
Anam qardaşı dayı.

Bircə belə mumudum,
Su qoynunda qumudum,
Nə kimim var, nə kimsəm,
Sənə gəlir umudum.

Qaya tək buzlar gördüm,
Göydə ulduzlar gördüm,
Anasına oxşayan
Qoçaq, mərd qızlar gördüm.

Şəftəliyəm, ağam mən,
Hər meyvədən çağam mən,
Qorxma, vəfalı dostum,
Ölməmişəm, sağam mən.

Dağların qaşı sənsən,
Dibinin daşı sənsən,
Eldə neçə igid var,
Hamının başı sənsən.

Eləmi arxa gəlsin,
Su axsın, arxa gəlsin,
Mən təkəm, düşmənim çox,
Köməyə arxa gəlsin,

Dağ döşündə damım var,
Bağımda badamım var,
Gəl qapıdan gir qardaş,
Desinlər adamım var.

Bu yurdun tacı bağlar,
Meyvəsi acı bağlar,
Ağrısa qardaş başı,
Yenə də bacı bağlar.

Dərd əlindən dağ yanar,
Bağça yanar, bağ yanar,
Qardaş girsə qapımdan,
Evimdə çırağ yanar.

Gəmim gələr, yan gedər,
İçində bir can gedər,
Qardaş gələn yollara,
Bacılar qurban gedər.

Dövran, işin kələkdir!
Gərək göhfər, gərək düür,
Qardaşa can yandırın,
Yaman günə gərəkdir.

Xəncər üstə qaş gəlir,
Qoşun başabaş gəlir,
Qoşuna qurban olum,
İçində qardaş gəlir.

Gətir sazını, qardaş,
Pozma yazını, qardaş,
Böyü, ol qoçaq igid,
Çəkim nazını, qardaş.

El köç eylər bu dağa,
Quşlar qonmaz budağa,
Elə ki, mən dözürəm,
Heç kəs dözməz bu dağa.

Dağları en piyada,
Yolu kəsmə piyada,
Gedirəm haqqa çatam,
O atlı, mən piyada.

Veribdir ağı yada,
Yar çəkib dağı yada,
Bizdən bağban olmadı
Tapşırdıq bağı yada.

Gül əkdim gül məkanda,
Yerin bil, gül, məkanda,
Sən güldün, mən də güldüm,
Mən handa, gülmək handa?!

Bir vecsiz daşdı dünya,
Çürük ağaşdı dünya,
Kimə deyim dərdimi,
Tamam qan-yaşdı dünya.

Mən aşiqəm, o dala,
O budağa, o dala,
Varmı ocağı sönən,
Ürəyimdən od ala.

Aşiq naçar ağlama,
Gündür keçər, ağlama,
Fələk bağlı qapını
Bir gün açar, ağlama.

Əzizinəm yar qana
Yar oxuya, yar qana,
Laçın çalmış sonayam,
Qısılmışam yarğana.

Pərvanə nədən yana,
Od tuta bədən yana,
Yaxşı dost yaman gündə,
Çəkilir nədən yana?

Eləmi bağrı qara,
Bir quş var bağrıqara,
Lalə kimi gül olmaz,
Onun da bağrı qara.

Eləmi qar qamışa,
Qar yağıb Qarqamışa,
Yüz min bəndə neynəsin,
Biz fələk qarğamışa.

Əzizim qucaq-qucaq,
Odun ver qucaq-qucaq,
Yoxsulun daxmasında,
Nə od olar, nə ocaq.

Mən aşiq gülə-gülə,
Gül əkdim gülə-gülə,
Düşmən evimi yıxdı,
Üzümə gülə-gülə.

Gecə uzun, ay batmaz,
Dərdlilər gecə yatmaz,
Mənim kimi dərdlini,
Fələk bir də yaratmaz.

Əziziyəm gülə naz,
Bülbül eylər gülə naz,
Dövran elə dövrandı,
Ağlayan çox, gülən az.

Aman, məni dərd əydi.
Namərd əydi, dərd əydi.
Sinəmin şüşəsinə,
Çarx hərləndi, pər dəydi.

Dağ başına sis gəldi,
Ocağ yandı his gəldi,
Mənim bu qara baxtım,
Əzəl başdan pis gəldi.

Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi,
Xəzəl ollam, tökülləm,
Viranə bağlar kimi.

Qarşıda gül ənbəri,
Dərmişəm gül ənbəri,
Hicran qoymaz göz açam,
Dərd qoymaz güləm bari.

Dərd getdi qada qaldı,
Günüm fəryada qaldı,
Zülm əlindən el köçdü,
Yurd-yuvam yada qaldı.

Əzizim, dağda yandı,
Gün batdı, dağda yandı,
Getdim odum söndürəm
Odumdan dağ da yandı.

Bu yerdə su dayandı,
Od gəldi suda yandı,
Dərdimi suya dedim,
Alışdı su da yandı.

Ay keçdi, ilim yandı,
Köynəkdə milim yandı,
Dərddən ürək tutuşdu,
Ağzımda dilim yandı.

Sel gəldi, daş axıtdı,
Suyu çaş-baş axıtdı,
El köçdü, oba qaldı,
Daş-divar yaş axıttdı.

Əzzinəm daşdı canı,
Kəkliyin daşdı canı,
Dərdimi pünhan çəkdim,
Dedilər: daşdı canı.

Xoruz ban verəndə gəl,
Sinəm qan verəndə gəl,
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl.

Arazam, Kürə bəndəm,
Bülbüləm, gülə bəndəm,
Dindirmə, qan ağlaram,
Bir şirin dilə bəndəm.

Mən aşiqəm baxtı kəm,
Bağbanım yox bağ tikəm,
Mən fələyə neylədim,
Fələk mənə baxtı kəm.

Hər dərdə dözən mənəm,
Əhdim var, bəzənmənəm,
Göz yaşlı, ürək qəmli,
Sərgərdan gəzən mənəm.

Dağ üstə hara baxdım,
Yar gəldi, yara baxdım,
Sənin üzün gülmədi,
Mənim də qara baxdım,

Nalə çəkdim, ah tutdum,
Gah əyləndim, gah tutdum,
Eldə bir dərdli gördüm,
Öz dərdimi unutdum.

Mən öldüm ağlamaqdan,
Arxa su bağlamaqdan,
Bağda xəzəl qalmadı,
Yarama bağlamaqdan.

Bir quş gəlir Dərbənddən,
Yükün tutubdu qənddən,
Sinəmdə bir dəftər var,
Yazılıbdı hər dərddən.

Ovçunun gəşdi məndən,
Ox dəydi, keçdi məndən,
Mərdlərə körpü oldum,
Namərdlər keçdi məndən.

Əzizinəm baş əyər,
Yolu bu dağ, daş əyər,
Zaman necə zamandı,
Mərd namərdə baş əyər.

Əzizim nə mindirir,
Nə salır, nə mindirir,
Dərdlini dindirməyin,
Dərd onsuz da dindirir.

Bu dağlar daşım oldu,
Sirim-sirdaşım oldu,
Mənə təsəlli verən,
Yenə göz yaşım oldu.

Məni bir arı vurdu,
Dimdiyi sarı vurdu,
Arı belə vurmazdı,
Göydəki tarı vurdu.

Dərd məndə üz görübdü,
Meydanı düz görübdü,
Gedir, gedir, qayıdır,
Məni yalqız görübdü.

Mən aşiq oda yanmış,
Od düşmüş o da yanmış,
Əlim dost ətəyindən,
Üzdü bir oda yanmış.

Yeni dövran. Xoşbəxtlik. Bolluq – bərəkət

Yol üstə bulaq olluq,
Ellərə soraq olluq,
Kim bizə bel bağlasa,
Ondan göz-qulaq olluq,

Aran bizdə, dağ bizdə,
Kef bizdə, damaq bizdə,
Əkirik, becəririk,
Su bizdə, torpaq bizdə,

Bu yollar buz bağlamaz,
Namərdlər sir saxlamaz,
Həqiqətin təməli,
Yüz tərpətsən laxlamaz.

Gözəldi çöllərimiz,
Varlıdır ellərimiz,
Yeni həyat qururuq
Yorulmur əllərimiz,

Dostlar üz-üzə gəldi,
Dağ aşıb düzə gəldi,
Azadlıq sevən ellər,
Köməyə bizə gəldi.

Bağçamızda gül bitdi,
Lalə bitdi, gül bitdi,
Vətəndə bir bağ saldıq,
Hər nə əkdik, gül bitdi.

Əzizim bəzən yeri,
Gey sallan, bəzən yeri,
Dərd-qüssə ala bilməz,
Azadlıq gəzən yeri.

Bağımda güllər gözəl,
Oxur bülbüllər gözəl,
Azadlıq dünyasında,
Ömürlər, günlər gözəl.

Qarşımızda bu dövran,
Bu zamana, bu dövran,
Gəlin, qədrini bilək,
Düşməz ələ bu dövran.

Əziziyəm quşam mən,
Dağlara qonmuşam mən,
Ellərə göz olmağa,
Keşikdə durmuşam, mən.

Aşıq sözə gəlməsin.
Ceyran düzə gəlməsin,
Getsin qara buludlar,
Bir də bizə gəlməsin.

Düşməni yarımasın,
Yarısa, qarımasın,
Torpağıma göz tiksə,
Heç işi sarımasın.

Nə gözəl ellərim var,
Ördəkli göllərim var,
Şirvan, Muğan düzündə,
Məhsullu çöllərim var.

Dağlar, aralı dağlar,
Qəlbi yaralı dağlar,
Qoynunda yadlar görsəm,
Rəngim saralı dağlar.

Aç gözün, dağlara bax,
Bar verən bağlara bax,
İndi artıq çıxmışıq,
Nə gözəl çağlara, bax!

Eşq – məhəbbət. Vəfa – sədaqət. Etibar

Bülbüllər uçdu bağa,
Qondu budaq-budağa,
Dünyada bir canım var,
Olsun yara sadağa.

Sürünü sürün dağa,
Duman, gəl bürün dağa,
Leylisi itmiş Məcnun,
Salıbdır bir ün dağa.

Əziziyəm gül bağda,
Bülbül bağda, gül bağda,
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

Ocağa odun qala,
Od gəti, odun qala,
Qorxuram düşəm öləm,
Canımda odun qala.

Mən aşiq ay camala,
Yar əldən, ay, cam ala,
Götür üzdən rübəndin,
Baxım bir ay camala.

Əzizim nərdivana,
Ayaq qoy nərdivana,
Yar qədrini yar bilər,
Nə bilər hər divana.

Mən aşiqəm bir cana.
Bir cana, bir canana,
Hər yetənə can vermə,
Canı ver bir canana.

Mən aşiqəm ayina,
Bəndəm qaşın yayına,
Qorxuram kiprik çalam,
Üzündən göz yayına.

Əzizim yar arxına,
Su gəlib yar arxına,
İncədi barmaqların,
Qorxuram yarar xına.

Əzizim dağda qara,
Gün düşüb dağda qara,
İtirmisən Leylini,
Məcnun ol, dağ-dağ ara.

Əzizim gündə dara,
Zülfünü gündə dara,
Səndən əlim üzmərəm,
Çəksələr gündə dara.

Aşiqəm bir dəm ara,
Neştər vur bir damara,
Məni zülfün vurubdur,
Vurdurma bir də mara.

Dağ başını qar alıb,
Bağçaları bar alıb,
Hər yetənə can verməm,
Bir canım var yar alıb.

Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə,
Ruhum qəfəsdə oynar,
Yadıma sən düşəndə.

Aşiq minayə gələ,
Xalın minayə gələ,
Küsmüşəm, barışmaram,
Göydən min ayə gələ.

Gedirdim yaraq ilə,
Ot biçdim oraq ilə,
Bir ilqarlı gözəli,
Gəzirəm soraq ilə.

Əziziyəm bağ gülə,
Bağça gülə, bağ gülə,
Pərvanə də mənim tək,
Bənd olub bir ağ gülə.

Gecəni dan eyləmə,
Zülfünü yan eyləmə,
Baxışına mən qurban,
Könlümü qan eyləmə.

Mən aşiq neylim sənə,
Düşübdü meylim sənə,
Mən dönsəm üzüm dönsün,
Sən dönsən neylim sənə.

Mən aşiq gözlərinə,
Qoy baxım gözlərinə,
Canım canına qurban,
Gözlərim gözlərinə.

Araz üstə, buz üstə,
Kabab yanar köz üstə,
Qoy məni öldürsünlər,
Bir alagöz qız üstə.

Bu dağı aşmaq olmaz,
Narıncı başmaq olmaz,
Bir quru sözdən ötrü,
Yarla savaşmaq olmaz.

Dağlar başı meşədi,
Könlüm sınıq şüşədi,
Yarın yara töhfəsi,
Bir dəstə bənövşədi.

Zülfün suda mar kimi,
Oynar su damar kimi,
Sızıldatdın aşiqi,
Yağa su damar kimi.

Mən aşiq elçi məni,
El yaylaq, el çiməni,
O qaş, o göz, o kirpik,
Salıbdır elçi məni.

Əzizim gəzər bağı,
Dost gəlib gəzər bağı,
Məhəbbət bir dəstə gül,
Açılıb bəzər bağı.

Mən aşiq gül budağı,
Tutubdu gül bu dağı,
Məni dərdin əyibdi,
Necə ki gül budağı.

Ağ alma allanıbdı,
Ağacdan sallanıbdı,
Mən sənə nə dedim ki,
Gül üzün xallanıbdı?

Qaşların qibləgahdı,
Qiblə desəm günahdı,
Dağlara duman çöksə,
O da mən çəkən ahdı.

Aşıq gəzər dağ-daşı,
Axtarar yaşıl başı,
Can alan bir gözəlin,
Sürməni neylər qaşı.

Əziziyəm qanlı gül,
Qanlı seviş, qanlı gül,
Yemiş bülbül bağrını,
Çıxmış ağzı qanlı gül.

Çaylar təkin axmaram,
Başa həna yaxmaram,
Bir dəfə üzün görsəm,
Aya, günə baxmaram.

Araz deyiləm coşam,
Kür deyiləm qaynaşam.
Apar sərraf yanına,
Gör nə qiymətli daşam.

Qarşıda inci mənəm,
Ləl mənəm, inci mənəm,
Vəfalı yar yolunda,
Can versəm, incimənəm.

Güləm, gülü neylərəm,
Gülə qulluq eylərəm,
Mənə öz gülüm gərək,
Başqa gülü neylərəm.

Qızıl gülü əkmərəm,
Dərib yerə tökmərəm,
Əlim zülfünə dəysə,
Şahmar olsa çəkmərəm.

Qönçə idim gül oldum,
Boy atdım, sünbül oldum,
Bir dilbilməz quş idim,
Oxudum, bülbül oldum.

Mən aşiq oda giryan,
Mən giryan, o da giryan,
Dedim könlüm odun al,
Demədim, oda gir yan.

Əziziyəm gündə mən,
Kölgədə sən, gündə mən,
İldə qurban bir olar,
Sənə qurban gündə mən.

İncəsən, incidən sən,
Sədəfdən, incidən sən,
Kəsərəm, dilim, səni,
Bilsəm yar incidənsən.

Çən alıb dağlar başım,
Bağ başım, bağlar başım,
Camalım bir aynadır,
Hər görən bağlar başın.

Mən aşiqəm ay bağlar,
Ay bağçalar, ay bağlar,
Qaşım, gözün təhrində,
Hansı usta yay bağlar.

Bulaq başı toz olar,
Üstü dolu qız olar,
Əyil dəsmalın götür,
Mən götürsəm söz olar.

Qara at nalı neylər,
Qara qaş xalı neylər,
Vəfalı yarı olan,
Dövləti, malı neylər.

Əzizim gül üşüdü,
Şeh düşdü gül üşüdü,
Güldün, ağlım apardın,
Bu necə gülüşüdü?

Ayrılıq – hicran. İntizar – həsrət. İstək – arzu. Qəm – kədər. Üzüntü – nigarançılıq. Təsəlli. Nisgil

Gəl gedək baş bulağa,
Suyu sərxoş bulağa,
Birin sən de, birin mən,
Tökək qan-yaş bulağa.

Əzizim otağında,
Bülbüləm budağında,
Bala anadan ayrı,
Can verir otağında.

Mən aşiq qala qala,
Dağ üstə qala qala,
Yar yolunda can üzdüm,
İntizar qala-qala.

Ana, mənə az ağla!
Qış sızılda, yaz ağla,
Nə vaxt yadına düşsəm,
Ağ kağıza yaz, ağla.

Ay doğud batarmola?
Ülkərə çatarmolla?
Ana baladan ayrı,
Dincəlib yatarmola?

Mən aşiq, gözdə qara,
Çək sürmə gözdə qara,
Yar-yarın gözləməkdən,
Qalmadı gözdə qara.

Mən aşiqəm gülzara,
Çəmənzara, gülzara,
Ayrılığa dözməkdən,
Axır gəlib gül zara.

Gülərəm gülən olsa,
Dərdimi bilən olsa,
Ağlamaqdan doymaram,
Göz yaşım silən olsa.

Dərd ürəyim oyunca,
Qurban gedim boyunca,
Eşitsən ki, ölmüşəm,
Ağla məni doyunca.

Dağ məndə, tala məndə,
Bürc məndə, qala məndə.
Məşərim o gün olar,
Həsrətin qala məndə.

Əzizim qala yerdə,
Bürc yerdə, qala yerdə.
Qorxuram qərib öləm,
Cənazəm qala yerdə.

Mən aşiq incə belə,
Kəmər çək incə belə,
Qoy kor olsun gözlərim,
Səni görüncə belə.

Dağların başı ilə,
Dibinin daşı ilə,
Yara bir namə yazdım,
Gözümün yaşı ilə.

Narıncı oyub getmə,
Qabığın soyub getmə,
Mən yazığa rəhm elə,
İntizar qoyub getmə.

Gəmi gələr yan verməz,
Açma yaram qan verməz,
Səni gözləyən ürək,
İntizardı, can verməz.

Bu dağda mənəm sənsiz,
Dağı enmənəm sənsiz,
Harda ahu mələsə,
Bil ki, o mənəm sənsiz.

Bağa girmərəm sənsiz,
Gülü dərmərəm sənsiz,
Desələr qərib ölüb,
O qərib mənəm sənsiz.

Araza gəmi gəldi,
Su daşdı, gəmi gəldi,
Yaş tök, ağla, gözlərim,
Ayrılıq dəmi gəldi.

Bu bağlar olmayaydı,
Saralıb solmayaydı,
Bir ayrılıq, bir ölüm,
Heç biri olmayaydı.

Dağlarda lalam hanı?
Biçməyə lalam hanı?
Hamı salamat gəldi,
Bəs mənim balam hanı?

Aşıq ellər ayrısı,
Şana tellər ayrısı,
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

Çağırıram ağam gəl,
Ölməmişəm, sağam gəl,
Boynumda qəm zənciri,
Yolunda dustağam gəl!

Həyətləri sarı gül,
Yarı qönçə, yarı gül,
Gözlərindən sil yaşı,
Ayrılıqdı, barı gül.

Qərənfiləm xəstəyəm,
Bülbüləm qəfəsdəyəm,
Gedin deyin yarıma,
Həsrətindən xəstəyəm.

Üzüyün qaşı mənəm,
Üstünün daşı mənəm,
Yar deyib kim ağlasa,
Gözünün yaşı mənəm.

Ox getdi qaldı yayım,
Göyə qalxdı harayım,
Qismətim ayrılıqdı,
Yoxdu görüşdə payım.

Bağlar tükəndi bardan,
Yağı kam aldı yardan,
Nola bir xoş gün gələ,
Qurtaraq biz də dardan.

Gedirəm ölkə səndən,
Qorxuram yol kəsəndən,
Gəl bir üzünü görüm,
Ayrıldım bəlkə səndən.

Əzizim sözlərindən,
Doymadım sözlərindən,
Bilsəydim ayrılıqdı,
Öpərdim gözlərindən.

Dəryada bir daşam mən,
Gövhərəm mən, qaşam mən,
Aranı dağlar kəsib,
Qanadım yox aşam mən.

Yar qəlbimi oymasın,
Dərd üstə dərd qoymasın,
Fələk mərdi namərdə,
Heç vaxt möhtac qoymasın.

Gedən, getmə işim var,
Zərgərdə gümüşüm var,
Qərib, qürbət ölkədə,
Qolu bağlı quşum var,

Əlimdə ələmim var,
Qızıldan qələmim var,
Fələk, gəl dəymə mənə,
Uzaqdan gələnim var.

Dumanlı dağlarım var,
Bar verməz bağlarım var,
Gedirsən tez qayıt gəl,
Dalınca ağlarım var.

Ay dağlar, uca dağlar,
Hamıdan qoca dağlar,
Ayrılıqdan üzüldüm,
Mən necə dözüm dağlar.

Mən aşiq qoşa dağlar,
Verib baş-başa dağlar,
Yol verin, anam gəlsin,
Dönməyin daşa dağlar.

Çatılıb qaşın dağlar,
Bilinmir yaşın dağlar,
Hicran sənə də düşdü,
Ağrıdı başın dağlar?

Əzizim ulu dağlar,
Çeşməli sulu dağlar,
Dibindən ellər köçər,
Başında bulud ağlar.

Dəryada fanar gəzər,
Hər axşam yanar gəzər,
Eldən ayrı düşənlər,
Günləri sanar gəzər.

Araz daşanda mələr,
Kür qovuşanda mələr,
Bala öz anasından,
Ayrı düşəndə mələr.

Sinəmdə yaram nədir?
Qəm ilə aram nədir?
Dərdim qürbət dərdidir,
Bəs buna çaram nədir?

Əslim qarabağlıdır,
Sinəm çarpaz dağlıdır,
Nə gedən var, nə gələn.
Deyən yollar bağlıdır.

Dağlar başı dumandı,
Mənim halım yamandı,
Nə çox sürdü ayrılıq,
Bəlkə axır zamandı?

Yaşılım, abım yoxdur,
Bu yerdə babım yoxdur,
Gedirsən tez qayıt gəl,
Qüssəyə tabım yoxdur.

Dağlar başı tütündür,
Kimin qəlbi bütündür,
Əyil üzündən öpüm,
Dünya ölüm itimdir.

Qızılgül həşəm oldu,
Dərmədim həşəm oldu,
Səndən ayrı düşəli,
Ağlamaq peşəm oldu.

Ay çıxdı düzə düşdü,
Qıvrım tel üzə düşdü,
Fələk bir iş işlədi,
Ayrılıq bizə düşdü.

XALQ MAHNILARI

Aman nənə

Musiqi tərtibatı
Üzeyir Hacıbəyovundur.

Asta yeri, kəmər düşər belindən,
Aman nənə, zalım nənə, yar, nənə!
Ayrı düşdüm gülümdən, bülbülümdən,
Aman nənə, zalım nənə, yar nənə!.
O qədər sevirəm düşməz dilimdən
Ay aman yar, ay zalım yar,
Ay gözəl yar, ay gül yarım!

Nəqərat

Aman nənə, zalım nənə, yar, nənə hey,
Yar nənə hey, yar nənə hey, yar nənə!

Yarıma demişəm mənə saz alsın,
Aman nənə, zalım nənə, yar, nənə!
Onu çalım, dərdü qəmim azalsın.
Aman nənə, zalım nənə, yar, nənə!
Məgər mən ölmüşəm yarım qız alsın?!
Ay aman yar, ay zalım yar,
Ay gözəl yar, ay gül yarım!

Nəqərat

Bir yaylığım vardır gülü özündən,
Aman nənə, zalım nənə, yar, nənə!
Dolanır boynuma özü-özündən,
Aman nənə, zalım nənə, yar nənə!
Ay aman yar, ay zalım yar,
Ay gözəl yar, ay gül yarım!

Nəqərat

Gedək gəzək bağçada

Musiqi tərtibatı
Üzeyir Hacıbəyovundur.

Gedək gəzək bağçada,
Ay aman, ay aman, ay aman, ay aman,
Düşsün gözəllər yada
Ay aman, ay aman, ay aman, ay aman.

Nəqərat

Ah, yaman yar əlindən,
Əl-aman yar əlindən.(2)

Bağa girdim nar üçün
Ay aman, ay aman, ay aman, ay aman,
Narı dərdim yar üçün
Ay aman, ay aman, ay aman, ay aman.

Nəqərat

Tello

Musiqi tərtibatı
Üzeyir Hacıbəyovundur.

Araz üstə, buz üstə, Tello,
Kabab yanar köz üstə, Tello,
Qoy məni öldürsünlər, Tello,
Bir ala göz qız üstə, Tello.

Nəqərat

Aman, Tello,
Tellocan, Tello,
Canım, Tello.
Tellocan, Tello,

Araz axır lil ilə, Tello,
Dəstə-dəstə gül ilə, Tello,
Mən yarımı sevirəm, Tello,
Şirin-şirin dil ilə, Tello.

Nəqərat

Bağa girdim bar üçün, Tello,
Heyva üçün, nar üçün, Tello,
Əsirgəmə canını, Tello,
Bu vəfalı yar üçün, Tello.

Nəqərat

Qoy gülüm gəlsin

Musiqi tərtibatı
Fikrət Əmirovundur.

Mən aşiqəm zirəsən,
Zəfəransan, zirəsən.
O günə qurban olum,
Sən qapıdan girəsən.

Nəqərat

Qoy gülüm gəlsin, ay nənə.
Qoy yarım gəlsin, ay nənə,
Qapıda duran oğlana
İrəhmin gəlsin, nənə.
Hey!..

Qarabağın düzü var,
Düzlərində quzu var.
İki könül bir olsa.
Kimin ona sözü var?!

Nəqərat

Gün doğmasa Ay batmaz,
Dərdlilər gecə yatmaz,
Aləm məni atsa da,
Sevgilim məni atmaz.

Nəqərat

Gözəlim sənsən

Musiqi tərtibatı
Fikrət Əmirovundur.

Gözəlim, sənsən gözümün nuri,
Cənnətdə yoxdur sənin tək huri.
Cənnətdə yoxdur sənin tək huri.
Öldürdü məni yarımın cövri,
Ona mən vuruldum,
Ona mən yar oldum. (2)

Nəqərat

Sevgilimə dəymə, dəymə, dəymə, dəymə,
Gülümün butasın əymə, əymə, əymə. (2)

Uca dağ başında ceyran yol eylər.
Ürəyim başına peykan yol eylər. (2)
Sevən sevdiyinə can qurban eylər.
Uca dağ başında ceyran yol eylər.
Ona mən vuruldum,
Ona mən yar oldum. (2)

Nəqərat

Uca dağ başında bitər lalələr,
Gül-çiçək üstünə düşər jalələr, (2)
Güldən ötrü bülbül edər nalələr.
Ona mən vuruldum, (2)
Ona mən yar oldum.

Nəqərat

Evləri var xana-xana

Musiqi tərtibatı
Fikrət Əmirovundur.

Evləri var ay aman, xana-xana (2)
Mən kül oldum ay aman, ay aman, yana-yana. (2)
Yaylığının yanı buta, (2)
Saldı məni ay aman, ay aman, yanar oda, (2)

Obaları ay aman, oymaq-oymaq, (2)
Yalan sözdür ay aman, ay aman, yardan doymaq, (2)
Üzü gül, ləbləri qaymaq, (2)
Yalan sözdür ay aman, ay aman, yardan doymaq. (2)

Heç olmazmış ay aman, ay aman, yardan doymaq,
Yalan sözdür, yalan sözdür yardan doymaq.

Dağlar gözəli

Musiqi tərtibatı
Niyazinindir.

Gözəl sona, getmə dayan,
Ürəkdə sözüm var.
Gəl eyləmə bağrımı qan,
Gözündə gözüm var.

Nəqərat

Canım qurban telinə,
Şirin-şirin dilinə,
Qaşın-gözün zil qara, } 2
Aşiqi çəkmə dara.

Gedək bağa lalə dərək,
Ay dağlar gözəli,
Sinəmiz üstünə sərək,
Ay dağlar gözəli.

Nəqərat

Duman çökdü dağ başına,
Ay gözəl, gəl bəri.
Gəl dolanım mən başına,
Ay gözəl, gəl bəri.

Nəqərat

Bənövşə

Musiqi tərtibatı
Soltan Hacıbəyovundur.

Dağlara gün düşübdür } 2
Açıl bənəfşəm, açıl.
Bağlara gün düşübdür, } 2
Açıl bənəfşəm, açıl.

Dağlara çökdü duman. } 2
Gizlən bənəfşəm, gizlən.
Bağlara çökdü duman. } 2
Gizlən bənəfşəm, gizlən.

Dağlara əsdi külək, } 2
Dikəl bənəfşəm, dikəl.
Dikəl bənəfşəm, dikəl. } 2
Bağlara əsdi külək.

Dağlara qar yağıbdır, } 2
Yığıl bənəfşəm, yığıl,
Bağlara qar yağıbdır, } 2
Yığıl bənəfşəm, yığıl,

Açıl bənəfşəm, açıl. } 2
Dağlara gün düşübdür,
Bağlara gün düşübdür, } 2
Açıl bənəfşəm, açıl.

Səndən mənə yar olmaz

Musiqi tərtibatı
Asəf Zeynallınındır.

Səndən mənə yar olmaz.
Əhdə vəfadar olmaz.
Yüz min gül-çiçək olsa,
Bülbülsüz bahar olmaz.

Nəqərat

Küsdürmüsən çək nazımı,
Qışa döndərmə yazımı,
Çalıb dindirmə sazımı,
Yaralıyam, yar. } 2

Hər ağacda bar olmaz,
Heyva olmaz, nar olmaz.
Yüz min gül-çmçək açsa,
Bülbülsüz bahar olmaz.

Nəqərat

Qalalı

Musiqi tərtibatı
Tofiq Quliyevindir.

Bu gün ayın üçüdür,
De gülüm nanay, ay naninay, } 2
Girmə bostan içidir,
Yar, girmə bostan içidir. } 2
Dodaqların bal, şəkər, (2)
Hey!..
Dilin badam içidir.
Yar, dilin badam içidir. (2)

Nəqərat

Qız, belin incədir, ay incə,
Ləblərin qönçədir, ay qönçə.
Qız, belin incədir, incə,
Ləblərin qönçədir, qönçə. } 2

Dam üstündə damımız
De gülüm, nanay ay naninay. } 2
Qoşadır eyvanımız.
Yar, qoşadır eyvanımız, (2)
Sən ordan çıx mən burdan, (2)
Hey!..
Kor olsun düşmanımız,
Qoy kor olsun düşmanımız. } 2

Nəqərat

Anacan

Musiqi tərtibatı
Süleyman Ələsgərovundur.

Anacan, bağrımı qan cyləmişəm mən,
Gözlərimi giryan eyləmişəm mən,
Bir ala gözlü yarın eşqi yolunda (2)
Öz canımı qurban eyləmişəm mən.

Nəqərat

Anacan, ağrın alım,
Anacan, başına dönüm,
Qoy dolanım mən, mən, mən, mən, } 2
Mənim öz sevgilimə
Heyran olum mən, mən, mən, mən.

Gülü-xəndan kimidir yarın ləbləri,
Ceyrana bənzər onun ala gözləri,
İki kəlmə danışıb ayrıldı məndən, (2)
Qəlbimi nur elədi şirin sözləri.

Nəqərat

Anacan eşq oduna yanmamışam mən,
Hələ də bir təcrübə almamışam mən,
Nə yaman olur yardan ayrı düşəndə, (2)
Bəlkə də yaxşı-yaman qanmamışam mən.

Nəqərat

Girdim yarın bağçasına

Musiqi tərtibatı
Süleyman Ələsgərovundur.

Girdim yarın bağçasına, çiçəklər açmış,
O gül mənim ürəyimə ətirlər saçmış. (2)

Nəqərat

Gəl, gəl, gəl gözəlim gəl,
Gəl bir görüm səni,
Əgər qismətim olarsa, } 2
Alaram səni.

Yar yolunda dağlar keçdim, sulardan içdim,
Min bir gözəl gördüm ay qız, tək səni seçdim.

Nəqərat

Gənc yaşında bir qız sevdim, mənim olmadı,
Səni görüb sevdim, ay qız, qəmim olmadı, (2)

Nəqərat

Ay qadası

Musiqi tərtibatı
Hacı Xanməmmədovundur.

Qaşların hilal,
Ağ üzündə xal,
Körpə bir maral
Ay qadası. } 2

Nəqərat

Ləblərin şəkər
Olmasa əgər,
Kim nazın çəkər.
Ay qadası. } 2

Yandım eşqinə,
Qurbanam sənə.
Naz etmə mənə,
Ay qadası. } 2

Nəqərat

Sevdiyim nigar,
Ağ üzündə xal,
Körpə bir maral,
Ay qaydası. } 2

Nəqərat

Sənə sözüm var

Musiqi tərtibatı
Qənbər Hüseynlinindir.

Ay qız, sənin bizim gülbağçada nə işin var, (2)
Ceyran kimi baxışın, duruşun, yerişin var,
Getmə, mənə rəhm eylə gülüm, } 2
Dayan, sənə sözüm var.

Nəqərat

Qurban olum o gözlərə, } 2
Salıblar məni düzlərə.
Bağçamızdan dərdiyim gül } 2
Peşkəş olsun sən gözələ.

Ay qız, sən gəl bizim gülbağçanı tərk eyləmə, (2)
Gözlərinə, ay qız, güvənmə sən, fəxr eyləmə, (2)
Bir könül ver aşiqinə,
Mən fəqiri rədd eyləmə. (2)

Nəqərat

Çal oyna

Musiqi tərtibatı
Rəşid Şəfəqindir.

Göy göllərdə üzər qazlar,
Laçın (ay) vurub, tükünü tozlar. (2)
Dəstə-dəstə gəlir qızlar,
Gəlir (ay) nazlana-nazlana. (2)

Nəqərat

Mehribanım, gül oğlan, } 2
Dur oyna, çal-oyna.
Qəşənk oğlan, gözəl qız, dur oyna.
Qəşənk oğlan, gözəl qız, çal oyna.

Dost bağında açılmış gül,
Sarılmışdır gülə bülbül, (2)
Qızlar sancmış telinə gül,
Gəlir (ay) nazlana-nazlana.(2)

Nəqərat

Dost bağında bitər alçalar,
Tez çiçəkləyər, yetər alçalar.(2)
Toylarımızda belə qayda var:
Qızlar oynar, oğlanlar əl çalar,
Oğlanlar oynar, qızlar əl çalar.

Nəqərat

Üç gül

Yarın bağçasında üç gül açılıb –
Ağ gül, qırmızı gül, bir də sarı gül,
bir də sarı gül.
Hər birisi bir-birindən öyməli, (2)
Ay ala göz yarım,
Ahu-ceyranım.
Ağ gül, qırmızı gül, bir də sarı gül,
bir də sarı gül.

Ağca gülün qapısından baxmalı,
Qızıl gülü dəstə tutub qoxmalı,
Sarı gülü tər buxağa taxmalı.(2)
Ay ala göz yarım,
Ahu-ceyranım.
Ağ gül, qırmızı gül, bir də sarı gül,
bir də sarı gül.

Ağ gülü bənzətdim göydə laçına,
Qızıl gülü düzdüm yarın saçına.
Hüseyn müştaqdır gülün üçünə, (2)
Ay ala göz yarım,
Ahu-ceyranım.
Ağ gül, qırmızı gül, bir də sarı gül,
bir də sarı gül.

Sarı bülbül

Vətən bağı al-əlvandır,
Yox içində xarı bülbül,
Ömür sürməli dövrandır,
Səsin gəlsin barı, bülbül.
Səsin gəlsin, sarı bülbül,
Sarı bülbül, sarı bülbül.

Oxu, quşlar dilə gəlsin,
Xoş nəfəsin elə gəlsin,
Yarım gülə-gülə gəlsin,
Mən çalanda tarı, bülbül. (2)
Sarı bülbül, sarı bülbül.

Geymiş donun yaşıl çöllər,
Həvəsindən açır güllər,
Töküb şirin-şirin dillər
Gəl oyadaq, yarı bülbül. (2)
Sarı bülbül, sarı bülbül.

Bülbül, sənin işin qandı,
Aşiqlər oduna yandı,
Nədən hər yerin əlvandı,
Köksün altı sarı, bülbül. (2)
Sarı bülbül, sarı bülül.

Güloğlan

Oğlan, getmə, dayan, dur,
Eşqim sənə əyandır.
Gəlişinə can qurban,
Gedişin nə yamandır!
Gəlişinə can qurban, a bala,
Gedişin nə yamandır!

Nəqərat

Özü bir gül,
Sözü bülbül,
Saçı sünbül Güloğlan,
Dur gəl mən sənə qurban. } 2

Qızıl gülsən, butasan,
Məni salma oda sən.
Mən o güldən deyiləm,
İyləyəsən, atasan,
Mən o güldən deyiləm, a bala
İyləyəsən, atasan.

Nəqərat

Gözəllər gözəlisən,
Şirinsən, məzəlisən.
Mən səndən əl çəkmərəm,
Sevdamın əzəlisən.
Mən səndən əl çəkmərəm, a bala,
Sevdamın əzəlisən.

Nəqərat

Keçmə məndən

Əzizim, keçmə məndən,
Çay məndən, çeşmə məndən.
İnanma yad sözünə,
Cavanam, keçmə məndən. } 2

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən sənə göz dikmişəm,
Neynirəm özgəsini? } 2

Bağçamızın çiçəyi,
Məhləmizin göyçəyi,
Mən ki, səni sevirəm,
Budur sözün gerçəyi. } 2

Əzizim, keçmə məndən,
Çay məndən, çeşmə məndən,
İnanma yad sözünə,
Cavanam, keçmə məndən. } 2

Sona bülbüllər

Su atdım hara dəydi, sona bülbüllər,
Əlim divara dəydi, sona bülbüllər,
Dilim-ağzım qurusun, sona bülbüllər,
Nə dedim yara dəydi, sona bülbüllər.

Nəqərat

Elə yar, yar deyirlər.
Heç məni demirlər,
Ay sona bülbüllər.
Elə bil yar deyiləm,
Heç məni dindirməz,
Ay sona bülbüllər.

Dəryada gəmim qaldı, sona bülbüllər,
Biçmədim zəmim qaldı, sona bülbüllər,
Çox çəkdim yar cəfasın, sona bülbüllər.
Mənə dərd-qəmim qaldı, sona bülbüllər.

Nəqərat

Od tutub alışaram, sona bülbüllər,
Hər dərdə qarışaram, sona bülbüllər,
Yarımın meyli olsa, sona bülbüllər,
Küsmüşəm, barışaram, sona bülbüllər,

Nəqərat

Sarı gəlin

Saçın ucun hörməzlər,
Gülü qönçə dərməzlər, } 2
Sarı gəlin.
Bu sevda nə sevdadır.
Səni mənə verməzlər;
neynim, aman-aman,
neynim, aman-aman, } 2
sarı gəlin.

Bu dərənin uzunu,
Çoban, qaytar quzunu, } 2
quzunu.
Nə ola bir gün görəm
Nazlı yarım, üzünü;
neynim, aman-aman,
neynim, aman-aman, } 2
sarı gəlin.

Aşıq ellər ayrısı,
Şana tellər ayrısı, } 2
ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı;
neynim, aman-aman,
neynim, aman-aman, } 2
sarı gəlin.

Üç telli durna

Evlərinin dalı seyran,
Seyrangahda gəzir ceyran,
Hüsnün görən olur heyran
Üç telli, dörd telli, beş telli durna.

Nəqərat

Sən haralısan, haralı, durna?
Ovçu əlindən yaralı durna,
Sən getsən bağlar saralı, durna.
Yaralı, yaralı, yaralı durna.

Evlərinin dalı təpə,
Yağış gəlir səpə-səpə,
Oyadıram öpə-öpə,
Üç telli, dörd telli, beş telli durna.

Nəqərat

Evlərinin dalı qaya,
Qayadan baxarlar aya.
Göydə durna gəlməz saya,
Üç telli, dörd telli, beş telli durna.

Nəqərat

Bizim vətən qızları

Bizim vətən qizlarının, } 2
Şirin-şirin dilləri var }
Yorulmayan əlləri var } 2
Bizim vətən qızlarının. }

Nəqərat

Nəfəsi var çiçəklərdə. (2)
Nəğməsi var küləklərdə
Eşqi gəzir ürəklərdə. (2)
Bizim vətən qızlarının.

Üzü gülür, özü gülür, } 2
Qəlbə yatan sözü gülür, }
Baxışından nur süzülür } 2
Bizim vətən qızlarının. }

Nəqərat

Qara tellər

Qara tellər, qara tellər,
Şəvə kimi qara tellər.
Qıvrılanda qara tellər
Yar könlümü qarət eylər.

Nəqərat

Qara tellər, qara tellər,
Yar könlümü qarət eylər.

Qara gözlər, qara gözlər,
Qapqaradır qara gözlər,
Çilvələnib şux baxanda
Qara gözlər kimi gözlər?

Nəqərat

Mən aşiqəm, ağ barama,
Qıvrım teli çox darama,
Sənin ki könlün məndədir,
Özgəsini gəl, arama!

Nəqərat

Qubanın ağ alması

Qubanın ağ alması,
Şirindir bağ alması,
Yarım gələnə qalıb
Yaramın sağalması.

Nəqərat

Sevirəm
Səni mən, yar,
Sevirəm, yar,
Səni mən, yar, yar.
Aman, aman,
Sevirəm, yar,
Səni mən, yar,
Sevirəm yar, yar.

Qubadan alma aldım,
Yarıma yola saldım.
Közlədim yar gəlmədi,
Heyva kimi saraldım.

Nəqərat

Qubanın alması var,
Armudu, alması var.
Yenə durub qəsdimə,
Əcəb çan alması var!

Nəqərat

Almanı atdım xarala

Almanı atdım xarala,
Qaldı sarala-sarala. } 2
Dağlarda döndün marala.

Nəqərat

A tirmə köynək,
A tirmə köynək, sarı çəpgən gəlin, haralısan?
Özü göyçək, sözü göyçək, hara maralısan?
Yarın bağında üzüm əsgəri,
Damın dalından həzin səs gəlir.

Sağ ol gəl,
Var ol gəl,
Sən bizə mehman ol, gəl. } 2

Gəlin gedək bizim bağa,
Hərə çıxaq bir budağa, } 2
Vuruldum o gül yanağa.

Nəqərat

Bəh-bəh

Gül açılanda yaz olur, bəh-bəh, bəh!
Kədərim, qəmim az olur, bəh-bəh, bəh!
Gözəldə işvə, naz olur, bəh-bəh, bəh!
Gəl, gəl, gözəl yar, sevirəm səni! } 2

Yarın bağında şirin olur üzüm,
Sənin ayrılığına necə dözüm!?
Sənə qurban olsun bu iki gözüm! }2
Gəl, gəl, gözəl yar, sevirəm səni!

Bülbül bağlarda səs salır: cəh-cəh, cəh!
Güllərin ətrini alır: bəh-bəh, bəh!
Musiqi səsi ucalır: bəh-bəh, bəh! }2
Gəl, gəl, gözəl yar. Sevirəm səni!

Gül açdı

Gül açdı bahar oldu, (2)
Yar məndən kənar oldu. (2)
Yar məndən ayrılalı (2)
Ürəyim qubar oldu. (2)

Nəqərat

Belə naz ilə, naz ilə baxma,
Məni yandırıb, yaxma. (2)

Gül açdı xəndan oldu, (2)
Dərmədim dən-dən oldu. (2)
Mən səndən ayrılmazdım, (2)
Ayrılıq səndən oldu. (2)

Nəqərat

Bu dağda maral gəzər, (2)
Tellərin darar gəzər, (2)
Mən yara neyləmişəm, (2)
Yar məndən kənar gəzər? (2)

Nəqərat

Ay qız, kimin qızısan?

Ay qız, kimin qızısan?
Almadan qırmızısan
Anan səni bəsləyib,
Baxtımın ulduzusan.

Nəqərat

Aç xurcunu,
Al bıçağı,
Kəs almanı, ver yara dilim-dilim.
Dilim-dilim, dilim-dilim.

Aşiqinəm əzəldən,
Yar yarın verməz əldən.
Dostum var, düşmənim var,
Salma məni nəzərdən.

Nəqərat

Həmyaşımsan, tayımsan,
Ulduzumsan, ayımsan.
Görənlər bir söz deməz,
Sən ki, mənim payımsan.

Nəqərat

Sudan gələn sürməli qız

Sudan gələn sürməli qız, (2)
Çox incidir küzə səni, bala,
Çox incidir küzə səni.
Ay camalın şölə salır. (2)
Gəlməyəsən gözə səni, bala,
Gəlməyəsən gözə səni.

Kuzəni boyundan aşır, (2)
Saçın dabana dolaşır, bala,
Saçın dabana dolaşır.
Nə geysən sənə yaraşır. (2)
Gəlməyəsən gözə səni, bala,
Gəlməyəsən gözə səni.

Kuzə suyu şərbət olar, (2)
Bulaq üstə söhbət olar, bala,
Bulaq üstə söhbət olar.
Mənsiz sənə zəhmət olar. (2)
Gəlməyəsən gözə səni, bala,
Gəlməyəsən gözə səni.

Bağçadan gələn

Bağçadan gələn nə səsdir, a balam? (2)
Bülbülün yeri qəfəsdir, (2)
Oynadıq, güldük, ta bəsdir, gülüm. (2)

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Nəqərat

Apararlar səni yar yanına, gül yanına,
Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Mailəm o qaş-gözünə, a balam, (2)
Həm şirin-şirin sözünə, (2)
Vermisən bəzək özünə, gülüm. (2)

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Nəqərat

Bağçadan gələn səs eylər, a balam, (2)
Bülbül ötər həvəs eylər, (2)
Oynadıq, güldük, bəs eylər, gülüm. (2)

Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Nəqərat

Bülbül

Bülbülün geydiyi sarı, } 2
Ağlayaram zarı-zarı. }
İtirmişəm gözəl yarı,
Oxu, oxu nazlı bülbül!

Nəqərat

Axtarıram nazlı yarı,
Oxu, oxu nazlı bülbül!

Bülbülün geydiyi atlaz, }2
Atlaza iynə batmaz.
O qız ölər, məni atmaz,
Oxu, oxu nazlı bülbül!

Nəqərat

Bülbülün geydiyi yaşıl, }2
Gün dəyəndə parıldaşır,
Qız görsəm, dilim dolaşır,
Oxu, oxu nazlı bülbül!

Nəqərat

Ay bülbüllər

Bu dağı bağ eylərəm, ay bülbüllər,
Yanın çardağ eylərəm, ay bülbüllər,
Eşitsəm sən gəlirsən, ay bülbüllər,
Yolunu çırağ eylərəm, ay bülbüllər.

Evlərində var kilim, ay bülbüllər,
Lal olsun mənim dilim, ay bülbüllər,
Gedəndə küsdü getdi, ay bülbüllər,
Gəlsə necə dindirim, ay bülbüllər.

Oba köçdi oymaqdan, ay bülbüllər,
Su yorulmaz axmaqdan, ay bülbüllər,
Yar yardan necə doysun, ay bülbüllər,
Pəncərədən baxmaqdan, ay bülbüllər.

Uca dağlar

Uca dağlar başında ceyran balalar,
ceyran balalar,
Ceyranın balasını ovçu yaralar, ovçu yaralar.
Mən yardan ayrı düşsəm, əğyar kam alar,
əğyar kam alar,

Nəqərat

Ay gözəl oğlan,
Eşit bir dayan,
Sevirəm səni.
Eşqimə inan.

Yeri, yeri, mən də gəlim dalınca,
Dəsmal elə apar məni yanınca. } 2

Vətənim səfalıdır, bağdır, meşədir,
bağdır, meşədir,
Sevgilimin qəlbi safdır, sanki şişədir,
sanki şişədir,
Yardan ayrı yaşamaq çətin peşədir,
çətin peşədir,

Nəqərat

Miz üstə yaylıq,
Dəyəmədim qaldı,
Ona dəymərəm,
O yadigardı.

Yeri, yeri, mən də gəlim dalınca.
Dəsmal elə apar məni yanınca. } 2

Uca dağlar başında

Uca dağlar başında bir sürü quzu,
bir sürü quzu, bala, bir sürü quzu.
Xumar-xumar süzməkdədir yarımın gözü,
yarımın gözü, bala, yarımın gözü.

Nəqərat

Yar gülə-gülə,
Yar bilə-bilə,
Mən aşiq oldum, bala,
Bir şirin dilə.
Mən aşiq oldum, bala,
Bir şirin dilə. } 2

Uca dağlar başında bir sürü ceyran,
bir sürü ceyran, bala, bir sürü ceyran.
Yar, ala gözlərinə olmuşam heyran,
olmuşam heyran, bala, olmuşam heyran.

Nəqərat

Uca dağlar başında səslərəm səni,
səslərəm səni, bala, səslərəm səni.
Yar, iki gözüm üstə bəslərəm səni,
bəslərəm səni, bala, bəslərəm səni.

Nəqərat

Apardı sellər Saranı

Arpa çayı aşdı-daşdı, (2)
Sel Saranı aldı qaçdı, (2)
Ala gözlü, qələm qaşdı. (2)

Nəqərat

Apardı sellər Saranı,
Bir ala gözlü balanı.

Gedin deyin Xançobana: (2)
Gəlməsin bu il Muğana, (2)
Muğan batıb nahaq qana. (2)

Nəqərat

Arpa çayı dərin olmaz. (2)
Axar suyu sərin olmaz. (2)
Sara kim gəlin olmaz. (2)

Nəqərat

Ay bəri bax

Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax.
Səni mənə versələr,
Ay bəri bax, bəri bax. } 2
Hər görənə xoş gələr,
Ay bəri bax, bəri bax. (3)

Pəncərənin milləri,
Ay bəri bax, bəri bax.
Açılıb qızıl gülləri,
Ay bəri bax, bəri bax. } 2
Oğlanı yoldan eylər, }
Ay bəri bax, bəri bax.
Qızın şirin dilləri.
Ay bəri bax, bəri bax. (3)

Pəncərəni bağlama,
Ay bəri bax, bəri bax.
Mən gedirəm ağlama.
Ay bəri bax, bəri bax.
Gedib yenə gələrəm, } 2
Ay bəri bax, bəri bax. }
Özgəyə bel bağlama,
Ay bəri bax, bəri bax.
Ay bəri bax, bəri bax. (3)

Xumar oldum

Mən gəlmişəm sənə qonaq,
Ceyran, mənə bax, bax!
Maral, mənə bax, bax!
Bişir mənə bir qayqanaq!
Ay qız, mənə bax, bax!
Gözəl, mənə bax, bax!

Nəqərat

Xumar oldum, xumar oldum,
Xumar oldum, xumar,
Kətan köynək, nazik bədən
Gördüm bihal oldum, bihal oldum,
Bihal oldum, bihal.

Getdim gördüm bulaqdadır,
Ceyran, mənə bax, bax!
Maral, mənə bax, bax!
Əl-üzünü yumaqdadır.
Ay qız, mənə bax, bax!
Gözəl, mənə bax, bax!

Nəqərat

Getdim gördüm bağda yatıb,
Ceyran, mənə bax, bax!
Maral, mənə bax, bax!
Ay qız, mənə bax, bax!
Qara tellər gülə batıb,
Gözəl, mənə bax, bax!

Nəqərat

Dağlarda çən düşəndə

Dağlara çən düşəndə,
Sünbülə dən düşəndə,
Ruhum bədəndə oynar, bala, } 2
Yadıma sən düşəndə.

Dağları gəzdim gəldim,
Daşların üzdüm gəldim.
Yarımı bivəfa görüb, } 2
Əlimi üzdüm gəldim.

Dağların qarı mənəm,
Gün vursa, ərimərəm.
Qəbrimi quzeydə qazın, } 2
Cavanam-çürümərəm.

Həsiri basma

Dolayı gəl, dolayı,
Həsiri basma, dolan gəl,
Süpürmüşəm sarayı,
Həsiri basma, dolan gəl.

Nəqərat

Qurtarmağa az qalıb, } 2
Gözlərəm təzə ayı, hey,
Həsiri basma, dolan gəl. } 2
Dolan gəl, ay, dolan gəl.

Gəl saçını hörüm mən,
Həsiri basma, dolan gəl.
Bir-bir bəndin vurum mən,
Həsri basma, dolan gəl. } 2

Nəqərat

Süsən sünbül

Süsən sünbül, ay gülüm, bitirmişəm,
Mən yarımı, ay gülüm itirmişəm.
Ay gülüm itirmişəm,
Ömrü başa, yetirmişəm.
Aman Gülgəz, a balam, yarım hanı?
A gülüm, yarım hanı?

Nəqərat

Ağ üzdə xalın, a gülüm,
O məh camalın, ay gülüm,
Yandırdı məni, ay gülüm
Nədir xəyalın,
Ay gülüm, nədir xəyalın?

Yar əlindən badə içdim,
Mətləbimə, a balam, mən yetişdim,
Ay gülüm, mən yetişdim.
Gəcavəsin mən özüm bəzəmişdim.
Aman Gülgəz, a balam, yarım hanı?
A gülüm, yarım hanı?

Nəqərat

Niyə bala

Qonşumuzda bir qız vardır,
Gözəllikdə ilk bahardır.
Anasından gizli mənə
Söz verib aldatdı məni,
Məni, məni, məni, məni bala,

Nəqərat

Yar yaman aldatdı məni,
məni, məni bala,
Aldadıb oynatdı məni,
məni, niyə bala? } 2

Yaylığını aldım onnan,
Ayrılığı saldım onnan.
Dedim gələr, qaytararam,
Gəlmədi, aldatdı məni,
Məni, məni, məni, məni bala.

Nəqərat

Sevgilimi görən olsa,
Deyin gəlsin vaxtı varsa,
Gözə gəldi yarım, yoxsa?
Gəlmədi, aldatdı məni,
Məni, məni, məni, məni bala.

Nəqərat

Qaragilə

Gəlmişəm otağına oyadam səni,
Qaragilə, oyadam səni,
Nə gözəl xəlq eləyib yaradan səni,
Qaragilə, yaradan səni,
Götürüb, mən qaçaram aradan səni.
Qaragilə, aradan səni.

Nəqərat

Qızıl gül əsdi,
Səbrimi kəsdi,
Sil gözün yaşın,
Qaragilə,
Ağlama, bəsdi. } 2

Şəhərin küçələri dolanbadolan,
Qaragilə, dolanbadolan,
Sən ki, məni sevmədin, get ayrı dolan,
Qaragilə, get ayrı dolan,
Nə mənə qız qəhətdir, nə sənə oğlan,
Qaragilə, nə sənə oğlan.

Nəqərat

Ağac olaydım,
Yolda duraydım,
Sən gələn yola,
Qaragilə,
Kölgə salaydım. } 2

Elə bəndəm

Arazam, Kürə bəndəm, } 2
Bülbüləm, gülə bəndəm.
Dindirməyin qəmliyəm, } 2
Bir şirin dilə bəndəm.

Nəqərat

Elə bəndəm, elə bəndəm, (2)
Bir şirin dilə bəndəm.

Pəncərəmdə şüşə nəm, } 2
Yarpaq üstə düşə nəm.
Nə o, gözdən salandı, } 2
Nə mən gözdən düşənəm.

Nəqərat

Əzizim, yandı Kərəm, } 2
Od tutub, yandı Kərəm.
Hazıram şirin canı } 2
Yolunda qurban verəm.

Nəqərat

QƏHRƏMANLIQ NƏĞMƏLƏRİ

"KİTABİ-DƏDƏ QORQUD"DAN

Hünərlidir

(Dədə Qorqudun dilindən)

Hey Dirsə xan! Oğlana bəylik ver,
Təxt ver, güclüdür, ərdəmlidir!
Boynu uzun bədəvi at ver,
Qoy minsin, hünərlidir!
Yaylağından on qoyun ver,
Bu oğlana şişlik olsun, cüssəlidir!
Qaytabandan qızılı dəvə ver bu oğlana,
Qoy yükləsin, hünərlidir!
Qızıl tağlı hündür ev ver bu oğlana,
Kölgə olsun, əzdəmlidir!
Çiyni quşlu cübbə-don ver sən bu oğlana,
Qoy geyinsin, hünərlidir!

Söylə mənə

(Dirsə xanın dilindən)

Boynu uzun bədəvi atlar gedirsə, mənimki gedir,
İçində sənin də mindiyin varsa, igid, de mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Yaylaqdan on min qoyun gedirsə, mənimki gedir,
İçində sənin də şişliyin varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Qaytabandan qızılı dəvə gedirsə, mənimki gedir,
İçində sənin yüklədiyin də varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Qızıl tağlı evlər gedirsə, mənimki gedir,
İçində sənin də otağın varsa, söylə mənə,
Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Ağ üzlü, ala gözlü gəlinlər gedirsə, mənimki gedir,
İçində sənin də nişanlın varsa, igid, de mənə,

Savaşmadan-vuruşmadan alıb verim, qayıt geri!
Ağ saqqallı qocalar gedirsə, mənimki gedir,
İçində sənin də ağ saqqallı atan varsa, de mənə,
Savaşmadan-vuruşmadan xilas edim, qayıt geri!
Mənim üçün gəldinsə, oğlancığımı öldürmüşəm.
İgid, sənin yazığın gəlməsin, qayıt geri!

Qoymaram

(Dirsə xan oğlu Buğacın dilindən)

Boynu uzun bədəvi atlar gedirsə, səninki gedir;
Mənim də içində mindiyim var,
qırx namərdə qoymaram!
Qaytabandan qızılı dəvə səninki gedir,
Mənim də içində yüklədiyim var,
qırx namərdə qoymaram!
Yaylaqdan gedən min-min qoyun səninkidir,
Mənim də içində şişliyim var,
qırx namərdə qoymaram!
Sənin ağ üzlü, ala gözlü gəlinlərin gedirsə,
İçində mənim də nişanlım var,
qırx namərdə qoymaram!
Qızıl tağlı uca evlər gedirsə,
İçində mənim də otağım var,
qırx namərdə qoymaram!
Sənin ağ saqqallı qocaların gedirsə,
İçində mənim də bir ağlı çaşmış,
Başı itmiş qoca atam var,
qırx namərdə qoymaram!

Boş-boş danışma

(Qaraca çobanın dilindən)

Boş-boş danışma, itim kafir!
İtimlə bir yalaqdan yal içən azğın kafir,
Altındakı alaca atını nə öyürsən?
Ala başlı keçimcə görünməz mənə!
Başındakı dəbilqəni nə öyürsən, ay kafir?
Başımdakı papağımca görünməz mənə!
Altmış tutam nizəni nə öyürsən, murdar kafir?
Qırmızı dəyənəyimcə görünməz mənə!

Qılıncını nə öyürsən, ay kafir?
Əyri başlı çövkanımca görünməz mənə!
Belində doxsan oxunu nə öyürsən, ay kafir?
Ala qollu sapandımca görünməz mənə!
Uzaqdasan-yaxındasan, bəri gəl!
İgidlərin zərbəsini gör, sonra get!

Mənə ver

(Qaraca çobanın dilindən)

Qonur atını mənə ver!
Altmış tutamlıq nizəni mənə ver!
At o böyük qalxanını, mənə ver!
Böyük, iti, polad qılıncını mənə ver!
Oxqabından səksən oxunu mənə ver!
Ağ tozluca tutacaqlı bərk yayını mənə ver!
Gedim kafirin qolundakı şahinini öldürüm.
Paltarımın qolu ilə alnımın qanını silim.
Ölərsəm, qoy sənin uğrunda mən ölüm!
Allah qoyarsa, evini mən xilas eləyim!

Günü gəldi

(Qazan oğlu Uruzun dilindən)

Bəri gəl, ağam Qazan!
Qalxıb yerimdən
Bədəvi atımı saxlayırdım bu gün üçün.
Günü gəldi, böyük meydanda səyirdim mən sənin üçün!
Uzaq vuran sür nizəmi
Saxlayırdım bu gün üçün.
Günü gəldi, qarınlara-kökslərə sancım mən sənin üçün
Böyük, iti polad qılıncımı saxlayırdım bu gün üçün,
Günü gəldi, murdar dinli kafir başın kəsdirim sənin üçün!
Əynimdə bərk dəmir donumu saxlayırdım bu gün üçün.
Günü gəldi, qolçaq-yaxa tikdirib-taxım sənin üçün!
Günü gəldi, qaba toppuz altında yoğurdum sənin üçün
Qırx igidimi saxlayırdım bu gün üçün.
Günü gəldi, kafir başını kəsdirim sənin üçün!
Ağız-dildən bir neçə söz söylə mənə!
Qara başım qurban olsun, ağam sənə!

Döyüşək

(Bəkir oğlu İmranın dilindən)

Ey itim kafir, hərzə-hərzə danışma!
Altımda al ayğırımı nə bəyənmirsən?
Səni görüb oynayır.
Əynimdəki dəmir donum çiynimi qısır.
Böyük, iti polad qılıncım qınını doğrayır.
Qarğı budağından süngümü nə bəyənmirsən?
Köksünü dələrək göyə fırladar.
Dəstəyi ağ tozlu bərk yayım zar-zar inləyir,
Oxlarım öz qabının kişini dəlir.
Yanımda igidlərim döyüş istəyir.
İgid adama hədə-qorxu gəlmək eyibdir.
Ay kafir, bəri gəl, döyüşək!

Xain çıxan deyiləm

(Qazan xanın dilindən)

On min düşmən gördümsə, "oyunum" dedim.
İyirmi min düşmən gördümsə, qaçmadım.
Otuz min düşmən gördümsə, ot saydım.
Qırx min düşmən gördümsə, qıya baxdım.
Əlli min düşmən gördümsə, əl vermədim.
Altmış min düşmən gördümsə, dindirmədim.
Səksən min düşmən gördümsə, səksənmədim.
Doxsan min düşmən gördümsə, silahlanmadım.
Yüz min düşmən gördümsə, üz döndərmədim.
Üzü dönməz, kütləşməyən qılıncımı ələ aldım.
Məhəmmədin dini eşqinə qılınc çaldım.
Böyük meydanda başı top tək kəsdim.
Onda belə "ərəm, bəyəm" deyə öyünmədim.
Çox öyünən kişilərdə bir kişilik görmədim!
Əlinə düşmüş ikən ey kafir, öldür məni,
Böyük qılıncını sal boynuma, kəs başımı,
Qılıncından qorxan deyiləm!
Öz əslimə, öz köküməxain çıxan deyiləm!

Mənəm

(Qazan xanın dilindən)

Yüksək-yüksək böyük dağdan daş yuvarlansa,
Öz dizini-oyluğunu qarşısına tutan mənəm.
Fironun sütunu tək yerdə yüklər qalansa,

O tayları dizi ilə tutub duran Qazan mənəm.
Böyük-böyük bəylərin oğlanları dalaşanda
Qamçı altında salıb döyən-vuran Qazan mənəm.
Uca dağda dolu yağsa, qara-qatı duman dursa,
Qaracıq atın qulaqları çovqunluqda görünməsə,
Bələdçisiz qorxu çəkən igidlər də yol yanılsa,
Bələdçisiz yol tanıyan, yol bacaran Qazan mənəm.
Yeddi başlı əjdahaya rast gəlib yetişdim.
Heybətindən, qorxusundan bu sol gözüm yaşardı.
"Hey gözüm? Bir ilanda nə var belə, qorxdun!" -- dedim.
Mən onda da "ərəm, bəyəm" deyə oyünmədim,
Çox öyünən kişilərdə bir kişilik görmədim.
Əlinə düşmüş ikən, ay kafir, öldür məni,
Çək qılıncı, kəs başımı, mən ki qorxan deyiləm!
Oğuzun igidləri dura-dura mən sənin
Şərəfinə, şəninə tərif yaxan deyiləm!

"KOROĞLU"DAN

Mənimdi

Məndən salam olsun əcəm oğluna,
Meydana girəndə, meydan mənimdi!
Qıratım köhləndi, özüm qəhrəman,
Çalaram qılıncı, düşman mənimdi!

Meydana girəndə meydan tanıyan,
Haqqın vergisinə mən də qanıyam;
Bir igidəm, igidlərin xanıyam,
Bu ətrafda bütün hər yan mənimdi!

Adımı soruşsan, bil, Rövşən olu,
Atadan, babadan cinsim Koroğlu;
Mənəm bu yerlərdə bir dəli-dolu;
Gündoğandan ta günbatan mənimdi!

Döyüş olmasın

Gəl sənə söyləyim, ay Dəli Həsən,
And içmişəm bu gün döyüş olmasın.
Yoxsa aslan kimi cuşa gələrəm,
And içmişəm bu gün döyüş olmasın.

Mərd igidlər müxənnətdən seçilsin,
Qarı düşmən dərələrə tökülsün.
Bizim aramızda münsif tapılsın,
And içmişəm bu gün döyüş olmasın.

Çəkərəm qılıncı, kəsərəm yolu,
Mənəm igidlərdə bir dəli-dolu.
Hələ coşmayıbdır bu qoç Koroğlu,
And içmişəm bu gün döyüş olmasın.

Gəlsin

Qıratı gətirdim cövlana, indi
Varsa igidlərin meydana gəlsin!..
Görsün mən dəlinin indi gücünü,
Boyansın əndamı al qana, gəlsin!..

Qorxum yox paşadan, sultandan, xandan,
Gəlsin mənəm deyən, keçirdim sandan,
Ərlər daldalanıb qorxmasın qandan,
At sürsün, qovğaya mərdana gəlsin!..

Koroğlu əyilməz yağıya, yada,
Mərdin əskik olmaz başından qada.
Nərələr çəkərəm mən bu dünyada,
Göstərrəm məşhəri düşmana, gəlsin!..

Yağılar bağrını əzər Koroğlu

Qıratın üstündə, ərlər yanında,
Dağları, daşları gəzər Koroğlu.
Hərdən acıqlanıb, nərə çəkəndə
Yağılar bağrını əzər Koroğlu.

Meydana girəndə hünər eləyər.
Leş qalar bir yanda, kəllə söyləyər,
Yüz sar gəlsə, bir tərlana neyləyər?
Laçın tək havada süzər Koroğlu.

Mərd meydandan qaçmayıbdır yaşında,
Dəlilərin cəm görmüşəm başında,
Düşməni sındırır tər savaşında,
Cünun deyər şirə bənzər Koroğlu.

Meydana girəndə

Nərə çəkib mən meydana girəndə,
Varmı meydanıma gələ pəhlivan?..
Tutub kəmərindən çalanda yerə
Mənim zərbi-dəstim bilə pəhlivan?..

Mənəm şiri-nər tək meydanda gəzən,
Xişm ilə düşmanın bağrını əzən,
Tülək tərlan kimi havada süzən,
Sonra yaxan keçər ələ, pəhlivan!..

Dəmirçioğlu, mən yarağa dolaram,
Ac qurd kimi düşman üstə ularam,
Qılınc çəksəm leş-leş üstə qalaram,
Döndərrəm al qanı selə pəhlivan!..

Meydandan məni

Yağı düşmanın hərbəsi
Qaçırtmaz meydandan məni.
Qorxaq müxənnət zərbəsi
Qaçırtmaz meydandan məni.

Girrəm meydana ər kimi,
Durram qabaqda nər kimi,
Düşman boylanar xər kimi,
Qaçırtmaz meydandan məni.

Hərdən bərədə yataram,
Ortada şeşpər ataram,
Paşanı diri tutaram,
Qaçırtmaz meydandan məni.

Aləmə bəlli hünərim,
Çənlibeldə dəlilərim,
Mərd igidə peşkəş sərim,
Qaçırtmaz meydandan məni.

Koroğluyam, budu düzü,
Comərdin sərt olar üzü,
Müxənnətin tənə sözü
Qaçırtmaz meydandan məni!

Sultanım

Qoç quzudan quzu törər qoç olar,
Qoç igiddən qoçaq olar, sultanım!
Mərd igidlər dava günü şad olar,
Müxənnətlər naçaq olar, sultanım!

Canım qurban mərd igidin özünə,
Mərdi ölsə əlin vurmaz dizinə,
Fürsət düşsə düşmanının gözünə,
Burma-burma bıçaq olar, sultanım!

Mərd igidlər bir-birinə daldadı,
Çuğullar ölməyib, sağı-soldadı,
Mərd meydandan qaçmaz, qaçsa aldadı,
Qovğa günü haçaq olar sultanım!

Dağlar qoynunda, qoynunda

Məni binadan bəslədi,
Dağlar qoynunda, qoynunda.
Tülək tərlanlar səslədi
Dağlar qoynunda, qoynunda.

Dolanda igid yaşıma,
Yağı çıxdı savaşıma,
Dəlilər gəldi başıma
Dağlar qoynunda, qoynunda.

Səfər elədim hər yana,
Şahları gətirdim cana,
Qıratım gəldi cövlana
Dağlar qoynunda, qoynunda.

Kəsdim yollar, vurdum karvan,
Çəkib soydum çox bəzirgan,
Düşmanlara uddurdum qan
Dağlar qoynunda, qoynunda.

Əsir çəkdim Çənlibelə,
Qoç Koroğlu düşdü dilə,
Xan Eyvaz mənimlə belə
Dağlar qoynunda, qoynunda.

Bir yana

Uca-uca dağ başında
Yaz bir yana, qış bir yana.
Titrəşir ağzım içində
Dil bir yana, diş bir yana.

Nə edək, dəlilər, nə edək!
Düşmanın bağrını didək!
Xan Eyvaza kömək edək!
Dörd bir yana, beş bir yana.

Hər nə oldu, mənə oldu,
Qaynadı peymanım doldu,
Gördün ki, düşmən güc gəldi,
Qov bir yana, qaş bir yana.

Koroğlunun yox əlacı,
Misirdən gəlir xəracı.
Çəkəndə Misri qılıncı,
Leş bir yana, baş bir yana!

Bu gün dava günüdü

Dəlilərim, bu gün dava günüdü,
Müxənnət ölkəsi talanmaq gərək!
Qoç igidlər yarasından bəllənər,
Şərbət tək qanına yalanmaq gərək!

Mərd igidlər nərə çəksin davada,
Şahin kimi şikar tutsun yuvada,
Misri qılınc cövlan vursun havada,
Bağırsaq cəmdəyə dolanmaq gərək!

Koroğlu içəndə düşmən qanını,
Mərd meydanda nərəsindən tanını,
Qırın vəzirini, tutun xanını,
Leş-leşin üstünə qalanmaq gərək!

Hoydu, dəlilərim, hoydu

Hoydu, dəlilərim, hoydu,
Yeriyin meydan üstünə!
Havadakı şahin kimi,
Tökülün al qan üstünə!

Qoyun bədöylər kişnəsin,
Misri qılınclar işləsin,
Kimi tənab qılınclasın,
Kiminiz düşman üstünə!

Koroğlu çəkər haşanı,
Bəylər elər tamaşanı,
Mən özüm Aslan paşanı.
Hərəniz bir xan üstünə.

Gərəkdi

Paşa, sənə nişan verim Qıratı,
Əbrişim ipəkdən yalı gərəkdi.
Bir mina boyunlu, uca sağrılı,
Bir yarım hoqqadan nalı gərəkdi.

Armıdı dırnaqlı, hündür boyunlu,
Meydana girəndə yüz min oyunlu,
Dəyirman mədəli, ac qurd yeyimli,
Ortası qulana dolu gərəkdi.

Qaranlıq gecədə yol çaşırmayan,
Düşman qabağında ər düşürməyən,
Üstündə əl-ayaq yığşırılmayan
Koroğlunun atı dəli gərəkdi.

Mərd olu

Bizim elin dəliləri
Girər meydana mərd olu,
Ölüncə meydandan qaçmaz,
Girəndə meydangərd olu.

Sərp qayalarda yurd olmaz,
Müxənnətə söz dərd olmaz.
Çaqqal əniyi qurd olmaz,
Yenə qurd oğlu qurd olu.

Dəlilərim fovcu-fovcu,
At minib düşman qovucu,
Belində misri qılıncı,
Koroğlu kimi mərd olu.

Mindim Qıratın belinə

Mindim Qıratın belinə,
Kaş ki, düşman yüz olaydı.
Çəkəndə Misri qılıncı
Dərə-təpə düz olaydı.

Atı minmişəm gəzməyə,
Düşman bağrını əzməyə,
Tona çayını üzməyə
Qırat bir qəvvas olaydı.

Verin yeddiillik xaracı,
Paşalar gətirsin bacı,
Koroğlu çəkib qılıncı,
Düşman üzbəüz olaydı.

Siz o yandan, mən bu yandan

Misri qılınc alın ələ,
Siz o yandan, mən bu yandan!..
Al qanı döndərək selə
Siz o yandan, mən bu yandan!..

Düşmanın qəddini bükək,
Başlar kəsib, yerə tökək,
Xan qoruğunda turp əkək
Siz o yandan, mən bu yandan!

Haydı düşmanın tuşuna,
Qan udduraq bu qoşuna,
Gələk Koroğlu xoşuna
Siz o yandan, mən bu yandan!..

Gündü bu

Mərd igidlər, dava günü gəlibdi,
At sürüb meydana çıxan gündü bu.
Müxənnətlər tər savaşa varıbdı,
Vuruban atından yıxan gündü bu.

Comərd igid heç qaçarmı meydandan?
Qılınc çəkib hayıf alaq düşmandan!
Qorxaq kəslər boyun əyib pünhandan
Sinilib xəlvətdən baxan gündü bu.

Qoç Koroğlu, qılınc götür dəstinə!
Müxənnət paşalar dolub qəsdinə,
Qarı düşman hücum edib üstünə,
Nizəni gözünə soxan gündü bu.

Hoydu

Dolun at belinə, qoç dəlilərim,
Xotkarı taxtından endirək, hoydu!
Talayaq mülkünü, alaq canını,
Evini başına endirək, hoydu!

Şığıyıb üstünə qəddini bükək!
Gərək Çənlibelə min əsir çəkək!

Paşanın başında gəlin turp əkək!
Şahın çırağını söndürək, hoydu!

Bir hayqırsam polad qollar boşalar,
Düşmanlar əlimdən çəkər haşalar,
Öldürək xotkarlar, qıraq paşalar,
Meydanı məşhərə döndərək, hoydu!

Qeysəri öldürək, sərdarı tutaq,
Böyüyün, kiçiyin qol-qola çataq,
Ərəb at döşünə cümləsin qataq,
Çənlibelə əsir göndərək, hoydu!

Gələr Koroğlunun damaqlı çağı,
Dəlilər məclisdə, xan Eyvaz sağı,
Aladı gözləri, qaşları yağı,
Bulğarlı xanımı dindirək, hoydu!

Meydan başına

Qıratım kişnəyib girər,
Atılar meydan başına.
Qılınc çəkib dəlilərim,
Od ələr düşman başına.

Yaxşı ər, yaxşı at minər,
Ortada göstərər hünər,
Atılanda nizə, şeşpər
Qaldırar qalxan başına.

Gər girişsəm çalhaçala,
Quş gərəkdi qanad sala,
Çəkib uçurdaram qala,
Bəy, paşa, sultan başına.

Dava günündə Eyvaz xan
Yüz yağıya verməz aman,
Dolanıb olasan qurban
Bir belə oğlan başına.

İgiddə olar namus, ar.
Dar gündə görər gücü kar.
Koroğlu, dəlilər, Nigar
Yığılar dövran başına.

"QAÇAQ NƏBİ"DƏN

Qazamat istidi

Qazamat istidi yata bilmirəm,
Duşmənim güclüdü bata bilmirəm.
Ayaqda qandalaq qaça bilmirəm.
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Qazamat istidi ağrıyır başım,
Axır gecə-gündüz qanlı göz yaşım,
Olubdu daş-divar mənim sirdaşım.
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Mən gələndə şamamalar gülüdü,
Dörd yanımı atlı qazax bürüdü,
Mənim canım qazamatda çürüdü.
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi!

Tüfəngi havada oynadan Nəbi

Nəbinin bığları oyma-oymadı,
O Həcərdən, Həcər ondan doymadı,
Qırdı bəyi, xanı, birin qoymadı.
Deyirlər, iyiddi o nadan Nəbi,
Tüfəngi havada oynadan Nəbi!

Qaçaq Nəbi ilə Mehdi qardaşdı,
Onların məkanı qayadı, daşdı,
İyidlər içində hamıdan başdı,
Deyirlər, iyiddi o nadan Nəbi,
Tüfəngi havada oynadan Nəbi!

Nəbi mərd iyiddi, qoçaq oğlandı,
Dosta, yoldaşlara çox mehribandı,
Mənim də bu canım ona qurbandı.
Deyirlər, iyiddi o nadan Nəbi,
Tüfəngi havada oynadan Nəbi!

Bac alar

Gümüş stəkanlı, qızıl tavalı,
Uşaqlara deyin, döysün qavalı,
Atlananda qoburnatdan havalı,
Yağıdı soltana, bəy-xana Nəbi,
Bac alar, bac verməz divana Nəbi!

Nəbinin Bozatı dəlidi, dəli,
Çiynində aynalı, belində əli,
Nəbinin göməyi o mövlam Əli.
Yağıdı soltana, bəy-xana Nəbi,
Bac alar, bac verməz divana Nəbi!

On altı yaşında o, qaçaq oldu,
Düşmənin gözünə bir pıçaq oldu,
İgidlər içində baş qoçaq oldu.
Yağıdı soltana, bəy-xana Nəbi,
Bac alar, bac verməz divana Nəbi!

Qisas alıbdı

Nəbinin bığları eşmə-eşmədi,
Papağı güllədən deşmə-deşmədi,
Nəbinin atını heç at keçmədi,
Bəyləri qorxuya salıbdı Nəbi.
Qoburnatdan qisas alıbdı Nəbi!

Bozatın ayağı aladı, ala,
Başına gələnlər bəladı, bəla,
Bəy-xanlar əlində hey çəkər nala.
Bəyləri qorxuya salıbdı Nəbi.
Qoburnatdan qisas alıbdı Nəbi!

Gün çıxıbdı günortanın yerinə,
Həcər xanım qalxıb atın belinə,
Əşrəfi, mirvarı düzüb telinə.
Bəyləri qorxuya salıbdı Nəbi,
Qoburnatdan qisas alıbdı Nəbi!

Nəbi çıxıb qızıl pulu toplayır,
Aparıb yoxsula, aca paylayır,
Nəbini dostları qonaq saxlayır.
Bəyləri qorxuya salıbdı Nəbi.
Qoburnatdan qisas alıbdı Nəbi!

Ay qoçaq Nəbi

Nəbinin gözləri aladı, ala,
Qoç Nəbi olubdu düşmənə bəla,
Nəbinin məskəni uca bir qala,
Qoy sana desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən, ay qoçaq Nəbi!

Dağların başları dumandı, duman,
Nəbidən çəkirlər zalımlar aman,
Qoç Koroğlu kimi Nəbi qəhrəman,
Qoy sana desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən, ay qoçaq Nəbi!

Nəbinin qaşları qaradı, qara,
Düşmən ürəyinə vurubdu yara,
Bəyləri, xanları gətirib zara.
Qoy sana desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən, ay qoçaq Nəbi!

Bu davadan qurtarsan

Gorusun qaşında yıxılıb yatdım,
Ehtiyatı əldən kənara atdım,
Düzü, xəcalətdən qan-tərə batdım,
Bozat, qurtar məni, aman günüdü,
Yoldaşların darda yaman günüdü.

Bozat, səni sər tövlədə bağlaram,
And içirəm, səni məxmər çullaram,
Əgər məni bu davadan qurtarsan,
Qızıldan, gümüşdən səni nallaram,
Bozat, qurtar məni, aman günüdü,
Yoldaşların darda yaman günüdü.

Gümüşdən döydürrəm sənin nalını,
Yüz gözələ hördürərəm yalını,
Sən gəl qoç Nəbinin pozma halını,
Bozat, qurtar məni, aman günüdü,
Yoldaşların darda yaman günüdü.

Divanı dalınca oynadan Nəbi!

Nəbi bizim yerdə bir can bəslədi,
Kəkili, birçəyi dəstə-dəstədi,
Əlində aynalı, atın üstədi.
Qoy sana desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

Qazaxlar geyibdi qırmızı tuman,
Nəbini tutalı gəldi bir duman,
Səs uçaldı, kömək et, allah aman!
Qoy sana desinlər, ay nadan Nəbi,
Divanı dalınça oynadan Nəbi!

Araz qırağında bir güllə atdı,
Otuz iki qazağı qol-qola çatdı,
Gömgöy çəmənlikdə uzanıb yatdı.
Qoy sana desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

Göytəpədə qəndi-şəkər əzdilər,
Qanvoyları yol üstünə düzdülər,
Nəbinin adını qaçaq yazdılar.
Qoy sana desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

Nəbi çıxıb Gorusun qaşına,
Dostun-aşnasın yığıb başına,
Aynalı tüfəngi basıb döşünə.
Qoy sana desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

Hər tərəfdən güclü qoşun yürüdü,
Nəbini bir dəstə qazax bürüdü.
Həcər xanım qazamatda çürüdü.
Qoy sana desinlər, ay nadan Nəbi,
Divanı dalınca oynadan Nəbi!

"SƏTTARXAN DASTANI"NDAN

Gedim mən

İgid mücahidlər, qoç pəhlivanlar,
İzn versin o diyarə gedim mən.
Deyim haqq sözümü mərdi-mərdana,
Şaha vurmaq üçün yarə gedim mən.

Gərək xainlərin adın itirəm,
Xalqımın arzusun başa yetirəm.
Gələndə sizə bir müjdə gətirəm,
Dərdizə tapmağa çarə gedim mən.

Azadlıq yolunda axsa da qanım
Qurbandır vətənə bu cismü canım,
Qoy dönsün gülşənə Azərbaycanım,
Bağım dolsun şirin barə, gedim mən.

Əziz yoldaşlarım, qanadım, qolum,
Dar gündə köməyim, qəhrəman elim,
Haqqın ətəyindən tutubdur əlim,
Bel bağlayım girdigarə, gedim mən.

Səttarxanam budur mənim niyyətim
Haqqımı almağa vardır qüdrətim.
Sizə ürək sözüm, bir vəsiyyətim,
Aldanmayın o əğyarə, gedim mən.

Deyib gəlmişəm

Ey Odlar ölkəsi, şirlər məskəni,
Ana vətən, səni deyib gəlmişəm,
Sən böyütdün öz qoynunda şirləri,
Ana vətən, səni deyib gəlmişəm.

Şirlərin adəti pəncə çalmaqdır,
Düşməni üz üstə yerə salmaqdır.
İgidlərin borcu haqqı almaqdır,
Ana vətən, səni deyib gəlmişəm.

Qalsın tarixlərdə Səttarxan adı,
Ürəyimin budur əvvəl muradı,
Çıxsın azadlığa Azər övladı,
Ana vətən, səni deyib gəlmişəm.

Olsun

Hüququn anlayıb duyan bəşərin,
Gərək öz əlində ixtiyar olsun,
Gələcək nəslini salsın yadına,
Tarixdə onlara yadigar olsun.

İnsan olan vətənini satmasın,
Təmiz qanın napak qana qatmasın,
Namusun, qeyrətin, arın atmasın,
Özü öz yurdunda payidar olsun.

Qorxmayaq ölümdən, mərdanə duraq,
Həqiqət binasın ədlilə quraq.
Azadlıq bayrağın Təbrizdə vuraq,
Gün kimi aləmdə aşikar olsun.

Əziz mücahidlər, siz gəlin coşa,
Bu gözəl məramı yetirək başa,
Yetişsin azadlıq hər vətəndaşa,
Hər bir tamarzıya bir nübar olsun.

Səttarxan bu yolda qoyubdur canı,
Vətəndir istəyi, dini, imanı.
Gərək azad edək Azərbaycanı,
Eşitsin düşmənlər xəbərdar olsun.

Azərbaycan cavanları

Azərbaycan cavanları,
Yeriyin düşmən üstünə!
Koroğlular, Cavanşirlər,
Mərd gedin meydan üstünə!

At salın, girin meydana,
Cəng edin, mərdi-mərdana,
Boyansın düşmən al qana,
Hər biriz bir xan üstünə!

Səttarxan da keçib candan,
Qorxusu yox bəydən, xandan,
Tülkülər qaçar meydandan,
Gələmməz aslan üstünə!

Gəlsin

Azər ölkəsinin igid oğluyam,
Kim gəlir cəngimə mərdana gəlsin,
Çəkib qılıncını əlində tutsun,
Atını gətirsin cövlana, gəlsin.

Qılıncımı zəhər ilə sularam,
Şah qoşunun öz qanına bularam,
Bağırsağın ayağına dolaram,
Boyaram meydanda al qana, gəlsin.

Qoşun soltanları eyləsin cəngi,
At salsın meydana, çəksin üzəngi,
Səttarxan əlində payə tüfəngi,
Deyin Əşairə hər yana gəlsin.

Açılsın

Sovlayın qılıncı, silin tüfəngi.
Sabah gərək bağlı yollar açılsın,
Koroğlu tək çəkin meydanda cəngi,
Titrəsin səhralar, çöllər açılsın.

Gərək azad olsun Azər torpağı,
Alın səngərləri, vurun bayrağı,
Boyayın al qanla təpəni, dağı,
Hər dərədən axsın sellər açılsın.

İgid nərəsindən dağlar oyansın,
Mərd oğullar səngərində dayansın,
Azadlığın şəfəqilə boyansın,
Səhralarda qızıl güllər açılsın.

Qoy uca qayalar səs versin sizə,
Güllənіz boş yerə getməsin düzə,
Hansı düşmən ilə dursaz üz-üzə,
Qılınclar işləsin, qollar açılsın.

Adım Səttarxandır, şirlər yoldaşım,
Dayanıb arxamda hər vətəndaşım,
Şahiddir vətənim, torpağım, daşım,
İstərəm bağlanan dillər açılsın.

Girin meydana

Qoç igidlər, qəhrəmanlar,
Girin meydana-meydana,
Qılınc vurun nocavanlar,
Mərdi mərdana-mərdana.

Düşmənin yolların kəsin,
Danışan dillərin kəsin,
Xainin əllərin kəsin,
Mərdi mərdana-mərdana.

Zalimin özün gətirin,
Doxsanın, yüzün gətirin,
Çıxarın gözün gətirin
Mərdi mərdana-mərdana.

Biçin, tökün alayları,
Azərin şir balaları,
Alın polad qalaları,
Mərdi mərdana-mərdana.

Səttarxan qorxmaz ölümdən,
Tüfəngin qoymaz əlindən,
Xaini Azər elindən,
Qovun mərdana-mərdana.

Gərək

Qaniçən yağılar, quduz cəlladlar,
Azər ölkəsində tutulsun gərək.
Vətən xainləri, alçaq insanlar,
Biryolluq vətəndən atılsın gərək.

Şirlər məskəninin böyükdür adı,
Sönməz azadlığın bu qızıl odu,
Bilsinlər Azərin igid övladı,
Düşmənlər qol-qola çatılsın gərək.

Xaini, oğrunu, quldurbaşını,
Tutun Rəhimxanı, qırın qoşunu,
Gətirin sərdara düşmən başını,
O başlar torpağa qatılsın gərək.

ALQIŞLAR, DUALAR

A

Abadlığa çıxasan.
Aqibətin xeyir olsun.
Ağ günə çıxasan.
Ağ bəxt olasan.
Ağıl-kamal sahibi olasan.
Ağrı görməyəsən.
Addı-sannı olasan.
Adı uca olasan.
Azar-bezar görməyəsən.
Ayağı yüngül olasan.
Ayüzlü olasan.
Arzuna qovuşasan.
Atlaz donlu olasan.
Açıq ürəyinə qara xal düşməsin.

B

Barlı-bəhərli olsun.
Başıuca olasan.
Başından bir tük əskik olmasın.
Bahar günlü olasan.
Başın qovğa görməsin.
Behiştlik olasan,
Behişt yerin olsun.
Becərdiyin bəhrəli olsun.
Bədnəzərə gəlməyəsən.
Bəzək-düzəkli olasan.
Bəyəndiyinə qovuşasan.
Bəla görməyəsən.
Bərəkətli olsun.
Bərkə-boşa düşməyəsən.
Bəxtiyarlığa çıxasan.
Bəxtiyar günün olsun.
Bəxtin açılsın.
Bina-bəndli olasan.
Bir əkib beş götürəsən.

Biçinin avand gəlsin.
Biçdiyin ruzulu olsun.
Boy-buxunlu olasan.
Bolluq içində üzəsən.
Böyüklüyə çatasan.

C

Cavanmərd olasan.
Calalın artsın.
Canın ağrımasın.
Can-başın bəla görməsin.
Canın sağ olsun.
Cah-calallı olasan.
Cənnətməkan olasan.
Cərgələrə qoşulasan.

Ç

Çal-çağırın olsun.
Çeşmə kimi durulasan.
Çörəyibol olasan.
Çörəyin ovsanata düşsün.

D

Dava-döyüş görməyəsən.
Dağ arxalı olasan.
Dadlı-ləzzətli günlər görəsən.
Dadına Xıdır İlyas yetişsin.
Dadına allah çatsın.
Dayağın tanrı olsun.
Danəndəliyə çatasan.
Danlaq görməyəsən.
Darlıq çəkməyəsən.
Dastanlara düşəsən.
Dəbdəbəyə çatasan.
Dədə-babalı olasan.
Dəyib-dolaşanın olmasın.
Dəm-dəsgahlı günə çıxasan.
Dərd-bəla görməyəsən.
Dərd-qəmin olmasın.
Dərd-sər bilməyəsən.
Dərd-möhnət çəkməyəsən.
Dərd-həsrət bilməyəsən.
Dərman-davacat tanımayasan.
Dəstək qız olasan.

Diləyin hasil olsun.
Diləyinə çatasan.
Dilin gödək olmasın.
Dilişirin olasan.
Dilli-ağızlı olasan.
Dilli-dilavər olasan.
Dirilik suyu içəsən.
Dolaşıq işin olmasın.
Dost-düşmən yanında başın aşağı olmasın.
Dövlət quşu başına qonsun.
Dövrana çatasan.
Dua sahibi olasan.
Duz-çörəyin bol olsun.
Duz-çörək sənə halal olsun.
Duz-çörək kəsdiyindən xeyir görəsən.
Dünyada darlıq görməyəsən.
Düşümlü baxtın olsun.

E

Evin abad olsun.
Ev-eşik sahibi olasan.
Ev tikib ocaq salasan.
Eyş-işrət içində yaşayasan.
El gözündə uca olasan.
Elli-obalı olasan.
El köməyin olsun.
El arxan olsun.
El dadına çatsın.
Eldən ayrı düşməyəsən.
Enlikürəkli olasan.
Etibarına güvənilsin.
Etibardan düşməyəsən.

Ə

Əbədiyyətə qovuşasan.
Əqrəban köməyin olsun.
Ədəb-ərkan sahibi olasan.
Ədalət köməyin olsun.
Əzab-əziyyət görməyəsən.
Əziz olasan.
Əyilmək bilməyəsən.
Əkdiyin bərəkətli olsun.
Əlin var olsun.

Əli açıq olasan.
Əliaşağı olmayasan.
Əməyin bəhrəsin görəsən.
Əmin-amanlıqda olasan.
Ərsəyə çatasan.
Əsilli-nəsilli olasan.

F

Fağırlıq görməyəsən.
Fağır-füqəra köməyi olasan.
Fərəh içində üzəsən.
Fikir-xəyal çəkməyəsən.

G

Geyimli-kecimli olasan.
Geyim-kecim dərdi çəkməyəsən.
Gen-bolluq içində üzəsən.
Gəlin gətirəsən.
Gözdağı görməyəsən.
Gözlədiyinə çatasan.
Gözünə nur dolsun.
Görən gözlərin yumulmasın.
Günün xoş keçsin.

H

Havadar olasan.
Haqqa çatasan.
Haqq köməyin olsun.
Hazırcavab olasan.
Halallığa qovuşasan.
Halal süd əmmiş baxtına çıxsın.
Halalına haram qatılmasın.
Hampa qapısı tanımayasan.
Hikmət sahibi olasan.
Hörmət-izzət sahibi olasan.
Hünərvər olasan.

X

Xaliq köməyin olsun.
Xata-bala görməyəsən.
Xata-baladan uzaq olasan.

Xeyir görəsən.
Xeyirxəbər olasan.
Xeyir-şərə yarıyasan.
Xəzan görməyəsən.
Xətirli olasan.
Xəcil olmayasan.
Xızır köməyin olsun.
Xızır dadına çatsın.
Xoşbəxt olasan.
Xoşqədəm olasan.
Xoşgünlü olasan.
Xudavəndi-aləm sənə kömək olsun.

İ

İztirab çəkməyəsən.
İllərə qovuşasan.
İlin ildən xoş gəlsin.
İntizar çəkməyəsən.
İpək ömrün olsun.
İstəyinə çatasan.
İxtiyar sahibi olasan.
İşığın yansın.
İşıqlığa çıxasan.
İşin avand olsun.
İşli-güclü olasan.

K

Kamallı olasan.
Kamala çatasan.
Kasadlıq görməyəsən.
Kefli-damaqlı olasan.
Kədər bilməyəsən.
Kəramət sahibi olasan.
Kin-küdurət bilməyəsən.
Köklü-budaqlı olasan.
Kölgən üstümüzdən əskik olmasın.
Kölgəndə dolanaq.
Köməyinə tanrı çatsın.
Könlüaçıq olasan.
Könlüsınıqlıq bilməyəsən.
Külli-ixtiyar sahibi olasan.
Küp içində üzəsən.
Küskünlük görməyəsən.

Q

Qada-bala görməyəsən.
Qazanca çatasan.
Qazancın birə-min olsun.
Qeyb bilməyəsən.
Qamətin əyilməsin.
Qapın kilid görməsin.
Qara gün görməyəsən.
Qadan mənə gəlsin.
Qeyrətli igid olasan.
Qəlbin niskil görməsin.
Qəlbisınıq olmayasan.
Qəm-qüssə görməyəsən.
Qəriblik çəkməyəsən.
Qız baxtına gün doğsun.
Qız-gəlin görəsən.
Qılınc tutan əlin ağrı görməsin.
Qollu-budaqlı olasan.
Qonaq-qaralı olasan.
Qonum-qonşulu olasan.
Qonum-qonşu dadına çatsın.
Qohum-qardaş arxalı olasan.
Qoşa qarıyasız.
Qüvvətdən düşməyəsən.
Qüdrətli olasan.
Qürbət görməyəsən.

M

Mal-dövlətli olasan.
Mehribanlıq görəsən.
Məəttəl qalmayasan.
Məzəmmət çəkməyəsən.
Məyus olmayasan.
Mərdimazardan uzaq olasan.
Mətləbinə çatasan.
Möhnət çəkməyəsən.
Mübarəkqədəm olasan.

N

Nazlı-duzlu olasan.
Naz-nemət içində böyüyəsən.
Naibliyə çatasan.

Namərdə möhtac olmayasan.
Naümid olmayasan.
Neynim, nə edim deməyəsən.
Nəsilli olasan.
Nəhs işin olmasın.
Nəşəli günlərin olsun.
Nuşicanlıqla yeyəsən.
Nuş olsun.

O

Ovun qanlı olsun.
Ovun yağlı olsun.
Oğullu-qızlı olasan.
Ocağın közərsin.

Ö

Övlad atası olasan.
Övladlı olasan.
Özüllü olasan.
Ömrün uzun olsun.

P

Payın çox olsun.
Parlaq günün olsun.
Pərvəriş tapasan.
Pərişanlıq bilməyəsən.
Pərt olmayasan.

R

Rahatlığa çıxasan.
Rövnəq tapasan.
Ruzili olasan.
Ruhun şad olsun.

S

Sabahın xeyirlə açılsın.
Savaba çatasan.
Savab sahibi olasan.
Saqqalın ağarsın.
Sağ əlin başıma.
Sağlıqla yeyəsən,
Sağlam olasan.

Sayıb-sayılan olasan.
Sevinən günün olsun.
Sevinc tapasan.
Səmərin görəsən.
Sənət sahibi olasan.
Səsli-sədalı olasan.
Sinə dağı çəkməyəsən.
Sınıqlıq bilməyəsən.
Sözükeçən olasan.
Su kimi aydınlığa çıxasan.
Sucan ömrün olsun.
Südühalal olasan.

Ş

Şadxəbər olasan.
Şadlıqla yaşayasan.
Şanlı-şöhrətli olasan.
Şan-şöhrətə çatasan.
Şəfa tapasan.
Şöhrətlənəsən.
Şümşadboylu olasan.

T

Tay-tuş yanında başıuca olasan.
Tale sənə yar olsun.
Tanrı köməyin olsun.
Taxt-taca çatasan.
Təzə bəy olasan.
Təzə gəlin olasan.
Təmkin yarağın olsun.
Tənə görməyəsən.
Toy-bayramda olasan.
Toy-büsat görəsən.
Toy-düyün içində olasan.
Töhmət görməyəsən.

U

Uğurun açıq olsun.
Uğursuzluq bilməyəsən.
Uzanan işin olmasın.
Ulu olasan.
Ucalıb enməyəsən.

Ü

Üzüağ olasan.
Üzüntü çəkməyəsən.
Ümidini allah üzməsin.
Ürəyiaçıq olasan.
Ürəyincə allah versin.
Ürəyigeniş olasan.
Ürəkağrısı bilməyəsən.

V

Var-dövlət sahibi olasan.
Vətən gözündə ucalasan.
Vüqarlı olasan.

Y

Yaradan köməyin olsun.
Yaman gün görməyəsən.
Yanaqların allansın.
Yarımçıq işin olmasın.
Yaxşılığa çatasan.
Yerin cənnət olsun.
Yerli-yurdlu olasan.
Yetim-yesirlik görməyəsən.
Yolun açıq olsun.
Yorğunluq bilməyəsən.
Yoxsulluq görməyəsən.
Yurd sahibi olasan.
Yurd-yuva salasan.
Yurd-yuvan abad olsun.
Yuxun şirin olsun.
Yüksələsən, alçalmayasan.

Z

Zaval görməyəsən.
Zəkalı olasan.
Zər-ziba içində üzəsən.
Zəhmətlə ucalasan.

DƏDƏ QORQUD ALQIŞ-DUALARI

Ağ alnında beş kəlmə dua qıldıq, qəbul olsun.
Ağ ayılda ağca qoyunun sana şülən olsun.
Ağ birçəkli anan yeri behişt olsun.
Ağ saqqallı baban yeri ucmaq olsun.
Azıb gələn qadanızı tanrı sovsun, xanım hey.
Amin, amin deyənlər didar görsün.
Axır vaxtında ari imandan ayırmasın.
Allah verən umudun üzülməsin.
Allah-taala sana bir oğul versin.
Bu ad, bu yigidə qutlu olsun.
Qara başım qurban olsun, qurdum, sana.
Qara dağların yıxılmasın.
Qara başım qurban olsun, suyum sana.
Qara dağa yetdiyində aşıt versin.
Qara ölüm gəldikdə keçid versin.
Qanlı-qanlı sulardan keçid versin.
Qatar-qatar dəvələrim sana yüklət olsun.
Qadir tanrı səni namərdə möhtac etməsin.
Qadir allah üzünü ağ etsin.
Qarlı qara dağların yıxılmasın.
Qamən axan görklü suyun qurumasın.
Qanatların ucları qırılmasın.
Qarşı yatan qara dağlar sənə yaylaq olsun.
Qutlu olsun dövlətiniz.
Dənliyi altun ban evlərim sana kölgə olsun.
Dürtüşərkən ala göndərin ufanmasın.
Dövlətsizlər şərrindən allah saxlasın xanım, sizi.
Elimizdə çalıb ayıdan ozan olsun.
Əlin var olsun.
Yerli qara dağların yıxılmasın.
Yüksək qara dağlarım sana yaylaq olsun.
Kölgəlicə qaba ağacın kəsilməsin.
Ocağına bunçılayın övrət gəlsin.
Ol ögdüyüm uca tanrı dost oluban mədəd irsin, xanım hey.
On otuz on yaşınız dolsun, haqq sizə yaman göstərməsin,
dövlətiniz payəndə olsun, xanım hey.
Sağlıqlar sağıcan dövlətin haqq artırsın.
Sən sağ ol, qadın ana.
Soyuq-soyuq suların sana içət olsun.
Tovla-tovla şahbaz atlarım sana binət olsun.
Haqq yandıran çırağın yana dursun.
Çaparkən ağ-boz atın büdrəməsin.
Çalanda qara polad üz qılıncın kütləməsin.

QARĞIŞLAR

A

Abırdan düşəsən.
Avazıyıb ölәsən.
Avara-sərgərdan qalasan.
Ağ gün görməyəsən.
Ağartı üzünə tamarzı qalasan.
Ağlayıb-sıtqamaq peşən olsun.
Ağrı-acıların kəsilməsin.
Adamaoxşamaz canını qara yer aparsın.
Adın adlara qoyulsun.
Adın batsın.
Adıbədnam olasan.
Azara tutulasan.
Azıb çöllərə düşəsən.
Ayaqların üzülsün.
Ayaqyalın qalasan.
Ayıblı olasan.
Al bəlasına gələsən.
Al qanına bulaşasan.
Alova düşəsən.
Alçalıb ucalmayasan.
Allah ağlını əlindən alsın.
Allah başını qoyub ayağına daş salmasın.
Allahın bəlasına gələsən.
Allahın qəzəbinə düçar olasan.
Allah sənə qotur versin, dırnaq verməsin.
Anasız qalasan.
Anan vayına otursun.
Araba tabutun olsun.
Arvad-uşağın ölsün.
Arzun ürəyində qalsın.
Arxasız qalasan.
Asan işin düyünə düşsün.
Ata-anasız qalasan.
Atdan yıxılıb ölәsən.

Afət aparsın səni.
Ah-vayınan ölәsən.
Ah-zarınan can verәsən.
Ah-zarın kәsilmәsin.
Ah-nalәm səni tutsun.
Acından can verәsən.

B

Babalım səni tutsun.
Bağlı boxçan açılmasın.
Bağrın qana dönsün.
Bağlı qapın açılmasın.
Bazarlığın boğçada qalsın.
Bala üzünә hәsrәt qalasan.
Balan qundağda göyәrsin.
Balaların yetim qalsın.
Barmaqların sınsın.
Barsız-bәhrәsiz köçәsәn.
Basaratın bağlansın.
Bataqlığa düşüb qalasai.
Batasan səni.
Baxa-baxa can verәsәn.
Bahar ömrünü xәzan vursun.
Bacın dәrdinnәn qәhәrlәnib ölәsәn.
Başın batsın.
Başına kül әlәnsin.
Başına daş düşsün.
Başın bәlalar çәksin.
Başdan-ayağa qovrulub yanasan.
Başılovlu olasan.
Başından qapaz әskik olmasın.
Başından qara örtük açılmasın.
Başsız qalasan.
Beynin qurusun.
Belin sınsın.
Belin bükülsün.
Becәrdiyinin xeyrini görmәyәsәn.
Beşgünlük dünyan qara gәlsin.
Beşәlli tutduğun dünyadan әlin üzülsün.
Bәbәklәrinә mil çәkilsin.
Bədağız ağzını allah qapasın.
Bədbәxt olasan.
Bәd duaya gәlәsәn.

Bədəninə qurd düşsün.
Bədənin ölü qalsın.
Bədəninə qara yara düşsün.
Bədənini qarğa-quzğun dəlsin.
Bədnam olasan.
Bədtale olasan.
Bəzəyin pozulsun.
Bəzəyin qara naxışlansın.
Bəlaya düçar olasan.
Bəla başından əskik olmasın.
Bələk bağlayıb açmayasan.
Bənd-bənd doğranasan.
Bəni-insan üzünə həsrət qalasan.
Bərbadlığa düşəsən.
Bərəkətini allah çəksin.
Bəribiyabana düşəsən.
Bəxtin bağlansın.
Bəxtin üzünə gülməsin.
Bimar öləsən.
Biliyini allah əlindən alsın.
Bilinməz dərdə düçar olasan.
Birdən ikiyə xeyir görməyəsən.
Birdəfəlik olasan.
Bitməz-tükənməz dərdlərə tutulasan.
Biçili paltarın iynə görməsin.
Biçdiyini dərz bağlamayasan.
Biş-düşün ocaq üstə qalsın.
Boğazın tıxansın.
Boğazına qurğuşun tökülsün.
Boğazını qulqula tutsun.
Boqulub öləsən.
Boğula-boğula can verəsən.
Boğma tutsun səni.
Boyuna ip ölçüm.
Boynun sınsın.
Boylana-boylana qalasan.
Borcsuz künün olmasın.
Böyüklü-kiçikli qırılasız.
Böyüksüz böyüyəsən.
Böyürə-böyürə qalasan.
Böhtana düşəsən.
Buğda çörəyinə həsrət qalasan.
Budaq-budaq doğranasan.
Buyruq qulu olasan.

C

Cavan ölәsәn.
Cadulanasan.
Camaat üstünә pul atsın.
Can verәsәn.
Can-ciyәrin doğransın.
Cah-cәlalın pozulsun.
Cehizin bağlı qalsın.
Cәllad әlinә düşәsәn.
Cәnazәn yerdә qalsın.
Cәnazәn üstә ağlayanın tapılmasın.
Cәncәl günlәrdәn yaxan qurtarmasın.
Cәhәnnәm yerin olsun.
Cәhәnnәm oduna yanasan.
Ciyәrin yansın.
Cin-şeytan yığnağına düşәsәn.

Ç

Çay-çörәksiz qalasan.
Çalın-çarpaz dağlanasan.
Çapalaya-çapalaya qalasan.
Çapqınçıya rast gәlәsәn.
Çapılıb talanasan.
Çarәsiz qalasan.
Çarmıxa çәkilәsәn.
Çarpaz dağ çәkilsin sinәnә.
Çarxın çevrilsin.
Çaş-baş qalasan.
Çәk-çevirә düşәsәn.
Çәn-dumana düşәsәn.
Çәnәn bağlansın.
Çiban çıxarasan.
Çıldağlıq olasan.
Çırağın sönsün.
Çovğuna düşәsәn.
Çor tutasan.
Çörәkvay olasan.
Çörәk gözlәrini tutsun.
Çörәk atlı olsun, sәn piyada.
Çörәyә hәsrәt qalasan.
Çörәk sәndәn qaçaq düşsün.
Çörәk tapıb diş tapmayasan.
Çürüyüb qurtarasan.

D

Dava-mərəkəsiz günün olmasın.
Dağ-dağ qovrulub yanasan.
Dad-aman deyə-deyə keçinəsən.
Dad-fəryadın göyə qalxsın.
Dalda-bucaqda dolanasan.
Daldan-dala düşəsən.
Dalınca qara daş atılsın.
Daldalanmağa yer tapmayasan.
Daddığın ləzzətin bilməyəsən.
Damğalanasan.
Damar-damar doğranasan.
Dam-daşsız qalasan.
Dam-divar üstünə uçsun.
Damında bayquş ulasın.
Dan üzü görməyəsən.
Danışa-danışa gözlərin yumulsun.
Dargözlükdən öləsən.
Daşqına düşəsən.
Daş-qalaq olasan.
Deyən-gülən günün olmasın.
Dədəsiz qalasan.
Dəyər-dəyməzin satılsın.
Dəyişik düşəsən.
Dəymişin qala, kalın tökülə.
Dəlilik azarına tutulasan.
Dəli-divanə olub çöllərə düşəsən.
Dəliqudurmuş başını yer oğurlasın.
Dəlik-deşik olasan.
Dəmirov tutasan.
Dəngəsər başın batsın.
Dərddən çərləyəsən.
Dərd-qüssə içində öləsən.
Dərd-ələm səndən uzaq düşməsin.
Dərdəcər olasan.
Dərd-kədər içində boğulasan.
Dərdləşməyə adam tapmayasan.
Dərdinə çarə tapılmasın.
Dərin soyulsun.
Dərman-davacatsız öləsən.
Dəsmalın dostda qalsın.
Dəstə-tifağın dağılsın.
Dəstəmazsız öləsən.

Dəftər-kitabın bağlı qalsın.
Divan əlindən qurtarmayasan.
Divara hörüləsən.
Didərgin düşəsən.
Didik-didik olasan.
Dizin-dizin sürünəsən.
Diyarlara düşəsən.
Dikbaşlığın bəlasını çəkəsən.
Dildən-dilə düşəsən.
Dil-dodağın yansın.
Dilənçilik edəsən.
Dilənçi payına həsrət qalasan.
Dili qısa olasan.
Dilin söz tutmasın.
Dilinə and-aman gəlməsin.
Dilin lal olsun.
Dilim-dilim doğranasan.
Dinsiz-imansız öləsən.
Dinar-dinar yığdığın xalvar-xalvar ketsin.
Dinib-danışan halın olmasın.
Dinc başın bəlalar çəksin.
Diri-diri qəbrə basdırılasan.
Diri gözünlə ölü bədəninə baxasan.
Dişlərin çürüsün.
Dığdığçı başın batsın.
Doğram-doğram doğranasan.
Dodaqların bitişsin.
Doğduğunu bələməyəsən.
Doydum deməyəsən.
Dolanışın dolaşıq düşsün.
Dost-doğmaların ölsün.
Döyüş-söyüşə düşəsən.
Dörd divar arasında qalasan.
Duvağın açılmasın.
Dudmanın dağılsın.
Duz-çörək közünü tutsun.
Duz-çörək sənə qənim olsun.
Duz-çörək evindən qaçaq düşsün.
Duz-çörək tapmayasan.
Dul qalasan.
Duman-çiskinə düşəsən.
Dünya başına dar olsun.
Dünya gözünə tar görünsün.
Düşkün günə qalasan.

E

Ev üzü görməyəsən.
Evbəev dilənəsən.
Ev-eşiyin başına uçsun.
Evin yıxılsın.
Evsiz qalasan.
Evindən qaçaq düşəsən.
Evin qonaq üzü görməsin.
Evinə vaxsey düşsün.
Evində şadlıq süfrəsi açılmasın.
Ev olub evlərə qoşulmayasan.
Evində şivən qopsun.
Evindən meyit çıxsın.
Evindən toy səsi eşidilməsin.
Eybəcər günə düşəsən.
Eyibli olasan.
Eyş-nuşuna zəhər qatılsın.
Elsiz qalasan.
El daşını atsın.
El gözündən düşəsən.
Eldə-obada yerin olmasın.
El üzünə həsrət qalasan.
Elçilərin qırılsın.
Ehsansız qalasan.
Ehtişamın pozulsun.

Ə

Əvvəl-axır günün olsun.
Əvəz gedəsən.
Əqrəbasız qalasan.
Əqrəb zəhəri şərbətin olsun.
Ədavət bəlasına gələsən.
Əjdahaya pay olasan.
Əzab-əziyyət içində can verəsən.
Əzizlərin ölsün.
Əzrayıl ovçun olsun.
Əzrayıl sinənə qonsun.
Əzrayıl qonağın olsun.
Əyalın qırılsın.
Əyilməz başını allah əysin.
Əyin-başsız qalasan.
Əyriağız qalasan.

Əyri işin düzəlməsin.
Əyirdiyini toxuyub biçməyəsən.
Əkdiyin bitməsin.
Əllərin qurusun.
Əlinlə qoyduğunu ayağınla axtarasan.
Əlacsız dərdə tutulasan.
Əlacını allah kəssin.
Əlacsız qalasan.
Əl-qolun bağlansın.
Ələyin ələnsin.
Əliboş qalasan.
Əlil olasan.
Əlimyandıda qalasan.
Əlli-ayaqlı gedəsən.
Əlçim-əlçim doğranasan.
Əmanətə bənd olasan.
Əngələ düşəsən.
Ərsiz qalasan.
Ərköyün ölәsən.
Əsa əlindən düşməsin.
Əsdirmə tutasan.
Əsir-yesir qalasan.
Əsirgədiyin özünə qismət olmasın.
Əcinnələr yığnağına düşəsən

F

Falın bəd gəlsin.
Fani dünyada beş gün şad yaşamayasan.
Feyziyab olmayasan.
Fələk qapını döysün.
Fələk qonağın olsun.
Fələyin əlində yaxan qalsın.
Fələyin bəlasına gələsən.
Fələk qənimin olsun.
Fərsiz övlada tuş gələsən.
Fikir-zikr içində çırpınasan.
Fitvaya tuş kələsən.
Fitnə-fəsad qurbanı olasan.

G

Gedər-gəlməz yola qovuşasan.
Gedərgi olasan.
Gedişin olsun, gəlişin olmasın.

Geyim-kecimsiz qalasan.
Gen dünya başına dar olsun.
Gen dünyada özünə yer tapa bilməyəsən.
Get-gələ düşəsən.
Gecə-gündüz gözün yaşlı olsun.
Gecə-gündüz rahatlıq tapmayasan.
Gədə-güda əlində qalasan.
Gəlir-çıxarın bilinməsin.
Gərdəkdə qalasan.
Gərdişin qara gəlsin.
Gərəksiz günə düşəsən.
Girdaba düşəsən.
Girin-giriftar olasan.
Gicəllənə-gicəllənə gəzəsən.
Gorbagor olasan.
Gözün kor olsun.
Gözün çıxsın.
Gözünə mil çəkilsin.
Gözü ac öləsən.
Gözün tox olmasın.
Gözümçıxdıya düşəsən.
Görən gözlərin dünya işığına həsrət qalsın.
Güzəranın pozulsun.
Güllə yarasından öləsən.
Günüqara olasan.
Günülü olasan.
Gün görməyəsən.

H

Havadan nəm çəkən başın yox olsun.
Havadarsız qalasan.
Havayıyeyənlərin çoxalsın.
Hava gəlsin başına.
Haqq-ədalət kəssin səni.
Haqq-salam qənimin olsun.
Haqsızlığa tuş olasan.
Halal malına haram qatılsın.
Halvan çalınsın.
Halvanı yeyim.
Haldan-hala düşəsən.
Hampalar əlində qalasan.
Hampaya möhtac olasan.
Haray-həşirin qopsun.

Hasarın dağılsın.
Heyin kəsilsin.
Hey-hərəkətsiz qalasan.
Heç-puç olasan.
Həbsxanalarda çürüyəsən.
Həddi-büluğa çatmayasan.
Həya-abırdan düşəsən.
Həyət-bacan bərbad qalsın.
Həkimin Əzrayıl olsun.
Həlak olasan.
Həmdəmsiz qalasan.
Həmzadlı olasan.
Hərdəmxəyal başın batsın.
Hərzəkar ağzın yumulsun.
Hikkəndə boğulasan.
Hörüklərin kəsilsin.
Huşsuzluq azarına tutulasan.
Hünərini allah kəssin.
Hüsn-camaldan düşəsən.
Hücrənişin olasan.

X

Xaliqin qəzəbinə gələsən.
Xar olasan.
Xarabalığa düşəsən,
Xatakara rast düşəsən.
Xata-baladan uzaq olmayasan.
Xeyir-bərəkətin çəkilsin.
Xeyir görməyəsən.
Xeyir-duanı Əzrayıl versin.
Xəbər-ətərsiz gedəsən.
Xəzan vursun səni.
Xəmrin yoğrulsun.
Xəncərlə doğranasan.
Xəstəlikdən qalxmayasan.
Xəcalət tərində boğulasan.
Xəcil olasan.
Xınalı əllərinlə başına qara örtəsən.
Xıncım-xıncım doğranasan.
Xışın daşa ilişsin.
Xora tökəsən.
Xoflanıb öləsən.
Xoş gün görməyəsən.

İ

İzsiz-soraqsız yox olasan.
İynə-dərmana möhtac olasan.
İgid öləsən.
İlin qara gəlsin.
İlan boğazına sarınsın.
İldırım vursun səni.
İl-ildən pis günə düşəsən.
İlim-ilim itəsən.
İlkin ölsün.
İmam qənimin olsun.
İnildiyə-inildiyə qalasan.
İncəlib qurtarasan.
İt-bat olasan.
İtgin düşəsən.
İflic olasan.
İxtiyarın əlindən alınsın.
İçalatın tökülsün.
İçin-için yanasan.
İçməyə su tapmayasan.
İşin tərs gəlsin.
İşığın sönsün.
İş-peşən dərd çəkmək olsun.

K

Kabab olasan.
Kamalını allah alsın.
Kaman kimi büküləsən.
Kam almayasan.
Kar olasan.
Karvanın azsın.
Key olasan.
Kefinə soğan doğransın.
Keçinən gününü görüm.
Kədərsiz günün olmasın.
Kəkələyə-kəkələyə qalasan.
Kələklə gəlib küləklə gedəsən.
Kəlləmayallaq olasan.
Kəlmeyi-şəhadət dilinə gəlməsin.
Kəlmə kəsə bilməyəsən.
Kəmfürsət əlinə düşəsən.
Kəramətini allah kəssin.

Kərəm kimi yanasan.
Kəfənə büküləsən.
Kəfənsiz öləsən.
Kəfənin biçilsin.
Kimsəsiz qalasan.
Koman dağılsın.
Kor olasan.
Korazehin olasan.
Köz-köz olasan.
Köynəyin yaxasız biçilsin.
Kökün kəsilsin.
Köməksiz qalasan.
Kömür kimi qaralasan.
Könlün şad olub üzün gülməsin.
Köpüb öləsən.
Köpük qusasan.
Körpələrin qırılsın.
Köç-külfətdən olasan.
Köçlü-külfətli çöllərə düşəsən.
Köçdən üzüləsən.
Külbaşlı olasan.
Külün göyə sovrulsun.
Külə dönəsən.
Küllüklərdə eşələnəsən.
Külü töküm başına.
Kül sovrulsun üstünə.
Külfətin qırılsın.
Külfət üzünə həsrət qalasan.
Kündən oda qoyulsun.
Kütbeyin olasan.

Q

Qabar-qabar olasan.
Qabırğaların sınsın.
Qadamı alasan,
Qazamat evin olsun.
Qayğısız günün olmasın.
Qayınana əlində qalasan.
Qaynar qazana düşəsən.
Qamarladıqın qismətin olmasın.
Qan qusasan.
Qanlı olasan.
Qan-tər içində boğulasan.

Qançır olasan.
Qapın çırpılsın.
Qapın bağlı qalsın.
Qapından başmaq əskik olmasın.
Qapılar açıb girməyəsən.
Qapın qonaq üzü görməsin.
Qapı-qapı dilənəsən.
Qarabəxt olasan.
Qara zülfünü ağ darayasan.
Qara-qorxu içində yaşayasan.
Qara gözlərinə mirvari suyu gəlsin.
Qaranəfəs olasan.
Qaraxəbər dilin lal olsun.
Qara geyib ağ çıxarmayasan.
Qaraçı kökünə düşəsən.
Qaraçıraq olasan.
Qaraciyərin doğransın.
Qarğa-quzğun yemi olasan.
Qarğana-qarğana qalasan.
Qardaşın lov xəbərini eşidəsən.
Qarın azarına düşəsən.
Qarsalana-qarsalana yanasan.
Qatır quyruğuna bağlanasan.
Qaçaq-quldura tuş gələsən.
Qeyrətsiz başın yerə girsin.
Qeyrətsiz canından güllə yan keçməsin.
Qəbir oğurlasın səni.
Qəbrin dar qazılsın.
Qəbir evində rahat yatmayasan.
Qədəmlərin bükülsün.
Qədəmin bəduğurluğa calansın.
Qədərin qara gəlsin.
Qəlbiqara olasan.
Qəlpəli canından ağrı kəsilməsin.
Qəm-kədərsiz günün olmasın.
Qəm əkib dərd biçəsən.
Qərib-qürbət diyara düşəsən.
Qəfil gülləyə tuş olasan.
Qəhərlənib öləsən.
Qiblən tərs gəlsin.
Qiyamətəcən xoş künün olmasın.
Qiymət bazarında satılasan.
Qismətin özgələrə pay olsun.
Qız qarıyasan.

Qızdırmadan ölәsәn.
Qızıl yelinә tutulasan.
Qızılca içindә yanasan.
Qızmar günәş altda qovrulasan.
Qılıncınla doğranasan.
Qılınc yarasına gәlәsәn.
Qılıncın qında qalsın.
Qırğına düşәsәn.
Qırxın verilsin.
Qısır qalasan.
Qısma-boğmaya duşәsәn.
Qovğadan başın ayılmasın.
Qol-budağ atmayasan.
Qoltuqağacına möhtaç qalasan.
Qolubağlı gedәsәn.
Qonaq evin qara bәzәnsin.
Qorabişәn ayda ölәsәn.
Qorxa-qorxa ömür sürәsәn.
Qohum-qardaşın qırılsın.
Qoşalülә gülləsi ürәyini parçalasın.
Qoşunun qırılsın.
Qoşunun başsız qalsın.
Qönçә olub açılmayasan.
Quduz olasan.
Quyuya düşәsәn.
Qul olub bazarlarda satılasan.
Qulyabanı olub sәhralara düşәsәn.
Quran qәnimin olsun.
Qurbansız ölәsәn.
Qurdla qiyamәtә qalasan.
Qurd-quşa qismәt olasan.
Quruyub qaxa dönәsәn.
Qüssәsiz günün olmasın.

L

Lay-layın çalınsın.
Lal olasan.
Laxta-laxta qan qusasan.
Lәkәlәnәsәn.
Lәkәli olasan.
Lәlöyün olasan.
Lәnәtә gәlәsәn.
Lәngәrdәn düşәsәn.

Libassız qalasan.
Lova düşəsən.
Lovuna oturum.
Lov xəbərin gəlsin.
Lüt-üryan qalasan.

M

Mayıf qalasan.
Mal-mülkün talansın.
Mat-qutun qurusun.
Matəmini tutum.
Macalın kəsilsin.
Meyidini yuyum.
Meyidin gəlsin.
Məğmun olasan.
Məzarın qazılsın.
Məkansız qalasan.
Məramın pozulsun.
Məhv olasan.
Məhşər ayağına çəkiləsən.
Mirasın üstünə döşənsin.
Miskin günə düşəsən.
Müqəvvaya dönəsən.
Mümkünatın kəsilsin.
Müntəzir qalasan.
Müsibətə düçar olasan.
Mürdəşir qonağın olsun.

N

Naqafil bəlaya düçar olasan.
Nağdını verib nisyəni axtarasan.
Nadan qalasan.
Nakam öləsən.
Nagüman qalasan.
Nalən ərşə ucalsın.
Nankor olasan.
Neştərlənəsən.
Nəzir-niyaz ümidinə qalasan.
Nəslin kəsilsin.
Nəsillikcə qırılasız.

Nəfəsin kəsilsin.
Nizamın pozulsun.
Niyyətin öz başına düşsün.
Nitqin kəsilsin.
Nifrin tutsun səni.
Nicat görməyəsən.
Nişanın qayıtsın.
Nişanən qalmasın.
Növrəstə solasan.

O

Oban dağılsın.
Ovun qara gəlsin.
Ovladığın özgəyə qismət olsun.
Ovçun əzrayıl olsun.
Ovunduranın olmasın.
Oğlanlı-qızlı qırılasız.
Oda düşəsən.
Od-ocağın sönsün.
Odsuz-alovsuz yanasan.
Olan-qalanın talansın.
Olar-olmazın özgəyə qismət olsun.
Oruc-namaz sənə qənim olsun.
Otağın bəzəkli qalsın.
Oturduğun yerdən qalxa bilməyəsən.
Oxlanasan.
Ocağın sönsün.

Ö

Ödün ağzından gəlsin.
Özbaşına qalasan.
Özülün dağılsın.
Ölüb qurtarasan.
Ölün yerdə qalsın.
Ölün şivənə həsrət qalsın.
Öləndə başın üstə oturanın olmasın.
Ömrün danlaq altda çürüsün.
Ömürlük şikəst qalasan.
Övladsız qalasan.

P

Payıza çıxmayasan.
Paymal olasan.
Pal-paltarın aralığa tökülsün.
Paltar-palazın satılsın.
Para-para olasan.
Paxıl canın çürüsün.
Peşən dilənçilik olsun.
Piyada qalasan.
Piltə-piltə qan qusasan.
Pisniyyət başın batsın.
Pöhrələnməyəsən.
Pul-para dərdindən ölәsən.
Puça çıxasan.
Püşkə düşəsən.

R

Rahatlıq tapmayasan.
Rahat günün olmasın.
Rəzalətə düşəsən.
Rəzil olasan.
Rizə-rizə doğranasan.
Ruzigarın qara gəlsin.
Ruhun bacalar gəzsin.

S

Sabaha çıxmayasan.
Sabahın qara gəlsin.
Sağ qalmayasan.
Sağalmaz dərdə düşəsən.
Sağdış-soldışın ölsün.
Sağır qalasan.
Sağ-salamat qayıtmayasan.
Sayıqlıya-sayıqlıya can verəsən.
Saysız dərdlərə tutulasan.
Sakitlik tapmayasan.
Sancılanasan.
Saralıb-solasan.
Sarılıq azarına düçar olasan.
Sahibsiz qalasan.
Sel ağzına düşəsən.
Səksəkəli yaşayasan.

Səmum yeli əssin üstündən.
Sərgərdan qalasan.
Səs-səmirin kəsilsin.
Səssiz-soraqsız yox olasan.
Sətəlcəm olasan.
Səfərdən dönməyəsən.
Sinənə güzgü qoyulsun.
Sinən dağlansın.
Sir-sifətdən dönəsən.
Sığınacaq tapmayasan.
Sızım-sızım sızıldayasan.
Sıxıla-sıxıla dolanasan.
Sıxma-boğmaya düşəsən.
Soyğunçu əlinə düşəsən.
Solub-saralasan.
Son kəlişin olsun.
Sorağın kəsilsin.
Sorğu-suala düşəsən.
Sözün danışılsın.
Söz-sovdan düşəsən.
Subay qalasan.
Su-su deyə-deyə can verəsən.
Sübutsuz-dəlilsiz köçəsən.
Sübh-şam zarıltın kəsilməsin.
Sübhü diri gözüynən açasan.
Südəcər qalasan.
Südüm burnundan gəlsin.
Südüm sənə haram olsun.
Sülənə-sülənə gəzəsən.
Sürgünlərdə çürüyəsən.
Süfrən bağlı qalsın.

Ş

Şadlıq bilməyəsən.
Şad günün olmasın.
Şad gülüb, şad danışmayasan.
Şahidsiz-sübutsuz gedəsən.
Şərə düşəsən.
Şəhid olasan.
Şivənin qopsun.
Şikəst olasan.
Şil olasan.
Şüurunu allah alsın.

T

Tabutun ortalığa qoyulsun.
Tabutun üstə ağı deyən tapılmasın.
Tavanın başına uçulsun.
Taqətin kəsilsin.
Taydəyişik düşəsən.
Tay-tuşsuz qalasan.
Tayfan qırılsın.
Talana düşəsən.
Taleyin qara gəlsin,
Taleyin üzünə gülməsin.
Taleyin atdı olsun sən piyada.
Tamarzı qalasan.
Tamahın ucundan bəlaya düşəsən.
Tamaşana yığışsınlar.
Tanınmaz günə düşəsən.
Tanış-biliş yadından çıxasan.
Tanrı belini sındırsın.
Tar-mar olasan.
Tauna düşəsən.
Taxtın qurulu qalsın.
Taxt-tacın çevrilsin.
Təbibsiz-dərmansız öləsən.
Tədarükün tutulsun.
Tək qalasan.
Təkər altına düşəsən.
Tələşın tükənməsin.
Təmələn uçulsun.
Tənə üstündən əskik olmasın.
Təngnəfəs olasan.
Tənha qalasan.
Tərki-vətən olasan.
Təskinlik tapmayasan.
Tikə-parça olasan.
Tilsimə düşəsən.
Titrədib öləsən.
Toyun yasa dönsün.
Torpaq altda qalasan.
Torpaq başına tökülsün.
Torpağın torbayla daşınsın.
Torpağın özgələrə qismət olsun.
Toxumun kəsilsin.
Toxumun yer üzündən götürülsün.

Tövbə səni kəssin.
Törəmələrin qırılsın.
Tufana düşəsən.
Tüstün təpəndən çıxsın.

U

Uğurun qara gəlsin.
Uğur görməyəsən.
Uğurlu günün olmasın.
Udquna-udquna can verəsən.
Uzaqdan-uzağa düşəsən.
Ulaya-ulaya qalasan.
Ulduzun axsın.
Ustad çörəyi gözünü tutsun.
Ufultun kəsilməsin.
Ucuz bazarda satılasan.

Ü

Üzgün olasan.
Üzüqara olasan.
Üzüqoylu qalasan.
Üzülüb qurtarasan.
Ümidsiz qalasan.
Ümidin kəsilsin.
Ürəyi dağlı qalasan.
Ürəyin qopsun.
Ürəkkeçməsi tutasan.
Ürək-göbəyin düşsün.
Ürəyin üzülsün.
Ürəyin parçalansın.
Ürəyindən oxlanasan.
Ürəyin başı yansın.
Ürəyin çəkilsin.
Üryan olasan.
Üstünə od tökülsün.
Üstündə ağlayım.
Üçün verilsin.
Üşütmə tutasan.

V

Vay xəbərin gəlsin.
Vayına oturum.
Vayqanlı olasan.

Vaysına-vaysına canın çıxsın.
Var-yoxun talansın.
Verəcəyin olsun, alacağın olmasın.
Vəbaya düçar olasan.
Vərəmlənib öləsən.
Vətənsiz qalasan.
Viranxanaya düşəsən.
Vurğun vursun səni.
Vurğunun güclü gəlsin.

Y

Yavan çörəyə möhtac olasan.
Yavanlıq tapmayasan.
Yağış-yağmur altında qalasan.
Yad əllərdə qalasan.
Yalan olasan.
Yalvara-yalvara qalasan.
Yalqız qalasan.
Yana-yana qalasan.
Yanıb-yaxılasan.
Yan-yörən boşalsın.
Yaralanasan.
Yara-xora tökəsən.
Yarsız-yoldaşsız qalasan
Yatağa düşəsən.
Yatalaq azarına tutulasan.
Yatıb durmayasan.
Yaxan əllərdə qalsın.
Yeddin verilsin.
Yedəklərdə gəzəsən.
Yezidsifət canın ölsün.
Yeyib-içdiyin zəhər olsun.
Yekəbaş başın batsın.
Yekə-yekə danışan dilin qurusun.
Yel azarına tutulasan.
Yelmar ilan çalsın səni.
Yemək-içməyin ağu olsun.
Yeniyetmə öləsən.
Yer payı olasan.
Yerə girəsən.
Yer-yurdun başına uçsun.
Yersiz-yurdsuz qalasan.
Yetim qalasan.

Yetişmişin qalsın, kalın tökülsün.
Yəhər üstə doğranasan.
Yəhərin qanla dolsun.
Yiyəsiz qalasan.
Yığdığını yeməyəsən.
Yıxılıb qalxa bilməyəsən.
Yol-riz üzünə bağlansın.
Yorğan-döşəyə düşəsən.
Yorulub yolda qalasan.
Yox olasan.
Yoxsulluq yaxandan tutsun.
Yurdsuz qalasan.
Yurdunda bayquş ulasın.
Yurdun xarabalığa dönsün.
Yuxun qarışsın.
Yuxusuzluq azarına tutulasan.
Yük altda öləsən.

Z

Zavala gələsən.
Zay olasan.
Zalım əlinə düşəsən.
Zar-zar ağlayasan.
Zarıya-zarıya can verəsən.
Zatıqırıq olasan.
Zəbun olasan.
Zəqqumlanasan.
Zəncir altda qalasan.
Zərərə düşəsən.
Zəfəran kimi saralasan.
Zəhərlənəsən.
Zibilxanalar yerin olsun.
Ziyana düşəsən.
Zol-zol dərin götürülsün
Zülmətə düşəsən.

DƏDƏ QORQUD QARĞIŞLARI

Ağzın qurusun, çoban.

Dilin çürüsün, çoban.

Qadir sənin alnına qada yazsın, çoban.

Altun-axçan xərclər olsam, mənim kəfənim olsun.

Bitər sənin otların, Qazlıq dağı, bitərkən bitməz olsun.

Qaçar sənin keyiklərin Qazlıq dağı, qaçarkən qaçmaz olsun, daşa dönsün.

Qazlıq dağı, axar sənin suların, axar ikən axmaz olsun.

Qonağı gəlməyən qara evlər yıxılsa yey.

Əlin qurusun, barmaqların çürüsün.

Yarımasın, yarçımasın.

Yaylar olsam, mənim gorum olsun.

Yıxılsın Oğuz elləri, mənə yarar qız bulaymadım...

Kəsilsin oğlan əmən süd damarım, yaman sızlar.

Oğlu-qızı olmayanı allah-taala qarğayıbdır, biz dəxi qarğarız.

Səndən sonra bir yigidi, sevib varsam, belə yatsam, ala ilan olub məni soqsun.

Soyuq-soyuq suların, içər olsam, mənim qanım olsun.

Tovla-tovla şahbaz atın minər olsam, mənim tabutum olsun.

Çalarsan, əlin qurusun.

Çıxsın mənim gözlərim, Dirsə xan, yaman səyirir.

ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

Vətən – qürbət

Vətənə gəldim, imana gəldim.
Gözsüz yaşamaq olar, Vətənsiz yox
Qəribi baxışından tanıyırlar.
Qəribi vurmuşlar, "Vay Vətən!" demiş.
Qürbət yerdən Vətən olmaz!
Qürbət görməyən adam Vətən qədri bilməz.
Yurddan çıxsan da, eldən çıxma!
Köçən yurdun qədrini, düşən yurdda bilərlər.
El ağzı – çuval ağzı.
El igidləri ilə tanınar.
El içində – öl içində!
El yandıran şamı söndürmək olmaz.
El gücü, sel gücü.
El malına göz dikən, gözdən olar.
Eldən-elə, dildən-dilə,
Eli olmayanın, dili də olmaz.
Elin atdığı daş uzaq gedər.
El atanı ər atar, el tutanı ər tutar.
Üzünü xalqa çevirənin arxası möhkəm olar.
Birlik harda, dirilik orda!
Güc birlikdədir.
Yeməyini yalqız yeyən, yükünü özü qaldırar.

Yazı – kəlam

Yazılan pozulmaz.
Rəhmət yazana, lənət pozana!
Qələm qılıncdan itidir.
Qələm əyri kəsilsə də, doğru yazar.
Qələm yazanı qılınc poza bilməz.
Qələmin ucu – qılıncın gücü.
Söz bir olsa, zərbi kərən sındırar.

Söz var el içində, söz var ev içində.
Söz var gələr keçər, söz var dələr keçər.
Söz danış, söz eşit!
Söz danışıqdan keçər.
Söz gəzdirən adamdan qorx!
Sözü ağzında bişir, sonra çıxart.
Sözü sən at, yiyəsi götürər.
Sözün düzünü zarafatla deyərlər!
Sözün doğrusunu uşaqdan xəbər al!
Sözün yalanı olmaz, yanlışı olar.
Ağıl ağıldan üstündür, söz sözdən ötkün.
Ev kimindir? – Oturanın! Söz kimindir? – Götürənin!
Elin sözü daşı yeridər.
Pis söz qəlp puldur, yiyəsinə qayıdar.
Saqqalım yoxdur, sözüm ötmür.
Ulu sözünə baxmayan, ulaya-ulaya qalar.
Haqq söz axar suları saxlar.
Səhrada gül bitməz, cahilə söz yetməz.
Sirrini dosta demə, dostun da dostu var!
İt hürər karvan keçər.
Kar eşitməz – araşdırar, kor görməz – quraşdırar.

Kamil – cahil

Ağıl yaşda deyil – başdadır.
Ağıllı bir dəfə allanar.
Ağıllı qəm yeyər, dəli – qamçı!
Ağıllı düşmən nadan dostdan yaxşıdır.
Ağıllı kişi qışın qeydinə yayda qalar.
Ağıllıya işarə, nadana kötək!
Dəvəyəcən boyun olunca, düyməcə ağlın olsun.
Alim olmaq asandır, insan olmaq çətin.
Cahilin ibadətindən, alimin yuxusu yaxşıdır.
Anlayana qul ol, anlamayana ağa olma.
Anlayana da can qurban, anlamayana da, dad yarımçıq əlindən.
Arifə bir işarə kifayətdir.
Bilik ağlın aynasıdır.
Bilməmək eyib deyil, soruşmamaq eyibdir.
At – yeriməklə, insan bilməklə.
Oynamaq bilmir, deyir: yerim dardır!
Quduran qırx gün yaşar.
Dəmir islanmaz, dəli utanmaz.
Elm ağlın çırağıdır.

Elmsiz adam cürətsiz olar.
Elmsiz adam meyvəsiz ağac kimidir.
Sarsaqlar olmasaydı, yaltaqlar acından ölərdi.
Hirsin dövlətə zərəri var.
Cahil ilə bal yemə, aqil ilə daş daşı.
Qisas qiyamətə qalmaz.
Gəmiyə minib gəmiçi ilə dalaşma.
Kor kora kor deməsə bağrı çatlar.
Tamahkarı yalançı aldadar.
Ustadına kəc baxanın gözlərinə qan damar.

Doğru – yalan

Doğru dostluq qərəzsiz olar.
Doğru yalanı qovar.
Doğru yolla gedən yorulmaz.
Yalan ayaq tutar, yeriməz!
Yalan ilə dünyanı gəzmək olar, amma qayıtmaq olmaz.
Yalan üz qaraldır.
Yalançının evi yandı, heç kəs inanmadı.
Yalançının ipiylə quyuya düşən quyuda qalar.
Oğru həmişə doğruluqdan danışar.
Oğru elə bağırdı, doğrunun bağrı yarıldı!
Oğru hamını oğru bilər.
Tutulmayan oğru, xandan-bəydən doğru.
Söymə qul atamı, söyməyim bəy atanı!
Xain qorxaq olar.
Xəta məndən, əta səndən!

Gözəl – çirkin

Gözəlağa çox gözəl idi, vurdu çiçək çıxartdı.
Gözəl gözəl deyil, könül sevən gözəldir.
Gözələ göz dəyər, qəlbə söz!
Gözəllik ondur, doqquzu dondur!
Qızılquş əldə gəzər, gözəl qız dildə!
Tikə qarın doydurmaz, amma məhəbbət artırar.
Bəzənmisən bu gündəsən, bəzənməsən nə gündəsən?!
Qara qız bəzənincə, toy əldən gedər.

Əyri otur, düz danış

Dəvəyə dedilər: Boynun əyridir,
Dedi: – Haram düzdür ki, boynum düz olsun?!

Könül bir şüşədir, sındırarsan bitişməz.
Könlü balıq istəyən quyruğun suya vurar.
Könlü yemiş istəyən, dolanar tağ başına.
Göz görməsə, könül bulanmaz.
Gözdən iraq, könüldən uzaq.
Camal gedər, kamal qalar.

Ailə

Kişi öz sözünün ağası olar.
Kişisi olmayan evin ruzisi olmaz.
Ər-arvadın savaşı, yaz gününün yağışı!
Ər ilə arvadın torpağı bir yerdən götürülüb.
Arvad var ev tikər, arvad var ev yıxar.
Arvad yıxan evi, fələk də yıxa bilməz.
Arvadsız ev – susuz dəyirman!
Ana qızına taxt verər, ata qızına bəxt!
Anasına bax qızını al, qırağına bax bezini.
Anasından qabaq düşən qulunu qurd yeyər!
Yanan da ana, yaman da ana!
Ata malından mal olmaz, özün qazanmaq gərək!
Ata olarsan, ata qədrini bilərsən!
Atalar nə əkiblər, oğullar onu biçiblər.
Qızın isməti – atanın dövləti!
Oğlan yetir, qız yetir, yükü yenə sən gətir!
Oğlanı kamal ilə, qızı camal ilə.
Qız ağacı – qoz ağacı, hər gələn bir daş atar.
Qız – qızıl alma, qızı gözdən salma.
Qız evlərdə tanınar, ipək – dəzgahda!
Qız yükü – duz yükü!
Qız evində toydur, oğlan evinin xəbəri yox!
Od qalar köz olar, qız qalar söz olar.

Böyük – kiçik

Böyük olan yerdə kiçik danışmaz.
Böyüyü – axmaq, kiçiyi – toxmaq.
Böyük sözünə baxmayan böyürə-böyürə qalar.

Böyüksüz evdə xeyir-bərəkət olmaz.
Kiçiyin kiçik yeri var, böyüyün – böyük!
Yol böyüyündür, su kiçiyin!
Qocadan demək, cavandan kömək!
Babadan hümmət – nəvədən xidmət.
Dövlətdə dəvə, övladda nəvə!
Ölməz, itməz Xədicə, görər nəvə-nəticə!
Cavanlıqda daş daşı, qocalanda ye aşı!
Bala baldan şirindir.
Uşaq atasından güclüsünü bilməz.
Uşağa buyur, dalınca yüyür!
Uşağa yüz öyrət, gördüyün deyəcək.
Uşaqlı evdə qeybət olmaz.
Ağlamayan uşağa süd verməzlər.
Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı qonaq!

Dost – düşmən

Dost ağlar, düşmən gülər.
Dost arası pak gərək!
Dost başa baxar, düşmən ayağa!
Dost dosta tən gərək, tən olmasa gen gərək!
Dost dostu dar gündə sınayar.
Dost min isə – azdır, düşmən bir isə çoxdur.
Dostunu mənə söylə, sənin kim olduğunu deyim.
Dostun versə qum, sən onu ovcunda yum!
Örtülü bazar – dostluğu pozar.
Tikə ilə dost olanlar, illər ilə küsülü qalar.
Dəvəçi ilə dost olanın darvazası gen gərək.

Adı var, özü yox

Adın nədir? – Daşdəmir. Yumşalısan, yumşalı!
Adın nədir? – Dərviş. Pul ilə olur hər iş!
Adımı sənə qoyum, səni yana-yana qoyum!
Quş qanadı ilə tanınar, insan adı ilə.
Qılınc – bağlayanındır, at – minənin!
Qılınc öz qınını kəsməz!
Qonaq sevənin süfrəsi boş olmaz!
Qonağın ruzisi özündən qabaq gələr.
Qonaqsız ev – susuz dəyirman!
Vaxtsız qonaq öz kisəsindən yeyər.
Qonşu qonşu olsa, kor qız ərə gedər.

Qonşu payı qarın doyurmaz.
Qonşu toyuğu qonşuya qaz görünər.
Qonşuda bişər, bizə də düşər!
Qonşunu iki inəkli istə, özün də bir inəkli olarsan!
Evdə bişməyib, qonşudan gəlməyib!
Zülm ilə abad olan, ədl ilə bərbad olar.
Zülm yerdə qalmaz.
İstədiyim yar idi, yetirdi pərvərdigar.
Yarı gör özün danış, ev yıxar ara sözü.
Cəhənnəmə gedən özünə yoldaş axtarar.

Mərd – namərd

Mərd əli kasad olmaz.
Mərddən bir çıxar, namərddən iki.
Keçmə namərd körpüsündən, qoy aparsın sel səni.
Namərd gəlib mərd olmaz, yüz ətəklə, yüz yalvar!
Namərdin plovundan, mərdin qaşıq aşı!
Vura bilməyən daşın böyüyündən yapışar.
Vuran igid dayısına baxmaz!
Kasıbı dəvə üstə böv vurar!
Qanı qan ilə yumazlar.
Qanlını qan tutar!
Qaşınmayan yerdən qan çıxardır.
İgid qovğasız olmaz.
İgid basdığını kəsməz.
İgid odur, atdan düşə atlana,
İgid odur hər əzaba qatlana!
İgidin başı qalda gərək!
Qorx payızdan – qabağınca qış gəlir,
Qorxma qışdan – qabağınca yaz gəlir.
Qorxa-qorxa cənnətə gedincə, gülə-gülə cəhənnəmə get!
Qorxaq hər şeyi dörd görər.
Qorxan gözə çöp düşər.
Qorxursan pişikdən, niyə çıxırsan deşikdən?
Göz gördüyündən qorxar.
Sərçədən qorxan darı əkməz!

Yaxşı – yaman

Yaman yeyənin olsun, yaman deyənin olmasın!
Yaman günün ömrü az olar.
Yamanlığa yaxşılıq mərd kişinin işidir.

Yaxşı at özünə qamçı vurdurmaz.
Yaxşı at yemini artırar, yaman at qamçısını!
Yaxşı igidin adını eşit, üzünü görmə!
Yaxşılıq et at dəryaya, balıq bilməsə, xaliq bilər.
Yaxşılıq yerdə qalmaz.
Yaxşını yada vermə – hayıfdır, yamanı yada vermə – ayıbdır!
Pis olmasa yaxşının qədri bilinməz.
Pisliyi torpağa əkdilər, göyərmədi!
Ara sözü ev yıxar.

Kədər – sevinc

At ölüb, itlərin bayramıdır.
Zurnanı versən naşı əlinə, gen tərəfindən üfləyər.
Zurnaçı zorunu püfünə verər.
Dumbulla gələn zurna ilə gedər.
Oynamaq bilməz, "yerim dardır" – deyər.
Dumbul görər oynar, mehrab görər ağlar.
Odu söndürüb külü ilə oynayır.
Gülmə qonşuna, gələr başına!
Ağlarsa anam ağlar, qalanı yalan ağlar.
Keçinin əcəli gələndə buynuzunu çobanın çomağına sürtər.
Gəldi əcəl, vermədi macal.
Ölmə eşşəyim, ölmə, yaz gələr, yonca bitər.
Ölü qəbristandan qayıtmaz.
Ölülər elə bilir ki, dirilər halva yeyir.
Haynan gələn, vaynan gedər!
Tısbağanı ya öldür, ya arxası üstə çevir!
Dəmiri nəm çürüdər, insanı qəm.

Səbəb – nəticə

Ağ gün ağardar, qara gün qaraldar.
Ağa ağ deyiblər, qaraya qara.
Ağın adı var, qaranın dadı!
Qara günün ağ günü də var!
Qara məni basınca, mən qaranı basım.
Qaradan artıq rəng yoxdur!
Zor qapıdan gələndə haqq bacadan qaçar.
Yaş da quru oduna yanar.
Dayça at olunca, yiyəsi mat olar.
Mal yiyəsinə oxşar.

Yıxılana balta çalan çox olar.
İlan hər yerə əyri gedər, öz yuvasına düz!
Ac toyuq yuxuda darı görər!
Güc birlikdədir!
Gücünə bax, şələni bağla!
Od yanmasa tüstü çıxmaz.
Əyri otur, düz danış!
Sonrakı peşmançılıq fayda verməz!
Cəfa çəkməyən səfa görməz!
Gül tikansız olmaz.
Balıq başından iylənər.

Əməl – qanun

Artıq tamah baş yarar.
Artıq tamah daş yarar, daş qayıdar baş yarar!
Arxalı köpək qurd basar.
Acığın dövlətə zərəri var.
Acıqlı başda ağıl olmaz.
Yuxarı tüpürürəm – bığ, aşağı tüpürürəm – saqqal!
Yorğanına bax, ayağını uzat.
Bərkdən bir çıxar, boşdan iki!
Səbirlə halva bişər, ey qora səndən.
Bəsləsən atlas olar tut yarpağından.
Qalan işə qar yağar!
Zərərin yarısından da qayıtmaq xeyirdir.
Qurunun oduna yaş da yanar.
Quru palçıq divara yapışmaz.
Ehtiyat igidin yaraşığıdır.
İstədiyim yar idi, yetirdi pərvərdigar!
İstədi qaşın düzəldə, vurdu gözün çıxartdı!
İstərsən bal-çörək, al əlinə bel-kürək!
Beş gün yaraq, bir gün gərək!
Lay-lay başa düşürsən, niyə yatmırsan?!
Yaşına baxma, başına bax!
Çox yaşayan çox bilməz, çox gəzən çox bilər.
Ağıl yaşda deyil, başdadır.
Toyuq qaz yerişi yerisə, öz yerişini də itirər.
Kül təpəcik olmaz.
Küldən od törər, oddan kül!
Odu söndürüb, külü ilə oynayır.
Uman yerdən küsərlər.
Gah nala vurur, gah mıxa!

Mal gedər bir yerə, guman gedər min yerə.
Gəzən ayağa daş dəyər.
Gəl məni gör, dərdimdən öl!
Görünən kəndə nə bələdçi?!
Göz görməz, üz utanmaz.
İsti çörək təndirdən, minnəti yox pendirdən!
Olan oldu, torba doldu!
Ortada yeyir, qıraqda gəzir.
Toydan sonra nağara!
Kor koru tapar, su çuxuru!
Vaxtsız açılan gül tez solar.
Balığı nə vaxt tutsan təzədir.
Tək əldən səs çıxmaz.
Tutdu – qatıq, tutmadı – ayran!
Kor tutduğun buraxmaz.
Sirkə tünd olanda öz küpünü partladar.
Üstümü unlu görüb, adımı dəyirmançı çağırma!
Ağıllı fikirləşincə, dəli çayı keçdi.
Haqq yandıran şamı söndürmək olmaz.

İnsan

Adam ağzında söz, qazan altında köz.
Adamı başdan, ağacı yaşdan!
Adamı qeyrət işlədər, dəyirmanı su!
Adamı sözündən tutarlar, heyvanı buynuzundan.
Adamın başına nə gəlsə dilindəndir.
Adamın yerə baxanı, suyun lal axanı!
Çox yemək adamı az yeməkdən də qoyar.
İnsan çiy süd əmib.
Buzu gün əridər, insanı xəcalət.
Divarı nəm yıxar, insanı qəm.
Heyvanın dişinə baxarlar, insanın işinə.
Beş barmağın beşi də bir deyil.
Baş əyməklə baş ağrımaz.
Başımı yarır, ətəyimə qoz tökür.
Başına gələn başmaqçı olar.
Əlin yağlıdır, öz başına çək!
Pişik olmayan yerdə siçanlar baş qaldırar.
Kosa getdi saqqal gətirə, bığı da qoydu gəldi!
Saqqal yox ikən bığ var idi.
Boynu uzun, beyni boş, tut qulağından cütə qoş!
Boyunduruqdan qaçan öküzü kəsərlər.

Az idi arıq-uruğ, biri də gəldi dabanı çırıq.
Qarın başa bəladı.
Qarnım üçün deyil qədrim üçündür.
Qaş düzəltdiyi yerdə, vurdu gözün çıxartdı.
Adın tut, qulağın bur.
Dil ağrıyan dişə dəyər.
Dil var bal gətirər, dil var – bəla.
Dil yanılar düzünü deyər.
Dil yanılar ürəydəkini deyər.
Dilini saxlayan, başını saxlar.
Lalın dilini anası bilər.
Diş yox ikən dodaq var idi.
Əl əli yuyar, əl də üzü.
Əldən qalan əlli il qalar.
Gözsüz öləndə badamgözlü deyərlər.
Gördüyündən göz kirayəsi istəyir.
Qorxan gözə çöp düşər.
Kor nə istər? – İki göz! Biri əyri, biri düz!
Hər saqqalı olana ağsaqqal deməzlər.
Ürək yanmasa gözdən yaş çıxmaz.
Keçi can hayında, qəssab piy axtarır.
Ağız torba deyil büzəsən.

Yemək – içmək

Yemək ilə doymayan, yalamaq ilə doymaz.
Yeyərsən qaz ətini, görərsən ləzzətini!
Almanı soy ye, armudu say ye!
Əkiblər yemişik, əkərik yeyərlər!
Malını yeməyənin malını yeyərlər.
Ortada yeyir, qıraqda gəzir.
Çox yemək adamı az yeməkdən də qoyar!
Ac qurd balasını yeyər.
Ac toyuq yuxusunda darı görər.
Haqq söz acı olar.
Aş daşanda kəfkir baha olar.
Harada aşdır, orada başdır.
Bal tutan barmaq yalar.
Doşab almışam, bal çıxıb.
Duz-çörək – düz-çörək!
Çörəyi ver çörəkçiyə, bir çörək də üstəlik.
Ət yeyən quş dimdiyindən bəlli olar.
Ət sümüksüz olmaz.

Ucuz ətin şorbası olmaz.
Çiy yumurta soyulmaz.
Un kəpəksiz olmaz.
Halva-halva deməklə ağız şirin olmaz.
Keçəl halva yeyər, puluna minnət!

Ev – eşik

Ev bizim, sirr bizim.
Evdə bişməyib, qonşudan gəlməyib.
Evdə öz başını bağlaya bilmir, toyda gəlin başı bağlayır.
Evdəki hesab bayıra çıxmaz.
Evində yoxdur darı, oturub hamıdan yuxarı.
Yalançının evi yandı – heç kəs inanmadı!
Yalançını evinəcən qovarlar.
Qapı öz dabanı üstə dolanar.
Dəmir qapının taxta qapıya işi düşər.
Dam dirək üstə durar.
Tısbağa yeriyə bilmir, damını dalında gəzdirir.
Papaq başda yırtılar, başmaq ayaqda.
Papağı tülkü dərisindən, xəbəri yox gerisindən.
Sap üzülən yerdən qırılar.
Yırtıq tor ilə balıq tutmaq olmaz.
Kürkü yayda al, orağı qışda.
Palaza bürün, elnən sürün!
Qazan ağzı örtülü qaynar.
Qazan gillənib qapağını tapar.
Dərziyə köç dedilər, iynəsini yaxasına sancdı.
Kömür çuvalının tozu ağ çıxmaz.
Şam başından yanar.
Şam yanmasa başına pərvanə dolanmaz.

Təsərrüfat

Araba qırılanda yol göstərən çox olar.
Arabanı at aparmaz, arpa aparar.
Arabanın qabaq çarxları hara gedərsə, dal çarxları da ora gedər.
Qayış nə bilir öküz nə çəkir?!
Dəyirman bildiyini eylər, çaq-çaq baş ağrıdar.
Dəyirmanda doğulan siçan göy gurultusundan qorxmaz.
Yəhər ata yük olmaz.
Saxla gönü, gələr günü!

Oduna gedənin baltası iti olar.
Örkən nə qədər uzun olsa, yenə də dəğanaqdan keçəcək.
Örkən üstə darı sərmək olmaz.
Eşşəyə gücü çatmır, palanı döyür.
Şərti şumda kəs, xırmanda yabalaşmayasan!

Xərc – qazanc

Qazanc qudurub mayanı yedi.
İlxıçının qazancı havayı at minmək olar.
Alan alıb varlanıb, satan satıb aldanıb!
Almadığın heyvanın noxtasından yapışma.
Cavahir bazarında muncuq satılmaz.
Abbasını bəyənməyən beş şahı çıxardar.
Pulluya "bəli" deyərlər, pulsuza "dəli".
Kasıb pul tapdı, qoymağa yer tapmadı.
Sən saydığını say, gör fələk nə sayır.
Sayanın quluyam, saymayanın ağası!
Bazar içində it qulağı kəsməzlər.
Örtülü bazar, dostluğu pozar.
Öküzü olana borc gön verərlər.
Əmanətə xəyanət olmaz.
Malın mal olunca bazarın bazar olsun.
Müftə sirkə baldan şirindir.
Nağdı qoyub, nisyənin dalınca düşmə!
Şər deməsən, xeyir gəlməz.

Varlı – yoxsul

Varını verən utanmaz.
Dövlət başa bəladır.
Dövlətdə dəvə, övladda nəvə.
Kasıb öləndə molla xəstə olar.
Kasıbın toyunda gecə qısa olar.
Abdaldan paşa olmaz, taxtadan maşa.
Sən ağa, mən ağa, inəkləri kim sağa?!
Bəy dediyin nədir, bəyənmədiyin nədir?!
Bəy ilə bostan əkənin tağı çiynində bitər.
Bəyin əli cibindən çıxınca, kasıbın canı çıxar.
Boşdan bir çıxar, bərkdən iki!

Məqam – dövran

Hər aşığın bir dövranı var.
Vaxtı itirsən hədər, görərsən böyük zərər.
Vaxtsız banlayan xoruzun başını kəsərlər.
Vaxtsız qonaq kisəsindən yeyər.
Bir gül ilə bahar olmaz.
Yaxşı il baharından bəlli olar.
Yaz var, qış var, nə tələsik iş var!
Yaz dumanı bar gətirər, qış dumanı qar.
Yazda çalan qışda oynar.
Ölmə eşşəyim, yaz gələr, yonca bitər.
Yayda işlə, qışda dişlə.
Qışın qarı, yayın barı.
Gecə qara, cümə qara.
Axşamın xeyrindən gündüzün şəri yaxşıdır.
Hər gecənin bir gündüzü var.
Gündüz çıraq yandıran axşam qaranlıqda qalar.
Yel aparan yelinki, yerdə qalan mənimki.
Yel əsəndə yellənir, yol görəndə yollanır.
Yel ilə gələn sel ilə gedər.
Yelə tüpürən üzünə tüpürər.
Yağışdan çıxdıq, yağmura düşdük.
Yağmadı yağış, bitmədi qamış!
Gec eylər, güc eylər.
Gec gəldi, tez öyrəndi.

Kainat

Dünya gör-götür dünyasıdır.
Dünya malı dünyada qalacaq.
Yer qulaqlı olar.
Yer yiyəsiz qalanda, donuz təpəyə çıxar.
Yersiz gəldi, yerli qaç!
Ah yerdə qalmaz!
Suyun lal axanı, adamın yerə baxanı.
Çağırılan yerə ar eləmə, çağrılmayan yeri dar eləmə!
Göydə toy var desələr, arvadlar nərdivan axtarar.
Göyə dirək yaramaz, dənizə qapaq!
Su axdığı yerdən bir də axar.
Su bir yerdə qalanda iylənər.
Su yaranıb axmağa, göz yaranıb baxmağa!
Su gərək quyunun dibindən çıxsın, quyuya su tökməklə sulu olmaz.

Suda boğulan saman çöpündən yapışar.
Keçəl suya getməz.
Çay yanında quyu qazımazlar!
Quyuya tüpürmə, vaxt olar suyunu içməli olarsan.
Arxa su gələnə qədər qurbağanın canı çıxar.
Dağ dağa qovuşmaz, insan insana qovuşar.
Qaya dağa arxalanar.
İt qaya kölgəsində yatar, deyər: – Öz kölgəmdir.
Dəniz tufansız olmaz.
Gün girən evə həkim girməz!
Meşə çaqqalsız olmaz!
Meşədə ağacın düzünü seçərlər.
Torpaq deyər: Öldür məni, dirildim səni.

Mədən – hasilat

Qızıl açar dəmir qapıları açar.
Daş düşdüyü yerdə qalar.
Yetənə yetir, yetməyənə daş atır.
Gəzən ayağa daş dəyər.
Çirkaba daş atma, üstünə sıçrayar.
Dəmir dəmiri kəsər.
Dəmiri döyən dəmirçi olar.
Dəmiri isti-isti döyərlər.
Dəmiri kürədən dəmir çıxardar.
Zər qədrini zərgər bilər.
Mis ya sındı, ya cingildədi!

Bitkilər

Ağac bar verəndə başını aşağı dikər.
Ağac dibindən su içər.
Ağac əyildi – sındı, igid əyildi – öldü.
Ağacı qurd içindən yeyər.
Balta ağac kəsməzdi, sapı ağac olmasaydı!
Bar verən ağacı kəsməzlər.
Yıxılan ağaca balta çalan çox olar.
Bağ bağbansız olmaz, dəvə sarbansız!
Bağa bağ demə yiblər, bax deyiblər.
Bağ salan barın yeyər.
Bağa bax üzüm olsun, yeməyə üzün olsun.
Bağa baxarsan bağ olar, baxmazsan dağ olar.

Bağçı bağı ilə, qarpız tağı ilə!
Gül qönçədə qalmaz, söz qəlbdə!
Gül tikansız olmaz.
Gülün qədrini bülbül bilər.
Meyvəsiz ağaca daş atmazlar.
Quşdan qorxan darı əkməz!
Ot kökü üstə bitər.

Heyvanlar

At almamış noxta davası edir.
At var – ot yoxdur, ot var – at yoxdur!
At minənindir, qılınc bağlayanın!
At minicisinə görə kişnər.
Atlı ilə piyadanın yoldaşlığı tutmaz.
Özgə atına minən tez düşər.
Eşşəyə min, ata çatınca.
Eşşək anqırar tayını tapar.
Eşşək eşşəyə uzunqulaq dedi.
Eşşək nə bilir zəfəran nədir.
Eşşək olasan, çulun məxmər?!
Eşşəyə qızıl noxta taxsan yenə adı eşşəkdir!
Qoduq anasından qabaq gedər.
Qoduq böyüyər eşşək olar.
Dua oxumaqla donuz darıdan çıxmaz.
İt araba kölgəsində yatar, elə bilər öz kölgəsidir.
İt qorxduğu yerə hürər.
İt quduranda yiyəsini qapar.
İt də getdi, ip də getdi!
Tazıya tut deyir, dovşana qaç!
Pişik olmayanda siçanlar ova çıxar.
Sürü axsaqsız olmaz.
Sürüdən ayrılan qoyunu qurd yeyər.
Qoç döyüşünə qoç dözər.
Qoç igiddən qoç törər.
Qoç olmamış buynuz çıxardır.
Dəvə qulağından asılmaz.
Dəvə nə qədər arıq olsa, dərisi bir eşşəyə yükdür.
Dəvədən böyük fil var.
Dəvənin qanadı olsa, uçmamış dam qalmaz.
Dəvəçi ilə dost olanın, darvazası gen gərək!
Ayı meşədən küsüb, məşənin xəbəri yox.
Aslan qocalanda başına çaqqallar yığılar.

Qurd adını dəyişər, xasiyyətini dəyişməz.
Sürüyə qurd gələndə, köpəyi yuxu tutar.
Qurddan qorxan qoyun saxlamaz.
Çaqqal var ki, baş kəsər, qurdun adı bədnamdır.
Tülkü tülkülüyünü sübut edincə, dərisi boğazından çıxar.
Meşə çaqqalsız olmaz.

Quşlar

Yeməmisən qaz ətini, nə bilirsən ləzzətini?!
Ördəkdən qaz yerişi tələb eləmək olmaz!
Toyuq bir su içər, bir yuxarı baxar!
Xoruz banlamasa səhər açılmaz?!
Xoruzun altında yumurta axtarır!
Xoruzun vəzifəsi banlamaqdır.
Cücəni payızda sayarlar!
Quş qanadı ilə, adam adı ilə!
Quş qanadından kirayə istəməz!
Alıcı quş dimdiyindən bilinər.
Qərib quşun yuvası olmaz.
Bayquş xarabalıq sevər.
Can verirsən boz sərçəyə ver, qaranquş gəldi-gedərdi!
Qarğadan gözəl quş istədilər, balasını göstərdi.
Qırqovul başını soxar kola, deyər heç kəs məni görmədi.
Tovuz quşunu tükünə görə kəsərlər.

XALQ TAMAŞALARI

Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş

Tamaşada iki qardaş, bir mülkədar və iki öküz iştirak edir. Sazandalar köməkçi rollardadır.

I

Tamaşaya başlamazdan əvvəl məclisi idarə etmək üçün bir nəfər bəy (toybaşı) seçilir. Bəy məclisdə asayiş yaradır və özünə bir neçə köməkçi götürür. Köməkçilər bəyin əmri ilə böyük bir meydança düzəldirlər. Meydançaya bir xış qoyurlar. Bəzəməkdə xüsusi məharəti olan adam iki nəfəri geyindirir, üzlərinə un sürtür və qarınlarının üstündən, paltarlarının altından bir qalın yastıq qoyub üstdən örkən ilə bağlayır. Onların paltarlarından nal, çömçə, qaşıq və s. asır, başlarına isə balqabaq, yaxud keçədən tikilmiş papaq qoyurlar. Adamları elə geyindirirlər ki, baxan kəs istər-istəməz gülməyə başlayır. Bundan əlavə, başqa iki nəfəri elə geyindirirlər ki, öküzə oxşayır. Paltardan və ağacdan öküz müqəvvası düzəldib ortada saxlayırlar.

Camaat cərgə ilə oturub aramsız gözləyir. Birdən kosa kimi geyindirilmiş iki nəfər iki öküzlə gəlib meydançaya çıxır. Bunlardan biri bərkdən qışqırır:

– Ay yer yiyəsi, ay yer yiyəsi!

Bir nəfər mülkədar paltarı geymiş qarnıyoğun, yekəbığlı adam çıxıb deyir:

– Ədə, pezi oğlu, pezi, yavaş qışqırsana!

Kosalar mülkədarı görən kimi özlərini komik vəziyyətdə düzəldərək kürəklərini ona çevirib əsgəri təzim edirlər. Sonra kosalar mülkədara sarı çevrilib deyirlər:

– Başqa padşahın ölkəsindən didərgin düşüb bura gəlmişik. Xali qalan torpaqlardan ver, haqqı ilə əkək.

Kosalar ikisi də danışır. Böyük kosanın acığı tutur, kiçiyin ağzına bir sillə vurub deyir:

– Ağsaqqal olan yerdə qara saqqal danışmaz. Mətləbin qısası, bizə haqqı-bəhrəsi ilə bu xali qalan yerdən ver, kasıblıq eləyək.

Mülkədar öskürüb bığlarını eşir, sonra onlara deyir:

– Təfriqə olduğunuz üçün yazığım gəlir, bu yerdən sizə verərəm. Ancaq gərək məhsulun hər çuvalından bir çanağı sizin, qalanı mənim.

– Ay ağa, insafın olsun, mürvətin olsun, barı üçdə birini bizə ver.

– Mənim yerimin qiyməti elədir. İcarəyə götürmürsünüz, tez buradan əkilin, – deyə mülkədar kosaları itələyib uzaqlaşmaq istəyir.

– Ay ağa, bir dayan, altıaylıq olma! Mümkündürsə, çuvala iki çanaq ver.

– Elə söhbət yoxdu. Tez buradan əkilin...

– Yaxşı razıyıq, onda bir cüt öküz, bir cüt də vəl ver.

– Yox, sizə bir arvad da verərəm. Bir zəy də vermirəm, kefinizdi qalın, kefinizdi gedin.

– Yaxşı razıyıq, ancaq bir şərtnən ki, taxılın döyülməsi sənin hesabına olsun.

Mülkədar özündən çıxıb onları itələyir:

– Yox, yox, olmaz, mən ancaq büğdanın durusundan götürəcəyəm. Deyəsən alverimiz baş tutmayacaq. Yaxşısı budur əkilib gedəsiniz.

– Ay canım qoy sözümüzü qurtaraq. Yaxşı, sən deyən olsun.

Mülkədar meydançadan bir qədər yer ayırıb onlara verir və özü çıxıb gedir. Kosalar yeri əkməyə hazırlaşırlar. Böyük kosa deyir:

– Qardaş, sən hodaq ol, öküzləri sür, mən majqal olum.

Xırda qardaş öküzlərin yanına gəlir, əlini qoynuna qoyub kənarda durur. Böyük qardaş deyir:

– Qardaş, niyə cehizi bitməmiş qız kimi kənarda dayanmısan? Körpüdə karvanını kəsməyiblər ki, əlini qoynuna qoymusan. Sən öküzləri qoş, mən cütü hazırlayım.

Xırda qardaş qaş-qabağını töküb ağlamsına-ağlamsına cavab verir:

– Başım ağrıyır, azarlamışam.

Böyük qardaş öküzləri qoşur, həm majı tutur, həm də öküzləri sürür. Xırda qardaş da yerə uzanıb, üstünə bir cındır çapıt çəkərək yatır. Böyük qardaş yeri əkib öküzləri açır, tez qardaşının yanına yüyürüb deyir:

– Yazıq qardaşım səhərdən azarlayıb, hələ yaxşı olmayıb.

Əlini qardaşının alnına qoyur, sonra yerə oturur, bir dəsmal arasından çörək çıxardır, qabağına qoyur. Bir tikə ağzına almamış xırda qardaş yerindən sıçrayıb əlini çörəyə atır və yeməyə başlayır.

– Qardaş, mən yaxşı oldum, – deyir.

Böyük qardaş bir tikə almamış xırda qardaş çörəyin hamısını yeyib qurtarır.

– Qardaş, sən lap yemək azarlısı imişsən ki? Vay dədə vay, məni də az qala yemişdin.

Birinci hissə bununla bitir.

II

Həmin yerin üzərinə göy ot töküb çəmənlik və xəsillik kimi düzəldirlər. Qardaşlar əllərində bel gəlirlər. Onların yerişi, hərəkətləri və geyimləri adamları güldürür. Çarıqlarını çıxardıb bellərinə sancırlar, sonra qıçlarını çırmalayırlar. Böyük qardaş deyir:

– Qardaş, o tərəfi sən suvar, bu tərəfi də mən suvarım.

Böyük qardaş başını aşağı salıb zəmini suvarmaqda olur. Xırda qardaş böyük qardaşa diqqətlə baxır və bərkdən qışqırır:

– Vay dədə vay, bel ayağımı kəsdi, – deyə əlini gözünün üstünə qoyub yalandan ağlayır. Böyük qardaş beli yerə atıb onun yanına yüyürür və cındırdan-zaddan çıxarıb ayağını sarıyır. Xırda qardaş hərdənbir ayağını çəkib qışqırır:

– Ay, ayağım ağrıyır, tərpətmə!

Böyük qardaş da üfürə-üfürə onun ayağını sarıyır. Sonra çox çətinliklə qardaşını dalına alıb, zəmidən kənara çıxarır, yerə uzadıb üstünə bir cındır örtür.

Böyük qardaş təkcə zəmini suvarır. İşini qurtarandan sonra qardaşının yanına gəlir, ona bir az yemək verir və dalına alıb aparır.

III

Düzə küləşdən, çöpdən sancırlar, yetişmiş zəmiyə oxşadırlar. Qardaşlar döşlərinə önlük, əllərinə əlcək, barmaqlarına barmaqlıq taxaraq oraq götürüb gəlirlər. Böyük qardaş zəmini biçməyə başlayır və xırda qardaşı məcbur edir ki, o da biçsin. Xırda qardaş yalandan bir neçə əlcəm biçir. Sonra birdən:

– Vay dədə vay, sancılanmışam! – deyə qarnını qucaqlayıb yerə yıxılır və əllərini gözünə qoyub hönkürtü ilə ağlayır.

Böyük qardaş belini yuxarı qaldırıb deyir:

– Cəhənnəmə sancılan, gora sancılan, sənin kimi qardaşın ölməsi qalmasından yaxşıdır.

Böyük qardaş acıqla onun yanına gəlib bir neçə təpik də vurur, sonra qayıdıb özü təkbaşına biçməyində davam edir. Böyük qardaş biçə-biçə bir neçə bayatı oxuyur:

Biçinçi bafa bağlar,
Biçidikcə bafa bağlar.

Böyük qardaş işini qurtarıb getmək istəyir. Lakin ürəyi yanıb geri qayıdır. Bunu kiçik qardaş görür və bərkdən inildəməyə başlayır.

– Qardaşdır, birdən ölər, belimi sındırar. Deyəsən gədə doğrudan naxoşlayıb, – deyə böyük qardaş onun başını dizi üstə alır və alnından öpüb ağlayır. Onu çox çətinliklə dalına alıb aparır.

IV

Düzdə bir xırman düzəldirlər. Xırmanın içinə bir qədər küləş tökürlər. Qardaşlar "öküzləri" gətirirlər, boyunlarına boyunduruq salıb qoşurlar. Böyük qardaş deyir:

– Qardaş, sən vəli sür, mən heşanı çevirim.

Xırda qardaş qaş-qabağını tökə-tökə vəlin üstünə çıxır, böyük qardaş da yaba ilə heşanı çevirir. Xırda qardaş bir neçə baş sürəndən sonra böyük qardaşın gözünü oğurlayıb qaçır, adamların dalında uzanıb yatır. Böyük qardaş heşanı çevirəndən sonra görür ki, xırda qardaş yoxdur. Çox axtarır, onu tapmır, axırda geri qayıdıb özü öküzləri sürür və döyüb qurtarır. İndi heşanı sovurmaq lazımdır. Xırda qardaş da başını küləşin üstünə qoyub yatmışdır. Milçəklər, ditdililər onun üz-gözünü sancır. Dik atılıb, şapalaqla üzünə və boynuna vurur. O tərəf-bu tərəfə aşır. Milçək, ditdili onu rahatlanmağa qoymur.

Böyük qardaşa kömək lazımdır. Heşanı təkcə çıxara bilmir. O, yenə qardaşını axtarmağa başlayır. Ora-bura, axırda tapır. Böyük qardaş onu tərpədib çağırır. Kiçik qardaş da əli ilə boynuna, üzünə vurur və gözüyumulu deyir:

– Köpək oğlunun ditdilisi, milçəyi qoymur bir az yataq.

Böyük qardaş nə qədər çalışırsa, onu durğuza bilmir, axırda acıq eləyib deyir:

– Məndən taxıl alsan, öyünərsən..

Böyük qardaş heşanı qurtarıb buğdanı xırmanın içinə toplayır. O, mülkədarın payını ayırır, yerdə qalanı çuvallara yığmaq istəyir. Bu zaman kiçik qardaş yerdən qalxıb xoruzlana-xoruzlana onun yanına gəlir:

– Qardaş, buğdanı bölək, mən payımı aparım, – deyə ağacını tovlayır.

Böyük qardaş onun üstünə qışqırıb deyir:

– Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş. Sənə bir dənə də dən vermərəm. Bəs indiyə qədər haradaydın?

– Sən öləsən, elə şey yoxdu, yarı böləcəyik qardaş malı kimi. Razı olmasan hamısını aparacam.

– Aparmasan, özünə qurban olasan.

Çuvalın bir ucundan böyük qardaş, bir ucundan xırda qardaş çəkir. Axırda ağacları götürüb dava eləməyə başlayırlar. Onlar bir-birinin qarnına vururlar. Hər dəfə ağac dəyəndə yıxılırlar. Bu minvalla bir-birinə 15-ə qədər ağac çəkirlər. Axırda böyük qardaş kiçiyə elə ağac vurur ki, o, yerə yıxılır, qalxa bilmir...

V

Böyük qardaş geyinib-kecinmiş halda ortaya çıxır. Xırda qardaş isə cır-cındır içindədir. Hər kəsə əl açırsa, heç kəs ona kömək etmir, onu mənalı sözlərlə rədd edirlər. Öz qardaşına yanaşır.

Böyük qardaş: – Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş, – deyə kürəyini ona tərəf döndərib təsbeh çevirə-çevirə gedir. Burada tamaşa bitir.

Xıdır nəbi

Dədə badalardan qaydadı ki, hər il qış yarı olanda Böyük çilləynən Kiçik çillə arasında "Xıdır" bayramı keçirilir. Bir para yerlərdə "Xıdır nəbi", bir para yerlərdəsə "Xıdır İlyas" adıyla tanınan bu el bayramında ayrıca bir çal-çağırla mərasim də düzəldilərdi. Köhnə kişilərin hesabına görə Kiçik çillənin əvvəlində – indiki vaxtla götürdükdə təqribən fevralın birinci ongünlüyü ərzində axşam şər qarışandan sonra uşaqlar, cavan-comrullar bir yerə cəm olurlar. Dəstələnib "Xıdır" nəğməsi oxuya-oxuya qapıları döyər, Xıdır adına pay yığarlar. Hansı qapıdan içəri girsələr əvvəlcə dəstədən bir adam irəli çıxıb avazla belə deyir:

Mən Xıdırın quluyam,
Göy atının çuluyam,
Atının arpasıyam,
Ayağının nalıyam.

Bunun ardınca dəstə bir ağızdan oxuyur:

Xıdırı-Xıdır İlyas,
Özünü yetir İlyas.

Yenə bir nəfər deyir:

Xıdr gəldi hayınan,
Bir balaca dayınan.
Dayça batdı palçığa
Çıxartdıq hay-hayınan.

Dəstə bir ağızdan:

Xıdırı-Xıdır İlyas,
Özünü yetir İlyas.

Dəstədən bir nəfər:

Qara toyuq qanadı,
Kim vurdu, kim sanadı.
Qapı-qapı gəzməkdən
Baldırım it daladı.

Dəstə bir ağızdan:

Xıdırı-Xıdır İlyas,
Özünü yetir İlyas.

Dəstədən bir nəfər:

Yür (yüyür) indi, ha yür indi,
Yük dibinə sür indi.
Yük dibinə varanda
Altın, axça gör indi.

Dəstə bir ağızdan:

Xıdırı-Xıdır İlyas,
Özünü yetir İlyas.

Dəstədən bir nəfər:

Dur indi ha, dur indi,
Qızıl xana qur indi.
Yaman dilə, bəd gözə
Yeddi düyün vur indi.

Dəstə bir ağızdan:

Xıdırı-Xıdır İlyas,
Özünü yetir İlyas.

Dəstədən bir nəfər:

Çatma-çatma çatmıya,
Çatma yerə batmıya.
Xıdıra pay verməyən,
Murazına çatmıya.

Dəstə bir ağızdan:

Xıdırı-Xıdır İlyas,
Özünü yetir İlyas.
Sən özünü yetircək
Açdı çiçək, oldu yaz.

Bundan sonra hər qapıda onlara "Xıdır payı" verərlər: kimi bir çalxam yağ, kimi bir badya süd, kimi də bir torba un... həmin şeyləri gecə bir yerə yığıb saxlayır ki, səhər olsun, onlardan xəmir yoğurub böyük kömbələr, bir də qovut bişirsinlər. O gecənin adı "Xıdır gecəsi" di. Özü də çox mübarək gecə sayılır. "Xıdır gecəsi"ndə inama görə, Xıdır peyğəmbər (Xıdır nəbi) atını minib xəlvətcə hər yanı gəzir. Onun adına ayrılmış

paylara gizlincə əl toxundurur ki, həmin nemətlərin bərəkəti artıq olsun. "Xıdır gecələri"ndə axşamdan səhər açılana qədər külək əsər. Deyərlər ki, Xıdır nəbidi, atını çapıb bərəkət paylaya-paylaya gedir, əsən külək də onun bədöy atının yelidi.

Adamlar bu şərəfə nəğmələr oxuyurlar:

Qış çilləsi Xıdır İlyas gələndə
Hərlənər gərdişi, ay ellər qıj-qıj.

"Xıdır gecəsi"nin səhəri axşamdan yığılmış unu, südü, bir də yağı bir yerə cəm eləyib xəmir yoğurar, böyük kömbələr düzəldib hər birinin də içinə bir qırmızı muncuq qoyurlar. Kömbələr bişdikdən sonra onları parça-parça cavan-comrul arasında bölərlər. Muncuq kimin bəxtinə çıxsa inananırlar ki, həmən adam istəyinə çatacaq.

Kosa-kosa

Kosa əyninə keçi dərisi geyinmiş uzundraz bir adamdır. Başında motal papaq, ayağında şişburun, iri çarıq var. Papağının üstü iki tərəfdən keçi buynuzuna oxşar şəkildə çıxıntılıdır. Boynundan zınqırov sallanır. Paltarının altından qarnına yastıq bağlayıb. Əlində bəzəkli qırmızı çömçə tutub, çiynindən boş xurcun sallanır. Məzəli yerişlə meydana daxil olub zurna və nağarada çalınan oynaq musiqi sədaları altında avazla belə deyir:

Novruz-novruz bahara,
Çillə bata qübara.
Güllər-güllər nübara,
Kim yığa, kim apara.
Bağçanızda gül ola,
Gül ola, bülbül ola,
Mən gəlmişəm kef görüm,
Zurna görüm, dəf görüm.

Müxtəlif yaşlı, milli geyimli, bayram əhval-ruhiyyəli adamlar kosanı dövrəyə alıb bir ağızdan deyirlər:

A kos-kosa gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Bizləri güldürsənə.

Tərifli sözlər eşidən Kosa başlayır özünü dartmağa. Dövrəsindəki adamlardan biri yumorlu tərzdə üz-gözünü oynada-oynada oxuyur:

Ay uyruğu-uyruğu,
Saqqalı at quyruğu.
Gör necə erkən gəlib,
Belində örkən gəlib.

Sonra o geri çəkilir. Həmin adamlardan ayrı birisi irəli çıxıb məzəli-məzəli deyir:

Bu Kosa hardan gəlib? –
Qurtarıb dardan gəlib.
Yağ verin yağlasın,
Bal verin ballasın.
Çoxca bilib allansın.

Birdən Kosa durduğu yerdə səndirləyir, kimin üstünə tərəf gedirsə, o itələyib qarşı tərəfin üstünə salır. Axır ki, Kosa məqam tapıb yıxılır. Guya ölür. Üzünə bir dolça su atırlar, diksinib oyanır. Diz üstə dikəlib özünü toxtatmağa çalışır. Bu zaman dövrəsindəkilər onu sorğu-suala tuturlar:

– A Kosa gəldiyin hardan bəridir?
– Şərurdan.
– Nə gətirdin ordan?
– Alma.
– Almanı neylədin?
– Satdım.
– Pulunu neylədin?
– Öküz aldım.
– Öküzü neylədin?
– Saqqalımın yeli yarğandan uçurdu.

Belə deyib Kosa ağlamsınır. Adamlar gülüşüb bir səslə:

Bu dərd səni yandırır,
Bu dərd səni öldürür.
Düşmənləri üstünə
Güldürür, ay güldürür...

Belə deyib Kosa bir də yıxılıb bayılır. Yenə üzünə su atıb bir ağızdan oxuyurlar:

Başın sağ olsun Kosa,
Canın sağ olsun Kosa.
Arşın uzun, bez qısa,
Kəfənsiz ölməz Kosa.

Kosa ayağa qalxıb üz-gözünü əcayib hala sala-sala oynayır. Oyun boyu çömçəsini qabağa uzadıb pay istəyir:

Qurbanın olum yaşıl çuxalı,
Qonaq gəlirəm çillə çıxalı,
Nabat, noğul, badam ver gəlsin,
Yeyim dizlərimə kar gəlsin.

Adamlar Kosanın ətrafında dövrə vura-vura ona atmaca atırlar.

A kos-kosa gəlmisən,
Vaxtında meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.

Kosa: – Getmərəm, ağa, getmərəm.
Yenə dövrəsindəkilər:

Beş yumurta payındı
Əskiyini almayasan.
Xurcunu yaxşı doldur,
Əli boşda qalmayasan.

Kosa: – Qalmaram, ağa, qalmaram.
Bundan sonra yenə də Kosa: "Kosanın payın verin, balın verin, yağın verin", – deyə-deyə çəkməsini irəli tutub əyləncəli tərzdə oynayır. Dövrəsindəkilər əl çala-çala növbəylə oxuyurlar:

Birinci adam:

Mənim kosam oynayır,
Gör necə dingildəyir.
Ona qulaq asanın,
Qulağı cingildəyir.

İkinci adam:

Mənim Kosam canlıdı,
Qolları mərcanlıdı,
Qarnına əl vurmayın,
Kosam ikicanlıdı.

Üçüncü adam:

Köhnə motal başında,
Qələm oynar qaşında.
Yüz əlli beş yaşında,
Gör nə cavandı kosam.

Yer-yerdən Kosaya pay verib xurcununu doldururlar. Yığdığı payların çoxluğunu görəndən sonra Kosanın kefi lap kökəlir. Başlayır çırtıq çalıb oynamağa. O, oynadıqda dövrəsindəkilər bir ağızdan deyirlər:

Kosam bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar bayram düyüsün,
Payızda toyun eylər.

Kosa oynaya-oynaya oxuyur:

Azanı, ay azanı,
Doldur gətir qazanı.
Payını artıq verin,
Yola salın Kosanı.

Kosa qabaqda, arxasınca da dövrəsindəkilər oxuya-oxuya, oynaya-oynaya meydandan çıxırlar:

Ay kos-kosa, kos-kosa,
Saqqalı yoldurma gəl,
Xurcunu doldurma gəl,
Xonça-nabatın bizdə –
Novruz oldu, durma gəl...

Kos-kosa

Bayram günlərində cavanların və uşaqların ən sevdiyi və çox yayılmış oyunlardan biri də "Kos-kosa"dır. Cavanlar bir yerə toplaşırlar. Bir nəfər zirək və hazırcavab oğlana tərsinə kürk geyindirirlər, üzünü möhkəm-möhkəm unluyur, başına bir uzun motal papaq qoyur, ayaqlarının altına ayaq formasında ağac sarıyırlar. Boynuna zınqırov salır, paltarının altından qarnına yastıq bağlayır, bir çömçəni qırmızı bəzəyib əlinə verir və qapı-qapı gəzdirib oynadaraq pay toplayırlar. Kosanı gəzdirənlər bu mahnını oxuyurlar.

Ay kos-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.
Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu,
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar bayram xonçası,
Hər yerdə düyün eylər.

Novruz-novruz bahara,
Güllər-güllər nübara,
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun,
Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun,
Xanım dursun ayağa,
Kosaya pay versin ağa.

Mərmər hovuzun dörd qırağında,
Bülbüllər oxur şax budağında,
Hər nə istəsəm xudadan allam,
Dəllək dükanın yadıma sallam,
Dəllək dükanı tamam çıraqban,
Nağara çalıb kəsərik qurban.

Qurbanın olum, yaşıl çuxalı,
Dərbəndli isən, yoxsa buralı?
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun,
Evdəkilər sağ olsun,
Xanım, ayağa dursana,
Kosaya pay versənə.

Mahnı qurtaran kimi kosa "kosa öldü", – deyib yerə yıxılır. Bu zaman ona aşağıdakı kimi suallar verib cavab alırlar:

– Kosa hardan gəlirsən?
– Dərbənddən.
– Nə gətirmisən?
– Alma.
– Almanı neylədin?
– Öküz aldım.
– Öküzü neylədin?
– Vurdum öldü.

Kosanın bu sözündən sonra yoldaşları birlikdə bu mahnını oxuyurlar:

Başın sağ olsun, kosa,
Ərşin uzun, bez qısa,
Kəfənsiz ölməz kosa.

Bundan sonra da kosaya çoxlu suallar verib cavab alırlar və mahnı oxuyurlar:

Bazarda həsir, Məlik Salmanı,
Göydə yel əsir, Məlik Salmanı,
Kosam tələsir, Məlik Salmanı,
Bazarda üzüm, Məlik Salmanı,
Nimçəyə düzüm, Məlik Salmanı,
Bir ala gözüm, Məlik Salmanı,
Kosanı tez yola sal,
Onun ürəyini al,
Qoy desin salamat qal!

Ev yiyəsi yerindən gec dursa, oyunçular ağız-ağıza verib deyirlər:

Ay kos-kosa gəlmisən,
Gəlmisən meydana sən,
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Olmaya almayasan.
Mənim kosam oynayır,
Gör necə dingildəyir,
Ona qulaq asanın
Qulağı cingildəyir.
Mənim kosam canlıdı,
Qolları mərcanlıdı,
Kosama əl vurmayın,
Kosam iki canlıdı.
Əmiri börk başında,
Qələm oynar qaşında,
Yüz əlli beş yaşında,
Lap, lap cavandı kosam!

Mahnıdan sonra kosaya pay verirlər. Oyunçular kosanı o biri evə aparırlar. Belə-belə bütün evləri gəzir, yığdıqları şeyləri düzəltdikləri evə gətirir, şənlik keçirirlər.

Sonra iki nəfər kosa olur. Hərəsinin qarnına bir yastıq bağlayırlar. Əllərinə isə yekə ağac verirlər. Keçi donuna salınmış bir adamı ortaya çıxarırlar. Keçinin yanında bir adam da olur. Kosalardan biri bu adama deyir:

– Qardaş bu keçini satırsanmı?

– Satıram.

– Neçəyə verirsən?

– Yayda lopuğa, qışda topuğa.

– Yaxşı, razıyıq, yayda gəlib lopuğunu alarsan, qışda da topuğunu.

Kişi keçini kosalara verib gedir. Kosalardan biri deyir:

– Keçi mənimdi.

O biri deyir:

– Yox, mənimdi.

Bunların davası düşür, bir-birinin qarnına ağacla budamağa başlayırlar. Hansı kosanın qarnına ağac dəyirsə, o yerə yıxılıb yenə ayağa qalxır. Başları çarpışmağa qarışanda keçi qaçır. Kosalar birdən baxıb keçini görmürlər. Ondan-bundan keçini soruşurlar, gördüm deyən olmur. Yerə oturub ağız-gözlərini gülməli şəklə salıb ağlayırlar (oyun burada gülüşmə içində sona çatır).

Xanbəzəmə

(Naxçıvan variantı)

Yeddiləvin günü sübh tezdən hamı böyük bir meydana yığışır. Şənlik başlanır. Cəngi havaları altında zorxanalar qurulur. Pəhlivanlar üz-üzə dayanıb meydanın qızışmasını gözləyirlər. Meydanı dövrəyə almış adamlar pəhlivan güləşindən əvvəl bu nəğməni oxuyurlar:

İki iyid çıxdı meydana,
İkisi də bir-birindən mərdana.
Həzrəti-həmzə pirimiz,
Aradıq tapdıq bir-birimiz.
Əl başda, diz yerdə,
Güləşəyim düz yerdə.
Dərələr axar,
Əqrəb tək çaxar.
Əlini yana sıxınca,
Zorba nəri yıxınca,
Alta düşüncə sırma,
Çox irəlidə durma.
Dəvə fəndi qutludu,
Nər oğullar umudludu.
Haqqış-haqqış,
Bərk yapış.
Əldən çıxdı,
Topuqdan yapış.
Biz deyərik maşallah,
Siz deyin bərəkallah.
Maşallah deyənin gözünə nur,
Maşallah deməyənin gözünə kül.

Güləş başlanır. Pəhlivanlar güləşib qurtarandan sonra zorxana yığışdırılır. Bu dəfə oynaq, məzəli havalar çalınır. Meydana kosa çıxır.

Kosa tərsinə kürk geyinmiş hazırcavab adamdı. Başında uzun motal papaq, ayağında taxta başmaq var. Boynundan zınqırov sallanır. Paltarı-

nın altından qarnına yastıq bağlayıb. Əlində bəzəkli qırmızı çömçə adamların arasında gəzir. Adamlar bir ağızdan belə oxuyurlar:

Ay kosa-kosa, gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.
Ay uyruğu-uyruğu.
Saqqalı it quyruğu.
Kosam bir oyun eylər,
Quzunu qoyun eylər.
Yığar bayram xonçası
Hər yerdə düyün eylər.
Novruz-novruz baharı
Güllər-güllər nübarı,
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun,
Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun.
Xanım, ayağa dursana,
Kosaya pay versənə.

Mahnı qurtaran kimi kosa yıxılır. Guya ölür. Bu zaman onunla belə söhbət edirlər

– Ay kosa gəldiyin hardan bəridi?
– Şərurdan
– Nə gətirdin ordan?
– Alma.
– Almanı neylədin?
– Satdım
– Pulunu neylədin?
– Öküz aldım
– Öküzü neylədin?
– Vurdum öldü.

Kosanın başına yığışanlar bir ağızdan deyirlər:

Başın sağ olsun kosa
Ərşin uzun, bez qısa
Kəfənsiz ölməz kosa

Kosa üz-gözünü əcayib hala salıb min cür hoqqa çıxardır. Çömçəsini qabağa uzadıb pay istəyir. Adamlar onu dolaya-dolaya oxuyurlar:

Ay kosa-kosa gəlmisən,
Lap vaxtında meydana sən.
Almayınca payını,

Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Əskiyini almayasan...
Mənim kosam oynayır,
Gör necə dingildəyir.
Ona qulaq asanın,
Qulağı cingildəyir.
Mənim kosam cannıdı
Qolları mərcannıdı
Kosama əl vurmayın,
Kosam iki cannıdı.
Qələm oynar qaşında,
Yüz əlli beş yaşında
Gör nə cavandı kosam.

Hamı kosaya pay verir. Kosa yenə gülməli oyunlar çıxarıb adamları əyləndirir. Bundan sonra ağsaqqallardan biri ortaya çıxıb, meydana yığılanlara üzünü tutub deyir:

– Camaat, bu gün bir xan seçməliyik. Xan gərək qaş-qabaqlı, sözü ötkəm adam olsun. Ona bir vəzir, bir vəkil, üç fərraş, bir də bir vəkil seçib verin.

Adamlar yer-yerdən deyirlər:

– Xanımız olsun başmaqçı Mərdan.

– Vəzirimiz də körükçü Əli olsun.

– Çayçı Mahmudu vəkil seçək.

– Fərraşlığa Qara Xudayar yaxşıdı.

– Biri də Çavuş ələmdar olsun.

– Qurd Bağırdan da yaxşı fərraş olar.

– Cəlladlıq elə əzəldən Qəssab Tağının boyuna biçilib.

– Olsun, olsun.

Xanı təmtəraqla meydanın yuxarı başında qurulmuş taxtda oturdurlar. Vəzir-vəkil də gəlib taxtın sağ-solunda əyləşir. Yaraqlı-yasaqlı fərraşlar xanın hüzurunda əmrə müntəzir dayanırlar. Cəllad qırmızı libas geyib, əlində balta meydanın aşağı başında gözləyir. Xan gözlənilməz əmrlər verir, adamları da onun buyuruqlarını can-başla yerinə yetirirlər. Kosayla təlxək də tez-tez meydana girib xanı güldürməyə çalışır. Min bir hoqqadan sonra xanı güldürüb taxtdan yendirir, aparıb suya basırlar.

UŞAQ FOLKLORU

LAYLALAR

Laylay dedim yat bala,
Yuxuna şəkər qat bala,
Ümidim bircə sənsən,
Boya-başa çat bala.

Laylay dedim ağlama,
Ürəyimi dağlama,
Böyü bir qoç igid ol,
Mənə ümid bağlama.

Baxçamızda miyana,
Gül sünbülə dayana.
Oxu, bülbülüm, oxu,
Bəlkə balam oyana.

Laylay dedim yatınca,
Gözlərəm ay batınca,
Zara, amana gəldim,
Sən hasilə çatınca.

Laylay dedim boyunca,
Baş yastığa qoyunca,
Yat külüm, yatağında,
Baxım sənə doyunca.

Bir gül əkdim boyunca,
İyləmədim doyunca,
Ömrüm, günüm uzansın
Bu balamın toyunca.

Evində, eşiyində,
Yat quzum beşiyində,
Dan ulduzu, bir də mən
Durmuşuq keşiyində.

Qurban aran, dağ sənə,
Güllü bağça, bağ sənə.

A laylay, oğlum, laylay,
Tutmuşam qaymaq sənə.

Laylay çaldım həmişə,
Karvan enər enişə,
Yastığında gül bitsin
Döşəyində bənövşə.

Boya-buxuna dol, gəz,
Boynuma dola qol, gəz,
Cavanlar sirəmində,
Sən də bir igid ol gəz.

Oxşasın dilim səni,
Böyütsün elim səni,
Meydanda at oynadan
Bir igid bilim səni.

A laylay, yenə laylay,
Can deyim, sənə laylay,
Sənə gələn dərd-bəla
Qoy gəlsin mənə laylay

A laylay, balam, laylay,
Alınmaz qalam laylay
Sənə kəc baxanları,
Yandırsın nalam laylay.

A laylay, bəyim laylay,
Gözəl-göyçəyim laylay,
Qürbət ölkə, yad eldə,
Arxa, köməyim laylay.

Laylay, beşiyim laylay,
Evim, eşiyim laylay,
Sən yat şirin yuxuda,
Çəkim keşiyin laylay.

Laylay hər kəsim laylay,
Sənə nər kəsim laylay,
Yat yuxun şirin olsun,
Ucalsın səsim laylay.

Laylay maralım laylay,
Gəlmir qəralım laylay.
Böyü bir qoç igid ol,
Sənə yar alım laylay.

A laylay, quzum laylay,
Ayım, ulduzum laylay,
Sən hasilə çatınca.
Hər dərdə dözüm laylay.

Laylay, bülbülüm laylay,
Sarı sünbülüm laylay,
Baxçalarda kül çoxdur,
Bir qızıl gülüm laylay.

A laylay, gülüm laylay,
Gülüm, sünbülüm laylay.
Böyü sənin sayəndə
Mən də bir gülüm laylay.

Mənim gül butam oğul,
Ətrinə batam, oğul,
Bir arzum var ürəkdə,
Sənə toy tutam, oğul.

Laylay balam, can balam,
Mən sənə qurban balam,
Ağlayıban könlümü
Gəl eyləmə qan balam.

Laylay balam, gül balam,
Sən mənim sünbül balam,
Laylayıma yatasan,
Oyatsın bülbül balam.

Yol üstə bulaq ollam,
Axaram bulaq ollam,
Sən mənim öz balamsan,
Özüm göz-qulaq ollam.

Qərənfiləm qalxaram,
Açılmağa qorxaram,
Gecə cınqırın çıxsa,
Yerimnən dik qalxaram.

Laylay dedim, can dedim,
Yuxudan oyan dedim,
Sən yuxudan durunca,
Canımı qurban dedim.

Laylay dedim, yat dedim,
Yastığa baş at dedim,

Bala, çəkim nazını,
Boya-başa çat dedim.

Mən sənə qalam deyim,
Gül deyim, lalam deyim.
Yat, incitmə ananı,
Sağ olsun balam deyim.

Laylayım, sözüm qurban,
Qoç qurban, quzu qurban,
Hər səhər üzün görsəm.
Kəsərəm quzu qurban.

Laylay dedim yatasan,
Qızıl gülə batasan,
Qızıl gülün içində
Şirii yuxu tapasan.

Balamı tanıram mən,
Hər sözün qanıram mən,
Yuxuda ah çəkəndə,
Od tutub yanıram mən.

Xırdacasan, məzəsən,
Sən hər güldən təzəsən,
Qurban olum o günə,
Ayaq tutub gəzəsən.

Laylay dedim biləsən,
Düşməyəsən dilə sən,
Boya-buxuna çatıb,
Oynayasan, güləsən.

Məni oyaq qoyan sən,
Qızıl gülə boyan sən,
Öpüm qara gözündən,
Bəsdir yatdın, oyan sən.

İgid qalasın istər,
Dağın lalasın istər,
Mən balamı istərəm,
Balam, balasın istər.

Qoxusu güldən gəlir,
Güldən, bülbüldən gəlir,
Balamın gül beşikdə
Yuxusu birdən gəlir.

NAZLAMALAR

Balama qurban inəklər,
Balam haçan iməklər.

Balama qurban ilanlar,
Balam haçan dil anlar.

Balama qurban sərçələr,
Balam nə vaxt əl çalar.

Balama qurban ağ atlar,
Balam haçan çay atlar.

Balama qurban xalası,
Balam qızıl parası.

Balama qurban meyvələr,
Balam haçan evlənər.

Balama qurban daylaqlar,
Balam haçan oynaqlar.

Dağda darılar,
Sünbülü sarılar.
Qoca qarılar
Bu balama qurban.

Dağda çobanlar,
Qoyun sağanlar,
Qaçdı yağışdan,
Durdu yatanlar.
Bu balama qurban,
O balama qurban.

Dağın maralı.
Gözlər qaralı,
Ovçu görəndə
Qalmaz qaralı.
O balama qurban,
Bu balama qurban.

Dağdakı atlar,
Quyruğun qatlar,
Göyçək arvadlar
Bu balama qurban.

Çaydakı qazlar,
Tükün tarazlar,
Nişanlı qızlar
Bu balama qurban.

Bir bölük atlar,
Çəməndə otlar,
Ərsiz arvadlar,
Bu balama qurban.

A dağdağanlar,
Bülbül boğanlar,
Oğlan doğanlar
Bu balama qurban.

Dağda meşəlik,
Gül, bənövşəlik.
Mən həmişəlik
Bu balama qurban.

Ağardı başım,
Yoxdu sirdaşım,
Qohum-qardaşım
Bu balama qurban.

Dağda inəklər,
Otdar, iməklər,
Xonçalı bəylər
Bu balama qurban.

Göydə ulduzlar,
Şaxtalı buzlar,
Cehizsiz qızlar
Bu balama qurban.

Tüstüsüz damlar
Sarı badamlar,
Tənbəl adamlar
Bu balama qurban.

Çaydır, dənizdir,
Quldur, kənizdir,
Balam hər nədir
Mənə əzizdir.

Çəkdim cəfasın,
Kördüm vəfasın,
Böyüdüm onu
Sürüm səfasın.

Tükəndi ahım,
Yoxdur günahım,
Balam böyüsün
Odur pənahım.

Gördüm nalasın,
Çəkdim bəlasın,
Balam da istər
Körpə balasın.

Oğul ürəkdir,
Qızıl dirəkdir,
Götrün saxlayın
Qıza gərəkdir.

Qız bir maraldır,
Gözdə qaraldır,
Həsrət çəkənin
Rəngin saraldır.

Badam badamı,
Oğlan adamı,
Qoy elçi gəlsin
Alsın qadamı.

Ay qız adamı,
Sındır badamı,
Elçiyə çay ver
Alım qadanı.

Mən çalım oyna
Qurban boyuna,
El-oba kəlsin
Sənin toyuna.

Süd dibi, qaymaq dibi,
Qurbanın olsun bibi.
Süd yala, qaymaq yala,
Qurbanın olsun xala.
Bir dənəsən, bir dənə,
Qurbanın olsun nənə.

Güzgüdə düymə,
Tozunu silmə,
Xonçada tirmə
Gələr qızımçün.

Mahmanat bağı,
Yaşıl yarpağı,
Qızıl bel bağı
Gələr qızımçün.

Nübar yanağı,
Gəzər oynağı,
Bir cüt qolbağı
Gələr qızımçün.

Hər yana gözük,
İlqarda düzük,
Brilyant üzük
Gələr qızımçün.

Altında xalça,
Çalır kamança,
On dənə xonça
Gələr qızımçün.

Ağmaya əllər,
Belində kəmər,
Qızıl düymələr
Gələr qızımçün.

Dağlarda ceyran,
Bu qıza qurban,
On xara tuman,
Gələr qızımçün.

Əlində var dəf,
Üstündə sədəf,
Bir zərli örpək
Gələr qızımçün.

Göydə gedən qaz,
Dimdiyi almaz,
Bir dənə naz-naz
Gələr qızımçün.

Heyvası, narı,
Əlimin barı,
On sap mirvari
Gələr qızımçün.

Yolun gedir dolama,
Gəlir bizə salama,
Obalar qurban olsun
Mənim bircə balama.

Dağların lalasına.
Gözlərin qarasına,
Analar qurban olsun
Öz körpə balasına.

Atım-tutum mən səni,
Şəkərə qatım mən səni,
Dədən evə gələndə,
Qabağa tutum mən səni.

Balamın əl yaylığı,
Ortası zər yaylığı,
Hərə bir dəfə desin
Balama can sağlığı.

Əlində var hanası,
Qulağında tanası,
Bir toyunu görəydim,
Olaydım bəy anası.

Tuluq səni asaydım,
Yağın tasa basaydım,
Oğlum böyük olanda
Qulplu qazan asaydım.

Çalxan-çalxan yağ olsun,
Balam yeyib sağ olsun.
Qızılgül bağım olsun,
Bağlar oylağım olsun.
Tanrıdan arzum budur.
At minən çağın olsun.

Şan bağlayan arılar,
Qonar gülə, sarılar,
Balama qurban olsun
Yaşı ötmüş qarılar.

Öldüm ahunun dərdindən,
İncir, qaxının dərdindən.
Arvadlar oğlan doğur
Mənim qızımın dərdindən.

Alı qızı, aldıra qızı,
Xara tuman aldıra qızı,
Əsmə çarşaf aldıra qızı.
Qızıl qolbaq aldıra qızı,
Dikdaban çəkmə aldıra qızı.

Göydəki quşlar, bu balama qurban
Yağan yağışlar, bu balama qurban,
Kişnəyən atlar, bu balama qurban,
Sonsuz arvadlar, bu balama qurban,
Həyətdə itlər, bu balama qurban.
Meşədə quşlar, bu balama qurban.

Ay allah bundan üç dənə ver,
Üç dənə vermə, beş dənə ver,
Həsrətin çəkmişlərə ver,
Alı-gülü solmuşlara ver.

Çapan çalan əlləri,
Ağrımasın qolları,
Ağrısa da ağrısın,
Özgələrin əlləri.

Şamaxının Çuxur yurdu,
Ellər alaçığın qurdu.
Təzə gəlin sübhdən durdu,
Oğlun aldı, laylay çaldı.

Qarabağın yaylağında,
Şəkinin güllü bağında,
Təzə gəlin sübh çağında
Oğlun alır, laylay çalır.

A tanrı bundan beş dənə ver,
Göydən uçan quşdara ver,
Qarımış, qocalmışdara ver,
Evində qalmışdara ver.

Sınıq qol ha, sınıq qol,
Aş bişirər sınıq qol,
Su daşıyar sınıq qol,
Odun yarar sınıq qol,
Yazı yazar sınıq qol.

Ağ əllər, ağ biləklər,
Bağçada qar kürəklər,
Eşidər atası gəlir
Gah yerir, gah imək lər.

CIRNATMALAR

Başa-başa
Dırnaq daşa,
Siz savaşa
Biz tamaşa.

Süm əkə, süm əkə,
Sümbülüm əkə,
Nallı xoruz,
Çullu təkə.

Alı, alı
Dımdım Alı,
Saqqalına mindim Alı,
Bazara getdim, bazar yox,
Şəhərə getdim, şəhər yox,
Çömçə itib, qazan yox.

Bu gələn arıxdımı,
Əynindəki çarıxdımı,
Altında qotur yabı,
Böyründə nöyüt qabı
Nə minibsən çərrəmişi,
Baldırların qırıxdımı.

Göydə nə var?
Göy mıncığı
Yerdə nə var?
Yer mıncığı.
Anan nə bişirib?
Halvacıq.
Götür məni dalacıq.

Uca dağ başında kürsü qoymuşam,
Ət alıb kürsüdə şorba qoymuşam,
Şorba qaynadı,
Əmiqızı yandı.

Hədiydi, hüdüydü,
Sənin yerin gədiydi.
Ala başına, kül başınat
Əttaxtasın vur başına.

Gəl gedək bağa
Mən də, mən də
Çıxaq budağa,
Mən də, mən də.
Şaftalı yığaq,
Mən də, mən də.
Bağban gəlsin,
Mən də, mən də.
İtə qışqırsın,
Mən də, mən də.
İt mənə hürsün,
Mən də, mən də.

Nərgizə bax, nərgizə,
Qurd kəlib boynun üzə.
Götürə qaça Təbrizə.
Təbrizin ağacları
Bar kətirməz başları,
Ağa dayımın quşları,
Tökülüb qabaq dişləri.

Bizə üç ad bəllidi,
Şəkərlidi, ballıdı.
Əli, Vəli, Pirvəli
Üçü ondan irəli,
Pambıqatan, qozsatan,
Rəhmətlig sənin atan,
Bir də bu köndələn yatan.

Fatma, Zibeydə,
İkisi bir boyda.
Fatma dalaşdı,
Zibeydə qaşdı,
Barıdan aşdı,
Çarxa dolaşdı,
Təndirə düşdü.

Fatma təndirdə
Əl-ayağı kəndirdə
Fatma biçində
Qan tər içində,
Cırıqdır donu,
Neynirəm onu.

Zibeydə çöldə,
Ayağı göldə.
Başı dumanlı,
Köhnə tumanlı,
Əli süpürgəli,
Saçı sirkəli.
Yanı itdi,
Yaxası bitdi,
Fənadı sonu,
Neynirəm onu.

Tükəzban yatır,
Qız demə, qatır.
Xor-xor xoruldar,
Qur-qur quruldar.
Gözləri miş-mişi
Yanağı bişmişi.

Əlləri fətir
İstəyir xətir.
Ayağı kəndir,
Nəfəsi təndir.
Dili bir ərşin,
Burnu bir sajin,
Ömrü axırdı,
Axırı naxırdı,
Belə söylərəm,
Onu neylərəm.

Keçəl, keçəl, daz keçəl,
Hər yanda pərvaz keçəl.
Qış gəlib qurtarmısan,
Budu gəlir yaz, keçəl.
Keçəl, keçəl, mərəndi,
Qolları düymələndi,
Eşitdi saçlı gəlir
Başına kül ələndi.

Keçəl, keçəl, noxudu keçəl,
Başı-gözü qoxulu keçəl.

Keçəl, keçəl, mərəndə,
Arpa, buğda sərəndə
Bir arpanı beş eylər,

Yeddi qazan aş eylər.
Gəlin, yığılaq başına,
Zəhər qataq aşına.

Keçəl, başın şişibdi,
Noxudların bişibdi.
On iki keçəl bir yerdə
Xorta-xorta düşübdü.

Keçəlin xondu başı,
Eşşəyə mindi başı,
O yanda dava düşdü,
Bu yanda sındı başı.

Tat, tat,
Talvar altda yat.

Pəpilli fərə,
Çıxma divara,
Çalağan vurar
Qallam avara.

Tağı, Tağı,
Tuman bağı,
Göydə vurur,
Mayallağı.

Şərəbanı,
Şəqqabanı.
İki əli
Bir dabanı.

Gəlirdi Səfi
Əlində dəfi.
Səfi yıxıldı,
Dəfi cırıldı,
Ağlama Səfi,
Alaram dəfi.

Ay Ramazan,
Başı qazan,
Oxloy atar
Qarnı batar.

Xumara bax, Xumara,
Çox xoşlanır tumara,
Özünə bir tay seçib
O da qurşanıb qumara.

Hasan, Hasan,
Halva basan,
Toyuğu qoyub
Cücəni basan.

Saat birin yarısı,
Yumurtanın sarısı.
– Əmi hara kedir?
– Qarabağa kedirəm.
– Qarabağda nəyin var?
– Bir oğlum, bir qızım var.
– Oğluna nə almısan?
– Oğluma at almışam.
– Qızına nə almısan?
– Qızıma sap almışam.

Tağı, Tağı,
İtirib bağı.
Hey axtarır,
Yağ çırağı.

Ay Tağı, Tağı,
Tapginən sağı,
Çək çarığı
Qırılsın bağı.

Əli əlimdən gəlir,
Əlimin içindən gəlir.
İçinin içindən gəlir,
İçində də bir noxud
Onun içindən gəlir.

Ay Zərbəli, Zərbəli,
İti boşla gəl bəri.

Həsəndi, ha Həsəndi,
Başı yerindən əsəndi.
Yolları su basıbdı
İndi qapı kəsəndi.

Keçəl, keçəl banıya,
Mindi quleybanıya,
Sürdü divanxanıya.
Keçəl deyər vay başım,
Qazanda qaynar aşım.
Aşımı içən olmadı,
Başımı biçən olmadı.

Keçəl, keçəl, daz keçəl,
İşləri nasaz keçəl.
Keçəl mindi danıya,
Sürdü divanxanıya,
Divanxana bağlıdı,
Keçəlin başı yağlıdı.

Ay Asiya, Asiya,
Qaşığı saldı kasıya,
İstədim mənə vermədi,
Satdı bir abbasıya.

Ay Xəlil, Xəlil,
Bağlardan gəlir.
Quş vuran yerdə
Olasan zəlil.

Ay Rza, Rza,
Çıxasan yaza.
Toyuq tapmasan,
Minəsən qaza.

Ay Dursun, Dursun, Dursun,
Öküzüm səni vursun.

Oğlumun adı Əlidi,
Ağıllı deyil, dəlidi.

Dadaş, Dadaş
Şalvarı yaş
On iki lavaş
Bir qazan aş
Onu yeməsən təpənə daş.

ÖCƏŞMƏLƏR, SATAŞMALAR

Deyinən abı!
– Abı!
– Get yala qabı.

Deyinən ağ!
– Ağ
– Ürəyinə çəkim dağ.

Deyinən ağa!
– Ağa!
– Dırmaşasan dağa.

Deyinən ağıl!
– Ağıl!
– Özünçün danış nağıl.

Deyinən ağır!
– Ağır!
– Belin olsun yağır.

Deyinən ağrı!
– Ağrı!
– Yarılsın qardaşın bağrı.

Deyinən ad!
– Ad!
– Dostun olsun sənə yad.

Deyinən adam!
– Adam!
– Ağzına badam.

Deyinən az!
– Az!
– Get özünə qəbir qaz.

Deyinən azan!
– Azan!
– Başına keçsin qazan.

Deyinən ay!
– Ay!
– Oldun ayıya tay.

Deyinən ayaz!
– Ayaz!
– Ağlın olsun dayaz.

Deyinən ayğır!
– Ayğır!
– Çıx dama hayqır.

Deyinən ayna!
– Ayna!
– Meymun ol oyna.

Deyinən al!
– Al!
– Boynuna torba sal.

Deyinən alaq!
– Alaq!
– Boynuna ip salaq.

Deyinən alan!
– Alan!
– Belinə qoyum palan.

Deyinən alaca!
– Alaca!
– Boyun qalsın balaca.

Deyinən almaz!
– Almaz!
– Cibində pul qalmaz.

Deyinən alma!
– Alma!
– Ağzına dolma.

Deyinən alça!
– Alça!
– Başına dəysin dolça.

Deyinən aman!
– Aman!
– Çıxarasan yaman.

Deyinən ana!
– Ana!
– Ağzın batsın qana.

Deyinən and!
– And!
– Başına bağlayım bant.

Deyinən arə!
– Ara!
– Canına düşsün yara.

Deyinən aran!
– Aran!
– Başına yağsın boran.

Deyinən arıq!
– Arıq!
– Başına dəysin çarıq.

Deyinən arı!
– Arı!
– Get dənlə darı.

Deyinən arpa!
– Arpa!
– Görüm belin sərpə.

Deyinən arsız!
– Arsız!
– Bağın qalsın barsız.

Deyinən at!
– At!
– Get dərədə yat.

Deyinən ata!
– Ata!
– Əlinə biz bata.

Deyinən atıl!
– Atıl!
– Mal ol bazarda satıl.

Deyinən axır!
– Axır!
– Ağzına tökülsün çaxır.

Deyinən ahıl!
– Ahıl!
– Adın oldu cahıl.

Deyinən açar!
– Açar!
– Dost-tanış səndən qaçar.

Deyinən aş!
– Aş!
– Gözündən axsın yaş.

Deyinən aşıq!
– Aşıq!
– Ağzına sınıq qaşıq.

Deyinən baba!
– Baba!
– Qarnına batsın yaba.

Deyinən badam!
– Badam!
– Dəysin sənə qadam.

Deyinən baz!
– Baz!
– Düz yolundan az.

Deyinən bayır!
– Bayır!
– Qıçlarına dolaşsın çayır.

Deyinən bal!
– Bal!
– Qabı əlindən sal.

Deyinən bala!
– Bala!
– Dost-tanışdan qal dala.

Deyinən baldız!
– Baldız!
– Əlinə batsın çuvaldız.

Deyinən baldır!
– Baldır!
– Get şələni qaldır.

Deyinən balıq!
– Balıq!
– Saxlasın səni xalıq.

Deyinən balış!
– Balış!
– Gecə-gündüz çalış.

Deyinən balta!
– Balta!
– Boynuna keçirim xalta.

Deyinən bardaq!
– Bardaq!
– Başına uçsun çardaq.

Deyinən barış!
– Barış!
– Boyun olsun bir qarış.

Deyinən barmaq!
– Barmaq!
– Boynuna keçsin qarmaq.

Deyinən batı!
– Batı!
– Boynuna salım çatı.

Deyinən bahar!
– Bahar!
– Yeməyəsən nahar.

Deyinən baca!
– Baca!
– Rast olasan aca.

Deyinən bacı
– Bacı!
– Yeməyin olsun acı.

Deyinən baş!
– Baş
– Əkil burdan yavaş-yavaş.

Deyinən bez!
– Bez!
– Sürüş burdan tez.

Deyinən belə!
– Belə!
– Düşəsən selə.

Deyinən beçə!
– Beçə!
– Altına salım keçə.

Deyinən beş!
– Beş!
– Yıxılıb olasan leş.

Deyinən beşik!
– Beşik!
– Qulağın olsun deşik.

Deyinən bəbə!
– Bəbə!
– Altına salım gəbə.

Deyinən bəbir!
– Bəbir!
– Qazım sənə qəbir

Deyinən bəzək!
– Bəzək!
– Ağzına təzək.

Deyinən bələk!
– Bələk!
– Gəldim sənə kələk.

Deyinən bəm!
– Bəm!
– İçib olasan dəm.

Deyinən bibi!
– Bibi!
– Yeyəsən qazan dibi.

Deyinən bir!
– Bir
– Get toyuq hininə gir.

Deyinən birə!
– Birə!
– Tez keçəsən girə.

Deyinən bitki!
– Bitki!
– Uzaq olmasın səndən itki.

Deyinən bığ!
– Bığ!
– Get küçədən zibil yığ.

Deyinən boy!
– Boy!
– Tutum sənə toy.

Deyinən boz!
– Boz!
– Üst-başın olsun toz.

Deyinən boyun!
– Boyun!
– Başına açılsın oyun.

Deyinən buz!
– Buz!
– Ağzına sürtüm duz.

Deyinən bulama!
– Bulama!
– Barmağına çıxsın dolama.

Deyinən vaza!
– Vaza!
– Qismət olasan daza.

Deyinən vay!
– Vay!
– Dilinə çıxsın pay.

Deyinən val!
– Val!
– Ayağına vurum nal.

Deyinən var!
– Var!
– Yerin olsun dar.

Deyinən vaxt!
– Vaxt!
– Altından sökülsün taxt.

Deyinən vəziyyət!
– Vəziyyət!
– Ket, vermə bizə əziyyət.

Deyinən vəlvələ!
– Vəlvələ!
– İşlərin düşsün get-gələ.

Deyinən vəsmə!
– Vəsmə!
– Əlini işdən kəsmə.

Deyinən qağa!
– Qağa!
– Bax sola-sağa.

Deyinən qada!
– Qada!
– İşin düşsün yada.

Deyinən qaz!
– Qaz!
– Adını qara dəftərə yaz.

Deyinən qaya!
– Qaya!
– İşlərin qaldı gələn aya.

Deyinən qayın!
– Qayın!
– Burda yoxdur sənin tayın.

Deyinən qaynaq!
– Qaynaq!
– Çalağan vursun sənə caynaq.

Deyinən qal!
– Qal!
– Get qonşudan payını al.

Deyinən qalın!
– Qalın!
– Yıxıl qalmasın halın.

Deyinən qaltaq!
– Qaltaq!
– Adın oldu yaltaq.

Deyinən qan!
– Qan!
– Nə desələr dan.

Deyinən qapaq!
– Qapaq!
– Başına qapaz yapaq.

Deyinən qapı!
– Qapı!
– Başına dəysin balta sapı.

Deyinən qar!
– Qar!
– Əlindən düşsün nar.

Deyinən qara!
– Qafa!
– Ayağına çıxsın yara.

Deyinən qarmaq!
– Qarmaq!
– Gözünə girsin barmaq.

Deyinən qarğa!
– Qarğa!
– Qapını döysün darğa.

Deyinən qatar!
– Qatar!
– Aparsın səni tatar.

Deyinən qatır!
– Qatır!
– Közüm sənçün atır.

Deyinən qələm!
– Qələm!
– Qabağına töküm kələm.

Deyinən qəlib!
– Qəlib!
– Nazlı bizə gəlib.

Deyinən qəmzə!
– Qəmzə!
– Keçəl olub Həmzə.

Deyinən qəpik!
– Qəpik!
– Oyna, çalım çəpik.

Deyinən qərəz!
– Qərəz!
– Qabaqına qoyum çərəz.

Deyinən qəti!
– Qəti!
– Get ye donuz əti.

Deyinən qiymə!
– Qiymə!
– Yaxanda yoxdu düymə.

Deyinən qırğı!
– Qırğı!
– Görünür şalvarın cırığı.

Deyinən qovaq!
– Qovaq!
– Gəl, qulağını ovaq.

Deyinən qoyun!
– Qoyun!
– Oldun əyriboyun.

Deyinən quzu!
– Quzu!
– Get ye buzu.

Deyinən qul!
– Qul!
– Çatmaz sənə pul.

Deyinən dabaṇ!
– Daban!
– Adın oldu qaban.

Deyinən dava!
– Dava!
– Başına gəlsin hava.

Deyinən daz!
– Daz!
– Əlindən düşməsin saz.

Deyinən day!
– Day!
– Get, qoyunları say.

Deyinən dar!
– Dar!
– Üstünə yağsın qar.

Deyinən darı!
– Darı!
– Qocalıb olasan qarı.

Deyinən daşqın!
– Daşqın!
– Hər işdə olasan çaşqın.

Deyinən dələ!
– Dələ!
– Gəlməmisən ağla hələ.

Deyinən dələmə!
– Dələmə!
– Kiri, qoyun kimi mələmə.

Deynən dəmir!
– Dəmir!
– Sür-sümük gəmir.

Deyinən dəhrə!
– Dəhrə!
– Get, əyir cəhrə.

Deyinən dilim!
– Dilim!
– Toxu mənimçün kilim.

Deyinən dinar!
– Dinar!
– Gəl, qapıma ək çinar.

Deyinən diri!
– Diri!
– Otur yerində kiri.

Deyinən dişi!
– Dişi!
– Səndən olmaz kişi.

Deyinən dığır!
– Dığır!
– Qaç o yan-bu yana çığır.

Deyinən dovğa!
– Dovğa!
– Lap olmusan lovğa.

Deyinən dovşan!
– Dovşan!
– Get, daşı yovşan.

Deyinən doqquz!
– Doqquz!
– Başına dəysin toppuz.

Deyinən doğan!
– Doğan!
– Ağzına acı soğan.

Deyinən doğru!
– Doğru!
– Adın oldu oğru.

Deyinən dolğun!
– Dolğun!
– Üzün olsun solğun.

Deyinən don!
– Don!
– Doqquzu say, gözlə on.

Deyinən donqar!
– Donqar!
– Get daşı yonqar.

Deyinən doxsan!
– Doxsan!
– Bu gün varsan, sabah yoxsan.

Deyinən döyüş!
– Döyüş!
– Gələn-gedənlə söyüş.

Deyinən döl!
– Döl!
– Otur yerində öl.

Deyinən dörd!
– Dörd!
– Get qapını ört.

Deyinən duda!
– Duda!
– Batıb qalasan suda.

Deyinən dul!
– Dul!
– Olasan mənə qul.

Deyinən düz!
– Düz!
– Düş ortada süz.

Deyinən eyvan!
– Eyvan!
– Get otar heyvan.

Deyinən eyni!
– Eyni!
– İtib bunun beyni.

Deyinən el!
– El!
– Aparsın səni sel.

Deyinən əda!
– Əda!
– Adın oldu gəda.

Deyinən əzəl!
– Əzəl!
– Get süpür xəzəl.

Deyinən əyal!
– Əyal!
– Aparsın səni xəyal.

Deyinən əymə!
– Əymə!
– Bütövü kəsmə, paraya dəymə.

Deyinən əkə!
– Əkə!
– Bəyirib ol təkə.

Deyinən əlli!
– Əlli!
– İşlərin oldu bəlli.

Deyinən əmir!
– Əmir!
– Başına dəysin dəmir.

Deyinən əmlik!
– Əmlik!
– Get mənimçün yığ yemlik.

Deyinən əncir!
– Əncir!
– Boynuna salım zəncir.

Deyinən əsa!
– Əsa!
– Başına vurum kasa.

Deyinən ətək!
– Ətək!
– Dəyəcək sənə kötək.

Deyinən ətənə!
– Ətənə!
– Get yığ çətənə.

Deyinən əhəng!
– Əhəng!
– Belinə sarıyım səhəng.

Deyinən zaval!
– Zaval!
– Get çal qaval.

Deyinən Zalxa!
– Zalxa!
– Get yalvar xalxa.

Deyinən zəlil!
– Zəlil!
– Adın oldu Cəlil.

Deyinən zirək!
– Zirək!
– Al əlinə kürək.

Deyinən zoğal!
– Zoğal!
– Əlindən düşsün qoğal.

Deyinən zurna!
– Zurna!
– Adın oldu Durna.

Deyinən züyçü!
– Züyçü!
– Goplama a küyçü.

Deyinən iynə!
– İynə!
– İşin düşsün düyünə.

Deyinən iki!
– İki!
– Sürünə-sürünə çıx bu diki.

Deyinən il!
– İl!
– Başmaqlarımı sil.

Deyinən ilmə!
– İlmə!
– Boş-boşuna gülmə.

Deyinən inci!
– İnci!
– Cırılıb cibin küncü.

Deyinən it!
– İt!
– Qismətindi küt.

Deyinən iş!
– İş!
– Ağzında qalmasın diş.

Deyinən yaba!
– Yaba!
– Başın girsin qaba.

Deyinən yağ!
– Yağ!
– Gözünə gəlsin ağ.

Deyinən yazı!
– Yazı!
– Çoxu saxla, apar azı.

Deyinən yay!
– Yay!
– Qalmadı sənə pay.

Deyinən yaylaq!
– Yaylaq!
– Vursun səni daylaq.

Deyinən yal!
– Yal!
– Gözünə düşsün xal.

Deyinən yalan!
– Yalan!
– Belinə basım palan.

Deyinən yamaq!
– Yamaq!
– Niyə oldun damaq?

Deyinən yara!
– Yara!
– Get pırpız saçını dara.

Deyinən yasaq!
– Yasaq!
– Qulağına sırğa asaq.

Deyinən yasdı!
– Yasdı!
– Bit yaxanı basdı.

Deyinən yaxşı!
– Yaxşı!
– Adın oldu Baxşı.

Deyinən yaş!
– Yaş!
– Başına dəysin daş.

Deyinən yaşar!
– Yaşar!
– Danışma dilin çaşar.

Deyinən yeyin!
– Yeyin!
– Səhərdən axşamacan deyin.

Deyinən yel!
– Yel!
– Əlinə al bel.

Deyinən yeni!
– Yeni!
– Get təmizlə hini.

Deyinən yeşik!
– Yeşik!
– Şalvarın dalı deşik.

Deyinən yod!
– Yod!
– Əllərini yandırsın od.

Deyinən yonca!
– Yonca!
– Sürün yol boyunca.

Deyinən yorğa!
– Yorğa!
– Cibinə töküm qovurğa.

Deyinən yorğun!
– Yorğun!
– Nə gəzirsən oğrun-oğrun.

Deyinən yox!
– Yox!
– Ürəyinə dəysin ox.

Deyinən yuva!
– Yuva!
– Ağlına yazım duva.

Deyinən yun!
– Yun!
– Üstünə səpilsin qum.

Deyinən yurd!
– Yurd!
– Qulağına girsin qurd.

Deyinən yüz!
– Yüz!
– Gölməçədə üz.

Deyinən yürüş!
– Yürüş!
– Tez burdan sürüş.

Deyinən kal!
– Kal!
– Başına örtüm şal.

Deyinən kalan!
– Kalan!
– Evinə düşsün talan.

Deyinən karlı!
– Karlı!
– Olmayasan varlı.

Deyinən kasa!
– Kasa!
– Ket yanını basa-basa.

Deyinən kasa!
– Kasa!
– Sən öl, mən gəlim yasa.

Deyinən key!
– Key!
– O yan-bu yana ləhlə hey.

Deyinən kələ!
– Kələ!
– Qurum sənə tələ.

Deyinən kələk!
– Kələk!
– Toyuq olub tökəsən lələk.

Deyinən kəlçə!
– Kəlçə!
– Başın olub nimçə.

Deyinən kəltə!
– Kəltə!
– Başına bağla şəltə.

Deyinən kərə!
– Kərə!
– Verim səni ərə.

Deyinən kəhər!
– Kəhər!
– Belinə qoyum yəhər.

Deyinən kilim!
– Kilim!
– İtəsən ilim-ilim.

Deyinən köz!
– Köz!
– Nə desələr döz.

Deyinən göy!
– Göy!
– Yaxşını qoy, yamanı öy.

Deyinən küt!
– Küt!
– Paltarın itsin, qalasan lüt.

Deyinən gavalı!
– Gavalı!
– Olasan başı havalı.

Deyinən lələ!
– Lələ!
– Bassın səni şələ.

Deyinən ləpə!
– Ləpə!
– Üstünə torpaqdan vurum təpə,

Deyinən lotu!
– Lotu!
– Bayıra çıxma, evdə otu.

Deyinən maya!
– Maya!
– Başına uçsun qaya.

Deyinən mala!
– Mala!
– Get bürün şala.

Deyinən maraq!
– Maraq!
– Saçın körməsin daraq.

Deyinən maral!
– Maral!
– Başına keçirim xaral.

Deyinən mat!
– Mat!
– Düş göldə bat.

Deyinən maşa!
– Maşa!
– Başın dəysin daşa.

Deyinən meşə!
– Meşə!
– Ayağını kəssin şüşə.

Deyinən məzə!
– Məzə!
– Köynəyin qalsın təzə.

Deyinən mələk!
– Mələk!
– Başına açım kələk.

Deyinən mələfə!
– Mələfə!
– Başın keçdi kələfə.

Deyinən mən!
– Mən!
– Toyuqlara səp dən.

Deyinən mənə!
– Mənə!
– Canına daraşsın gənə.

Deyinən mərə!
– Mərə!
– Verim səni ərə.

Deyinən mərz!
– Mərz!
– Get bağla dərz.

Deyinən məstan!
– Məstan!
– Ək özünə bostan.

Deyinən miyan!
– Miyan!
– Get qaynat tiyan.

Deyinən min!
– Min!
– Nə danış, nə din.

Deyinən miskənə!
– Miskənə!
– Əlini kəssin iskənə.

Deyinən mığmığa!
– Mığmığa!
– Evinə düşsün dığdığa.

Deyinən molla!
– Molla!
– Başına qapaz zolla.

Deyinən mum!
– Mum!
– Gözünə səpim qum.

Deyinən nabat!
– Nabat!
– İşlərin oldu babat.

Deyinən navalça!
– Navalça!
– Oyna çalım qavalça.

Deyinən naqqal!
– Naqqal!
– Adın oldu çaqqal.

Deyinən nağdı!
– Nağdı!
– Bir gözün qara, bir gözün ağdı.

Deyinən naz!
– Naz!
– Get, qapımda torpaq qaz.

Deyinən nazla!
– Nazla!
– Oyna ördəklə, qazla.

Deyinən naib!
– Naib!
– Yazıldı sənə qaib.

Deyinən nalan!
– Nalan!
– Sözlərin hamısı yalan.

Deyinən narın!
– Narın!
– Tükənsin varın!

Deyinən naxır!
– Naxır!
– Gözün əyri baxır.

Deyinən naçaq!
– Naçaq!
– Evindən düşəsən qaçaq.

Deyinən naçar!
– Naçar!
– Qapını şeytanlar açar.

Deyinən naşı!
– Naşı!
– Get dəmlə aşı.

Deyinən neçə!
– Neçə!
– Banlama, a xoruz-beçə.

Deyinən nəvə!
– Nəvə!
– Tapdasın səni dəvə.

Deyinən nəzər!
– Nəzər!
– Bizim it sizin həyətdə gəzər.

Deyinən nəm!
– Nəm!
– Gecə-gündüz çəkəsən qəm.

Deyinən nizə!
– Nizə!
– Sabahdan gəlmə bizə.

Deyinən nimçə!
– Nimçə!
– Başına dəysin çömçə.

Deyinən nisyə!
– Nisyə!
– Başın keçsin kisəyə.

Deyinən nırx!
– Nırx!
– Gəl bizim iti qırx.

Deyinən nov!
– Nov!
– Get, toyuq-cücə qov.

Deyinən noğul!
– Noğul!
– Oyanma, yat, ay oğul.

Deyinən nur!
– Nur!
– Bizdən uzaqda dur!

Deyinən nökər!
– Nökər!
– Gözün qan-yaş tökər.

Deyinən ov!
– Ov!
– Bostandan quşları qov.

Deyinən oğul!
– Oğul!
– Qovut ye, boğul.

Deyinən ozan!
– Ozan!
– Oldun sinifdə lövhə pozan.

Deyinən oyaq!
– Oyaq!
– Payını yeyib doyaq.

Deyinən oyma!
– Oyma!
– Başına papaq qoyma.

Deyinən oyum!
– Oyum!
– Gəl, dərini soyum.

Deyinən oyun!
– Oyun!
– Pencəyi saxla, köynəyi soyun.

Deyinən onluq!
– Onluq!
– Get, al mənə donluq.

Deyinən ordu!
– Ordu!
– Görək kim kimi yordu.

Deyinən orta!
– Orta!
– Nə gəlirsən yorta-yorta.

Deyinən otur!
– Otur!
– Canına düşsün qotur.

Deyinən oxlu!
– Oxlu!
– Susma, danış çoxlu.

Deyinən oxu!
– Oxu!
– Sənə verdim azın, mənə qaldı çoxu.

Deyinən öymə!
– Öymə!
– İşin pisdi, başına döymə.

Deyinən öyüt!
– Öyüt!
– Üstünə səpərəm nöyüt.

Deyinən ölü!
– Ölü!
– Dolan düzü, çölü.

Deyinən paz!
– Paz!
– Keçəl daza edir naz.

Deyinən pay!
– Pay!
– Heç kəs səsinə verməz hay.

Deyinən papaq!
– Papaq!
– Səni itirək, dostunu tapaq.

Deyinən para!
– Para!
– Dodağına çıxsın yara.

Deyinən parta!
– Parta!
– Lovğa gəlir darta-darta.

Deyinən paxır!
– Paxır!
– Ağzının suyu axır.

Deyinən paşa!
– Paşa!
– Ayağın ilişsin daşa.

Deyinən peşə!
– Peşə!
– Qulaqların olub şeşə.

Deyinən pəri!
– Pəri!
– Başına səri dəri.

Deyinən pətək!
– Pətək!
– Başına səpim qum bir ətək.

Deyinən pir!
– Pir!
– Üst-başın olsun kir.

Deyinən pul!
– Pul!
– Ol mənə qul.

Deyinən rasta!
– Rasta!
– Döy başuva asta-asta.

Deyinən rəzil!
– Rəzil!
– Ayaq altda əzil.

Deyinən Rəşid!
– Rəşid!
– Birin de, birin eşit.

Deyinən savaş!
– Savaş!
– Təndir sal, bişir lavaş.

Deyinən saqqal!
– Saqqal!
– Sənin adın naqqal.

Deyinən sağ!
– Sağ!
– Gözünə çəkim dağ.

Deyinən saz!
– Saz!
– Payın oldu az.

Deyinən sazan!
– Sazan!
– Oldun qara qazan.

Deyinən say!
– Say!
– Oldun danaya tay.

Deyinən saya!
– Saya!
– Ataram səni çaya.

Deyinən sayğı!
– Sayğı!
– Çəkəsən qayğı.

Deyinən sarğı!
– Sarğı!
– Buduna batsın qarğı.

Deyinən sarımsaq!
– Sarımsaq!
– Adın oldu qurumsaq.

Deyinən saxsı!
– Saxsı!
– Otur evdə qaxsı.

Deyinən saxta!
– Saxta!
– Belinə yükləyim taxta.

Deyinən saç!
– Saç!
– Dur burdan qaç!

Deyinən saçaq!
– Saçaq!
– Yurdundan düşəsən qaçaq.

Deyinən sac!
– Sac!
– Qarnın qalsın ac.

Deyinən sel!
– Sel!
–Əlindən düşməsin bel.

Deyinən səkil!
– Səkil!
– Qaç burdan, əkil.

Deyinən səmənd!
– Səmənd!
– Başına salım kəmənd.

Deyinən səmər!
– Səmər!
– Gəl, belimə bağla kəmər.

Deyinən səs!
– Səs!
– Tez ol, səsini kəs.

Deyinən sətir!
– Sətir!
– Başına səpim ətir.

Deyinən səfa!
– Səfa!
– Çəkəsən cəfa.

Deyinən səhər!
– Səhər!
– Boğsun səni qəhər.

Deyinən siz!
– Siz!
– Gözünə batırım biz.

Deyinən sinə!
– Sinə!
– Toyuqlarla gir hinə.

Deyinən sığır!
– Sığır!
– Vurum, yerində çığır.

Deyinən soy!
– Soy!
– Barmağınla gözünü oy.

Deyinən solmaz!
– Solmaz!
– Nə yesən qarnın dolmaz.

Deyinən son!
– Son!
– Bayırda qal, şaxtada don.

Deyinən Sona!
– Sona!
– Başına hacıleylək qona.

Deyinən soraq!
– Soraq!
– Əlini kəssin oraq.

Deyinən söz!
– Söz!
– Nə desələr döz.

Deyinən sözsüz!
– Sözsüz!
– Qalasan gözsüz!

Deyinən söyüd!
– Söyüd!
– Gəl, sənə verim öyüd.

Deyinən sulama!
– Sulama!
– Bişir mənə bulama.

Deyinən suluq!
– Suluq!
– Qarnın olsun tuluq.

Deyinən sumaq!
– Sumaq!
– Başın olsun yumaq.

Deyinən süzgün!
– Süzgün!
– Canın olsun üzgün.

Deyinən sütül!
– Sütül!
– Təndirə düş ütül.

Deyinən tabaq!
– Tabaq!
– Quzuların olsun dabaq.

Deyinən tava!
– Tava!
– Başına gəlsin hava.

Deyinən tavan!
– Tavan!
– Yağın dağılsın, xörəyin qalsın yavan.

Deyinən talan!
– Talan!
– Nə demisən hamısı yalan.

Deyinən taxıl!
– Taxıl!
– Sən oldun paxıl.

Deyinən taxça!
– Taxça!
– Başına qoyum boxça.

Deyinən tac!
– Tac!
– Çörək qurtarsın, qalasan ac.

Deyinən təkan!
– Təkan!
– Tapmayasan məkan.

Deyinən tərə!
– Tərə!
– Nə boylanırsan, qulağı kərə?

Deyinən tirmə!
– Tirmə!
– Bayırda dur, içəri girmə.

Deyinən toz!
– Toz!
– Başına dəysin kənək qoz.

Deyinən topçu!
– Topçu!
– Adın oldu gopçu.

Deyinən tülək!
– Tülək!
– Aparsın səni külək.

Deyinən tütün!
– Tütün!
– İşlərin olmasın bütün.

Deyinən uyu!
– Uyu!
– Qaz özünə dərin quyu.

Deyinən üç!
– Üç!
– İşlərin olsun puç.

Deyinən fal!
– Fal!
– Ayağına vurum nal.

Deyinən fələk!
– Fələk!
– Fələk gəlsin sənə kələk.

Deyinən xala!
– Xala!
– Qalasan hamıdan dala.

Deyinən xara!
– Xara!
– Üzün olsun qara.

Deyinən xaç!
– Xaç!
– Get qapını aç.

Deyinən xəzan!
– Xəzan!
– Çıx damda ver əzan.

Deyinən xıra!
– Xıra!
– Ayaqların yapışsın qıra.

Deyinən harın!
– Harın!
– Keçmə qabağa, a yekəqarın.

Deyinən həmlə!
– Həmlə!
– Oturma, dur çay dəmlə.

Deyinən həftə!
– Həftə!
– Ağzına keçirim cəftə.

Deyinən hilli!
– Hilli!
– Üzün olsun çilli.

Deyinən hovuz!
– Hovuz!
– Adını qoydum Tovuz.

Deyinən çaqqal!
– Çaqqal!
– Olasan kosasaqqal.

Deyinən çaqqal!
– Çaqqal!
– Böyüyüb olasan baqqal.

Deyinən çağa!
– Çağa!
– Qaç burdan, girmə bağa.

Deyinən çağa!
– Çağa!
– Ağız-burnun batsın yağa.

Deyinən çal!
– Çal!
– Çörəyi yedim, sənə qaldı yal.

Deyinən çaxmaq!
– Çaxmaq!
– Sən oldun axmaq.

Deyinən çəlik!
– Çəlik!
– Aldatdım səni, papağı dəlik.

Deyinən çəngəl!
– Çəngəl!
– Başına açılsın əngəl.

Deyinən çiyid!
– Çiyid!
– Dəyirmanda dənimi üyüd.

Deyinən çiçək!
– Çiçək!
– Bezdən sənə şalvar biçək.

Deyinən çuxa!
– Çuxa!
– Gəl bizdə bişir yuxa.

Deyinən cavan!
– Cavan!
– Çörəyin olsun yavan.

Deyinən cam!
– Cam!
– Nə danışırsan xam-xam.

Deyinən cecə!
– Cecə!
– Gündüzü qoy, oyna geçə.

Deyinən cəfa!
– Cəfa!
– Sürməyəsən səfa.

Deyinən civə!
– Civə!
– Pay olasan divə.

Deyinən cilov!
– Cilov!
– Get, at dənizə tilov.

Deyinən cırıq!
– Cırıq!
– İşlərin oldu fırıq.

Deyinən cod!
– Cod!
– Ağzına sürtüm yod.

Deyinən cüyür!
– Cüyür!
– Gedənin dalınca yüyür.

Deyinən cümə!
– Cümə!
– Nə fırlanırsan, quyruğu lümə?

Deyinən cüssə!
– Cüssə!
– Bassın səni qəm-qüssə.

Deyinən cücə!
– Cücə!
– Yük altında düşəsən gücə.

Deyinən şal!
– Şal!
– Saqqalın olsun çal.

Deyinən şəvə!
– Şəvə!
– Get, otar dəvə.

Deyinən şər!
– Şər!
– Dəysin sənə çər.

Deyinən şəst!
– Şəst!
– İçib olasan məst.

Deyinən şitil!
– Şitil!
– Vurram qalarsan mitil.

DÜZGÜLƏR, OYUN NƏĞMƏLƏRİ

Üşüdüm ha, üşüdüm

Üşüdüm ha, üşüdüm,
Dağdan alma daşıdım.
Almacığımı aldılar,
Mənə cürüm verdilər.
Mən cürümdən bezaram,
Dərin quyu qazaram.
Dərin quyu beş keçi,
Hanı bunun erkəci?
Erkək qaya başında,
Hay elədim gəlmədi,
Çiyid verdim yemədi.
Çiyid qazanda qaynar,
Qənbər bucaqda oynar,
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qamışdı,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tat mənə darı verdi,
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.

Üşüdüm hay, üşüdüm

(Cənubi Azərbaycan variantı)

Üşüdüm hay, üşüdüm,
Dağdan alma daşıdım.
Almacığımı aldılar,
Məni zülmə saldılar.
Mən zülümdən bezaram,
Dərin quyu qazaram.

Dərin quyu beş keçi,
Hanı bunun erkəci?
Erkək qazanda qaynar,
Qənbər yanında oynar,
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı deyil, qamışmış,
Beş barmağı gümüşmüş.
Gümüşü verdim tata,
Tat mənə darı verdi.
Darını səpdim quşa,
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa,
Haqq qapısın açmağa.
Haqq qapısı kilidli,
Kilidi dəvə boynunda,
Dəvə Gilan yolunda.
Gilan yolu suludu,
Suda balıq doludu.
Gilan yolu sərbəsər,
İçində meymun gəzər.
Meymunun balaları
Məni görcək ağladı,
Ürəyimi dağladı.

A teşti

A teşti, teşti, teşti,
Vurdum Gilanı keçdi.
İki xoruz dalaşdı,
Biri qana bulaşdı.
Qan getdi çaya düşdü,
Çaydan göyərçin uşdu.
Göyərçin alabaxta,
Yuvası qəlbi taxta.
Görüm onu kim vursa,
Qan qussun laxta-laxta.

A vəlli-vəlli-vəlli

A vəlli-vəlli-vəlli,
Naxır gəlir dörd əlli.
Nənəm sağar gətirər.

Pişik başın batırar,
Pişik kimin pişiyi,
Xan evinin pişiyi.
Xan evinin nəyi var,
Çala-çuxur çayı var.
Dağa çıxan atı var,
Göy mıncıqlı iti var,
Qoyunlarda südü var,
Altı batman əti var.
Xan qızı kilim toxur,
İçində bülbül oxur.
Ondan böyük qardaşı,
Ustad kalamın oxur.

A teşti-teşti

A teşti, teşti, teşti,
Ağacdan alma düşdü.
Almanın yanı zədə,
Zədəni yeməz gədə.
Çoban çöldə gəzirdi,
Davarların düzürdü.
Çoban qoyuna gedər,
Köpəyi adam didər.
Qabağında üç keçi,
Hanı bunun erkəci.
Erkəc qazanda qaynar,
Qənbər bucaqda oynar.
Qənbər getdi oduna,
Qarğı batdı buduna.
Qarğı demə, qamışdı,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata.
Tat mənə darı verdi,
Darını səpdim yerə,
Darı bitib göyərə.
Yerdən darı göyərdi.
Biçinçi gəldi dərdi,
Biçinçi Həzrətqulu,
Cibində vardı pulu.
Həzrətqulu bənnadı,
Arvadını dannadı.
Arvadı Cahanbanı,
Bunun çarşabı hanı?

Çarşabı cırılıbdı,
Qolbağı qırılıbdı.
Çarşabını yamama,
Cahan gedib hamama.
Hamamın suyu isti,
İsti su da nə pisdi.
Telpəri onun qızı,
Paltarları qırmızı.
Oğlunun adı Xıdır,
Əlindəki dəhrədir.
Xıdır bəyin dəhrəsi,
Telpərinin cəhrəsi.
Cəhrə demə, əsasdı,
Dəhrə demə, almasdı.
Telpəri yunu darar,
Xıdır bəy odun yarar.

Ha dəşti-dəşti

(Cənubi Azərbaycan variantı)

Ha dəşti-dəşti-dəşti,
Vurdum Gilanı keşdi.
İki xoruz əlləşdi,
Biri qana bulaşdı.
Qan getdi çayda düşdü,
Çaydan göyərçin uşdu.
Göyərçinin filfili,
Gəl oxu bizim dili.
Bizim dil urum dili,
Urmudan gələn atlar,
Heyvan açcəyin çatlar.
Heyvanı götürənlər,
Şahıma yetirənlər,
Şahım şahlar içində,
Qılıncı qan içində.

Turşulu aş içmərəm

Turşulu aş içmərəm,
Darvazadan keçmərəm.
Darvaza mənim olsun,
Qırmızı donum olsun.

Geyim gedim Təbrizə,
Təbrizdə toyum olsun.
Qızlar gəlsin toyuma,
Qurban olsun boyuma.

Yağış yağar

Yağış yağar, yağa-yağa,
Ulduz düşər bizim bağa.
Kəlin kedək oynamağa,
Oynamağın vaxtı deyil.
Qızılgülün taxtı deyil,
Qızılgülü əkərlər,
Məxmər üstə sərərlər.
Gəlmə bizim Dərbəndə
Sənlə məni əkərlər.

Havalan ha, havalan

Havalan ha, havalan,
Havalandıq uçmağa.
Haqq qapısın açmağa.
Qanadımız üzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə,
Buğdaları dərincə,
Qoca başı kəsdilər,
Qındırqandan asdılar.
Qındırğa qılıq yağı,
İçində qurd-quş yağı.
Qurd-quş yağı dərmandı,
Canım sənə qurbandı.
Yoldaşlar hamı getdi,
Oyunlar burda bitdi.

Yüz altın bir quş idi

Bağdan çıxdım işıq idi,
Cənkəsi dolu qaşıq idi.
Qız süpürər toz eylər,
Oğlan qıza göz eylər,

Oğlan qızın xatını,
Boynunda yüz altını,
Yüz altın bir quşmuş,
Dəryaya qonmuşmuş,
Şah oğlu körmüşmüş,
Oxnan vurmuşmuş.
Ox məndən hezar bezar,
Kətan köynəklər yazar,
Kətan köynək mil-mili,
Gəl, oxu bizim dili.
Bizim dil "urmu" dili,
Urmudan gələn atlar,
Arpanı yeyər çatlar.
Arpanı kötük yedim,
Şahıma şirvan dedim.
Şahım Şirvan içində,
Qılıncı qan içində.
Məndən kiçik qardaşlar,
Oynar meydan içində.

Bu meşə başdan-başa

Bu meşə başdan-başa fındığı meşə,
Od yanar, dəmir qızar, ördək üzər.
Ördəyi bağlamağa ipək gərək,
Yar ilə oynamağa ürək gərək.
Yar mənə alma verib almamışam,
Atımı çöl-dərədə bağlamışam.
Çöl-dərədən bir qız çıxdı,
Əlində polad qayçı, məxmər biçir.
Bu hərəm kiminkidir?
– Həsən bəyin.
Atına arpa verin kişnəməsin,
İtinə sümük verin dişləməsin.

Alnı mina cidası

Alnı mina cidası,
At minib çapasım gəlir.
Qaşları qələm qarası,
Ərizə yazasım gəlir.
Gözləri qaynar bulaq,
Əyilib içəsim gəlir.

Burnu meşə fındığı,
Qırıb yeyəsim gəlir.
Üzləri lop alması,
Dərib gətirəsim gəlir.

Çağırır

Qızımı, qız dostları
Oynamağa çağırır,
Bağa bir camış girib,
Qoylamağa çağırır.
Dayısı yemiş alıb,
Paylamağa çağığır.
Qardaşı gül gətirib,
Bağlamağa çağırır.

Hamanı, ay hamanı

Hamanı, ay hamanı,
Hanı balamın tumanı?
Tumanı ağac başında,
Dayısıgilin tuşunda,
Ağac gətirin endirək
Eşşək gətirin mindirək.
Dayısıgilə göndərək.
Dayısı üzünə baxmasa,
Özümüzü daşa döndərək.

Usubdu

Usubdu ha usubdu,
O kişi mənim dostumdu.
Getdi Gilana, gəlmədi,
Yaylığım aldı, vermədi.
Yaylığımın ucu qara,
Yolladım İmamyara.
İmamyarı öldürdülər,
Ağ şala geydirdilər.
Ağ şalın saçaqları,
Zil qara bucaqları,
Vurdum, sandıq açıldı,
İnci, mərcan saçıldı.

İnci, mərcan fil-fili,
Kəl, oxu bizim dili.
Bizim dil Urmi dili.
Urumdan gələn atlar,
Ağzında yüyən çatlar.
Heyvanın ağacları,
Bar gətirməz başları,
Vurdum başı üzüldü,
El yaylağa düzüldü.
El yaylaqdan gəlincə,
Yarı canım üzüldü.

Kəsibdi

Əlimi bıçax kəsibdi,
Dəstə bıçax kəsibdi;
Yağ gətirin, yağlayaq,
Bal gətirin, ballayaq,
Dəsmal gətirin bağlayaq.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu lil bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birisin üzəydim,
Tellərimə düzəydim,
Qardaşımın toyunda
Oturub-durub süzəydim.
Çay daşıbdır, sel gəlir,
Dəstə-dəstə gül gəlir.
O gülün birin üzəydim,
Saç bağıma düzəydim.
Saç bağım qatar-qatar.
Üstündə qardaş yatar.
Qardaşın əl yaylığı,
Ucları zər yaylığı,
Hərə bir ağız desin,
Qardaşa can sağlığı.
Hop-hopun olsun, qardaş!
Gül topun olsun, qardaş!
Dəyirman üstü çiçək,
Oraq gətir, gəl biçək.
Qardaş, nişanlın gördüm,
Uzunboy, qarabirçək.

Oğlum

Ay afərin, gül oğlum,
Gül oğlum, sünbül oğlum,
Oğlum, oğlum, naz oğlum,
Dərsindən qalmaz oğlum.
Qələmini al ələ,
Yaxşı-yaxşı yaz, oğlum.
Oğlum gedər məktəbə,
Oxur, çatır mətləbə.
Dərsin oxur, rəvanlar.
Nə oxuyubdur, anlar.
Daş üstə çiçək qazar,
Məşqini göyçək yazar.
Mənim oğlum candı, can.
Dərslərin oxur rəvan,
Gümüşdəndir dəvatı.
Qələmi var beş-altı.
Qələmdanı şəkilli,
Qələmi xallı-milli.
Dəftəri var tərtəmiz,
Kitabı ondan əziz.
Kağızları rəngbərəng,
Oğlum, gətir yaz, görək.
Oğlum səhərdən durar,
Əl-üzün təmiz yuyar.
Üzünə gülab vurar,
Saçın, birçəyin darar.
Paltarını təmizlər,
Məktəbə göyçək gedər.
Oğlumun adı Əziz,
Üstü-başı tərtəmiz.
Oğlum hər kəsi görər,
Baş əyib salam verər.
Oğlum küçədə qaçmaz,
Heç kəs ilə savaşmaz,
Oğlum itə daş atmaz,
Atıb günaha batmaz.
Quşlara etməz azar,
Quşların da canı var.
Pişikləri heç vurmaz,
Sərçələrə tor qurmaz.
Ay afərin, gül oğlum,
Gül oğlum, bülbül oğlum.
Dərsin oxu, rəvanla,
Sonra danış, gül, oğlum!

Hamam hamam içində

Hamam hamam içində
Xəlbir saman içində,
Dəvə dəlləklik elər.
Köhnə hamam içində.
Qarışqa şıllaq atdı,
Dəvənin budu batdı.
Hamamçının tası yox,
Baltaçının baltası yox.
Orda bir tazı gördüm,
Onun da xaltası yox.
Künlərin bir günündə,
Məmmədnəsir tinində,
Göytəpənin belində,
Şah Abbas cənnətməkan,
Tərəziyə vurdu təkan,
İki qoz, bir girdəkan,
Milçək mindik, çay keçdik,
Yabaynan dovğa içdik.

Tülkü, tülkü

Tülkü, tülkü, tünbəki
Quyruq üstə lünbəki.
Aslan ala ağamız,
Qaplan qara qağamız,
Xoruz bizim mollamız,
Çaqqal bizim çavuşumuz.
Ala qarğa carçımız,
Sağsağan xəbərçimiz.
Toyuq bizim çərçimiz,
İlan bizim qəmçimiz.
Sarıbabada gəzərsən,
Sarı bığların burarsan
Bir çomaq vurram ölərsən,
Tülkü, tülkü, tülkü səni,
Öldürərlər bil ki, səni.
Tülkü, tülkü, tünbəki,
Quyruq üstə lünbəki.
Ayı axmaq, donuz toxmaq.
Qurd ulavuş,
Çaqqal çavuş.

İlan qamçı,
Tısbağa çanaq,
Biz ona qonaq.

Oxutdu

Atam məni oxutdu,
Qara saçım toxutdu.
Qara saçımın şeyvəsi.
Qızıldandır düyməsi.
Qızılları itirdim,
Var-yoxumu bitirdim.

Gəlin gedək Firəngə

Diri-diri diringə,
Gəlin gedək Firəngə.
Firəng zərgər məkanı,
İçi altun dükanı.
Dükanlarda ağçalar,
Dövrəsində baxçalar.
Baxçasında xan qızı,
Geyinibdi qırmızı.
Qırmızı donum ola.
Təbrizdə toyum ola.
Toyda qurşaq tutallar,
Həna, piltə satallar.
Hənanı tez yaxaydım,
Akuşkadan baxaydım.
Akuşkada oxuram,
Bəy corabın toxuram.

Qonşu qızı Püstədi

Qonşu qızı Püstədi,
Gümüş kəmər istədi.
Gümüş kəmər Gilanda,
Filan oğlu filanda.
Filanı ətəklədim,
Bal verib pətəklədim.

Pətək dolu arıymış,
Qanadları sarıymış.
Qanadlanıb uçdular,
Qap-bacanı açdılar.
Qap-bacalar qızılı,
Gümüş kəmər düzülü.
Düzülüdən götürdüm,
Qonşu qıza gətirdim.
Qonşu qızı Püstədi.
Əmri gözüm üstədi.

Bacadan baxan

Bacadan baxan dəvərə göz,
Biri kəhər, biri boz.
Mindim bozun belinə,
Çıxdım Urum yoluna.
Urum yolu azandı,
Mövlam yazı yazandı.
Yazı mələyin işi,
Küllü-küləyin işi.
Küllü-külək minaya,
Ucu ərşə dayana.
Dayanmasın neynəsin,
Saqqız alıb çeynəsin.
Saqqız satan çərçidi,
Çərçi nə çərənçidi!
Çərənçilər yığılsın.
Axça verək, dağılsın!

Nanay-nanay

Nanay-nanay nananı,
Geydi güllü tumanı.
Tumanı al qırmızı,
Başında şal qırmızı.
At gətirin mindirək,
Göy çəməndə endirək.
Çəməndə bitib mərzi.
Abbası verim xərclə.
Mahmudun toyun başla.

Tülkü-tülkü

Tülkü-tülkü tünbəki,
Quyruğunda nəlbəki.
Nəlbəkini atsana,
Kal armuda satsana.
Kal armudu dərmişəm,
Dərib yerə sərmişəm.
Yer dolusu gümüşdü,
Gümüş nədi – qəmişdi!
Qəmiş verim getginən.
Gözlərimdən itginən.

Pişik

Şir əl çəkib belimə,
Kim yapışar əlimə,
Arxam yerə qoyulmaz,
Dərim bərkdi soyulmaz.
Yüklər üstü yaylağım.
Sobaaltı qışlağım.
Gəlin verir qaymağı,
Qarı çalır quymağı.
Çöldə gəzmək bilirəm,
Suda üzmək bilirəm.
Mən muncuğu götürrəm,
Tez Yanığa yetirrəm.

Gəl sənə hannan deyim...

Gəl sənə hannan deyim.
Göhnə zamannan deyim.
Xəlbir samannan deyim,
Saman sandıq məkanı,
Yanı baqqal dükanı.
Dükan demə, yatırdı.
Müştərisi qatırdı.
Qatır qamış ottuyur,
Dörd qıçını qattıyır.
Qıç demə nizə kimi,
Burdan Təbrizə kimi!
Təbriz deyil, Sərabdı,
Sərabın hampaları
Tamam başdan xarabdı!

Bu dəvə hardan gəlib?

Bu dəvə hardan gəlib?
Qurtarıb dardan gəlib.
Saqqız verrəm, çeynəməz,
Qamçı vurram, oynamaz.
Hazır yəhər belində,
Durur Urum yolunda.
Urum yolu yastıdı,
Ərdəbilin üstüdü.
Gördüm yaman istidi,
İsti nədi, tüstüdü!
Tüstü məni üzməmiş,
Tez dəvəmi xıxıtdım.
Qanad taxıb uçurtdum.
Dəvəm gözün açınca,
Yeddi dağı keçirtdim.

Durun gedək bazara

Tülkü-tülkü tünbəki,
Quyruq üstə nəlbəki.
Aslan-ala ağamız,
Qaplan-qara qağamız.
Xoruz – bizim mollamız,
Çaqqal – başı zülləmiz.
Alaqarğa – xəbərçimiz.
Toyuq – bizim çərçimiz,
İlan – bizim qamçımız.
Durun gedək bazara,
Qorxan düşsün azara.

SANAMALAR

Çək əlin

Əl-ələ əlpənə,
Sən çalginən çəpənə,
Əldən çıxdı kəpənə
Şah, şüh, şaha baçı
Molla dedi çək əlin.

Sən çıx

Razi, ha balam, razi,
Tikib donunu dərzi.
Abbası verim xərclə,
Toyu təzədən başla.
Qarğa qur,
Sən çıx
Sən yerində dur.

Əmim oğlu

Əmim oğlu,
Uzun buğlu,
Haldırım dedi,
Huldurum dedi.
Göyə bir ağac atdı,
Kərki sapı,
Gül budağı.

Barmaqlar

Baş barmaq,
Başala barmaq.
Uzun hacı
Qıl turacı,
Xırdaca bacı.

Bu vurdu,
Bu tutdu
Bu bişirdi,
Bu yedi
Vay, bəbəyə qalmadı.

İynə, iynə

İynə, iynə
Ucu düymə.
Bal ballıca
Ballı keçi.
Şam ağacı,
Şatır keçi.
Qoz ağacı,
Qotur keçi,
Hoppan, huppan,
Yırıl, yırtıl,
Su iç qurtul.

Bəli, bəli

Bəli, bəli bətir keçi,
Qoz ağacı qotur keçi,
Haldırın dedim, huldurun dedim,
Happan, huppan, dağdan hoppan,
Yırıl, yırtıl, su iç qurtul.

Motal-motal

Motal-motal,
Tərsə motal.
Yağ atar,
Qaymaq tutar.
Ağ quşum,
Ağ arçınım,
Göy quşum,
Göyərçinim.
Qarğa qara,
Durna çala
Çilmə çilik,
Bircə əmlik

Qəmbər çarıq
Biz də varıq.
Əmrə qulu,
Yoxdu pulu.
Vur nağara,
Çıx qırağa.

Bir, iki

Bir,
İki,
bizimki.
Üç,
dörd,
qapını ört.
Beş, altı,
daşaltı.
Yeddi,
səkgiz,
Firəngiz.
Doqquz,
on,
qırmızı don.

Bir, iki

Bir, iki,
Bülbül təki.
Candan baha,
Başım dağa,

Hop-hop hoppan

Qızıl tap.
Kimsədə yox,
Məndə çox.
Mənsə bu gün,
Sünbülə gəldim.
Sünbüllər açmış
Zər-zəncəfil,
Dınğır, dınğır.
Sənsə çınqır.

Bir, iki

Bir, iki,
Bildirki,
Üç, dörd,
Qapını ört.
Beş, altı,
Daşaltı.
Altıda alma,
Yeddidə bölmə,
Səkgizdə sərçə,
Doqquzda dolça
Ona oraq,
On birə qonaq,
Pəppə qağa
Gəldi bizə
Təpiknən vurdum
Dombalaq uçdu.

Mırt, mırt

Mırt, mırt.
Adın nə?
– Balqabağ.
Evlənsənə?
– Gələn yox.
Dillənsənə?
– Qoyan yox.
İstəsənə?
– Verən yox.
Oynasana?
– Çalan yox.
– Yerin hara?
– Samanlıq.
– Saman yeginən.
– Qarnım tox.
– Onda çəkil,
– Gendən bax.

Qatar gedir

Qatar gedir sola, sağa,
Çınqıl düşür bizim dağa,
Əmim oğlu, Sultan ağa,

Gəlin gedək oynamağa,
Oynamağın vaxtıdı,
Qızılgülün taxtıdı,
Ix, nıx, çıx.

Əkil-bəkil

Əkil-bəkil quş idi,
Ağaca qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi;
Meydana salmış idi.
Meydanın ağacları,
Dən gətirir quşları.
Çəpər çəkdim, yol açdım,
Qızıl gülə dolaşdım.
Bir dəstə gül dərməmiş,
Nənəsi gəldi, mən qaçdım.

İki dənə, ha iki dənə

İki dənə, ha iki dənə,
İkidənə bir quş idi.
Ağaca qonmuş idi,
Bəy oğlu görmüş idi,
Oxuyla vurmuş idi,
Oxundan mən bezaram,
Kətan köynək yazaram.
Kətan köynək mil-mili
Mil-mili urum dili
Urumdan gələn atlar,
Ağzında ilan çatlar,
Çatını verdim quşa
Quş mənə qanad verdi.
Qanadlandım uçmağa
Haqq qapısın açmağa.

Bir, iki

Bir, iki dingildən,
Anasının ilkindən.
Çıxdım örük dalına,
Baxdım şəhər yoluna.

Gördüm gəlir on dəvə,
Mən birinə minmədim,
Ablamgilə gəlmədim
Ablam plov bişirmiş,
İçinə siçan düşmüş.
Siçan on beş yaşında,
Qızıl güllər başında.
Bu dolamdan kim çıxdı.
Qızıl saçlı qız çıxdı.

Sıradan çıx

Şap-şapım şappıldadı,
Atlar qaçıb tappıldadı.
Qoyunlarım qapıdadı
Olma qotur,
Sən otur.
Kürəyinə vurum mıx,
Tez ol, sən sıradan çıx.

Birə – birə

Birə – birə,
İkiyə – iynə.
Üçə – üzük,
Dördə – döşək,
Beşə – beşik,
Altıya – alma,
Yeddiyə – yemiş.
Səkkizə – sərçə,
Doqquza – dolça,
Ona – oraq
Yanına qonaq,
Gəlin gedək,
Həsən bəyin
Evin yaraq.

Ekli-mekli

Ekli-mekli,
Məhlə bicon.
Məhlə bicon
Dər bicon,

Alan bulan,
Şalan bulan
Pas.

Biri bizdə

Biri bizdə,
İkisi sizdə,
Üçü üzdə,
Dördü düzdə.
Beşi bəstə.
Altısı asta.
Yeddisi yüzdə,
Səkgizi səsdə.
Doqquzu dəstə,
Onu – sonu.
Başa vur çəkil,
Dur burdan əkil!

Əl, əl, əpənək

Əl, əl, əpənək,
Əldən çıxdı kəpənək.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
Yumurtalar hindədi,
Əldə durmaz gündədi.
Kündə təndir içində,
Təndir kəndir içində.
Kəndiri ver çərçiyə,
Çərçi satsın çəpiyə.
Çəpik çalan darğadı,
Burda duran qarğadı.

OYUNLAR

Qələndar

Qələndar oyununa hazır olan uşaqlar bir nəfəri oyun başçısı seçirlər. Oyun başçısı seçiləndən sonra uşaqları sıraya düzür və bir turna başda durana verirlər.

Özü nisbətən uca yerə çıxıb nəzərdə tutmuş bir quşu, ya bir heyvanı hərəkətləri ilə uşaqlara nişan verib söyləyir:

Bir quşum var buxartana,
Qələndar, ay qələndar.
Dimdiyi var buxartana,
Qələndar, ay qələndar.
Su içər buxartana,
Qələndar, ay qələndar.
Gözləri var buxartana,
Qələndar, ay qələndar.
Qanadları buxartana,
Qələndar, ay qələndar.

Başı mənim, ayağı sizin tapın görək. Uşaqlar növbə ilə çavab verməlidirlər. Hər kəs öz ağlına gələn bir şeyə oxşadar və deyər. Düz deməyən şəxs turnanı yanındakına verməlidir.

Hər kəs düz desə oyunun başçısı deyər: "palan"

O vaxt tapan turna ilə o biri uşaqları döyər. Əgər başçı desə "yalan" uşaqlar çalışırlar turnanı tapandan alsınlar və onu tutsunlar. O da çalışır ki, başçının yanına özünü çatdırsın. O, başçının yanına çatandan sonra oyunun dövrəsi qurtarır, təzədən oyun başlanır.

Usta şagird

Bu oyunda on-on beş nəfər uşaq iştirak edir. Onlardan biri usta olur. Usta uşaqlardan birini çağırıb əliylə gözünü bağlayır və bir nəfərə deyir gəlib onun dalından vursun.

Uşaq gəlib vurandan sonra astaca geri çəkilər. Sonra usta soruşar:

– Ay canım şakird, ay gözüm şakird, səni kim vurdu, kim gördü?

Şakird cavab verər:

– Ay canım usta, ay gözüm usta, məni o vurdu, siz gördüz.

Əgər düz desə usta deyər:

– Ay bərəkallah, yüz bərəkallah! Səni o vurdu, biz gördük. Sonra özgə bir uşağın gözlərini bağlar. Əgər düz deməsə usta deyər:

– Ay kor olasan səni. Bu vurdu, biz gördük. Sonra özgə bir uşağın gözlərini bağlar. Əgər düz deməsə usta deyər:

– Ay kor olasan, vay kor olasan səni. Bu vurdu, biz gördük. Bu sözləri bütün uşaqlar təkrar edərlər və oyun saatlarla davam edər.

İynə-iynə

Bir neçə uşaq çəm olub özlərinə başçı seçirlər.

Uşaqlar əllərini açıb üzüstə yerə qoyurlar. Sonra başçı aşağıdakı sözləri deyir və hər barmağın üstünə bir kəlmə ilə işarə edir:

Bər, bər inci,
Bər kəşinci,
Şam ağacı,
Şatır keçi,
Qoz ağacı,
Qotur keçi,
Happan,
Hoppan,
Yırıl,
Yırtıl,
Su iç,
Qurtul.

Hansı barmağa "qurtul" gəlməsi düşsə, o barmaq sahibi cərgədən çıxar. Bu iş bütün barmaqların aradan çıxmasına qədər davam edir.

Başçı axıra qalmış uşağın qulağından tutub deyir:

Razi ha balam razi,
Tikib donunu dərzi.
Abbası verim xərclə,
Oyunu təzədən başla.
Qarğa qur,
Qarğa istəyirsən, quş?

Uşaq qarğa, ya quşdan birin istər.

Uşağın istədiyi göydən uçana qədər başçı uşağın qulağını çəkər və bununla toplanmış uşaqlar oyunu davam etdirirlər.

Bəzi yerlərdə əlləri yerə qoyandan sonra başçı aşağıdakı sözləri deyər:

Əl-əl-əlpənə.
Sən çalginən çəpənə,
Əldən çıxdı kəpənə,
Şah şux şaha bacı,
Molla dedi, çək əlin.

Barmaq

Əl barmaqların düz tutub kiçik barmaqdan başlayaraq deyirlər:

Gəlin gedək oğurluğa.

İkinci barmaq deyər:

Hanı nərdivan?

Üçüncü barmaq deyər:

Məndən uca nərdivan?

Dördüncü barmaq deyər:

Yaxşı iş deyil: insaf var, mürvət var.

Beşinci barmaq dördüncü barmağın ağzını əyərək deyər:

Yi-yi-yi.

Çırtı, çırtı

Uşaqlardan biri başçı seçilir. Başçı ortada dayanır, qalan uşaqlar isə dairəvi düzülürlər. Başçı əlində çubuq oyuna başlayır. Əvvəl-əvvəl sağ tərəfdə olan uşaqlara deyir:

– Çırtı, çırtı!

Sağdakı uşaqlar cavab verir:

– Can çırtı!

Soldakı uşaqlar deyir:

– Bizim çırtı sizin çırtıya yalan dedi.

Sağdakı uşaqlar deyir:

– Kimin saqqalına yaraşır?

Soldakı uşaqlar deyir:

– Hər kəs ayağını çəp qoysa, onun saqqalına yaraşır.

Bütün cərgədə olan uşaqlar soldan sağa bir-bir ayaqlarını irəli çıxarırlar. Başçıya çatana qədər irəliləyirlər. Başçı yenə əvvəlki sözləri təkrar

edir; sol ayağını sağ ayağının barmaqları üzərinə qoyub, iki dəfə fırlanır. Uşaqlar əvvəlki qaydada geri çəkilirlər.

Başçı sağ əlini ayğının çeçələ barmağının üstünə qoyur. Hamı başçı kimi edir, baş barmaqlarının ucu ilə başçının yanına gəlirlər. Başçı əl baş barmağını burnunun ucuna qoyub deyir:

– Çırtı, çırtı!

Uşaqlar ona cavab verirlər:

– Can çırtı!

Uşaqlar yenə geri çəkilirlər. Bu dəfə başçı sol əlinin baş barmağını qulağına vurur. Uşaqlar onun kimi edib başçıya yaxınlaşırlar. Başçı deyir:

– Çırtı, çırtı!

Sağ tərəfdəki uşaqlar ona cavab verirlər:

– Can çırtı!

Başçı deyir:

– Bizim çırtı sizin çırtıya yalan dedi.

Sağdakı uşaqlar deyirlər:

– Kimin saqqalına yaraşır?

Başçı deyir:

– Hər kəs tez qaçmasa, onun saqqalına yaraşır.

Hamı nişan qoyulmuş yerə qaçır. Kim geridə qalsa ona deyirlər:

Tısbağa tıs, boynunu qıs!

Oyun axıra çatınca heç kəsin ixtiyarı yoxdur özü istədiyi kimi hərəkət etsin. Qaydanı pozanlar töhmətlənib oyundan çıxarılır. Hamı başçının əmri ilə hərəkət edir, nizam-intizama tabe olur.

Mərə

Uşaqlar halay gəlmək şərti ilə iki dəstəyə ayrılırlar. Oyun iştirakçıları özlərinə gizli ad qoyub iki-iki gəlib başçıların qarşısında dururlar:

– Halay, halay!

Başçılar deyərlər:

– Haldıx, qıldıx.

Uşaqlardan biri deyir:

– Kimə çaylar qurudan, kimə dağlar dağıdan.

Başçılardan biri cavab verər:

– Mənə dağlar dağıdan.

Özünə şərti olaraq "dağlar dağıdan" adı qoyan uşaq bir başçıya, "çaylar qurudan" da o birisinə düşür.

Bu minvalla uşaqlar iki yerə ayrılırlar. Uzaqda bir daş nişan qoyurlar. Hər dəstədən biri qaçır. Kim tez gedib əlini daşa vurar və başçısının yanına tez qayıdarsa qələbə çalar. Kim geri qalsa, itələnib sıradan çıxarılar.

Yoldaş, səni kim apardı?

Halay-halay getmək yolu ilə uşaqlar başçılar arasında iki dəstəyə ayrılırlar. Sıra ilə dal-dala düzülürlər. Geridə düzülmüş dəstədən bir uşaq gəlir, onlardan birinin arxasından irəli itəliyib aparır. Aparılan uşaq geri baxmamalı, ancaq himlə onu aparan uşağı tanımalıdır.

Yoldaşlarından biri aparılan uşağa bərkdən deyir:

Yoldaş, səni kim apardı?

Uşaq aparanı tapa bilsə, onu da götürüb öz yoldaşlarının içinə qayıdır, dəstədə bir nəfər artır. Yox, uşaq tapa bilməsə, aparan uşaq onu götürüb öz dəstəsinə qayıdır. Bu qayda ilə oyunda uşaqların hamısı iştirak edir. Hansı dəstənin uşaqlarının hamısı o biri dəstəyə keçsə, o dəstə uduzmuş olur.

Beşdaş

Bu oyunu iki və ya dörd uşaq oynayır. Hər uşaq beş balaca daş hazırlayır. Qürrə (çöp) atıb oyuna başlayırlar. Oyuna başlayan daşın birini əlində saxlamalıdır ki, buna saqqa deyərlər. Saqqanı göyə tullayıb ovcunun içində olan daşdları yerə tökməli, saqqanı göydə tutmalıdır. Əvvəl saqqanı yuxarı tullamaqla daşları bir-bir ovucuna yığmalıdır. Əsas şərt ondan ibarətdir ki, daş götürülərkən nə başqa daşa dəyməli, nə də saqqa yerə düşməlidir. İki əllə götürmək və saqqanı tutmaq olmaz.

Daşları bir-bir götürüb qurtarandan sonra yerə tökməli, yuxarıdakı şərtlərə əməl etmədən daşları yerdən iki-iki, sonra üçünü birdən, birini tək, sonra dördünü də birdən götürülməlidir.

Bunlar qurtarandan sonra daşları bir-bir iki barmağın arasından keçirməli və barmaq arasından keçirilmiş daşların hamısını bir yerdə götürməlidir.

Sonra daşlar barmaqların hamısının arasından bir-bir keçirilməlidir. Bu şərti də bitirib daşları bir qarış məsafədə bir-birindən aralı qoyurlar. Saqqanı yuxarı atmaqla yerdəki daşları sürüşdürülüb birdən götürülməlidir.

Saqqadan başqa bir daş ovucda saxlanılır. Saqqanı yuxarı atıb tutmaqla daşın birini ovucdan yerə salıb, cəld o birini yerdən götürməlidir ki, buna yumurtlamaq deyərlər. İki-iki və üç-üç daşı yerə salıb birini götürmək lazımdır. Bundan sonra şaqqıldama gəlir. Yəni daşları yerdən bir-bir ovuca yığırlar. Axırda o yoldaşlardan biri bir daşı itdaş təyin edir. O daş əl dəyilməmiş qalır. Bu itdaşı birdəfəliyə barmaqların arasından keçirmək lazımdır. Bunların hamısını səhvsiz, birdəfəyə oynaya bilən qalibiyyət qazanır. Daşı yerdən götürə, barmaq arasından keçirə bilməyən, saqqanı yerə salan və daşı götürərkən əlini başqa daşa vuran uduzmuş olur.

Mozu-mozu

Bu oyunda üç nəfər iştirak edir. Uşaqların bir yumru, bir yastı daşı olur. Onlar bir-bir yastı daşla yumru daşı vururlar. Yumru daş vurulanda nə qədər gedərsə o məsafəni addımla ölçürlər. Şərt qoyulan məsafəyə kim qabaqca daşı vurub apararsa o, oyunda udmuş olur.

Bənövşə

Uşaqlar özlərinə iki başçı seçirlər. "Halay-halay" gəlməklə iki dəstəyə ayrılırlar. Dəstələr bir-birindən yüz addım aralı əl-ələ tutub dayanırlar. Başçılardan biri o birisinə deyir:

– Bənövşə!

O birisi cavab verir:

– Bəndə düşə!

Əvvəlki başçı deyir:

– Bizdən sizə kim düşə?

O biri başçı uşaqların birinin adını çəkib deyir:

– Əli, yaxud Qəmər düşə!

Əli, ya Qəmər cərgədən ayrılıb yüyürə-yüyürə əl-ələ tutulmuş uşaqların səfini yarmalıdır. Burada güclülük əsas şərtlərdəndir. Əgər oyunçulardan biri güc verib əl-ələ tutmuş uşaqların əlini bir-birindən ayırsa, o biri tərəfə keçə bilsə, bir uşaq da götürüb yenə öz əvvəlki yerinə qayıdır. Yox, əgər keçə bilməsə, orada qalmalı, o dəstəyə qoşulmalıdır. Hansı tərəf uşaqların hamısını öz tərəfində saxlaya bilsə, o dəstə oyunda qalib gəlir.

Artırma

Uşaqlar iki dəstəyə ayrılırlar. Püşk (çöp) atırlar. Püşk hansı dəstəyə düşsə, o dəstə aşağı əyilir. O biri uşaqlar bir-bir onların üstündən atılır, axıra çatan uşaq yerə əyilir. Bu minvalla sıra əvvəldən artır, axırdan azalır. Məsələn, uşaqların hər dəstəsində on uşaq olarsa, onu da aşağı əyilir. İkinci dəstənin üzvləri bir-bir onların üstündən hoppanıb özü onların sırasında aşağı əyilir. Hamı atılıb qurtarandan sonra aşağıya əyilmiş yeni bir dəstə yaranır. Birinci dəstənin uşaqları bir-bir ayağa qalxıb aşağı əyilən uşaqların üstündən hoppanırlar. Bu minvalla oyun davam edir.

Gözbağlayıcı

Uşaqlar yenə də iki dəstəyə ayrılırlar. Başçılar növbə ilə uşaqların gözlərini möhkəm bağlayıb meydana buraxırlar. Bir uşaq daş çaqqıldadır və ya səs çıxarıb qaçır. Gözübağlı uşaq çox əziyyətlə səs çıxaranı tutur, gözübağlılıqdan azad olur. Tutduğu uşağın gözünü bağlayırlar. Belə-belə oyun davam edir.

Siçan-pişik

Uşaqlar dairəvi əl-ələ tuturlar. Başçı oyunçulardan birini pişik, birini də siçan adlandırır. Siçan qaçır, pişik qovur. Əl-ələ tutanlar siçana imkan vermirlər ki, içəri girsin. Pişiyə isə yollar açıqdır. Siçan uşaqların qollarının arasından soxulub içəri girir, yenə bayıra çıxır. Nəhayət, pişik siçanı tutur. İndi də digər iki uşağın biri siçan, digəri pişik olur. Oyun davam edir.

Bu oyunun başqa variantında uşaqlar siçanı dövrənin içərisinə buraxmamalıdırlar. Siçan hansı uşağın qolunun altından dövrənin içərisinə girə bilsə, o siçan olur. Pişik isə başçı tərəfindən dəyişdirilir. Bu variantda cəza siçan olmaqdır.

Dirədöymə

Uşaqlar iki yerə ayrılıb, bir dairəvi çızıq çəkir və püşk atırlar. Püşk hansı dəstəyə düşsə o dəstə mətəyə-dairəyə girir. Uşaqlar hərəsi ayağının altına bir toqqa qoyur. Dairədən kənarda qalanlar toqqanı götürməyə çalışırlar. Dairədəkilər isə ayaqla vurur, toqqaları götürməyə yol vermirlər. Dairənin içərisində olanlar kənardakılardan birini ayaqla vursa, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də çöldəki yoldaşlarının toqqasını qorumalı olurlar. Yaxud, əksinə, içəridəkilər çöldəkilərindən birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişməli olur. Dairədən kənardakı uşaqların biri toqqanı ələ keçirsə, dairənin içərisində olan uşaqları toqqa ilə vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə çalışırlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə qələbə qazanır. Dairədən kənardakılar içəridəkiləri toqqa ilə döyürlər.

Mərəköçdü

Bu oyunu iki və ya dörd uşaq oynayır. Dairə şəklində hər uşağa üç mərə (çala) düzəldirlər. Hərə 21 balaca daş götürür, daşları iki-iki saymaqla mərə-mərə paylayıb yığır. Say aşağıdakı kimidir:

– Dana, dana, qır dana, iki öküz, bir dana.

Hər mərəyə yeddi daş yığırlar. Qürrə atıb oyuna başlayırlar. Püşk düşən uşaq daşlardan mərənin içində birini saxlayır. Qalanlarını mərələrə paylayır. Adamın sayına görə daş udmaq olar. Müqabil tərəfin mərələrində bir və ya üç daş varsa, paylanan adamın daşı da bir və ya üç daşlı mərələrdə qurtarır, deməli, daşlar cütləşirsə o, həmin daşları udmuş olur. İlk udulmuş daşa mertik deyirlər. Hansı uşaq başqa bir uşaqdan yeddi və ya çox daş udsa, daşlar onun olur, o birinin mərəsi və daşları azalır. Belə-belə hər kəsin bütün mərələri boşaldıqda o, sıradan çıxır.

Dəsmalaldı, qaç

Uşaqlar dairəvi şəkildə yerə oturub, ortada dayanan başçıya baxırlar. Bir uşaq dairə boyunca qaçır və dəsmalını oyunçulardan birinin arxasında yerə qoyur. Başçı uşaqlardan soruşur:

– Dəsmal kimin arxasındadır?

Uşaq dəsmalın öz arxasında qoyulduğunu bilməsə onu ortaya salır, bir-birinin üstünə itələyirlər. Döyülən uşaq başqa birisinin üstünə yıxıla bilsə onu azad eləyir, üstünə yıxıldığı oyunçunu onun yerinə ortaya çıxarıb itələməyə başlayırlar. Belə-belə uşaqlar hamısı ortaya çıxmalı olur. Özünü möhkəm müdafiə edib ortaya çıxmayan qalib gəlir.

Gizlənqaç

Uşaqlar iki dəstəyə ayrılırlar. Bir dəstədə olanların gözlərini bağlayırlar. O biri dəstədəki gözüaçıq uşaqlar qaçıb gizləndikdən sonra onların gözlərini açırlar. Bu oyunçular gizlənənləri axtarmalı, həm də başçının yanını, mərəni nəzərdən qaçırmamalıdırlar. Qaçıb gizlənən uşaqlar onların gözlərinə görünmədən özlərini başçının yanına, mərəyə salsalar, oyunda qalibiyyət qazanır, o biriləri töhmətlənirlər. Qaçıb başçının yanına gəlmədən yaxalansalar məğlub olur və beləcə oyun davam edir.

Laldinməz

Uşaqlar oyunu idarə etmək üçün özlərinə başçı seçirlər. Oyunçular cərgəyə düzülürlər. Burada danışmamaq əsas şərtdir. Gülüb danışan və səs çıxaran uduzmuş olur. Uşaqları danışdırmaq və güldürmək üçün başçı hər vasitəyə əl atır. Çubuğunu yerə vurub deyir:

– Bu yer qoruqdur, qoruqdur. Heç kəsin bura gəlməyə ixtiyarı yoxdur.

Heç kəs dinmir. Başçı bir az dayanır. Gülməli, məzəli hərəkətlər edir. Meymun kimi mayallaq aşır, ağız-gözünü büzür. Uşaqlardan biri özünü saxlaya bilməyib gülür. Səs çıxaran uşağı yamsılayan başçı çubuqla onu vurur. Başqa uşaqlar da başçının sözünü təkrar edib, danışan və ya güləni

çubuqla vururlar. Uşaqlardan biri nə səs çıxarsa, yaxud hansı sözü ağzından qaçırsa, başçı da eynən təkrar edib onu vuracaq. Qalan oyunçular da bunu təkrar etməlidir. Susub bitərəf dayanan olsa, onu da araya çəkib döyürlər. Başqa bir uşaq danışanda əvvəl döyüləni azad edib onu döyməyə başlayırlar.

Bu qayda ilə oyun çox fəal və şən keçir.

Say saymaq

Uşaqlar oyuna başçı seçirlər. Başçı uşaqları cərgəyə düzür, müəyyən say rəqəmi seçir. Əsasən 15, 25, 35, 45, 55, 65, 75, 85, 95 rəqəmlərini götürür. Uşaqlardan bir-bir bu rəqəmləri tez-tez söyləməyi tələb edir.

Çaşana hamı bir yerdə: "Maymaq, a maymaq" – deyir, onu utandırırlar.

Hofbana hofban

Uşaqlar çöpatma və ya sayma qaydası ilə oyun başçısı seçirlər. Başçı uşaqları iki dəstəyə ayırır. Sağdakı uşaqlardan birinə bir şey uzadıb deyir:

– Al bunu!

Soldakı uşaqlardan biri soruşur:

– O nədir?

Sağdakı uşaqlardan biri deyir:

– Hofbana hofbandı. Kim hofbana hofban deyə bilməsə, hofba hofba, ver yoldaşına, hofbana hofban eləsin, bu sözləri desin.

Yuxarıdakı sözləri uşaqlar dövrə vurub bir-bir deyir, başçının yanına yüyürürlər. Başçının yanına çatınca hər kəs həmin sözləri söyləyə bilməsə, hərə ona lopux vurur.

Turnavurdu

Bu oyunu həm qızlar, həm də oğlanlar oynayırlar. Uşaqlar iki bərabər dəstəyə ayrılırlar. Hər dəstənin bir başçısı olur. Dairəvi cızıq çəkirlər. Dəstələrdən birindəki adamların sayı qədər turna eşirlər. (Dəsmalı eşib ucuna kəndir bağlamaq.) Başçılardan biri ovcuna bir şey alır, əllərini bərk yumub o biri başçıya uzadır. Başçı şeyin hansı əldə olduğunu tapsa qalib gəlir; əlini yuman başçının dəstəsi turna çəkilən dairəvi cızığa girir. Kənarda qalan qalib dəstə cızıqdakı turnaları götürməyə çalışır. Götürə bilməsələr onları turna ilə vururlar. İçəridəkilər kənara çıxır, kənardakılar cızığın içərisinə girirlər. Burada oyun turnanı ələ keçirmək uğrunda mübarizədən ibarətdir. Turnanı ələ keçirənlər qalib gəlir.

Çömçəbaşı bəzəmə

Uşaqlar iki dəstəyə ayrılırlar. Hər dəstənin bir başçısı olur. Adi bir çömçənin başını bəzəyirlər. Püşk atırlar. Püşk hansı dəstəyə düşərsə oyunu o dəstə başlayır.

Oyunçuların növbə ilə gözlərini bağlayırlar. Digər dəstədən bir nəfər çömçəni əlinə alır. Çömçənin başına zınqırov salırlar. Əlində çömçə olan uşaq ağacla dairə içərisində o tərəfə bu tərəfə qaçır, çömçəni tərpədərək zınqırovu səslədir. Gözübağlı elə cəld hərəkət etməlidir ki, zınqırovun səsi çıxan kimi həmin oyunçunu tutsun. Zınqırov on dəfə səslənməlidir. Bu on dəfədə heç kəsi tuta bilməsə gözünü açıb, ona lopux vururlar. Əgər tuta bilsə, çömçəgəzdirənə 10 lopux vurub çömçə götürməkdən məhrum edirlər.

Uşaqların hamısı bu əməliyyatı edir. Hansı dəstənin uşaqları zınqırov çalanlardan az tutubsa, o dəstənin başçısını töhmətləyib çıxarırlar, yerinə başqa başçı qoyular. Bu oyun 5 dəfə təkrar edilir.

Dəyirman

Uşaqlar dairəvi əyləşirlər. Başçı əlində çubuq, başı papaqsız ortada dayanır. Qalan uşaqların başında papaq olur. Başçı çubuğu yerə vurub uşaqları qorxudur. Hamı əl çala-çala deyir:

– Tağı-tağı, tağbatağı...

Bu sözləri 4-5 dəfə təkrar edəndən sonra başçı sağdan bir uşağın papağını götürüb öz başına qoyur. Papağı götürülən uşaq da yanında olan uşağın papğını götürüb öz başına qoyur. Bu hərəkət dairənin sonuna qədər gedir. Bu minvalla papaqgötürmə 4-5 dəfə dövrə vurur. Papaqlar tez-tez hərlənir, uşaqlar əl vurub "Tağı-tağı, tağbatağı" deyirlər. Oyun qızışır. Papağın hərlənməsi bir növ dəyirman daşının hərlənməsinə bənzəyir. Oyunun şiddətli yerində başçı əlini başına qoyub çağırır.

– Dağğa... dağğ...

Bu zaman hər kəs başındakı papağı bərk saxlamalıdır. Başıaçıq qalana hərə bir çubuq vurur. Başçı çubuğu nə cür vurursa, qalan uşaqlar da elə vurmalıdırlar.

Oyun – tapmaca

Dəstə başçıları bir quşu müəyyən edib, əl hərəkəti ilə uşaqlara deyirlər:

Bir nəfər:	– Bir quşum var bir belə.
Hamı:	– Lov gələ ha, lov gələ.
Bir nəfər:	– Dimdiyi var bir belə.
Hamı:	– Lov gələ ha, lov gələ.

Bir nəfər: – Quyruğu var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Qanadı var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Ayaqları bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Başı var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Gözləri var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Kəkili var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Boynu var bir belə.
Hamı: – Lov gələ ha, lov gələ.
Bir nəfər: – Tapsa kim bu heyvanı,
Alacaq o, meydanı.

Dəstəyə bölünən uşaqların hansı söylənən quşu taparsa o, oyunda qalib gəlir.

Yamanam ha yamanam

Bir uşaq ilin axır çərşənbəsində nənəsinə bayram sovqatı aparırmış. Gecədən qar yağıb küçə-bacanı sürüşkən etmişdi. Uşaq evdən çıxanda anası deyir:

– Ehtiyatlı ol, ay bala, buz yaman olur, səni yıxar.

Uşaq deyir:

– Qorxma, ay ana, buz nədi ki, məni yıxsın?

Mən yamanam, mən yaman, – mahnısı oxuya-oxuya küçəyə çıxır.

Uşaq küçədə buzun üstündə ehtiyatla yeriyir ki, sürüşüb yıxılmasın. Amma birdən ayağının altında buz parçası qalıb onu yıxır. Əlindəki sovqatı da dağılır. Pərt olmuş uşaq ayağa qalxıb deyir:

– Sən nə yamansan, ay buz, adam yıxansan, ay buz.

Buz deyir:

– Yaman olsaydım günəş məni əritməzdi.

– Sən nə yamansan, ay Günəş?

Günəş deyir:

– Yaman olsaydım, bulud üstümü almazdı.

– Sən nə yamansan, ay bulud?

Bulud deyir:

– Yaman olsaydım, yel məni qovmazdı.

– Sən nə yamansan, ay yel?

Yel deyir:

– Yaman olsaydım, yağış məni yatırmazdı.
– Sən nə yamansan, ay yağış?
Yağış deyir:
– Yaman olsaydım, ot məndən bitməzdi.
– Sən nə yamansan, ay ot?
Ot deyir:
– Yaman olsaydım, qoyun məni yeməzdi.
– Sən nə yamansan, ay qoyun?
Qoyun deyir:
– Yaman olsaydım, qurd məni yeməzdi.
– Sən nə yamansan, ay qurd?
Qurd deyir:
– Yaman olsaydım, köpək məni boğmazdı.
– Sən nə yamansan, ay köpək?
Köpək deyir:
– Yaman olsaydım, çoban məni döyməzdi.
– Sən nə yamansan, ay çoban?
Çoban deyir:
– Yaman olsaydım, xanım məni söyməzdi.
– Sən nə yamansan, ay xanım?
Xanım deyir:
– Yaman olsaydım, siçan torbamı dağıtmazdı.
– Sən nə yamansan, ay siçan?
Siçan deyir:
– Yaman olsaydım, məstan məni yeməzdi.
– Sən nə yamansan, ay məstan?
Yamanam, ha yamanam,
Bığlarımı buraram,
Yük üstündə duraram,
Xanım qapıdan gəlsə,
Mən bacadan qaçaram.
Siçanları tutaram,
Pələng kimi udaram.
Yamanam, ha yamanam.

TAPMACALAR

Təbiət və təbiət hadisələri

Ağ sandığım açıldı.
İçindən nur saçıld.
(Sübh çağı)

Adam deyil hey qaçır,
Meşə deyil səs salır.
(Çay)

Ayağı yoxdur qaçır,
Qanadı yoxdur uçur.
(Bulud)

Araba gedər izi yox,
Yanar, yanar, közü yox.
(Günəş)

Atamın yeddi oğlu var,
Yeddisi də bir boyda.
(Həftə günləri)

Babamın bir donu var,
İçi dolu abbası,
Gündüz girər kisəyə
Gecə çıxar eşiyə.
(Göy, ulduzlar)

Babamın bir çuxası var on iki cibi,
Cibin hər küncündə otuz düymə,
Hər düymənin bir üzü ağ, bir üzü qara.
(İl, ay, gün)

Bayırda dağdı,
Pambıqdan ağdı,
Evə gələr,
Suya dönər.
(Qar)

Basdırmışam iki toyuq,
Biri isti, biri soyuq.
(Yay, qış)

Bir atım var ağ alaca,
Özü gedər yəhəri qalar.
(Körpü altından axan su)

Bir atım var səməndi,
Nə ucu var, nə bəndi,
Özü açılar, özü yumular.
Heç kəs bilməz bu fəndi.
(Gecə və gündüz)

Bir qızıl öküzüm var
Harda yatsa ot bitməz.
(Od)

Bir kilimim var,
Min bir naxışı,
Yel baba süpürər
Payızı, qışı.
(Yer)

Bir kişinin dörd evi var,
Biri yaşıldı, o biri al,
Biri sarıdı, o biri ağ.
(Fəsillər)

Bir sinidə iki toyuq
Biri isti, biri soyuq.
(Ay, Günəş)

Bir tabaq almaz,
Sabaha qalmaz.
(Ulduz)

Biri gedər gəlməz,
Biri yatar durmaz.
(Tüstü, kül)

Burdan vurar qılıncı,
Bağdadda oynar ucu.
(Şimşək)

Buxarı ha buxarı,
Buxarıdan yuxarı,
Ordan bir oğlan çıxdı,
Çiyni qara çuxalı.
(Tüstü)

Qara toyuq qaqqıldar,
Qanadları şaqqıldar.
(Bulud, göy gurultusu)

Qəndə bənzər dadı yox,
Göydə gəzər qanadı yox.
(Qar)

Dağdan-daşdan qan gəlir,
Qıvrılmış ilan gəlir.
Qabağında durmayın,
Qudurmuş aslan gəlir.
(Sel)

Dağlarda qar əridi,
Ayaq tutub yeridi,
Dərə görüb bağırdı,
Dərya görüb kiridi.
(Çay)

Dam üstə daylaq oynar,
Yerə dəyib oyular.
(Dolu)

Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz.
(Külək)

Əlamət ay əlamət,
İşi tamam qiyamət,
Əli yox şəkil çəkir,
Dişi yoxdu dişləyir.
(Şaxta)

İşım-işım işıldar,
Yarpaq kimi xışıldar.
(Qar)

Yaxşıca gözəldi hamıya baxar,
Üzünə baxanı yandırar, yaxar.
(Günəş)

Yerədə bir süfrə var,
Pambıq kimi parıldar.
(Qar)

Yük üstə para fətir.
Bacarırsan tut gətir.
(Dəniz, çaylar)

Göydə doğular,
Yerdə boğular.
(Yağış)

Göydə gəzər qalaq-qalaq,
Gah tutqundur, gah rəngi ağ.
(Bulud)

Göydən bir ağac düşdü.
Barsız, budaqsız.
Onu bir quş yaladı,
Dilsiz, dodaqsız.
(Qar, Günəş)

Göydən yerə buz yağır,
Görün necə düz yağır.
Darı boyda, qoz boyda,
Görmədim qarpız boyda.
(Dolu)

O nədi ki, işığı var, istisi yox.
(Ay)

O nədi ki, özü var, kölgəsi yox.
(Su)

Odda yanmaz,
Suda batmaz.
(Buz)

Üçü bizə yığıdı,
Üçü cənnət bağıdı,
Üçü yığıb gətiri,
Üçü vurub dağıdı.
(Fəsillər)

Nəbatat aləmi
(Bitkilər, ağaclar, bağ, bostan məhsulları)

Ağacın tutmaq olmaz,
Ətrindən doymaq olmaz.
(Qızılgül)

Bir sürü atlar,
Çəməndə otlar,
Vaxtı gələndə,
Dərisi çatlar.
(Pambıq)

Dərya qırağı düzdü,
Sanasan əlli, yüzdü.
Yaşıl əkdim, al bitdi,
Görən əsli nə düzdü.
(Xına)

Özü ala,
Yeri tala,
Para-para,
Qəlbi qara.
(Lalə)

Sarı-sarı sandıqlar,
İçi dolu fındıqlar.
(Xaş-xaş)

Yağış yağanda,
Çimər, yuyunar.
Yazda geyinər,
Qışda soyunar.
(Ağac)

Bədəni yerdə,
Saqqalı göydə.
(Turp)

Bostanda var bir arvad,
Paltar geyib qatbaqat.
(Kələm)

Dağdan atsan əzilməz,
Bir yumruğa dözəmməz.
(Soğan)

Yaşıl tağım var,
Al otağım var.
Göy paltarımda
Boz qurşağım var.
(Qarpız)

Yer altında sarı biz.
(Kök)

Ləyəndə, ay ləyəndə,
Gül boynunu əyəndə,
Yeyilər kal vaxtında,
Yemək olmaz dəyəndə.
(Xiyar)

Ağac başında qara yumaq.
(Qara əncir)

Ağac başında sarı yumaq
Üstünə səpilib ağ sumaq.
(Heyva)

Altı dəri, üstü dəri,
İçində bir ovuc darı.
(Əncir)

Bir balaca boyu var,
Qırmızıdan donu var.
(Zoğal)

Bir dağarcıq unum var,
İçində bir vərdənə.
(İydə)

Bir təndirim var iki çörək tutur.
(Qoz)

İçi qırmızı, çölü boz.
Üstü yemiş, içi qoz.
(Şaftalı)

O yanı taxta,
Bu yanı taxta,
Yumru bəy otaqda.
(Fındıq)

Balacayam, sarıyam,
Deməyin ki, darıyam.
Sizə çörək oluram,
Zəmilərin barıyam.
(Buğda)

Bir damım var
Tək dirəkli.
(Göbələk)

Bir il əkərlər,
Yeddi il biçərlər.
(Yonca)

Qat-qat qalası,
Qan piyalası,
Uçdu anası,
Qaldı balası.
(Buğda və saman)

Evimizdə bir kişi var,
Bir şələ saqqalı var.
(Süpürgə)

Gün çıxar, gülər.
Axşam mürgülər.
(Günəbaxan)

Min bir oğul, bir ata
Hamısı minib bir ata.
(Qarğıdalı)

Heyvanlar
(Quşlar, həşəratlar)

Ovun alsan mırıldar,
Sığallasan xoruldar.
(Pişik)

Ağzın açar,
Zəhər saçar,
Hamı görüb,
Geri qaçar.
(İlan)

Altı bulaq içərlər,
Üstü zəmi biçərlər.
(Qoyun)

Altı taxta, üstü taxta,
Oturub bir otaqda,
Qoyun deyil, ot otlayır,
Toyuq deyil, yumurtlayır.
(Tısbağa)

Gözü bənzər ceyrana,
Xidmət edər insana.
Adam çıxsa üstünə,
Baş əyməz heç sultana.
(At)

Qanadı var uça bilməz,
Quru yerdə qaça bilməz.
(Balıq)

Yatanda yumru yatar,
Ətinə dərman qatar,
Kim istəsə tutmağa,
Tikanı ələ batar.
(Kirpi)

O nədir ki, səssiz göldə it hürər.
(Qurbağa)

Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər.
(Qaranquş)

Qara qatır,
Bədlik satır,
Gecə gəzir,
Gündüz yatır.
(Bayquş)

Qatar-qatar uçarlar,
Şahin görüb qaçarlar,
Günüzləri otlayıb,
Axşamları uçarlar.
(Durna)

Gəlirdim kənddən,
Səs verdi bənddən,
Ağzı sümükdən
Saqqalı ətdən.
(Xoruz)

Gündüz yatar yuvada,
Gecə gəzər obada.
(Yarasa)

Nağaraçı nağara çalır,
Nə nağarası var, nə çubuğu.
(Ağacdələn)

Ağzı qara, gözü yox,
Suda üzər izi yox.
(Zəli)

Aşıq eldən yuxarı,
Şana teldən yuxarı.
Aşıq bir şey görübdü
Dizi beldən yuxarı.
(Çəyirtgə)

Bir quşum var alaca,
Uçar qonar ağaca,
Ağacda bir ev tikər
Nə qapı qoyar, nə baca.
(Baramaqurdu)

Qanadlıdır, quş deyil,
Buynuzludur, qoç deyil.
(Kəpənək)

Qanadı var quş deyil,
Dişləyir ilan deyil.
(Ağcaqanad)

Qanadı var uçmağa,
İynəsi var sancmağa.
Sevir işi, zəhməti,
Odur ki, var hörməti.
(Arı)

Dağda, qayada gəzər,
Quyruğunda var zəhər.
(Əqrəb)

Yazda yığır yeməyini,
Çox sevir öz əməyini,
Yeyib yatar baharadək.
Nədir adı tapın görək.
(Qarışqa)

Yer altında yolları
Əyri-üyrü qolları
Nə incədi belləri.
(Qarışqa)

Heyvandarlıq məhsulları və heyvanlarla əlaqədar nəsnələr

Ağ dəryanın suyun qızdır,
Üzü tamam ağca bezdir.
(Südün qaymağı)

Ağzı bağlı bir kisəm var,
İçi qıllı, ağca palçıq.
(Motal)

Aşığın qan ayağı,
Qan əli, qan ayağı,
Aşıq bir şey görübdür,
Üç başı, on ayağı.
(Sağıcı, inək və buzov)

Balaca quyu,
İçində suyu,
Ağcadan ağdı,
Sarıdan sarı.
(Yumurta)

Bir zəmim var, ildə iki dəfə biçilir.
(Qoyun yunu)

Bu günləri şənbədi,
Könlümə düşən nədi.
Nə əti var, nə qanı
Ocaqsız bişən nədi.
(Pendir)

Bir ağ otağım var,
İçinə yol yox.
(Yumurta)

Qar kimi ağdı,
Su kimi axdı.
(Süd)

Dəri kimidi, dəri,
Üstü ət, içi dəri.
(Toyuq pətənəsi)

Dostum mənə nar göndərdi,
Yox demədi, var göndərdi,
Çalınmamış süd-qatıqdan,
Çalxanmamış yağ göndərdi.
(Qoyun quyruğu)

Mən aşiqəm düz bağlar,
Əyri çəkər, düz bağlar,
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.
(Qaymaq)

O yanı qaya,
Bu yanı qaya,
İçində sarı maya.
(Yumurta)

O nədir ki,
Atdan hündür,
İtdən alçaq.
(Yəhər)

Suya girdi dağıldı,
Sudan çıxdı yığıldı.
(At quyruğu)

İnsan və onun bədən üzvləri

Ala qapı, zəncir sapı,
Beş budağı, bir yarpağı.
(Əl)

Altı mərmər,
Üstü mərmər,
İçində bir
Bülbül oynar.
(Dil)

Altı çəpər, üstü çəpər,
İçində qara quş səkər.
(Qara göz)

Nənəyə dəyməz,
Babaya dəyər,
Xalaya dəyməz,
Bibiyə dəyər,
Dəyərə dəyməz,
Dəyməzə dəyər,
Allaha dəyməz,
Billaha dəyər.
(Dodaq)

Balaca baqqal,
Nə versən udar.
(Ağız)

Biz idik, biz-biz idik,
Otuz iki qız idik.
Gah əzildik, üzüldük,
Bir taxçaya düzüldük.
(İnsan dişləri)

Başa yapışıq
Bir sapsız qaşıq.
(Qulaq)

Bir qutum var özü açılır, özü yumulur.
(Ürək)

Bir güzgüm var qapaqlı,
Dörd qırağı saçaqlı.
(Göz)

Bir təndirim var içi bir çörək tutur.
(Ağız və dil)

Boyu uzunsayaqdı,
Sahibinə dayaqdı.
(Ayaqlar)

Bu yanı çəpər,
O yanı çəpər,
İçində atlı çapar.
(Göz)

Qapı bir qonşudurlar,
Bir-birini görmürlər.
(Göz)

Əzəl vardı yeyərdik,
Yeməsəydik ölərdik,
İndi də var yemirik,
Yeməsək də ölmürük.
(Ana südü)

Əzəli dörd ayaqlı,
Sonra iki ayaqlı,
Aylar keçir, il keçir,
Dolanır üç ayaqlı.
(Körpə, cavan, qoca)

Suya girər bir olar,
Sudan çıxar min olar.
(Saç)

Tərəzidə çəkilməz,
Bazarlarda satılmaz,
Baldan şirin dadi var,
Yemək olmaz canı var.
(Uşaq)

Geyim və bəzək əşyaları

Ağzını aşağı elərəm dolar,
Yuxarı elərəm boşalar.
(Papaq)

Almışam atannan,
Gəncədə satannan,
Qu tükündən yüngül,
Qırağı qızıl gül.
(Kəlağayı)

Balaca məzar,
Dünyanı gəzər.
(Ayaqqabı)

Qulaq üstə quş yatar.
(Sırğa)

Əl ilə yapılar,
Qulağa taxılar.
(Sırğa)

Ətdən şiş,
Gümüşdən kabab.
(Üzük)

İki kürküm var
On qardaşa çatar,
Bunu kim tapar?
(Əlcək)

Yerim dərin dəryalar,
Məndən qiymətli nə var?
(Mərcan)

Sarı-sarı sarmağım,
Sarı gözə barmağım.
(Qızıl üzük)

Gündüzlər dolanar
Gecələr ağzı açıq yatar.
(Başmaq)

Özü bir zərrə misri
Hamı onun əsiri.
(Qızıl)

Məişət və təsərrüfat vasitələri

Bizdə bir kişi var,
Hər gələnə əl verir.
(Qapının dəstəyi)

Bizim evdə dörd gəlin var,
Dördü də bir boy buxunda.
(Divar)

Nə evdədi, nə çöldə
Nə göydədi, nə yerdə.
(Pəncərə)

Uzun-uzun kişilər,
Başların, ayaqların
Divarda gizlətmişlər.
(Evin dirəkləri)

Üç qardaş bir-birinin üstünə çıxdılar.
Biri dedi: belim ağrıyır,
O biri dedi: başım partlayır,
Biri də dedi: qorxma, qorxma.
(Divar, tir, baca)

Hay gedər, huy gedər,
Bircə qarış yol gedər.
(Qapı)

Ağzı var, dili yox,
Qarnı var, beli yox,
O necə əkinçidir
Toxum səpir, əli yox.
(Toxumsəpən maşın)

Bizim evdə bir kişi var,
Təpəsində dörd dişi var.
(Yaba)

Bir atım var dərində,
Bağlamışam sərində,
Gecə-gündüz yol gedər
Yerindədir yerində.
(Dəyirman)

Ağa babanı
Gəzər obanı,
Altı qıçı var,
İki dabanı.
(Tərəzi)

Ağzı poladdan,
Saqqalı sapdan.
(İynə, sap)

Aləmi bəzər
Özü lüt gəzər.
(İynə)

Altı haça,
Üstü haça.
İki üzük,
İki qılça.
(Qayçı)

Alçaq damdan qar yağar.
Qırağı taxta divar.
(Ələk)

Axşam açılır,
Səhər yığılır.
(Yorğan-döşək)

Balaca quyu,
Pıqqıldar suyu.
(Samovar)

Baxsan onun üzünə,
Görünərsən özünə.
(Güzgü)

Başına kələm bağlayar,
Ürəyi vərəm bağlayar.
Oğul-uşağını yığıb,
Dəsmal alıb ağlayar.
(Samovar)

Bir balaca sandıqca,
İçi dolu ağ mıxça.
(Kibrit qutusu)

Damda var qara yaylıq
Yağışa çara yaylıq.
(Damın qır örtüyü)

Qara köpək qapıda yatar,
Qolu əyilər, belinə batar,
Nə hürər, nə də ki tutar.
(Qıfıl)

Ələk boyda üzü var,
Yüz əllicə gözü var.
Ağzı yuxarı baxar,
Altından yağış yağar.
(Aşsüzən)

Ət dirəyin başında
Dəmir deşikli papaq.
(Üsküк)

Günbəzə oxşar hamam,
İçində var bir ilan.
(Lampa, piltə)

Meşədə, ha meşədə,
Beş qardaş var meşədə,
Beşi də bir peşədə.
(Corab toxuyan millər)

Nənəmin bir quşu var fırlanar,
Quyruğundan çatı, gəbə sallanar.
(Cəhrə)

Gözü dəmirdən,
Quyruğu kəndirdən.
(İynə)

Uzun qız oba gəzər,
Xamırnan özün bəzər.
(Oxlov)

Altı dərya, üstü od.
(Qəlyan)

Silahlar

Altı taxta, üstü taxta
Ortasında dəmir balta.
(Qılınc)

Anası qundaqda yatır,
Oğlu bazara gedir.
(Güllə və giliz)

Atdım atana,
Dəydi adama.
Ucu şiş neştər,
Uzunca təhər.
(Nizə)

Bir balaca misri daşı,
Yandırar dağı-daşı.
(Güllə)

Bir quşum var, balası özündən tez uçar.
(Tüfəng və güllə)

Qara atımı yağladım,
Sağ böyrümə bağladım.
(Tapança)

Dar küçədə qulun mələr,
Qabaqdakın yerə sərər.
(Tüfəng, güllə)

Əldə fitil,
Ordan itil
Hara dəysə,
Qalar mitil.
(Top gülləsi)

Taxta, dəmir,
Gah əyilir,
Gah düzəlir.
(Bıçaq)

Xörəklər, yeyinti məhsulları

Qaşıqda oturub, ayaqlarını sallayıb.
(Əriştə)

Ağca təpə,
Başı küpə,
Nə küpədi,
Nə də təpə.
(Plov)

Bir ilikdi, bir sümükdü, bir dəri,
Aləm onun ləzzətinə müştəri.
(Kəlləpaça)

Atılıb düşər,
Susuz bişər
Qırmızı düşər
(Qovurğa)

Mən aşiqəm kömürdən,
Xəbər alın əmirdən.
Bu gün bir nübar yedim,
Budaqları dəmirdən.
(Kabab)

Tap-tapmaca,
Gül yapmaca,
Deşiklədim
Atdım saca.
(Fəsəli)

Çıxar tavaya,
Çığırar havaya.
(Cızbız)

Deyə bilməz sözünü
Tez yandırar gözünü.
(Qovurğa)

Musiqi alətləri

Ağac için oyaram,
Düz ağzıma qoyaram.
(Zurna)

Qarğı qamış,
Ağıza yapış,
Üstü deşik,
Gerisi beşik.
(Tütək)

Qoz ağacın oyarlar,
Üstünə tel qoyarlar,
Vaxtsız durub ağlasa
Qulağını burarlar.
(Kamança)

Yumuru təkər,
Əllərdə gəzər.
(Qaval)

O nədi ki, yetmiş iki dil bilir.
(Saz)

Toyda, düyündə gəzər
Səsi aləmi bəzər,
Qabırğası qatbaqat,
Gah yavaş, gah da bərk dart.
(Qarmon)

Tut ağacı, üzü pərdə
Barmaq gəzər pərdə-pərdə
Gah dərində, gah zərində
Ağlar ahu-zar dilində.
(Tar)

Üzük aldım qaşı yox,
Təpə gördüm daşı yox.
O nədir ki, ağlayır,
Gözlərinin yaşı yox.
(Kamança)

Hürü-hürünü dindirər,
Hürü pərini dindirər.
Bizim evdə üç dilsiz var,
Bir-birini dindirər.
(Kamança, qaval, tar)

Elm və texnika

Ağ yerdə qara toxum
Qamış ilə əkilər, ağız ilə dərilər.
(Yazı)

Ağzı birdi, dili mindi,
Gah belə deyir, gah elə.
(Qələm)

Anada var, atada yox,
Nuxada var, Bakıda yox.
("N" hərfi)

İki qapağı,
Min yarpağı.
(Kitab)

Bir qarpızım var cığal,
Üstünə dünya sığar.
(Qlobus)

Bir quşum var, səsi düşüb dünyaya
O quş məni aparacaqdır aya.
(Peyk)

Bir sehirli fanaram,
Kibritsiz də yanaram.
Nə yerdə yox, nə göydə,
Havadan sallanaram.
(Elektrik lampası)

Qaradı gözü,
Uzundu sözü.
(Qələm)

Quş deyil, qanadı var,
Quşlardan yeyin uçar.
(Təyyarə)

Danışaram dəmirdən,
Cavab gələr kəndirdən.
(Telefon)

Dənizdə bir ev gördüm,
Üstündə var dam-baca.
Yeriyir yavaş-yavaş,
Tapmacadı, tıpmaca.
(Paraxod)

Dolanar bütün ərzi,
Aşar dağı, dənizi.
Gəzib göydə gecələr
Gəlib yerdə dincələr.
(Kosmonavt)

Əlim ilə əkərəm,
Dilim ilə biçərəm.
(Yazı)

Əllərdə yeriyər,
Buraxsan dayanar.
(Qələm)

İnsan deyil, nəfəsi var,
Pələng deyil, nərəsi var.
Yeriyər dəmir üstündə,
Gah yeyin, gah da ahəstə.
(Paravoz)

Nə dili var, nə ağzı,
Nə tarı var, nə sazı,
Hər yerdən xəbər verər,
Oxuyar xoş avazı.
(Radio)

O nədi ki, yeməyi benzindi,
Ayağı rezindi.
(Avtomaşın)

O nədi ki, içində qışdır,
Çölündə bahar.
(Soyuducu)

O nədir nəfəssizdi,
Bülbüldü qəfəssizdi.
Uçanda quş tək uçar,
Canı yox nəfəssizdi.
(Təyyarə)

Özü qara, sözü ağ.
(Yazı lövhəsi, təbaşir)

Suda gəzər canı yox,
Boğazlasan qanı yox.
Suya atsan o batmaz,
Quruda yatsa qalxmaz.
(Qayıq)

Üç ata minib, özü piyada gedir.
(Qələm)

Xərcləməsən azalar,
Xərcləsən çoxalar.
(Elm)

Məcnunda yoxdur, Leylidə var,
Yusifdə yoxdur, Züleyxada var.
("L" hərfi)

Şəhəri var, evi yox,
Meşəsi var, ağacı yox,
Dənizi var, suyu yox.
(Xəritə)

QARAVƏLLİLƏR

Hadı, Hudu, Kor oğlu Kosa, bir də mən

Hadıydı, Huduydu, Kor oğlu Kosa idi, bir də mən. Ova çıxmışdıq. Qabağımızdan bir dovşan qaçırdı.

Hadıya dedim:

– Tüfəngin var?

Huduya dedim:

– Tüfəngin var?

Kor oğlu Kosaya dedim:

– Tüfəngin var?

Heç kimin tüfəngi olmadı. Özüm çaxmağıyox tüfəngi çiynimdən aşırdım. Hadıya dedim:

– Ata bilərsən?

Huduya dedim:

– Ata bilərsən?

Kor oğlu Kosaya dedim:

– Ata bilərsən?

Heç biri ata bilmədi. Özüm çaxmağıyox tüfənglə dovşanı yerə sərdim. Hadıya dedim:

– Dovşanı soy!

Huduya dedim:

– Dovşanı soy!

Kor oğlu Kosaya dedim:

– Dovşanı soy!

Heç biri soymadı. Soymaq üçün bıçaq gərək idi.

Hadıya dedim:

– Bıçağın var?

Huduya dedim:

– Bıçağın var?

Kor oğlu Kosaya dedim:

– Bıçağın var?

Heç birində bıçaq olmadı. Özüm tiyəsiyox bıçağın sapını cibimdən çıxardım, dovşanı soydum; Hadıya dedim:

– Qazanın var?

Huduya dedim:

– Qazanın var?

Kor oğlu Kosaya dedim:

– Qazanın var?

Heç birinin qazanı olmadı. Özüm altıyox bir qazan tapdım. Hadıya dedim:

– Bişirə bilərsən?

Huduya dedim:

– Bişirə bilərsən?

Kor oğlu Kosaya dedim:

– Bişirə bilərsən?

Heç biri bişirə bilmədi. Özüm altıyox qazanda dovşanın ətini qovurdum. Hamımız yedik, doyduq, hələ artıq da qaldı. Artığını da bağladıq qurşağımıza, bir xoruz əmələ gəldi. Bu xoruzu mindik, yola düzəldik, qabağımıza bir çay çıxdı. Çaydan tapdıq bir palan. Palanı sökdük. İçindən bir kitab çıxdı. Oxuduq, gördük hamısı yalan.

Sizə hardan deyim

Sizə hardan deyim
Az danışanlardan,
Qaradinməzlərdən,
Yerə baxanlardan,
Su kimi lal axanlardan,
Hürməyən itlərdən,
Ulamayan çaqqallardan,
Dəymədüşərlərdən,
Küsənlərdən,
Oğrulardan,
Yalançılardan,
Vəfasızlardan,
Böhtançılardan,
Uğursuzlardan,
Dönənlərdən,
Büzmənib çay keçənlərdən,
Xoruz belində bostan əkənlərdən.
Lənət quyruqlu yalana,
Rəhmət quyruqsuz düzə.

Hadı idi, Hudu idi

(Cənubi Azərbaytan variantı)

Hadı idi, Hudu idi bir də məndim,
Getdik şikara
Bir dənə şikar vurduq

Dedim: Hadı bıçağun var?
Dedi: – Yox.
Dedim: – Böyrüvə vurdum ox.
Əlimi saldım cibimə,
Gördüm bir bıçaq var;
Sapı var, tiyəsi yox.
Sapilən başın kəsdim
Üç-dörd dağ aşandan sonra
Dedim: – Bunu harda yuyum?
Gördüm üç arx var
İkisi quru,
Birinin də suyu yox.
Suyu yoxda şikarın başın yudum.
Dedim: – Bunu harda bişirək?
Getdim gördüm üç dənə xaraba var.
İkisi uçuq
Birinin də üstü yox.
Üstü yoxda gördüm üç nəfər adam,
İkisi ölü,
Birinin də çanı yox.
Dedim: – Ey canı yox qardaş, bardağun var?
Dedi: – Üç bardağım var,
İkisi sınıq
Birinin də altı yox.
Altı yoxda şikarı bişirdim,
Sümüyü bişdi, əti yox.
Şikarı yeyəndən sonra,
Yavan əlimizi yavan başmağa çəkdik.
Hamımız yağlı əlimizi yağlı başmağa,
Yağlı başmaqlar yavan başmaqları,
Qabaqlarına qatdı qovdu.
Savalana çıxdım, görmədim,
Girdoğa çıxdım, görmədim.
Yaxamda bir dənə iynə vardı
Sancdım yerə, çıxdım üstünə
Gördüm çütcünün yanında gedirlər.
Dedim: –Cütcü qardaş, başmaqların qabağını saxla,
Cütcü qardaş başmaqların qabağını saxladı.
Gördüm cütcü qardaşın gözü başmaqlarımdadır.
Dedi: – Başmaqları mənə sat.
Dedim: – Neçəyə?
Dedi: – Bir darıya, darının yarısına.
Bu darını, darı parasını xarala,
Çuvala atdım tutmadı.

Yaxamda bir birə tapdım,
Başın üzdüm.
Uzaqdan gördüm bir yekə zəmi darı bitib,
Biçinçiləri çağırdım.
Getdik,
Biçdik,
Qaladıq xıramana.
Göydən üç alma düşdü
Biri nağıl deyənin,
Biri də özümün.
Qabığı xəlvəti nağıl eşidənin.

Sübhə kimi ağlamışam

Gecələr sübhə kimi ağlamışam,
Atımı çöl, dərədə bağlamışam
Atıma arpa gərək kişnəməsin,
Qatıra yonca gərək əsnəməsin,
İtimə sümük gərək dişləməsin.
Altına keçə salmaq su keçməsin.
Üstünə çadır gərək gün düşməsin.
Dövrəsinə çəpər gərək yel dəyməsin.
Çul oldu, palan itdi,
Düşməmiz burda bitdi.

YANILTMACLAR

Ağ balqabaq, boz balqabaq, ağ balqabaq.

Ağ inək o tayda ayağın yalayır, nənəm bu tayda ağın yamayır.

Ay ağ qılquyruq qırqovul, qara qılquyruq qırqovulu gördünmü?

Ay axır çərşənbə axşamı, gəlmişəm səninlə çərşənbələşəm, çərşənbələşsən də çərşənbələşəcəyəm, çərşənbələşməsən də çərşənbələşəcəyəm.

Ay axsaq aşbaz Həsən şah, aşpazlar aş bişirir, sən də gəl aş bişir, ay axsaq aşbaz Həsən şah.

Ay qılquyruq qırqovul, gəl bu kola gir qılquyruq qırqovul.

Ay göy-ala qarğa qardaş, mənimlə qardaş olsan da səninlə qardaş olacağam, olmasan da səninlə göy-ala qarğa qardaş olacağam.

Ay Fatalı, huy Fatalı, çatı gətir, çay içində tay çataq.

Atı min, iti qov, iti qov, atı min, atı min, iti qov.

Axşam bozbaş asmışam, çaşıb qazanı boş asmışam.

Acmışam sac asmışam, bilməmişəm, külləməmiş yaş asmışam.

Aşbaz Abbas aş asmış, asmışsa da az asmış.

Aşbaz Abbas bozbaş asar o başda, bu başda.

Bazarda nə ucuz? Mis ucuz, duz ucuz, küncüt ucuz.

Bacadan damcı düşdü şıp nənəmin barmağına.

Bir bərbər o biri bərbərə dedi ki, bir bəri bax.

Boz atın boz torbasın boş as başından, apar, islat gətir yaş as başından.

Bu qılquyruq qırqovul qırxquyruq qırqovul imiş.

Bu dükcə cük-cük dükcə, üç cüt dükcə.

Bu mis necə mis imiş, bu mis kaşan misi imiş.

Qalayçı Qasım qardaş qazanı qalaylaya-qalaylaya qaldırıb qoyur.

Qatığı sarımsaqlasan da yemək olar, sarımsaqlamasan da.

Qığılcımı qıcıqlandırma qıcıqlandıracaqsansa qığılcımlanacaq.

Qırx qazan qırx küp qulpu, xub qırx qazan qırx küp qulpu.

Qovlamalaşsan da qovlamalaşacağam, qovlamalaşmasan da qovlamalaşacağam.

Dağdan dığırlanır dığır-dığır dığdığa.

Dadaş dayı Dəmirin danalarını damın dalında döydü.

– Dadaş dayı, danaları damın dalında döymə.

Dadaş dayı dedi:

– Dəmirin danaları damın dalındakı darıları dağıtdığı üçün danaları döyəcəyəm.

Dadaş dayı danaları döydü.

Dəmirçi Dadaş dayı, dədəm deyir ki, dəmiri daşa, daşı dəmirə döyməsin. Dəmiri daşa, daşı dəmirə döysə dəmir deşilər.

Dəmirçi Dadaş dayı, dədəm deyir, damın dalında dəmiri dəmirə döyməsin, dəmiri dəmirə döyərsən dəmir deşilər.

Dəyirmana girdi köpək, dəyirmançı vurdu kötək. Bilmirəm köpək yedi köpdü, köpək, ya da kötək yedi köpdü köpək.

Dəyirmana girdi köpək,
Dəyirmançı qapdı kötək.
Kəpək yeyib köpdü köpək,
Kötək yeyib köpdü köpək.

Dilim dilim olasan, ay dilim, dedim dilimə. Dedi: dinməz idim, dindirdilər dindim mən.

Ey aşbaz Abbas, dur mənə beş basma tas aş ver. Bu necə beş basma tas aşdır, aşbaz Abbas mənə beş basma tas aş ver.

Ey qəfəsdəki çil bildirçin qardaş, gəl sənlə çil bildirçinləşək, çil bildirçinləşsən də çilbildirçinləşəcəyəm, çil bildirçinləşməsən də çilbildirçinləşəcəyəm.

Əlli əl əlli əli əlli dəfə əllədi.

Zamanın samanlığına saman gələnəcən samansız Zamanın samanlıqda canı çıxdı.

Yetişmiş yemişi yetim yemiş.

Yüyürüb yüyrəyi yürüdə-yürüdə yükümü yerə qoydum.

Kəsilməli kəsməyi kəsmək istəsən də kəsəcəksən, kəsmək istəməsən də kəsəcəksən.

Getdim gördüm bir ağacda şişək əti, o biri ağacda eşşək əti asıblar. Şişək ətini uddum, eşşək ətini atdım, eşşək ətini atdım, şişək ətini uddum.

Getdim gördüm bir bərədə bir bərbər bir bərbəri bər-bər bəyirdir. Dedim: a bərbər, nə üçün sən bərbər bu bərbəri bər-bər bəyirdirsən? Dedi: bu bərbərin atası bərbər mən bərbərin atası bərbəri bər-bər bəyirtdiyi üçün mən bərbər bu bərbəri bər-bər bəyirdirəm. Əgər bu bərbərin atası bərbər mən bərbərin atası bərbəri bər-bər bəyirtməsəydi, mən bərbər bu bərbəri bər-bər bəyirtməzdim.

Getdim gördüm bir dərədə səkkiz-doqquz saqqız şaxlı var. Dedim:

– Siz neçə ilin səkkiz-doqquz saqqız şaxlısısız?

Dedilər:

– Səkkiz ilin, doqquz ilin səkkiz-doqquz saqqız şaxıyıq.

Getdim gördüm bir dərədə iki kar, kor, kürkü yırtıq kirpi var. Dişi kar, kor, kürkü yırtıq kirpi erkək kar, kor, kürkü yırtıq kirpinin kürkünü yamamaqdansa, erkək kar, kor, kürkü yırtıq kirpi dişi kar, kor, kürkü yırtıq kirpinin kürkünü yamamaqdadır.

Getdim gördüm bir dərədə yeddi qara qaşqa təpəl səkil çəpiş otduyur. Dedim ey yeddi qara qaşqa təpəl səkil çəpiş niyə bizim yeddi qaşqa təpəl səkil çəpişin yerini otduyursan.

Dedi:

– Sizin yeddi qara qaşqa təpəl səkil çəpiş bizim yeddi qara qaşqa təpəl səkil çəpişin yerini otduyub. Ona görə də bizim ycddi qara qaşqa təpəl səkil çəpiş sizin yeddi qara qaşqa təpəl səkil çəpişin yerini otduyur.

Gəl gedək şumu toxmaqlayaq. Sən toxmaqlasan da mən toxmaqlayacağam, toxmaqlamasan da toxmaqlayacağam.

Göy cöngə, gömgöy cöngə, dümgöy cöngə.

Gül güllükdə, kül küllükdə, kül küllükdə, gül güllükdə.

Mollanı əmmamələməlimi, əmmamələməməlimi.

Ocağı qığılcımlandırma, sən qığılcımlandırsan da qığılcımlanacaq, qığılcımlandırmasan da qığılcımlanacaq.

Tək-tək dükcə, cüt-cüt dükcə, üç cüt dükcə.

Üç gənə üç gönə, üç günə doy gəldi.

Çatı gətir çay içndə çal qatıra çayı çataq.

Çəp keçi çəp keçidi çəpəki keçib gedər, çəp keçi çəp keçidi çəpəki keçib çəpəri keçər.

Çörəyi ovxalamalımı, ovxalamamalımı.

Cümə axşamı cümə məscidində cürə Cabbarın cübbəsini cüvəllağılar cıbıtdılar.

Şikəstə çalan, şikəstəsizləşmişəm, şikəstə çal.

Əzizim kim Sənəmdi,
Kimimdi, kimsənəmdi?
Nə kimin kimsənəsiyəm,
Nə kimsənə kimimdi.

Əzizim vəznəsiyəm,
Vəznənin xəznəsiyəm,
Atam mənim oğlumdu,
Mən atamın yeznəsiyəm.

Ay Dadaş, atma daş,
On iki lavaş, bir qazan aş.
Onu yeməyənin başına daş.

İZAHLAR

1. Əmək nəğmələri

"Holavarlar" bu qaynaqlardan seçilmişdir: M.H.Təhmasib. "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" (namiz. diss). – B., BDU kitabxanası, 1945. "Azərbaycan folkloru antologiyası" II kitabda, 1-ci kitab (toplayıb tərtib edən Ə.Axundov), – B., Azərb. EA nəşriyyatı, 1968. "Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20-cilddə, I cild, Xalq ədəbiyyatı" (tərtib edənlər T.Fərzəliyev, İ.Abbasov), – B., Elm, 1982. "Azərbaycan bayatıları" (tərtib edənlər B.Abdullayev, E.Məmmədov, Q.Babazadə), – B., Elm, 1994. "Göyər, səmənim, göyər" (tərtib edəni B.Abdulla). – B., Gənclik, 1993. "Heyvanların bəhsi", "Əkinçi ilə öküz", "Azərbaycan folkloru antologiyası", 1-ci kitabdan götürülmüşdür. "Cütcü nəğməsi", "Sarı sünbülüm", "Darı, buğda və cütcü", "Əkin çəltiyi, əkin", "Dərin nanəni, dərin" örnəkləri "Novruz" (toplayıb tərtib edəni A.Nəbiyev), – B., Yazıçı, 1989 kitabından seçilmişdir. "Nehrə nəğməsi", "Eydirmələr" "El düzgüləri, elat söyləmələri" (toplayıb tərtib edəni.M.Qasımlı). – B., Azərnəşr, 1993 kitabından tərtibə daxil edilmişdir. "Sayaçı sözləri", "Təkə", "Yoxlama və cütləmə", "Sağın", "Çoban və bənək", "Çoban" örnəkləri F.Köçərlinin "Balalara hədiyyə", – B., Gənclik, 1967, H.M.Sədiqin "Sayalar", –Tehran, 1978, "Azərbaycan folkloru antologiyası" 1-ci kitab, "Azərbaycan bayatıları", "Arazam, Kürə bəndəm" (tərtib edəni və işləyəni B.Abdullayev) – Bakı, Yazıçı, 1986 "Göyər, səmənim, göyər", kitablarından seçilmişdir.

2. Mövsüm mərasim nəğmələri

"Yel baba" nəğmələri F.Köçərlinin "Balalara hədiyyə", "Azərbaycan folkloru antologiyası" 1-ci kitab və "Göyər, səmənim, göyər" kitablarından götürülmüşdür. "Yağış çağırmaq", "Gün çıx", "Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, I cild, Xalq ədəbiyyatı", "Göyər, səmənim, göyər" kitablarından götürülmüşdür. "Duman", "Günəşi çağırmaq", M.H.Təhmasibin "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" əsərindən götürülmüşdür. "Yağış çağırmaq" (Cənubi Azərbaycan variantı), "Kosa-kosa" (Cənubi Azərbaycan variantı), "Arazam, Kürə bəndəm", "Göyər, səmənim, göyər" kitablarından götürülmüşdür. "Güdü-güdü" F.Köçərlinin "Balalara hədiyyə" kitabından götürülmüşdür. "Qodu-qodu", "Kosa-kosa", "Kosa-kosa", (Lənkəran variantı) "Azərbaycan folkloru anto-

logiyası" 1-ci kitabdan götürülmüşdür. "Xıdır nəbi" M.H.Təhmasibin "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" əsərindən, "Azərbaycan folkloru antologiyası" 1-ci kitab və "Göyər, səmənim, göyər" dən götürülmüşdür. "Səməni"nin 1-ci nəğməsi "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər" 4-cü kitab (top. M.Həkimov) – Bakı, Elm 1973, 2-ci nəğməsi "Azərbaycan folkloru antologiyası" 1-ci kitab, 3-cü nəğməsi M.H.Təhmasibin "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" qaynaqlarından seçilmişdir. "Ağırlığım, uğurluğum", "Küsülüləri barışdırın" nəğmələri "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər"in 4-cü kitabından (toplayanı M.Həkimov) götürülmüşdür. "Novruz" M.H.Təhmasibin "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" əsərindən götürülmüşdür. "Yatdı dəyirman daşım", "Gəldi", "Səm-səmim", "Bayram gəlir", "Xalçalı novruz", "Qarı ilə martın deyişməsi" "Novruz" kitabından götürülmüşdür. "Əs küləyim", "Heydər, Heydər, əs gəl", "Yağ yağışım", "Xan bəzəmə" nəğmələri "Azərbaycan folkloru antologiyası – Naxçıvan folkuloru" (tərtib edənlər T.Fərzəliyev, M.Qasımlı) – B., Sabah nəşriyyatı, 1994 kitabından seçilmişdir. "Yağma yağış" nəğməsi "Azərbaycan folkloru antologiyası – Borçalı folkloru" (toplayanı V.Hacıyev, tərtib edəni İ.Abbaslı) – B., Azərnəşir 1996 kitabından götürülmüşdür. "Aranla dağın bəhsi", "Aranla yaylağın bəhsi" nümunələri "Azərbaycan folkloru antologiyası"nın 1-ci kitabından götürülmüşdür.

3. Məişət mərasim nəğmələri

Vəsfi-hallar

"Vəsfi-hal" örnəkləri "Azərbaycan bayatıları" və "Göyər, səmənim, göyər" kitablarından seçilmişdir.

Toy nəğmələri

"Lo-lo", "Mübarək, ay mübarək", "Ay ləli" nəğmələri "Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, 1-ci cild – Xalq ədəbiyyatı" kitabından, "Sonalar-Sonalar", "Ay oğlan", "Qalmışam", "Yarpaqları", "Adaxlın hanı", "Maşallah", "Gəlin nəğmələri", "Bəyin tərifi" "Azərbaycan folkloru antologiyası"nın 1-ci kitabından seçilmişdir.

Halaylar

"Halay oyunu", "Yaşıl yarpaq, qızılgül" "Azərbaycan folkloru antologiyası"nın 1-ci kitabından, "A lo-lo-lo-lo ", "Ya lə-li, yar düymələri mərcan", "Ha ləli, halayı döndər bəri" "Toy və halay mahnıları" (tərtib edəni B.Şahsoylu). – B., Gənclik, 1980 kitabından seçilmişdir. .

Haxıştalar

"Haxıştalar" Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, 1-ci cild – Xalq ədəbiyyatı" kitabından tərtibə daxil edilmişdir.

Ağılar

"Ağılar" "Arazam, Kürə bəndəm" kitabından götürülmüşdür.

4. Ovsun nəğmələri

"Ovsun nəğmələri"nin "Çax daşı, çaxmaq daşı", "Kölgə dağlara", "Yağladım", "Bir", "Şeş" misraları ilə başlanan örnəkləri M.H.Təhmasibin "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" əsərindən, "Əqrəb-əqrəb axınca", "Həzrəti Süleyman eşqinə", "Ey şeytanlar, şeytanlar", "Ey albasti zalım" misraları ilə başlanan örnəkləri "Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20-cilddə, 1-ci cild, Xalq ədəbiyyatı" kitabından, "Təzə ay, səni xoş gördük", "Ağ daş, qara daş", "Tabaq gəldi" misraları ilə başlanan örnəklər M. Cəfərzadənin "Təbiət və ovsunlar" ("Azərbaycan təbiəti" jurn. 1978, №1) məqaləsindən, "Mən nənəmin ilkisiyəm", "Xeyrə atırsan at", "Tapıl-tapıl pul verrəm", "Fatma nənə", "Xəzri səni alaram", "Mən anamın ilkisiyəm", "Biz gəlini gətirdik", "Üzərliksən havasan", "Dörd tərəfi gül eylədim", "Kandar sancdım iskənəni", "Bir ovuc duz", "Mənim sacım sac deyil", "Ağırlığım, uğurluğum" misraları ilə başlanan örnəkləri "Göyər, səmənim, göyər" kitabından, "Üzərliksən, havasan" örnəyi "Azərbaycan folkloru antologiyası – Naxçıvan folkloru" kitabından seçilmişdir.

5. Sınamalar

"Sınamalar" tərtibə "Göyər, səmənim, göyər" kitabından daxil edilmişdir.

6. Bayatılar

"Bayatılar" "Azərbaycan bayatıları" kitabından seçilmişdir.

7. Xalq mahnıları

"Xalq mahnıları" "Azərbaycan xalq mahnı və təsnifləri"(toplayıb tərtib edəni Q.Namazəliyev), – B., İşıq nəşriyyatı, 1985 kitabından seçilmişdir.

8. Qəhrəmanlıq nəğmələri

"Qəhrəmanlıq nəğmələri" bu mənbələrdən seçilmişdir: "Kitabi-Dədə Qorqud" (sadələşdirilmiş mətnin müəllifi S.Əlizadədir), – B., YNE, 1999, "Koroğlu" (tərtib ed. M.H.Təhmasib), – B., 1956, "Qaçaq Nəbi" (tərtib edəni Ə.Axundov), – B., Azərnəşr, 1961, "Səttarxan dastanı", "Cənubi Azərbaycan ədəbiyyatı antologiyası, 3-cü cild" (folklor bölməsinin tərtibçisi B.Abdulla), – B., Elm, 1988.

9. Alqışlar, dualar

"Alqışlar, dualar" tərtibə "Göyər, səmənim, göyər" kitabından daxil edilmişdir. "Dədə Qorqud alqışları" "Kitabi-Dədə Qorqud"dan (tərtib edəni H.Araslı), B., Azərnəşr, 1962, seçilmişdir.

10. Qarğışlar

"Qarğış" örnəkləri "Göyər, səmənim, göyər" kitabından götürülmüşdür. "Dədə Qorqud qarğışları" "Kitabi-Dədə Qorqud"un 1962-ci il nəşrindən seçilmişdir.

11. Atalar sözü və məsəllər

"Atalar sözü və məsəllər" Ə.Hüseynzadənin toplama və tərtibində 1981-ci ildə nəşr olunmuş "Atalar sözü" kitabından seçilmişdir.

12. Xalq tamaşaları

"Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" və ikinci "Kosa-kosa", "Azərbaycan folkloru antologiyası"nın birinci kitabından, "Xıdır Nəbi" ilə birinci "Kosa-kosa" "El düzgüləri, clat söyləmələri" kitabından götürülmüşdür. "Xanbəzəmə" Azərbaycan folkloru antologiyası – Naxçıvan folkloru kitabından tərtibə daxil edilmişdir.

13. Laylalar

"Laylalar" "Azərbaycan bayatıları", "Arazam, Kürə bəndəm", "Göyər, səmənim, göyər" kitablarından seçilmişdir.

14. Nazlamalar

"Nazlamalar" "Azərbaycan folkloru antologiyası" 1-ci kitab, "Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20 cilddə, 1-ci cild. Xalq ədəbiyyatı", F.Köçərli "Balalara hədiyyə", "Azərbaycan bayatıları", "Arazam, Kürə bəndəm", "Göyər, səmənim, göyər" kitablarından seçilmişdir.

15. Cırnatmalar

"Alı, Alı", "Bu gələn arıxdımı", "Papıllı fərə", "Tağı-Tağı", "Şərabanı", "Gəlirdi Səfi", "Ay Ramazan", "Xumara bax, Xumara", "Hasan, Hasan", "Saat birin yarısı", "Ay Tağı, Tağı", "Əli əlimdən gəlir", " Ay Zərbəli, Zərbəli", "Keçəl, keçəl, daz keçəl", "Ay Asiya, Asiya", "Ay Xəlil, Xəlil", "Ay Dursun, Dursun", "Bir qarıcıg var idi" misraları ilə başlayan örnəklər "Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20 cildə, 1-ci cild, Xalq ədəbiyyatı", "El çələngi" (toplayıb tərtib edənlər T.Fərzəliyev, İ.Abbasov). – B., Gənclik, 1983, "Həsən ağa", "Gəl gedək bağa", "Bizə üç ad bəllidi", "Keçəl keçəl, daz keçəl" misraları ilə başlanan örnəklər "Azərbaycan folkloru antologiyası" 1-ci kitabdan, "Dadaş, Dadaş" "Azərbaycan folkloru antologiyası – Qarabağ folkloru" (tərtib edəni İ.Abbaslı), B., Səda, 2000, kitablarından götürülmüşdür.

16. Öcəşmələr, sataşmalar

Göstərilən başlıq altındakı örnəklər tərtibə "Göyər, səmənim, göyər" kitabından daxil edilmişdir.

17. Düzgülər, oyun nəğmələri

"Üşüdüm ha, üşüdüm", "Kəsibdi", "Oğlum", "A teşti-teşti...", "Tülkü-tülkü" F.Köçərlinin "Balalara hədiyyə"kitabından, "A teşti", "Usubdi", "Hamam hamam içində", "Pişik", "Azərbaycan folkloru antologiyası", 1-ci kitabından, "Üşüdüm hay, üşüdüm" (Cənubi Azərbaycan variantı) "A vəlli, vəlli, vəlli", "Ha dəşti, dəşti" (Cənubi Azərbaycan variantı), "Turşulu aş içmərəm", "Yağış yağır", "Havalan ha, havalan", "Yüz altun bir quş idi", "Bu meşə başdan başa", "Oxutdu" örnəkləri "Arazam, Kürə bəndəm", "Göyər, səmənim, göyər" kitablarından, "Alnı mina cıdası", "Çağırır", "Hamanı, ay hamanı", "Qızımın qız dostları, "Qatar gedir" örnəkləri "Azərbaycan folkloru antologiyası – Borçalı folkloru" kitabından, "Gəlin gedək Firəngə", "Qonşu qızı Püstədi", "Bacadan baxan", "Nanay-nanay", "Tülkü-tülkü", "Gəl sənə hannan deyim", "Bu dəvə hardan gəlib", "Durun gedək bazara" nümunələri "El düzgüləri, elat söyləmələri" kitabından tərtibə daxil edilmişdir.

18. Sanamalar

"Əmim oğlu", "İynə-iynə", "Əkil-bəkil", "Barmaqlar", "Bir-iki", "Mırt-mırt", "Çək əlin", "Sən çıx" örnəkləri F.Köçərlinin "Balalara hədiyyə", "Azərbaycan folkloru antologiyası", 1-ci kitab, "El çələngi" kitablarından verilmişdir. "Sıradan çıx", "Ekli-mekli" örnəklərinin yeri "Göyər, səmənim, göyər" kitabıdır. "Bir, iki", "Bəli, bəli" "Qatar gedir", "İki dənə, ha iki dənə" nümunələri "Azərbaycan folkloru antologiyası – Borçalı folkloru" kitabından, " Biri bizdə", "Əl, əl əlpənək" örnəkləri isə "El düzgüləri, elat söyləmələri" kitabından seçilmişdir

19. Oyunlar

Tərtibə daxil edilmiş "Qələndar", "Usta-Şagird" "İynə-iynə", "Barmaq oyunu" "Arazam, Kürə bəndəm" kitabından, "Yamanam ha, yamanam" "Azərbaycan folkloru antologiyası – Naxçıvan folkloru" kitabından götürülmüşdür. Qalanlarının hamısı "Azərbaycan folkloru antologiyası"nın 1-ci kitabından seçilmişdir

20. Tapmacalar

Tapmaca örnəkləri N.Seyidovun toplama və tərtibində çap olunmuş "Tapmacalar", – B., Elm, 1971, kitabından seçilmişdir.

21. Qarəvəllilər

"Hadı, Hudı, Kor oğlu Kosa, bir də mən" "El çələngi" kitabından, "Hadı idi", "Hudu idi", "Arazam, Kürə bəndəm" kitabından, "Sizə hardan deyim" və "Sübhə kimi ağlamışam" nümunələri "Göyər, səmənim, göyər" kitabından götürülmüşdür.

22. Yanıltmaclar

Örnəklər bu mənbələrdən götürülmüşdür:"Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 20 cilddə, 1-ci cild. Xalq ədəbiyyatı", "Yanıltmaclar" (tərtib edəni Ə.Quliyev). – B., Gənclik, 1984, "Göyər, səmənim, göyər", "El düzgüləri, elat söyləmələri", "Azərbaycan folkloru antologiyası – Qarabağ folkloru".

KİTABIN İÇİNDƏKİLƏR

Söz tarixdir (Bəhlul Abdulla) 3

Əmək nəğmələri

Holavarlar 10
Heyvanların bəhsi 13
Əkinçi ilə öküz 14
Cütçü nəğməsi 15
Nehrə nəğməsi 15
Sarı sünbülüm 16
Darı, buğda və cütçü 16
Əkin, çəltiyi əkin 17
Dərin, nanəni dərin 17
Sayaçı sözləri 19
Təkə 26
Yoxlama və cütləmə 27
Sağın 28
Eydirmələr 28
Çoban və bənək 29
Çoban 30

Mövsüm mərasim nəğmələri

Yel baba 31
Yatdı dəyirman daşım 31
Əs küləyim 32
Heydər, Heydər, əs gəl 32
Yağış çağırmaq 33
Yağma yağış 34
Yağ yağışım 34
Çömçəxatun 35
Duman 36
Yağış çağırmaq (Cənubi Azərbaycan variantı) 36
Günəşi çağırmaq 36
Gün çıx 37
Güdü-güdü 37
Qodu-qodu 37
Aranla dağın bəhsi 38
Aranla yaylağın bəhsi 39
Kosa-kosa 40
Kosa-kosa (Cənubi Azərbaycan variantı) 41
Kosa-kosa (Lənkaran variantı) 42
Xıdır nəbi 42

Səməni 43
Səməni 44
Səməni 44
Ağırlığım-uğurluğum 45
Novruz 45
Gəldi 46
Səm-səmim 46
Bayram gəlir 47
Xonçalı novruz gəlir 48
Qarı ilə martın deyişməsi 48
Küsülüləri barışdırın 49

Məişət mərasim nəğmələri
Vəsfi-hallar 50
Toy nəğmələri
Mübarək, ay mübarək 57
Lo-lo 58
Ay ləli 58
Sonalar, sonalar... 59
Ay oğlan 60
Qalmışam 60
Yarpaqları 61
Adaxlın hanı? 63
Maşallah 64
Gəlin nəğmələri 65
Bəyin tərifi 72
Duvaqqapma mərasimi 74
Halaylar
Ay lo-lo-lo-lo 77
Ya lə-li, yar düymələri mərcan 78
Ha ləli, halayı döndər bəri 79
Yaşıl yarpaq, qızılgül 79
Haxıştalar 84
Ağılar 88
Ovsun nəğmələri 94

Sınamalar
Tale, gün, güzəran 99
Səhhət 101
Yuxu 102
Qonaq 103
Soy-nəsil 104
Hava 105

Bayatılar
Vətən. Qürbət 106
Mərdlik. Namərdlik. Dostluq. İgidlik. Məğrurluq.
Namus – qeyrət – ar 112

Arxa. Kömək. Dayaq. İftixar 115
Gün – güzəran. Şikayət – narazılıq. Bəxt – tale 117
Yeni dövran. Xoşbəxtlik. Bolluq – bərəkət 121
Eşq – məhəbbət. Vəfa – sədaqət. Etibar 123
Ayrılıq – hicran. İntizar – həsrət. İstək – arzu. Qəm – kədər.
Üzüntü – nigarançılıq. Təsəlli. Nisgil 128

Xalq mahnıları

Aman nənə 133
Gedək gəzək bağçada 134
Tello 134
Qoy gülüm gəlsin 135
Gözəlim sənsən 136
Evləri var xana-xana 136
Dağlar gözəli 137
Bənövşə 138
Səndən mənə yar olmaz 138
Qalalı 139
Anacan 140
Girdim yarım bağçasına 140
Ay qadası 141
Sənə sözüm var 142
Çal oyna 142
Üç gül 143
Sarı bülbül 143
Güloğlan 144
Keçmə məndən 145
Sona bülbüllər 145
Sarı gəlin 146
Üç telli durna 147
Bizim vətən qızları 147
Qara tellər 148
Qubanın ağ alması 148
Almanı atdım xarala 149
Bəh-bəh 149
Gül açdı 150
Ay qız kimin qızısan? 150
Sudan gələn sürməli qız 151
Bağçadan gələn 152
Bülbül 152
Ay bülbüllər 153
Uca dağlar 153
Uca dağlar başında 154
Apardı sellər Saranı 155
Ay bəri bax 155
Xumar oldum 156
Dağlara çən düşəndə 157

Həsiri basma 157
Süsən sünbül 158
Niyə bala 158
Qaragilə 159
Elə bəndəm 160

Qəhrəmanlıq nəğmələri
"Kitabi-Dədə Qorqud"dan
Hünərlidir (Dədə Qorqudun dilindən) 161
Söylə mənə (Dirsə xanın dilindən) 161
Qoymaram (Dirsə xan oğlu Buğacın dilindən) 162
Boş-boş danışma (Qaraca çobanın dilindən) 162
Mənə ver (Qaraca çobanın dilindən) 163
Günü gəldi (Qazan oğlu Uruzun dilindən) 163
Döyüşək (Bəkir oğlu İmranın dilindən) 164
Xain çıxan deyiləm (Qazan xanın dilindən) 164
Mənəm (Qazan xanın dilindən) 164
"Koroğlu"dan
Mənimdi 166
Döyüş olmasın 166
Gəlsin 166
Yağılar bağrını əzər Koroğlu 167
Meydana girəndə 167
Meydandan məni 168
Sultanım 168
Dağlar qoynunda, qoynunda 169
Bir yana 169
Bu gün dava günüdü 170
Hoydu, dəlilərim, hoydu 170
Gərəkdi 170
Mərd olu 171
Mindim Qıratın belinə 171
Siz o yandan, mən bu yandan 172
Gündü bu 172
Hoydu 172
Meydan başına 173
"Qaçaq Nəbi"dən
Qazamat istidi 174
Tüfəngi havada oynadan Nəbi 174
Bac alar 175
Qisas alıbdı 175
Ay qoçaq Nəbi 176
Bu davadan qurtarsan 176
Divanı dalınca oynadan Nəbi! 177
"Səttar xan dastanı"ndan
Gedim mən 178
Deyib gəlmişəm 178

Olsun 179
Azərbaycan cavanları 179
Gəlsin 180
Açılsın 180
Girin meydana 181
Gərək 181

Alqışlar, dualar 182
Dədə Qorqud alqış-duaları 191

Qarğışlar 192
Dədə Qorqud qarğışları 214

Atalar sözü və məsəllər
Vətən – qürbət 215
Yazı – kəlam 215
Kamil – cahil 216
Doğru – yalan 217
Gözəl – çirkin 217
Əyri otur, düz danış 218
Ailə 218
Böyük – kiçik 218
Dost – düşmən 219
Adı var, özü yox 219
Mərd – namərd 220
Yaxşı – yaman 220
Kədər – sevinc 221
Səbəb – nəticə 221
Əməl – qanun 222
İnsan 223
Yemək – içmək 224
Ev – eşik 225
Təsərrüfat 225
Xərc – qazanc 226
Varlı – yoxsul 226
Məqam – dövran 227
Kainat 227
Mədən – hasilat 228
Bitkilər 228
Heyvanlar 229
Quşlar 230

Xalq tamaşaları
Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş 231
Xıdır nəbi 235
Kosa-kosa 237
Kos-kosa 240
Xanbəzəmə (Naxçıvan variantı) 243

Uşaq folkloru

Laylalar 246
Nazlamalar 250
Cırnatmalar 257
Öcəşmələr, sataşmalar 263
Düzgülər, oyun nəğmələri
Üşüdüm ha, üşüdüm 299
Üşüdüm hay, üşüdüm (Cənubi Azərbaycan variantı) 299
A teşti 300
A vəlli-vəlli-vəlli 300
A teşti-teşti 301
Ha dəşti-dəşti (Cənubi Azərbaycan variantı) 302
Turşulu aş içmərəm 302
Yağış yağar 303
Havalan, ha havalan 303
Yüz altın bir quş idi 303
Bu meşə başdan-başa 304
Alnı mina cidası 304
Çağırır 305
Hamanı, ay hamanı 305
Usubdu 305
Kəsibdi 306
Oğlum 307
Hamam hamam içində 308
Tülkü, tülkü 308
Oxutdu 309
Gəlin gedək Firəngə 309
Qonşu qızı Püstədi 309
Bacadan baxan 310
Nanay-nanay 310
Tülkü-tülkü 311
Pişik 311
Gəl sənə hannan deyim... 311
Bu dəvə hardan gəlib? 312
Durun gedək bazara 312
Sanamalar
Çək əlin 313
Sən çıx 313
Əmim oğlu 313
Barmaqlar 313
İynə, iynə 314
Bəli, bəli 314
Motal-motal 314
Bir, iki 315
Bir, iki 315
Hop-hop hoppan 315
Bir, iki 316

Mırt, mırt 316
Qatar gedir 316
Əkil-bəkil 317
İki dənə, ha iki dənə 317
Bir, iki 317
Sıradan çıx 318
Birə-birə 318
Ekli-mekli 318
Biri bizdə 319
Əl, əl, əlpənək 319
Oyunlar
Qələndar 320
Usta-şagird 320
İynə-iynə 321
Barmaq 322
Çırtı-çırtı 322
Mərə 323
Yoldaş, səni kim apardı? 324
Beşdaş 324
Mozu-mozu 325
Bənövşə 325
Artırma 325
Gözbağlayıcı 326
Siçan-pişik 326
Dirədöymə 326
Mərəköçdü 326
Dəsmalaldı, qaç 327
Gizlənqaç 327
Laldinməz 327
Say saymaq 328
Hofbana hofban 328
Turnavurdu 328
Çömçəbaşı bəzəmə 329
Dəyirman 329
Oyun – tapmaca 329
Yamanam ha, yamanam 330
Tapmacalar
Təbiət və təbiət hadisələri 332
Nəbatat aləmi (bitkilər, ağaclar, bağ-bostan məhsulları) 336
Heyvanlar (quşlar, həşəratlar) 339
Heyvandarlıq məhsulları və heyvanlarla əlaqədar nəsnələr 341
İnsan və onun bədən üzvüləri 343
Geyim və bəzək əşyaları 345
Məişət və təsərrüfat vasitələri 346
Silahlar 349
Xörəklər, yeyinti məhsulları 350

Musiqi alətləri 351
Elm və texnika 352
Qaravəllilər
Hadı, Hudu, Kor oğlu, Kosa bir də mən 355
Sizə hardan deyim 356
Hadı idi, Hudu idi (Cənubi Azərbaycan variantı) 356
Sübhə kimi ağlamışam 358
Yanıltmaclar 359

İzahlar 362

Azərbaycan şifahi xalq ədəbiyyatı
(Antologiya)

İki kitabda
Birinci kitab

Tərtib edəni: Bəhlul Abdulla

Texniki redaktor *Ə.Güləliyev*
Tərtibatçı rəssam *N.Əliyeva*
Kompüter tərtibatı *G.Əhmədova*
Korrektor *R.Muradlı*

Yığılmağa verilib 23.08.2001. Çapa imzalanıb 15.10.2001. Formatı 60x90 $^{1}/_{16}$.
Ofset kağızı. Ofset çapı. Fiziki çap vərəqi 23,5. Tirajı 1000.
Sifariş № 326.

"QIZIL ŞƏRQ" MƏTBƏƏSİ

XXI-Yeni Nəşrlər Evi